ZƏMİNƏ XINALI

# SEÇİLMİŞ ƏSƏRLƏRİ
# 4
# CİLDDƏ

BAKI «TƏKNUR» 2014

ZƏMİNƏ XINALI

# SEÇİLMİŞ ƏSƏRLƏRİ
# II
# CİLD

**Redaktor: Tariyel Abbaslı**
*filologiya üzrə fəlsəfə doktoru*
*Azərbaycan Yazıçılar Birliyinin*
*üzvü*

**Zəminə Xınalı. Seçilmiş əsərləri. 4 cilddə,**
**II cild, Bakı «Təknur» nəşriyyatı, 2014.**
**352 səh.**

XX əsrin 70-ci illərində ədəbiyyata gəlmiş Zəminə Xınalı 20-dən çox kitabın müəllifidir. Şairin oxuculara təqdim olunan bu kitabı, 4 cildlik «Seçilmiş əsərləri»nin II cildidir. Bu cildə şairənin lirik şeirləri, həmkarlarına və müasirlərinə ithaf elədiyi şeirləri, müasirləri ilə deyişmələri və epik-lirik poemaları daxil edilmişdir. Z.Xınalının yaradıcılığının digər bir qolu da dastan yaradıcılığıdır. Cilddə şairənin toplayıb, qələmə aldığı «Qaçaq İsmayıl» və «Pəhləvan Kamil» dastanları da verilmişdir.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**ISBN: 978-9952-445-06-8**

**© Zəminə Xınalı**

## LAYLA ÇAL, AY ANA

Layla çal, ay ana, mənə layla çal,
Elə kövrəlmişəm, ağlamaq üçün.
Fələyin oxundan yaralanmışam,
Məlhəm axtarıram bağlamaq üçün.

Laylan şirin, sözün şəkər, bal olub,
Uğrumda qara saçın çal olub.
Ötən günlərimiz xoş xəyal olub,
Bir şirin xatirə saxlamaq üçün.

Bar-bəhrə yetirdin ömrün bağında,
Oğul-qız dayandı solu-sağında,
Qocaltdı anamı göz qabağında,
Fələk Zəminəni dağlamaq üçün.

***1999***

## ELƏ BİL

Yaman qəribsəyib kövrəlmişdim mən
Əyilib bulağın gözündən öpdüm.
Endim çəmənlərdən çiçək dərməyə,
Əyilib bulağın gözündən öpdüm.
Elə bil anamın üzündən öpdüm.

Çayların laylası, quşların səsi,
İlhama gəlmişdi, şair nəfəsi,
Təbiət məst edib burda hər kəsi,
Əyilib bulağın gözündən öpdüm.
Elə bil anamın üzündən öpdüm.

Dəli könlüm coşub özüm olmuşdu,
Şeh düşmüş ləçəklər sözüm olmuşdu.
Zəminəyəm nəmli gözüm dolmuşdu,
Əyilib bulağın gözündən öpdüm.
Elə bil anamın üzündən öpdüm.

***2000***

## BƏNÖVŞƏ

Bizim taleyimiz oxşardır desəm,
Ellər qınamasın bizi, bənövşə.
Mən qara taleli sənsə ömrükəm,
Sındırıblar qəlbimizi, bənövşə.

Mən yarımdan, sən çəməndən ayrısan,
Mən şəhidin, bəs sən kimin yarısan.
Nalə çəkib, fəryad edib çağırsan –
Eşitməzlər səsimizi, bənövşə.

Əsirlikdə qız gəlinlər inildər,
Yurd itkisi qəlbimizi göynədər,
Belə imiş alın yazı, həm qədər,
Bilən olmaz qədrimizi, bənövşə.

Kədər üçün biçilibdir boyumuz,
Vağzalısız ötüb keçdi toyumuz,
Dərd çəkəndi, qəm böləndi soyumuz,
Tanrı yazıb bəxtimizi, bənövşə.

Çəmənlər, çiçəklər qəm libasında,
Bülbül nalə çəkər öz yuvasında.
Zəminə Xınalının – qəm laylasında
Gəl bölüşək dərdimizi, bənövşə.

***2000***

## «BAŞ SARITEL» ÇALSIN AŞIQ

Mən öləndə ağlamayın,
«Baş sarıtel» çalsın aşıq.
Oğullarım yas tutmasın
«Baş sarıtel» çalsın aşıq.

Telli sazım sızlayacaq,
Yer də, göy də ağlayacaq.
Ruhum onda şad olacaq
«Baş sarıtel» çalsın aşıq.

Durnaların lələyinə,
Çiçəklərin ləçəyinə,
Zəminənin taleyinə,
«Baş sarıtel» çalsın aşıq.

***2001***

## UZAQ YOLDAN GƏLƏN YARIM

Uzaq yoldan gələn yarım,
Yollarına qurban olum.
Aç qolların quca məni,
Qollarına qurban olum.

Uzun gələr gecə mənə,
Özün qıydın necə mənə,
Sevgin məndən əsirgəmə,
Ellərinə qurban olum.

Sənin qanın öz qanımdır,
Varlığın ki, öz canımdır,
De – Zəminə Xınalımdır
Dillərinə qurban olum.

***1996***

## HƏSRƏT NƏĞMƏSİ

Sən dinlə kamanın, tarın səsini,
Sən dinlə həsrətin qəm nəğməsini,
Eşit röyalarda, gör röyalarda,
Dinlə, ürəyində yarın səsini.

Qəlbin aynasını astaca açıb,
Həsrət nəğməsini, dinlə ağlama.
Dostlara dərd olar, dərdini gizlət,
Bizim qəlbimizi belə dağlama.

Həsrət də, hicran da qoşa yaranıb,
Xınalı alışıb oda qalanıb.
Gördüyü xoş günlər uzaqda qalıb,
Ömrü xəzan olub, könlü talanıb.

***2000***

## SƏNİN BORCUNU

Kiminlə yaxından dostluq edəndə,
Kimə sidq ürəklə kömək edəndə,
Kiməsə dar gündə gərək olanda,
Demə qaytarsınlar sənin borcunu.

Kim sənin evində çörək kəsəndə,
Kim sənin evinə qonaq gələndə,
Kiməsə dərindən hörmət edəndə,
Demə qaytarsınlar sənin borcunu.

Haqq da ödəyibdir, haqqın borcunu,
Həyatın özüymüş tale oyunu.
Zəminə Xınalı söyləyir bunu,
Demə qaytarsınlar sənin borcunu.

***1981***

## GÖZLƏRİM YENƏ DƏ SƏNİ AXTARIR

Saçıma sığaldı dağın yelləri,
Məndən ayrı düşüb yarın əlləri,
Yığıla dünyanın ən gözəlləri,
Gözlərim yenə də səni axtarır.

Oyan günəş kimi, oyan od kimi,
Sən mənə doğma ol, olma yad kimi,
Adımda qalmısan ölməz ad kimi,
Gözlərim yenə də səni axtarır.

Yadıma düşdükcə, gənclik çağları,
Könlüm şamama tək gəzir tağları,
Xınalı Zəminənin – barlı bağları
Gözlərim yenə də səni axtarır.

***2000***

## NAKAM MƏHƏBBƏT

Mənim taleyimə düşən ayrılıq,
Sənin taleyinə gülməz heç zaman.
Ayrılıq dərdini çəkməyən kəslər
Dərdlinin dərdini bölməz heç zaman.

Elə yorulmuşam dərdin əlindən
Deməyin xoş sözlər gəlmir dilindən.
Nə qədər qohumum, qardaşım varsa,
Bir kömək görmədim mən heç birindən.

Neyləyim bu giley şikayət deyil,
Bir insan ömrünün salnaməsidir.
Taleyim nə dastan rəvayət deyil,
Nakam məhəbbətin əfsanəsidir.

Kök salıb könlümün dərinliyində,
Gəldim öhdəsindən çətinliyin də.
Zəminə Xınalı mətinliyində,
Şeirilə iz qoya-öz taleyində.

***2000***

## KÖNLÜMÜ ALANDAN

Sən mənim könlümü alandan bəri,
Sevgin ürəyimdə alışıb-yanır.
Könül tellərimin sızlayan simi,
Öpüb yanağımı barışıb yanır.

Zülmət gecələrdə bəxt ulduzumuz,
Ulduzlar selində sayrışıb-yanır.
Murada yetəndə istək arzumuz,
Tellərim – telinə qarışıb yanır.

Kədər dünyasından çox uzaqlarda
Nəfəsim günəş tək od tutub yanır.
Sevgi aləmində Zəminə Xınalı
Eşqin ürəyimdə şad olub yanır.

***2006***

## YARALI CEYRANIN QADASIN ALIM

Bulağa enəndə amansız ovçu,
Günahsız ceyranı nişana almış.
Çiçəklər içində qana boyanmış
Yaralı ceyranın qadasın alım.

Hürkək baxışından könlüm titrədi,
Can verib inlədi ayaq getmədi,
Yaralı ceyrana əlim yetmədi,
Yaralı ceyranın qadasın alım.

Gedim dağ çiçəyi dərim dağlardan,
Qurtarım ceyranı bu yaralardan,
Zəminə Xınalının - haraylarından
Yaralı ceyranın qadasın alım.
Xınalı ceyranın qadasın alım.

***1986***

## GÜNƏŞ

Gözlərim qamaşır gözəlliyindən,
Mavi səmalardan nur saçan günəş.
Zülmət gecələri qovub-qaçıran
Sübh tezdən göylərdən nur saçan günəş.

Sənin gözəlliyin əridər buzu,
Cənnətə döndərər, çəməni-düzü,
Dağların-daşların hey gülər üzü,
Üfüqdən hər zaman gur saçan günəş.

Utancaq ay özü sənə boylanar,
Eşqindən ulduzlar sayrışar-yanar,
Zəminə Xınalı dərdini danar,
Tanrının şövqündən Pir saçan günəş.

***1985***

## QƏM LİBASI GEYİNMİŞƏM

Bu dünyadan sən köçəndən
Qəm libası geyinmişəm.
Xınalı saçlarım dən-dən
Qəm libası geyinmişəm.

Eşqin ruhun qoy bilsin ki,
Könlüm nədən sevinsin ki,
Fələk özü sevinsin ki,
Qəm libası geyinmişəm.

Doğmaların arasında,
Dost-tanışlar sırasında,
Tənha deyib seçilmişəm,
Qəm libası geyinmişəm.

Zəminəyəm, min bir dərdim
Sənsiz yamanca kövrəldim.
Çağırsaydın, mən gələrdim,
Qəm libası geyinmişəm.

***1999***

## NƏ İŞİM

Mənim qüruruma dağlar baş əyir,
Susuz səhralarda mənim nə işim
Ətrinə bürüyüb çiçəklər, güllər,
Qərib diyarlarda mənim nə işim.

Dağların qoynunda dil açmısansa,
Tanrıma hər zaman əl açmısansa,
Kindən – kidurətdən mən qaçmışamsa
Qərib xəyallarda mənim nə işim.

Mayam dağ suyundan, haqdan yoğrulub,
Mahnılar –marşların su tək durulub,
Zəminə Xınalı tək heykəl qurulub
Doğmayam: - yadlarla mənim nə işim.

***2001***

## MƏN NƏLƏR ÇƏKİRƏM...

Gecələr mən hərdən yuxulayanda,
Ruhum İncəlidə gəzib-dolanır.
Gəzir çay qırağı, bulaq başını,
Bağlara çəpərdən gizlin boylanır.

Əlim çatmasa da doğma kəndimə
Ürəyim daima onunla vurur.
Darıxıb özümə yer tapmayanda,
Gözlərim yaşarır, ürəyim dolur.

İlahi! Mən nələr çəkirəm görən,
Bunları heç duyan, bilən vardımı?
Bizə uşaq vaxtı noğul paylayan,
Nurani nənələr görən sağdımı?

***2000***

## BAHARDA GƏLMƏDİN, QIŞDA GƏL BARI

Sən mənim gözümü yollarda qoydun,
Baharda gəlmədin, qışda gəl barı.
Sazaqdan çatladım, soyuqdan dondum,
Baharda gəlmədin, qışda gəl barı.

Sənsiz keçəmmirəm, sənsiz yolları,
Bizi bağlamışdı sevgi qolları
Unutma həm əhdi, həm də ilqarı,
Baharda gəlmədin, qışda gəl barı.

Hərdən seyr edirəm, qarlı dağları,
Ürəkdə doymusan çox arzuları.
Sənə həsrət qalıb - Zəminə Xınalı,
Baharda gəlmədin, qışda gəl barı.

***2000***

## ANA

Gözləri yol çəkən mehriban anam,
Qara gözlərinə qurbanam, ana.
Sənsiz darıxıram, deyəndə mənə
Məlhəm sözlərinə qurbanam, ana.

Ürəyim sevgiylə doludur hər an,
Sevincin arzumun qoludur hər an,
Bəlkə də ömrümün sonudur inan,
Bu dünya durduqca qurbanam, ana.

Yaşasan yaşaram, olsan olaram,
Sənsiz bu dünyada gül tək solaram.
Bilki bu dünyada yetim qalaram,
Sənin hər gününə qurbanam, ana.

Parlayan günəşin özüsən ana,
Yanan çıraqların gözüsən, ana.
Dilimin ən şirin sözüsən ana,
O şirin dilinə qurbanam ana.

***1987***

## TƏNHA QADININ

Qardaşlar axtarmaz, bacı aramaz,
Açılmaz qapısı, tənha qadının.
Xeyrinə-şərinə kimsə yaramaz,
Çəkilməz ağrısı tənha qadının.

Doğmalar araya salar ayrılıq,
Çökər gözlərinə hər an qaranlıq.
Çıxar qarşısına pislik-yamanlıq
Sağalmaz yarası tənha qadının.

Hərdən yeriyəndə titrər dizləri,
Kədərli görünər qəmli gözləri.
Yadların xoşuna gəlməz sözləri,
Alınmaz qadası tənha qadının.

İşığı-ocağı közərər, yanmaz,
Dərdini danışsa nadanlar qanmaz.
Şuxluq-təravətdən bir əsər qalmaz
Sızlayar sevdası tənha qadının.

Ötüşər hər anı, hər günü hədər.
Hərdən xəyalları dadına yetər,
Zəminə Xınalı deyir ki, kədər,
Alın yazısıdır tənha qadının.

***1999***

## YENƏ GƏNCLİYİMƏ QAYIDACAĞAM

***Mus: Reyhan Müslümovanındır***

Sən yaşıl ağacsan, mən yaşıl xəzan-yarpaq
Sənsiz yanır sinəm, çatlayır dodaq.
Nə vaxtsa eşitsəm səndən bir soraq
Yenə gəncliyimə qayıdacağam,
Yenə o illərə qayıdacağam.

Ömrümü-günümü kəsərək gülüm
Sənin ömrünə calayacağam,
Həyatda səninlə yaşamaq üçün
Yenə gəncliyimə qayıdacağam,
Yenə o illərə qayıdacağam.

Həssassan, incəsən, nəcibsən, gülüm,
Qəlbimi duyubsan, bilibsən, gülüm.
Səni xəyallarda axtaran zaman,
Yenə gəncliyimə qayıdacağam,
Yenə o illərə qayıdacağam.

Nə vaxtsa yolumu duman-çən kəssə,
Ömrüm həyata əlvida desə,
Bu həyat yenidən üzümə gülsə
Yenə gəncliyimə qayıdacağam,
Yenə o illərə qayıdacağam.

***1997***

## QAYTAR O GÜNLƏRİ

Qaytar o günləri, qayıdım sənə,
Qayıdım, yaşayaq yenə bir yerdə,
Qaytar o günləri, qayıdım sənə
Günlərim səninlə, səninlə keçsin,
Dolaşaq düzlərdə, dağda, çəməndə.

Mən coşan sellərəm, əsən yellərəm,
Mən bulud olaram, dolub, ağlaram.
Nə qədər uzaqda olsam da yenə,
Mən sənin olaram, sənin olaram.

İstəsən gül olub çiçəkləyərəm,
Yaşıl ağac ollam, bağbanım olsan,
İlahi qüvvə tək qəlbimə dolsan,
Bilirsən, nə qədər xoşbəxt olaram.

Qaytar o illəri, qayıdım sənə,
Qayıdım yaşayaq, yenə bir yerdə.
Qaytar o illəri qayıdım sənə,
Yaşayaq gəncliyi, yaşayaq yenə.

***1998***

## SƏNSİZLİK

Çaşdırıb fikirlər, xəyallar məni,
Telefon zəng çalıb-qapını açmışam.
Qapının zəngini eşidən zaman,
Susan telefonda tək danışmışam.
Qınama, ay yarım, məni qınama,
Sənsizlik mənimlə oyun oynayır.
Sənsizlik yuxumu gözümdən alır,
Qınama, sən allah, məni qınama.

***2000***

## GÖZƏLLİKDİR, GÖZƏLLİK

Gözəlliyin xəzinəsi sadəlik,
Bədnəzərin xəzinəsi üzərlik,
Bu dünyanı xilas eyləyən yalnız
Gözəllikdir, gözəllikdir, gözəllik.

Səcdəgahım ya pirdirmi gözəllik,
Tapmacamı ya sirdirmi gözəllik,
Yerdə, göydə de: - birdimi gözəllik
Tanrı özü gözəllikdir, gözəllik.

Dörd fəsilmi, ya ildimi gözəllik,
Cəvahirmi, ya ləldimi gözəllik,
Qoşa düşən cüt zərdimi gözəllik
İnsan özü gözəllikdir, gözəllik.

Ay Xınalı, yaşa-yarat həvəslə,
Gözəlləri dağ başından dur səslə.
Bulaq kimi qayna, çağla gur səslə,
İşin yoxdu, heç kiminlə, heç kəslə
Yaratdığın gözəllikdir, gözəllik.

***1995***

## BU AYRILIQ

Hər ikimiz vəfalıydıq əzəldən,
Bu ayrılıq kimdən oldu bilirəm.
Ölüm haqdı tələsdin, mən yubandım,
Bu ayrılıq səndən oldu bilirəm.

Çərxi fələk tərsə saldı işimi,
Ağlar gözüm, bağlar dilim -dişimi,
Dağ başında sərt gətirdi qışımı,
Bu ayrılıq çəndən oldu bilirəm.

Şirinliklə ayrılmışdıq, həmin an,
Gözləməzdim bizi göynədə hicran,
Xınalıyam, ötüb keçdikcə zaman,
Saçlarım da dən-dən oldu bilirəm.

***1999***

## SEVGİDƏN UCALDIM

Şirin yuxularım acıya dönüb,
Göydə ulduzlarım, günəşim sönüb
Könlümdən gözümə qaranlıq çöküb
Sevgidən ucaldım, dərddən qocaldım.

Canıma od düşdü, yandım, alışdım,
Qələmə söz verdim, özüm danışdım.
Dərdimlə barışıb, dərdə alışdım,
Sevgidən ucaldım, dərddən qocaldım.

Eşqin şərbətini içdim, doymadım,
Niskili-kədəri yaxın qoymadım,
Zəminəyəm heç vaxt yada uymadım,
Sevgidən ucaldım, dərddən qocaldım.

***2000***

## TALEYİMDƏN KÜSMÜŞƏM

Heç ağlıma gəlməz idi ayrılıq
Zülmət çökdü, yolum oldu qaranlıq.
Yoxluğunla barışmaram heç zaman,
Səndən yox ki, taleyimdən küsmüşəm.

Niyə yazda qopdu ömrün boranı,
Seçmək olmur hələ ağdan-qaranı,
Ayrılıqmı belə kəsdi aranı,
Səndən yox ki, taleyimdən küsmüşəm.

Ay Xınalı, qırılmadın, düyüldün,
Çətin gündə nə sındım, nə əyildin
Bir günahın yiyəsi ki, deyildin
Səndən yox ki, taleyimdən küsmüşəm.

***2000***

## AĞLAMA SƏN VƏFASIZIM

Könül verdin özün mənə
Qəlb sevindi dönə-dönə.
Qurban olum gözlərinə,
Ağlama sən vəfasızım.

Gözəlliyim əldən getdi,
Xoş günlərim sənlə bitdi.
Olan oldu, keçən keçdi,
Ağlama sən vəfasızım.

Gül üzündə gülüş görüm,
Dərd-qəmini özüm bölüm.
Sən əvəzi özüm ölüm,
Ağlama sən vəfasızım.

Sənin dərdin, mənim dərdim
Səndə bir günah görmədim.
Xınalıyam, gün görmədim,
Ağlama sən vəfasızım.

***1988***

## DUYA BİLMƏZSƏN

Badəmə göz yaşı süzüb içəcəm,
Dərdimi yanaşı düzüb içəcəm,
Zəhəri əlimlə süzüb içəcəm
Sən mənim dərdimi duya bilməzsən.

Gecənin gözündə qaranlıq oldum,
Sənin gözlərində bir anlıq oldum,
Çən idim könlündə qaranlıq oldum
Sən mənim dərdimi duya bilməzsən.

Olmuşam kamanın, ahın naləsi,
Yas tutub bəxtimə dağın laləsi,
Ağlayır könlümün gülü-nanəsi,
Sən mənim dərdimi duya bilməzsən.

Şirin xəyallarla qaldım baş-başa,
Qorxma ki, Xınalı, səbirin daşa.
Yaman yad olmuşam qohum-qardaşa,
Sən mənim dərdimi duya bilməzsən.

***2005***

## QADIN

Qadın həm anadır, həm də qaynana,
Oğul-qız böyüdər hər gözəl ana.
Qadın uca dağdır, həm də zirvədir
Qadın çiçək qədər zərif, incədir,
Qadın ərə dayaq, isti yuvadır.
Qadın şirin yuxu, şirin layladır,
Qadın şirin röya, şirin xəyaldır.

***1994***

## DAĞ ÇİÇƏYİ

Yanağımda dağ çiçəyi bitmişdi,
Şaxta vurdu, xəzan vurdu, soldu o.
Fələk mənə elə zərbə vurdu ki,
Şeir olub ürəklərə doldu o.

De, hardadır, dağ çiçəyim hardadır,
Saçlarımın xınası da ordadır,
Ürəyimin sevdası da ordadır,
Bəlkə itib-batıb, yanmış koldu o.

Dağ çiçəyim, al yanağım solandan,
Üşüyürəm, təkcə-tənha qalandan,
Rica vardır - Zəminə Xınalından,
Bir soruşun harda qaldı, noldu o.

***2003***

## YADIMA SƏN DÜŞÜRSƏN

Axşam qaş qaralanda,
Ulduzlar sayrışanda.
Xəyallara dalanda,
Yadıma sən düşürsən.

Göydə bulud dolanda,
Özüm sənsiz qalanda,
Könlüm səni ananda,
Yadıma sən düşürsən.

Neynirəm var-dövləti,
Bu dünyada qalandı.
Mənə sevgi gərəkdir
Sevənləri görəndə,
Yadıma sən düşürsən.

Yuxusuz gecələrdə,
Şeirdə, nəğmələrdə,
Ən şirin kəlmələrdə,
Yadıma sən düşürsən.
Yadıma sən düşürsən!

***2002***

## XINALIYAM

Mən əhdindən, ilqarından dönməyən,
Nur ələyən günəş kimi sönməyən,
Öz dilində şirin sözlər söyləyən
Xınalıyam, mən Zəminə Xınalı.

Öz eşqinə, ilqarına vəfalı,
Dərd əhliyəm, dərd əlindən yaralı.
Kimsəsizin, tənhaların köməyi,
Xınalıyam, mən Zəminə Xınalı.

Saz səsindən, söz sehrindən doymadım,
Dərd əlindən qol süzdürüb oynadım.
Nə qohuma, nə qardaşa qıymadım,
Xınalıyam, mən Zəminə Xınalı.

***2003***

## DURNALAR QAYITDI, SƏN QAYITMADIN

***Mus: Məlahət Həmidqızı***

Göylərin üzünü buludlar aldı,
Dünya gözlərimdə qara boyandı.
Dodağım çatladı, dilim də yandı,
Durnalar qayıtdı, sən qayıtmadın.

Dağlar da dərd çəkib, dərddən qocaldı,
Dedilər bəxtəvər, göyə ucaldı,
Həsrətini çəkən vaxtsız qocaldı,
Durnalar qayıtdı, sən qayıtmadın.

Həsrətlə boylandım sən gedən yola,
Allahım, sevgilim qayıda nola!
Ağladım gözlərim hey dola-dola
Durnalar qayıtdı, sən qayıtmadın.

Dedilər yaz gəlir, qaynayır qanlar,
Gözlərim hər yerdə səni ararlar.
Xınalı Zəminəm səni haraylar,
Durnalar qayıtdı, sən qayıtmadın.

***1999***

## MƏN AĞLARAM, SƏN AĞLAMA

Ey sirdaşım ayrılığa
Mən ağlaram, sən ağlama.
Fələk bizə çəkən dağa,
Mən ağlaram, sən ağlama.

Bir bülbülsən, səsi haqda,
Dayanmısan nə uzaqda.
Hər axşamda, hər sabahda
Mən ağlaram, sən ağlama.

Dərd əhliyəm, qəm bağıyam,
Qazaxlıyam – Xınalıyam,
Fani dünya qonağıyam,
Mən ağlaram, sən ağlama.

***1999***

**OLDU**

Həsrət çəkdim göz yaşlarım sel oldu.
Aylar-illər qovuşaraq il oldu.
Qübar çəkən qəmli könlüm lal oldu,
Dərdlərimi elə yayan dil oldu.

Nalə çəkə-çəkə gəzdim hər yanı.
Dəryada gəmim də dərdə tuş oldu.
Ömür yollarımın ən çətin anı,
Qanadı qırılmış qərib quş oldu.

İşıqlı günlərim qaranlıq oldu,
O xoşbəxt anlarım bir anlıq oldu,
Yanımda doğmalar olmayan zaman
Mənə dayaq olan tənhalıq oldu.

***2003***

## MƏNİ SEVGİ YAŞADIR

Məni sevgi yaşadır,
Sevgiylə yaşayıram.
Çaylar kimi daşıram,
Ürəklərə doluram.

Sevgi mənə əzizdir,
Dünyanın özü kimi,
Sevgi mənə əzizdir
Şairin sözü kimi.

Məni sevgi, məhəbbət
Yaşadacaq hər zaman.
Təmiz sevgim, saf eşqim,
Ucaldacaq hər zaman.

***1986***

## QÜVVƏT VER

Tanrım, mənə qüvvət ver,
Qüdrətim bölünməsin.
Tanrım, mənə qeyrət var,
Millətim bölünməsin.

Tanrım, hərb meydanında,
Qollarıma qüvvət ver.
Mən Azəri qızıyam,
Halal ruzi nemət ver.

Taxtım-tacım Vətəndir,
Yenilməz bir zinət ver.
Məni məğrur yaratdın,
Ulu bir səltənət ver.

***1988***

## MƏHƏBBƏTİN GÜCÜNƏ BAX

Ürəklərdə hər an yaşar,
Sellər kimi aşıb-daşar,
Sevənləri qovuşdurar,
Məhəbbətin gücünə bax.

Məcnun dərddən dəli olar,
Leyli həsrətdən saralar,
Qara saça dən də salar,
Məhəbbətin gücünə bax.

Çirkinlər gözəl görünər,
Gözəllər lap gözəllənər,
Yollarına gül ələnər,
Məhəbbətin gücünə bax.

***1996***

## SƏNSİZLİKDƏN ÖLÜRƏM MƏN

Məni həsrət qoyan yarım,
Həsrətindən ölərəm mən.
Tənhalıqdan cana gəldim,
Dərd əlindən ölərəm mən.

Səsin səsimə çatmayır,
Sinəm dərdindən çatlayır.
Əzrayıl canım almayır
Kədərimdən ölürəm mən.

Nə gecəm var, nə gündüzüm,
De, hardasan, qara gözlüm,
Xınalı Zəminəyəm özüm,
Sənsizlikdən ölürəm mən.

***1999***

## GETDİN SƏN

Biz dünyaya sevmək üçün gəlmişdik,
Təmiz, ülvi məhəbbətlə sevmişdik.
Gözə gəldi, daşa dəydi sevgimiz,
Məni yarı yolda qoyub, getdin sən.

Sən açmışdın gözlərimi dünyaya,
Sən salmışdın məni sirli dünyaya,
De, dərdimə heç dözərmi daş-qaya,
Məni yarı yolda qoyub, getdin sən.

İndən belə kimə deyim sözümü,
İndən belə tənha bildim özümü.
Ağlasam da silən yoxdu gözümü,
Məni yarı yolda qoyub, getdin sən.

Haqq dünyada cənnətdəsən bilirəm,
Həzin çaysan, çəmənliksən bilirəm.
Bircə onu, özüm onu bilirəm,
Məni yarı yolda qoyub getdin sən.

***2000***

## SƏNİN MƏNDƏN NƏ XƏBƏRİN

***Mus: Nailə Mirməmmədli***

Gecələrnən üzləşəndə,
Gündüzlərnən görüşəndə,
Dərdlə, qəmlə bölüşəndə,
Sənin məndən nə xəbərin?

Ayrı düşüb, ayrılmışıq,
Yad olmuşuq, yadlaşmışıq.
Torpaq nədir, daş olmuşuq,
Sənin məndən nə xəbərin?

Ürəyimi od eylərəm,
Dağda-daşda ad eylərəm,
Sənsizlikdən dad eylərəm,
Sənin məndən nə xəbərin?

***2001***

## NƏ GÖZƏLDİR

İncə dərəm, dağlar qoynu,
Ətrin, mehin nə gözəldir.
Gül-çiçəyi heç demirəm
Yovşan ətrin nə gözəldir.

Dərən-təpən, çölün-düzün,
Axan çayın sakit-süzgün.
Göy üzündən üzgün-üzgün,
Baxan ayın nə gözəldir.

Qəriblikdə, yad ellərdə,
Adın dildə, ürəklərdə,
Qəribsəyib Zəminən də,
Həsrət payın nə gözəldir.

***1988***

## QARABAĞ

Yaralanmış şir kimidir Qarabağ,
Yarasından axan qanı dayanmaz.
Bağrı dəlik-deşik olub ağrıdan,
Güllələrin sayı yoxdur sayammaz.

Düşmən salıb qollarına qandalı,
Şikar kimi saxlayıb Qarabağı.
Yas saxlamaq, gərək deyil ki, axı,
Qana-qanla qaytaraq Qarabağı.

Dağ oynayar, daş titrəyər yerindən,
Qarabağın dərddən axan selindən,
Düşməyəcək Zəminənin dilindən,
Qarabağım, Qarabağım, Qarabağ.

***1994***

## QƏMLİ BAHAR ÖTÜRMÜŞƏM

Nə ağlamaq, nə sızlamaq,
Dar ayaqda kara gəlmir.
Neyləmişəm, mən bəxtikəm,
Bülbül gülə xara gəlmir.

Yatağımda qəmli gecə
Coşub-daşıb, kükrəyəndə,
Ağlayıram-sızlayıram
Qəlbim qəmə bürünəndə.

Ürəyimdən bayatını,
Ağ varağa köçürmüşəm.
Neçə belə ağlar gecə,
Qəmli bahar ötürmüşəm.

***2003***

## SAF MƏHƏBBƏTLƏ

Sən məni tək qoyub getdin dünyadan,
Könlümü, qəlbimi talan eylədin.
Səni çox sevirdim saf məhəbbətlə,
Özümü-özümə yalan eylədin.

Mənim ürəyimi sənsizlik dərdi
Sındırıb min yerə pay-mal eylədin.
Həsrəti-hicranı əmanət qoydun,
Xınalı saçıma sığal eylədin.

Bir qəlbi min dərdə bölmüşəm ki, mən,
Həyat sınağından keçmək üçünmü?
Sirrimi heç kimə açmıram bəlkə,
Yaxşını yamandan seçmək üçünmü?

***2002***

## SƏNİ AXTARDIM

Yetişib ömrümün baharı başa,
Ağaclar boy atır bitirlər qoşa.
Göz yaşım yanaqda hey coşa-coşa,
Qayıdıb, o yerdə səni axtardım.

Nə ağac tanıdı, nə də ki, yarpaq,
Gülmürdü gözlərim, gülmürdü dodaq.
Heç ala bilmədim səndən bir soraq,
Qayıdıb, o yerdə səni axtardım.

Suala tutmuşdum özüm-özümü,
Axan göz yaşımla, duyan qəlbimlə.
Niyə ayrı düşdük, niyə səninlə?
Qayıdıb, o yerdə səni axtardım.

Özüm tək idimsə ürəyimdə yük,
Qəm məndən ucadı, dərd məndən böyük.
Elə tənhalaşdım, elə darıxdım,
Qayıdıb, o yerdə səni axtardım.

***2002***

## ANA ÜRƏYİDİR, ANA ÜRƏYİ

Uzun gecələrin bağrını sökən
Varsa da xətrinə dəyib incidən,
Şam kimi əriyən, od kimi yanan
Ana ürəyidir, ana ürəyi.

Ömrünü övlada bağışlayan da,
Daşıb çaylar kimi, hey çağlayan da,
Həsrətə-hicrana bel bağlayan da,
Ana ürəyidir, ana ürəyi.

Dərdini bir kəsə açmayan zaman,
Yataqda yastığı qucub ağlayan.
Dağ boyda dərd ilə baş-başa qalan
Ana ürəyidir, ana ürəyi.

***2006***

## BAKI

***Mus: Nailə Mirməmmədlinindir***

Gecələrin laylasısan,
Gözlərimin çırağısan,
Qeyrətimin qalasısan,
Şəhərlərin anasısan.

**Nəqarət:**
Mən Bakı deyəndə əsən küləklər,
Qız Qalası, mavi gözlü Xəzərlə,
Səsimə səs verir xoş bir nəğməylə
Yaşa, sən dillərdə var ol, ey Vətən,
Yaşa, tarix boyu var ol, ey Vətən!

Oxuyuram bu nəğməni,
Qoy eşitsin ellər məni,
Sevirəm ürəkdən səni,
Dillərdə əzbərsən, Bakı.

***1992***

## ELİM-OBAM

Bənövşələr çəmənlərə,
Xalı kimi sərilmişdi.
Xoş ətirli yasəmənlər,
Gül əllərlə dərilmişdi.

Bulaqların zümzüməsi,
Əsrlərlə yol gəlmişdi.
Dərə-təpə, al yamaclar,
Xumarlanıb dincəlmişdi.

Gəlişimi elim-obam
Təmtəraqla qarşıladı.
Hər kəs böyük ehtiramla
Gülərüzlə qarşıladı.

***1985***

## SƏNİ ÇAĞIRACAM

Ömür yaşayıram, səssiz-səmirsiz,
İllərim ötəcək, keçəcək sənsiz.
Tənhalıq əlindən yorulacağam,
Bax, onda mən səni çağıracağam.

İşlərim çətinə, dara düşəndə,
Sənsiz öhdəsindən gələmməyəndə,
Bədənim üşüyüb mən donacağam
Bax, onda mən səni çağıracağam.

Başım ağrıyacaq, yorğun olacam,
Sənsiz rahatlıq da tapmayacağam.
Sirrimi heç kimə açmayacağam,
Bax, onda mən səni çağıracağam.

Ölüm caynağında mən can verəndə,
Gözlərim önünə gələcəksən sən.
Hönkürüb-sızlayıb, ağlayacağam,
Bax, onda mən səni çağıracağam.

***1999***

## BU DÜNYA

Heç bilmirəm, bu dünyanın dərdi nə?
Qalammıram nə sərinə-dərdinə.
Həm boşalan, həm dolandı bu dünya,
Həm doğrudu, həm yalandı bu dünya.

Həm kədərdi, həm də ahdı bu dünya,
Həm bir quldu, həm də şahdı bu dünya,
Həm nəfisdi, həm tamahdı bu dünya,
Başdan-başa bir günahdı bu dünya.

Zəminə Xınalının şeirlərində,
Sözündə-sehrində qalandı dünya.
Dərd alandı, dərd verəndi bu dünya,
Zərrə-zərrə hey talandı bu dünya.

***2007***

## SƏN OLMAYANDA

Yaman öyrəşdirdin məni özünə,
Sənsiz darıxıram, sən olmayanda.
Həsrətin, hicranın yandırır məni,
Xəyala dalıram sən olmayanda.

Sevsəm də danışıb-gülməyi özüm
Sənsiz qurtarıbdır söhbətim, sözüm.
İntizar çəkməkdən ağlayır gözüm
Dünyam da qaralır, sən olmayanda.

Tale də sınağa çəkir özümü,
Ağ nədi, qaralı edir günümü.
Mən kimə gərəyəm, nəyə gərəyəm,
Həyatdan küsürəm, sən olmayanda.

***2003***

## DÖZƏMMİRƏM

Könlüm dağdan aralanıb,
Qartal kimi yaralanıb,
Mənim gözüm səndə qalıb
Dağlar, sənsiz dözəmmirəm.

O dağlara bağlı ömür,
Daha gözüm heç nə görmür.
Demə ki, dərdindən ölmür,
Dağlar, sənsiz dözəmmirəm.

Dumanlı-çənli dağlarsan,
Məndən çox-çox uzaqdasan,
Zəminəni ucaldarsan,
Dağlar, sənsiz dözəmmirəm.

***1989***

## ÖMÜR YARPAĞI

Döyür pəncərəmi əsən küləklər,
Vədəsiz çağrılmış qonaqlar kimi.
Qorxunc qaranlığın qara gözündə,
Çırpınır ürəyim yarpaqlar kimi.

Nə qapı döyülür, nə də pəncərə,
Qaranlıq əl edir gələn səhərə.
Könlümün gözləri elə dolub ki,
Fikirlər sinəmdə dönüb qəhərə.

Həyəcan təbili çalanda ürək,
Səbrlə-dözümlə dözəsən gərək.
Zəminə Xınalı – dərdin barını,
Ömür yarpağından üzəsən gərək.

***2003***

## ÇOX ŞÜKÜR

Mən dağlar qızıyam, dağ vüqarlıyam,
Ürəkdə gör neçə arzularım var.
Şükür ki, ağıllı övladlarım var,
Ulu tanrım, verdiyinə çox şükür.

Aza-çoxa şükür dedim hər zaman
Haqq işimlə, halal yedim hər zaman.
Allahıma səcdə etdim hər zaman
Ulu tanrım, verdiyinə çox şükür.

Saçlarımın xınasının sirri nə,
Həyat özü möcüzədir,sirri nə,
İnanmadıq bu dünyanın sirrinə,
Ulu tanrım, verdiyinə çox şükür.

***2003***

## SEVGİ DOLU NƏĞMƏLƏR

Əhd-peyman bağlayanda,
Duz-çörəyə and içmişdik.
İlqarından dönən kəsə,
Sonda vəfasız demişdik…
Demişdim ki, mən əhdimdən dönmərəm,
Demişdin ki, günəş kimi sönmərəm.
Demişdim ki, sənlə olsam ölmərəm,
Demişdin ki, göydən yerə enmərəm.
Demişdim ki, göz yaşına qıymaram,
Demişdin ki, heç ləbindən doymaram.

Demişdim ki, mən səni tək qoymaram,
Demişdin ki, səni yaddan sormaram.
Demişdim ki, etibarsız olmayaq,
Demişdin ki, biz vəfasız olmayaq.
Demişdim ki, çiçək kimi solmayaq,

Demişdin ki,…
Ah!.. nələri demişdin…
Yox!.. deyəsən
Sevgi dolu
Nəğmələri demişdin…

***1987***

## SEVGİ XATİRİNƏ

***Mus: İsmayıl Əliyevindir***

Niyə mən özümdə deyiləm, niyə?
Səni xəyalımda anıram elə.
Gülüm dolu qəlbim boşalsın deyə
Ağlamaq istərəm, mən bilə-bilə.

Elə ki, mənimlə rastlaşırsan sən,
Sənə ürəyimi açmaq istərəm.
Elə ki, dinmirəm, tutuluram mən,
Üzümü gizlədib, qaçmaq istərəm.

Baxıram yoluna hər saat, hər gün,
Sənə vurulmuşam bircə baxışla.
Sənin ürəyinə girdiyim üçün,
Sevgi xatirinə məni bağışla.

***1983***

## SƏNLƏ BARIŞMARAM ÖLÜNCƏ BƏXTİM

Tanrıma baş əyib, səcdə qılıram,
Taledən küsmüşəm, alovlanıram.
Dağ boyda dərdimi hərdən danıram,
Sənlə barışmaram, ölüncə bəxtim.

De, nədən qənimsən canıma mənim,
Qoymursan yarımı yanıma mənim,
Yeritdin zəhəri qanıma mənim,
Sənlə barışmaram, ölüncə bəxtim.

Gündüzüm gecələr eylədin özüm,
Dözürmü dərdimə o görən gözüm,
Yadında əbədi qalsın bu sözüm
Sənlə barışmaram, ölüncə bəxtim.

***2002***

## SƏNSİZ GECƏLƏR

***Mus: Məlahət Həmidqızınındır***

Mən yata bilmirəm, gecələr sənsiz,
Sinəmə dolarkən qəm-kədər sənsiz.
Bilirsən, mən sənsiz çəkirəm nələr,
Sənsiz həmdəmimdir, sənsiz gecələr.

Ulduza əl açıb, aya əl açıb,
Sənsiz gecələrdən səni istədim.
Gözümü yumarkən gözüm önündə
Əksini gördümsə, səni görmədim.

Sənin məhəbbətin, sənin istəyin,
Ağlımı başımdan alacaq indi.
Yox, daha dözmürəm belə sevdaya
Kövrəlsəm gözlərim dolacaq indi.

Ürəyim dərd çəkər, qəlbim kövrələr,
Necə rahat olar, necə dincələr,
Mənə zülm eyləyər sənsiz gecələr.
Sənsiz həmdəmimdir, sənsiz gecələr.

***2003***

## ÖVLADLARININ

Açıb qollarını ana Vətənim,
Yolunu gözləyir övladlarının.
Gözləri yoldadır, qulağı səsdə,
Yolunu gözləyir övladlarının.

Coşub dağ çayları, nəğmələr qoşur,
Qayadan süzülən şəlalə coşur.
Əsən küləklərdən, mehdən soruşur,
Yolunu gözləyir övladlarının.

Çəmənlər gül sərib, xalı toxuyur,
Cığırlar çiçəkdən, güldən qoxuyur.
Kəkliklər, turaclar nəğmə oxuyur,
Yolunu gözləyir övladlarının.

Yaşıl meşələrin talalarında,
Sıldırım sal daşlı qayalarında.

Ana Vətənimiz – yuxularında,
Yolunu gözləyir övladlarının.

***2009***

## ÜRƏYİMDƏ OX OLMUSAN

***Mus: İsmayıl Əliyevindir***

Ürəyimi dərdə saldın,
Gözlərimdən nə istərsən?
Gündüzləri mənsiz qaldın,
Gecələrdən nə istərsən?

Şimşək çaxdı göy üzündə,
Bulud doldu, mən ağladım.
Sənin kimi vəfasıza,
Görən niyə bel bağladım?

Xəyalımdan silsəm belə
Ürəyimdə ox olmusan.
Barışmaram indən belə
Mənim üçün yox olmusan.

***1986***

## QOYMA Kİ, HƏSRƏTDƏN SARALIM-SOLUM

Mənim duyğularım həsrət körpüsü,
Vüsala yetişmək sənin əlində.
Acı taleyimlə barışmasam mən,
Qoyma ki, həsrətdən saralım-solum.

Yağan yağışların göz yaşıyam mən,
Sevən gözəllərin baxışıyam mən,
Bəxtimin-taleyin naxışıyam mən
Qoyma ki, həsrətdən saralım-solum.

Çəməndə çiçəkdən çələng hörərəm,
Həsrət gözlərimdə səni görərəm.
Gəlməsən mən sənsiz vallah ölərəm,
Qoyma ki, həsrətdən saralım-solum.

Uzun gecələrdə yata bilmirəm,
Bu eşqi başımdan ata bilmirəm,
Gözəlim, mən sənə çata bilmirəm
Qoyma ki, həsrətdən saralım-solum.

Ömür karvanımdır, baş alıb gedir,
Eşqin ürəyimə zülmlər edir.
Səni mənim kimi de, kimlər sevir?
Qoyma ki, həsrətdən saralım-solum.

***2006***

## AMANDI

Mənim qanadımı fələk sındırıb,
Sən mənim xətrimə dəymə, amandı.
İçimdə ruhumu mələk sındırıb,
Sən mənim xətrimə dəymə, amandı.

Amandır ağladıb sızlıtma məni,
Səbrim daşa bilər, gözlətmə məni.

Sevən ürəyində gizlətmə məni,
Sən mənim xətrimə dəymə, amandı.

Bənövşə həyalı dağlar qızıyam,
Ümidi sabaha qalan arzuyam.
“İlıq təbəssümə” mən tamarzıyam,
Sən mənim xətrimə dəymə, amandır.

***2005***

## UCALARDAN UCADIR

Könlüm qəmin, sevincin əbədi sarayıdır,
Gözdən axan göz yaşım, qəlbimin fəryadıdır.
Mənə ilham da verən, mənə həyat da verən,
Damarımda qaynayan Azəri-türk qanıdır.

İstəmərəm bir günüm səssiz-səmirsiz ötsün,
İstərəm ki, hər anım çox mənalı ötüşsün.
Dilimə gələn sözü əllərimdən ricam var,
Qələm alıb kağıza, ağ varağa köçürsün.

Saymaqla saya gəlməz, çətin, yaman günlərim,
Ya nağıldır, ya dastan gözümlə gördüklərim.
Arzularım yarımçıq, hanı öyündüklərim,
Xatirimə gəlməyir, nə vaxt sevindiklərim.

Belə bir məsəl də var, qəmlə-kədər qoşadır,
Zəminə Xınalını dərdin özü yaşadır.
Həyat necə maraqlı, sanki bir tamaşadır,
Halal insan hər zaman ucalardan ucadır.

***2005***

## QALIB

Şairlər oylağı, Qazax mahalı
Ana beşiyimdir, ata yurdumdur.
Çaylar zümzüməli, həzin laylalı,
Mənim qibləgahım, səcdəgahımdır.

Uşaqlıq illərim keçib qoynunda,
Ot basan cığırda izlərim qalıb.
Əks-səda doğuran sərt qayalarda,
Hələ deyilməmiş sözlərim qalıb.

Əsən küləklərin qanadlarında,
Gənclik illərimin arzularında,
Taleyin ən çətin sınaqlarında
Ağrılı-acılı günlərim qalıb.

İsti ocağımdan, ata yurdumdan
Yol aldım, yolların yorğunu oldum.
Tənhalıq əlindən, dərddən yoruldum,
Arxada cavanlıq illərim qalıb.

Ömür karvanımsa baş alıb gedir,
Zəminə Xınalı astaca deyir.
Məzarım üstündə, son mənzilimdə,
Xəzan çiçəklərim-güllərim qalıb.

***2008***

## QIZILGÜLÜN

Ətri xoşdur qızılgülün,
Gözü düşübdür bülbülün.
Tikanları dayanıbdır
Keşiyində qızılgülün.

Qoxusu var min ahəngdə,
Yarpaqları yaşıl rəngdə,
Öyər özünü çələngdə,
Ləçəkləri qızılgülün.

Bağçaların gül şahıdır…
Yaz fəslinin rüzgarıdır.
Min bir dərdin dərmanıdır,
Çiçəkləri qızılgülün.

Bağ-bağçada gəzər, üzər,
Ətirlisin qızılgülün.
Xınalını sevindirər
Böcəkləri qızılgülün.

***2012***

## MƏCLİS QURMUŞAM

Dağ boyda dərdimdən məclis qurmuşam,
Fikirlər, xəyallar qonaq gəlibdir.
Tər çiçək əvəzi göz yaşlarımı,
Mənim ünvanıma yar göndəribdir.

Könül sarayımın ağrı-acısı,
Nəğmə tək oxunur hey varaq-varaq.
Köksümdə yurd salıb dərin bir xəyal,
Ömür qatarını yola salaraq.

Xəyal qanadında uçan fikirlər,
Çiynimə qonurlar şahlıq quşu tək.
Dolanır başımda duman-çən kimi
Şair təxəyyülü, əqli, huşu tək.

Xəyalı-fikiri yola salmağa
Taqətim qalmayıb, gücüm qalmayıb.
Sağımda dərd durub, solumda fikir,
Bağımda-bağçamda qəm gülü bitir.

Fikir məclisində, dərd məclisində,
Ürək oda yanır, könül talanır.
Zəminə Xınalı, alışır, yanır,
Bəxtəvər kəslər tək dərdini danır.

***2000***

## SIĞINAYDIM O DAĞLARIN QOYNUNA

Gedəcəyəm o dağların qoynuna,
Anam kimi məni alsın qoynuna.
Uşaq kimi kövrələndə, dolanda,
Sığınaydım o dağların qoynuna.

Qatar-qatar durnalara baxaydım
Göy üzündən ildırım tək çaxaydım
Kürəyimi qayalara sıxaydım
Sığınaydım o dağların qoynuna.

Əllərimə xına yaxıb təzədən
O mamırlı sal daşları öpəydim.
Quzqulaqdan, qulançardan yeyəydim
Sığınaydım o dağların qoynuna.

Çiçəklərin ətirlisin dərəydim,
Allı-güllü çələnglər də hörəydim.
Yuxuda yox, mən aşkarda görəydim,
Sığınaydım o dağların qoynuna.

Xınalı Zəminə düşdü dillərə,
Həsrətəm dağlarda bitən güllərə.
Salamımı yetirin bizim ellərə,
Sığınaydım o dağların qoynuna.

***1989***

## DAĞLARIN

Məndən ötrü bu qədərmi narahat,
Ürəyinə xal düşübdür dağların.
Çəndən ötrü bu qədərmi narahat,
Ürəyinə yar düşübdür dağların.

İnsan oğlu həm qayadır, həm daşdır,
Əsrlərdir dağlar bizə yoldaşdır.
Dağ çayları bulaqlara sirdaşdır,
Ürəyinə qor düşübdür dağların.

Xəstə üçün dərman olub qarları
Tufan-çovğun bağlayıbdır yolları.
Al llalədən çiçək açıb bağları,
İsmətinə ar düşübdür dağların.

Həmdəm bildim mən özümə dağları,
Meyar seçdim mən sözümə dağları.
Vurğun etdim mən gözümə dağları,
Yolu, izi dar düşübdür dağların.

Xınalıyam, mən dağları sevirəm,
Xəyalımda dağlara yol gedirəm.
Ürəyimdən-ürəyinə bilirəm…
Şirin sevdalar düşübdür dağların?

***2003***

## ANA

Tutub əllərimdən dünyanın dərdi
Aparır, bilmirəm məni hayana.
Ver xeyir-duanı, su səp dalımca,
Ağlayıb, kövrəlib dolma, ay ana.

Həyat yollarımın eniş-yoxuşu,
Mənə zülm eylədi zalım baxışı.

Dindirmə-danlama bəxti naxışı,
Fikirlər içində solma, ay ana.

Mən elə vurğunam sənin səbrinə
Dərdimi yüklədin sən öz qəlbinə.
Dilinə qurbandır Xınalı Zəminə,
Həyatdan sən küskün olma, ay ana.

***2000***

## VƏFASIZ DÜNYA

Axı neyləmişəm vəfasız dünya,
Nəyin qisasını alırsan məndən.
Enişli-yoxuşlu həyat yolunda,
Çovğuna salırsan yolumu, dünya.

Yarımı əlimdən almısan mənim,
Könlümü odlara salmısan mənim,
Sanma ki, dərdimə qalmısan mənim,
Sən niyə sormadın halımı dünya?

Damarda qanımı buz eyləmisən,
Canımı əridib duz eyləmisən.
Sən elə bilmə ki, düz eyləmisən,
Dolanma başıma, amansız dünya.

Zəminə Xınalı barışmaz sənlə,
Od olub yansan da alışmaz sənlə,
Coşsan da qaynayıb-qarışmaz sənlə,
Sədd çəkdin qarşıma, amansız dünya.

***2003***

## HƏYAT ÖYRƏTDİ

Mənə deyirlər ki, soyuqqanlısan,
Mən belə deyildim, həyat öyrətdi.
Hərdən də deyirlər dəliqanlısan,
Mən belə deyildim, həyat öyrətdi.

Damarda qanımı həyat dondurdu,
Alışan eşqimi həyat söndürdü.
Bəxtimin çarxını həyat döndərdi,
Mən belə deyildim, həyat öyrətdi.

Qaynayıb qarışa bilmirəm nədən?
Deyirlər ki, qorxaq göz gördüyündən
Küsməyin siz Xınalı Zəminədən.
Mən belə deyildim, həyat öyrətdi.

***2007***

## DAĞDAN UCAYMIŞ

Allahım, dağ boyda dərdi veribsən,
Sən demə qürurum dağdan ucaymış.
Özümü mən belə tanımamışam,
Sən demə qürurum dağdan ucaymış.

Hardandır bu qədər dözüm, təsəlli,
Özümə olmuşam, özüm təsəlli,
Yanar ürəyimə sözüm təsəlli,
Sən demə qürurum dağdan ucaymış.

Gecələr ay nədir? – ulduzlar axır,
Tənhalıq tacını başına taxır,
Könlüm də boylanıb uzaqdan baxır,
Sən demə qürurum dağdan ucaymış.

Bu alın yazısı, bu da bir tale,
Qismətdən uzağa qaçmaq olarmı?
Qürurun özü sirr açmaq olarmı?
Sən demə qürurum dağdan ucaymış.

***2005***

## BAŞ SARITELİ

Yarım gedib, meydanda tək qalmışam,
Səcdəgahım Tanrımdan güc almışam.
Tarıma çəkilib, könlümün teli,
İndi çalacaqdır «Baş sarıteli».

Bizə dərd olubdur, Kərəmin külü
İndi qan ağlayır Göyçənin gölü.
Sazımın telində var «İncə gülü»
İndi çalacaqdır «Baş sarıteli».

Xınalı Zəminə unutmaz eli,
Ürəyimdən axır dağların seli,
Yaman kövrəkləşib qəlbimin teli,
İndi çalacaqdır «Baş sarıteli».

***2002***

## BİR XINALI DAŞA YAZDIM SÖZÜMÜ

Çəmənlərin-çiçəklərin sirrini,
Sərin mehə, nurlu şehə söylədim.
Uşaq ikən müdrik sandım özümü,
Bir xınalı daşa yazdım sözümü.

Qanad açdı zirvələrdə qartallar,
Layla çaldı dağ çayları, bulaqlar,
Gözəlliklər valeh etdi gözümü,
Bir xınalı daşa yazdım sözümü.

Dağ qoynunda keçirmişəm ömrümü,
Xınalıyam, sındırmayın könlümü,
Tanrı verdi mənə səbr, dözümü,
Bir xınalı daşa yazdım sözümü.

***2003***

## BAHAR BAYRAMI

Ən ülvi niyyətin çin olduğu gün
Bahar bayramıdır, yaz bayramıdır.
Könül pərisinin şad olduğu gün
Bahar bayramıdır, yaz bayramıdır.

Damarda qan oynar, dağda dağ çayı,
Çiçəklər bəzəyər ana torpağı,
İlhama gətirən çeşmə bulağı
Bahar bayramıdır, yaz bayramıdır.

Zəminə Xınalı, gəldin dünyaya,
Ayağın səyalı-bərəkət duya.
Səni bağlayan da elə-obaya,
Bahar bayramıdır, yaz bayramıdır.

***2001***

## YALANÇI YUXULAR, ALDATMA MƏNİ

Dağ qoynunda bir çeşməyəm, bir çayam,
Zülmət qovan bir ulduzam, bir ayam,
Gecələri yuxusuzam, oyağam,
Yalançı yuxular, aldatma məni.

Məhəbbət əlindən qopardın məni,
Bir uzaq səfərə apardın məni,
Özgə yuxusunda tapardın məni.
Yalançı yuxular, aldatma məni.

Ox kimi kipriyim batır gözümə
Küsüb şıltaq könlüm, baxmır sözümə.
Daha inanmıram sənə, özümə,
Yalançı yuxular, aldatma məni.

Deyirdin bu sənsən, bu da ki, mənəm,
Həm qışam, həm yazam, həm də çəmənəm.
Xınalı Zəminəm, deyib-axtaran,
Yalançı yuxular, aldatma məni.

***1986***

## SEVGİ DOLU

Dağ başına duman gəlib, çən gəlib,
Dağ başından gözəllərə baxmağa.
Dağ çayları bulaqlara qoşulub,
Sevgi dolu ürəklərə axmağa.

Duman özü, çənin özü gözəldir,
Məhəbbət ki, bu dünyadan əzəldir.
Şeirlərim həm incidir, həm ləldir
Şimşək olub könüllərdə çaxmağa.

Xınalı Zəminəyəm – əhdim, ilqarım,
Yenilməz olubdur, o dağ vüqarım.
Ürəkdə gül açıb öz arzularım,
Gözü dolu bu ellərə baxmağa.

***2002***

## «SARITEL» LAYLASI

Dərd əlindən cana gəlib doymuşam,
«Sarıtel» laylası gərəkdir mənə.
Həsrətdən, hicrandan mən qovrulmuşam,
«Sarıtel» laylası gərəkdir mənə.

«Sarıtel» sehrindən qaça bilmirəm,
Sirrimi heç kimə aça bilmirəm.
«Sarıtel»siz qanad aça bilmirəm,
«Sarıtel» laylası gərəkdir mənə.

Ana südü, dağ çiçəyi dərmanım,
Başı qarlı dağlar olub gümanım.
Şeriyyatçün verilibdir fərmanım,
«Sarıtel» laylası gərəkdir mənə.

Xınalı Zəminəyəm, nədir günahım,
Vaxtsız köçüb bu dünyadan öz yarım.
Ürəkdə qalıbdır çox arzularım
«Sarıtel» laylası gərəkdir mənə.

***2000***

## NƏ YATMISAN, OYAN YAR

Dərdin sinəmi dağlar
Kədər yolları bağlar.
Yar həsrətli gözlərim
Sənsizlikdən qan ağlar.

Nə yatmısan, oyan yar,
Məni dərdə qıyan yar.
Məni qəmlə-kədərlə
Nə çoxdu sınayan yar.

Bahar fəsli gələndə
Çəmənlər xalı salar.
Xınalı Zəminəni
Doğmalar da unudar.

***1999***

## TƏBİƏT GÖZƏLLİYİNƏ

Ətirli yaz günü çıxdım çəmənə,
Gördüm çiçək dolub, gül ağlayırdı.
Elə bil təbiət duyub dərdimi,
Qara bəxtim üçün yas saxlayırdı.

Dağların başını almışdı duman,
Bulağa enmədi bu gün də ceyran.
Çaylar lal olmuşdu, səssizdi hər yan,
Məni duyanlara olmuşdum heyran.

Çiçəyin-gülün də dili var imiş
Dağlara dərd verən şaxta, qar imiş.
Ağbirçək nənələr, babalar demiş,
Təbiət insandan xəbərdar imiş.

Yaxşı ki, təbiət sirdaşım olub
Hər zaman şərikdir mənim dərdimə.
Təbiət vurğunu – Xınalı Zəminə
Vurulub təbiət gözəlliyinə.

***2002***

## MƏNİM MƏHƏBBƏTİM

Mənim məhəbbətim dastana dönüb,
Sevənlər qəlbində yaşayacaqdır…
Mənim məhəbbətim çiçəyə dönüb,
Heç zaman, heç vaxtı solmayacaqdır.

Mənim məhəbbətim günəş olacaq,
Sevən ürəklərə nur paylayacaq.
Mənim məhəbbətim tarix yaddaşı,
Ötən əsrləri haraylayacaq.

Zəminə Xınalı, ömür çox azdır,
İlk eşqin, ilqarın bahardır, yazdır.
Məhəbbət aləmi o telli sazdır
Qələmin hökmüylə məhəbbət yazdır.

***2004***

## ÖLÜRƏM MƏN

Məni həsrət qoyan yarım,
Həsrətindən ölürəm mən.
Tənhalıqdan cana gəldim,
Dərd əlindən ölürəm mən.

Səsim səsinə çatmayır,
Sinəm dərdinən çatlayır,
Əzrayıl canım almayır,
Kədərimdən ölürəm mən.

Nə gecəm var, nə gündüzüm,
De, hardasan qara gözlüm?
Xınalı Zəminəyəm, özüm,
Sənsizlikdən ölürəm mən.

***1999***

## SİZƏ DAĞLAR

Çağırırsan sizə gəlim,
Gələmmirəm sizə, dağlar.
Çiçək açıb bağça-bağlar,
Gələmmirəm sizə, dağlar.

Nə gözəldir bulaqların,
Allı-güllü yaylaqların,
Haraylayır dağ çayların,
Gələmmirəm dilə, dağlar.

İllər keçir ömrümdən
Xəbərin var hər günümdən.
Küsməyin siz Zəminədən,
Gələmmirəm sizə, dağlar.

***2007***

## VƏTƏN ÇAĞIRIR

***Qürbətdə yaşayan soydaşlarımıza***

Yad eldə, qürbətdə qərar tutmayın,
Qayıdın Vətənə, Vətən çağırır.
Adət-ənənəni siz unutmayın,
Qayıdın Vətənə, Vətən çağırır.

Könlünüz qürbətdə odlanar, yanar,
Yad ellər sizləri yandırar-yaxar.
Həsrət yanğısından ildırım çaxar,
Qayıdın Vətənə, Vətən çağırır.

Yurd yeri dağ kimi məğrur dayanar,
Məzar daşlarından ruhlar boylanar,
Dünya məhvərindən çıxar-dayanar,
Qayıdın Vətənə, Vətən çağırır.

***2009***

## UÇMA GÖYƏRÇİN

Yeri çiçək, gül üstə,
Oxu, şirin dil üstə.
Məndən xoş sözlər istə
Uçma göyərçin, uçma.

Nazlı gəlinlər kimi
Nə dayanıb, durmusan.
Ürəyin tir-tir əsir,
Yarpaq üstə qonmusan,
Uçma göyərçin, uçma.

Baxışın yaman hürkək
Gözəllikdə özün tək,
Gəl mənimlə yol gedək,
Uçma göyərçin, uçma.

Göylərdə qanad açıb
Buludları yarırsan.
Gözəlliyinlə məni,
Yandırırsan, yaxırsan,
Uçma göyərçin, uçma.

***2003***

## GÖZÜNDƏ YAR HƏSRƏTİ

Üzündə nur həsrət var,
Taleyində qismət var.
Səndə gözəl qamət var,
Gözündə yar həsrəti.

Vüqarını əyməyən,
Başqasını sevməyən,
Dərdə dözə bilməyən,
Gözündə yar həsrəti.

Xəyal qanadlarında,
Həsrətin yollarında,
Zəminə, qollarında,
Gözündə yar həsrəti.

***1999***

## DAĞLAR

Nərgiz çiçəkləri gəlin kimidir,
Al yanaq ləçəkli, həyalı dağlar.
Sənə yaraşıqdır çeşmələr, çaylar,
Çəmənli-çiçəkli, laləli dağlar.

Zirvəndə qartallar qanad açanda,
Sinəndə xınalı kəklik qaçanda,
Neçə igidlərin qan yaddaşında,
Sıldırım qayadan qalalı dağlar.

Dağ boyda dərdin var, vüqarım uca,
Sirrimi bilməyir nə cavan, qoca.
Zəminə Xınalı, dünya durunca,
Başı qeyli-qallı, bəlalı dağlar.

***1985***

## HAY VERMƏYİR

Ümman boyda istəyim var,
Könlüm mənə pay verməyib.
Dilə gəlib dağlar, daşlar,
Könlüm mənə hay verməyir.

Ocaq çatdım, külü soyuq,
Taleyimin üzü soyuq.
Sinəm dərddən oyuq-oyuq,
Könlüm mənə hay verməyir.

Dərd əhlidir qara geyir,
Zəminə Xınalı deyir;
Bəxtim məndən gileylidir
Könlüm mənə hay verməyir.

***2001***

## TƏBİƏT GÖZƏL

Tanrı təbiəti gözəl yaradıb
Qayalar xınalı, daşlar xınalı.
Səcdəyə gəlibdir dağlar maralı
Qayalar xınalı, daşlar xınalı.

Yalçın qayalarda uçan turaclar
Şənliyə bürünüb çöllər, yamaclar.
Dərələr-təpələr dağlar, arxaclar,
Qayalar xınalı, daşlar xınalı.

Sünbül saçaqları buğdanın dəni,
Lalələr bəzəyib çölü-çəməni.
Necə də gözəldir yaşıl çəməni,
Qayalar xınalı, daşlar xınalı.

Öpüb oxşayıram ana torpağı,
Gözəldir hər gülü, hər yarpağı,
Zəminə Xınalının gəlib novrağı,
Qayalar xınalı, daşlar xınalı.

***1983***

## GÖZƏL QIZLAR

Gözəl qızlar, aldanmayın heç zaman,
Nə şöhrətə, nə ziynətə, nə şana,
Qoymayın ki, coşan eşqin əvəzi,
Ürəyiniz ya qəlbiniz hey yana.

İsti ocaq, alov olun, od olun
Sevinc olun, günəş olun, od olun.
Kin, kidurət, həm pislikdən yad olun,
Bir gün gəlsin olasınız siz ana.

Paklıq üçün, təmizlikçün can atın
Yeni-yeni xarüqələr yaradın.
Xoşbəxtliyə, səadətə siz çatın,
Xoş gününüz qoy gəlməsin heç sana.

***1982***

## YOL GEDƏCƏYƏM

Könlüm dilə gəlib, ürəyim küsüb,
Kədər çiçəyini əllərim üzüb.
Bütün dərdlərimi yanaşı düzüb,
Səninlə əbədi yol gedəcəyəm.

Səhərlər açılar, axşamlar düşər,
Xəfif küləklərdən qəlbim üşüyər.
Yad, soyuq baxışlar nə deyər-deyər
Səninlə əbədi yol gedəcəyəm.

Sənət ocağımı məbədgah bilib,
Məni zirvələrə sən aparmısan.
Dərdliydim, dərddən də sən qurtarmısan,
Səninlə əbədi yol gedəcəyəm.

Səndə düz ilqar var, həm də etibar,
Köksümdə yurd salıb min-min arzular,
Xınalı Zəminə necə unudar?
Səninlə əbədi yol gedəcəyəm.

***2007***

## SƏNSİZ

Bir acı taleyin əsiri olub,
Şam kimi əritdim ömrümü, sənsiz.
Ötən illərimdən əlimi üzüb,
Sayıram ömrümü, günümü, sənsiz.

Açılan sabah da, düşən axşam da,
Ruhuna tanrıdan rəhmət dilədim.
Əsən küləklərin xəfifliyində
Sənin nəfəsini duyub, dinlədim.

Fikirlər, xəyallar məni söylədir,
Sənsizlik qəlbimi yaman göynədir.
Sənsiz qalan - Xınalı Zəminədir
Dərdimə yer dözmür, hələ göy nədir.

***2001***

## LİLPARLI ÇƏMƏNDƏ

Axıb qayaların yanaqlarından,
Lilparlı çəməndə yurd salacağam.
Üzüb çiçəklərin yarpaqlarında
Lilparlı çəməndə yurd salacağam.

Göylərdən boylanan al şəfəqlərin,
Sübh çağı ötüşən şən bülbüllərin,
Vurğunu olmuşam al şəfəqlərin
Lilparlı çəməndə yurd salacağam.

Süzülən çeşmənin, durulan çayın,
Gəlin tək utancaq boylanan ayın.
Əlindən qaçaraq bir qızmar yayın
Lilparlı çəməndə yurd salacağam.

Xınalı dinclik tap, ata yurdunda,
Şəhərdən çox uzaq, dağlar qoynunda.
Cənnətdir burada sağım, solum da,
Lilparlı çəməndə yurd salacağam.

***1983***

## VAR KİMİ

Zamanın çarxında fırlanan ömür,
Ovulur-üyünür buğda unu tək.
Başım gicəllənir dərd şərabından,
Ömür yollarının ilki-sonu tək.

Bu gün ötüb keçdi, sabah gələcək,
Ümidlər, arzular sanki bitəcək.
Alın yazısı da, taleyin özü
Bəxtəvər kəsini özü seçəcək.

Bəxtli bəxtəvərin dərdi daha çox,
Kasıba nə var ki, gözü-könlü tox.
Halallıq içində, haqlıq içində,
Yaşayıb-yaratdım yoxdan var kimi.

***2008***

## MƏNİM ÜRƏYİMDƏ

Yarımçıq arzular, ümidlərini,
Əmanət saxladın mənə həyatda.
İşıqlı dünyadan əl üzüb getdin,
Qəlbimdə əbədi qəm kimi bitdin.

Həsrət nəğməsiylə, qəm nəğməsiylə
Sənə qovuşuram yuxularımda.
Nəvaziş əvəzi saçlarımda da
Ağaran, bozaran dən kimi bitdin.

Sənsizlik ömrümü talan eyləyib
Özümü-özümə yalan eyləyib,
Ömrün bahar çağı dünyadan getdin,
Mənim ürəyimdə sən kimi bitdin.

***1999***

## BİLMƏRƏM

Səni taleyimə tanrı göndərib,
Tanrının əmrindən çıxa bilmərəm.
Qurulu bəxtimin taxtı-tacını,
Fələyin əliylə yıxa bilmirəm.

Alın yazısına çox inanıram
Min bir əzab çəkib, çox sınanıram.
Elə alışıram, elə yanıram,
Naşılar dilində çox qınanıram.

Ağlayan ağladar, gülən güldürər,
Zəminə Xınalı, göstər bir hünər,
Qolunda güc olsa, dizində təpər,
Dərdin kürəyi də tez yerə dəyər.

***2007***

## HƏSRƏT NƏĞMƏSİ

Sən dinlə kamanın, tarın səsini,
Sən dinlə həsrətin qəm nəğməsini.
Eşit röyalarda, gör röyalarda,
Dinlə ürəyində, yarın səsini.
Qəlbin aynasını astaca açıb,
Həsrət nəğməsini dinlə, ağlama.
Dostlara dərd olar, dərdini gizlət,
Bizim qəlbimizi belə dağlama.

Həsrət də, hicran da qoşa yaranıb,
Xınalı alışıb, oda qalanıb.
Gördüyü xoş günlər uzaqda qalıb,
Ömrü xəzan olub, könlü talanıb.

***2003***

## OXU TAR

***Oxu tar, oxu tar,***
***Səni kim unudar...***
***M.Müşfiq***

Oxu tar, oxu tar,
Oyanıbdı arzular.
Dinləyirəm axşamlar,
Oxu tar, oxu tar,

Məni keçmişə apar,
Məni bu günə qaytar.
Səsin tanrıya çatar,
Oxu tar, oxu tar,

Sehrindən çıxmaq olmur,
Piyalən daşıb-dolmur.
Könlüm heç səndən doymur,
Oxu tar, oxu tar,
Xəyal məni aparır,
Dərddən-qəmdən qoparır.
Qəlbim səni arzular,
Oxu tar, oxu tar,

***2005***

## ALIŞDI

***Nə ola mən də bir can verən zaman,***
***Bir düyan olaydı ahımı mənim,***
***Qabilin-"Həyat eşqi" şeiridən***

Göynətdi sinəmi ahı-naləsi,
Ceyranın ahına, ahı qarışdı.
Bilmədi bu alqış, ya da qarğışdı,
Od tutub sinəsi yandı, alışdı.

Eh! Şair olanın sinəsi dağlı
Yaxşı gün, şad günün, kəlməsi bağlı,
Ömrü keşməkeşli qaralı-ağlı,
Ötən günlərini andı-alışdı.

Xəyalən can verdi, gözü önündə
Kimsə dayanmadı, kimsə durmadı,
Sirli bir aləmdən heykəl qurmadı,
Boyanıb qanına sandı, alışdı.

***20.09.2011***

**KƏNDİM**

Göz yaşlarım sel oldu,
Kədər könlümə doldu,
Sənə niyə yetmədim
Ay mənim doğma kəndim.

İncə çayı həsrətdə,
Dağlar mənim tək dərddə.
Gör nə vaxtdır görmədim
Səni, ay doğma kəndim.

Şehli çəmən, çiçəklər,
Bənövşələr, nərgizlər.
Güldən çələng hörmədim
Sənə, ay doğma kəndim.

Baharım qış olubdur,
Buz bulaqlar donubdur.
Al yanağım solubdur
Sənsiz, ay doğma kəndim.

***1988***

## SORAĞINDADIR

Dünyanın ən gözəl nazı-neməti,
Vətən torpağının qucağındadır.
Günəş hərarəti, ana nəfəsi,
Odlar diyarının ocağındadır.

Dünyaya pəncərə deyən insanlar,
Dünyanın gözüylə baxar dünyaya,
Ömürdən ötüşən yaxşı, pis anlar,
Zamanın daş adlı varağındadır.

Əsrə bərabərdir insanın ömrü,
Yaman amansızdır həyatın özü,
Burulğan, fırtına, təlatüm görən,
Sərin küləklərin sorağındadır.

***2003***

## VİRANƏ QALIB

Dolğun təbiətin gözləri dolub,
Dalıb xəyallara dünəndən bəri.
Şıltaq şəlalələr çağlayıb, coşub,
Bulağın suyunu içəndən bəri.

Zamanın gedişi tərsə fırlanır,
Kainat oyanıb məəttəl qalıb.
İnsanlar yurdundan köçhaköçdədir,
Dünyanın özü də biganə qalıb.

Qarabağ talandı, Xocalı yandı,
Dağlara səs saldı, xalqın harayı.
Zəminə Xınalının könül sarayı
Uçulub, taxt-tacı viranə qalıb.

***1997***

## SƏNİ

Bu dünyaya bel bağlama,
Yaman günə salar səni.
Dərd önündə gəl ağlama,
İlan kimi çalar səni.

Yaradandı yazı yazan,
Halallıqla haqqı qazan.
Namərd olar sevda pozan,
Zirvələrdən salar səni.

Şərbət içmə yad əlindən,
Nadanların dad əlindən.
Zəminənin əllərindən,
Dünya özü alar səni.

***2009***

## DEMƏRƏM

Ömürdən keçən günlərin,
Birinə heyif demərəm.
Acılı-şirin günlərin
İlinə heyif demərəm.

Vurğunuyam dağın-daşın,
Əsiriyəm qəm-sirdaşın.
Gözlərimdən axan yaşın,
Selinə heyif demərəm.

Elə sanma dərdim yoxmuş,
Tale mənə zərbə vurmuş.
Xınalıyam saçlarımın,
Telinə heyif demərəm.

***2005***

## QİSMƏT

Mənim qismətimi yazana şükür,
Nə gözəl qismətim, yazım varıymış.
Bu bəxti-taleyi yazana şükür,
Ömrümün baharı, yazım varıymış.

Nə qədər şükr etdim, yaxşı nə varsa,
Çətin anlarımda qarşıma çıxdı.
Şahlıq quşudurmu, bu ağ göyərçin,
Çiynimə qonmadı, başıma çıxdı.

Zülmət gecələrdə ulduz da, ay da,
Çağlayan bulaq da, nəğməli çay da,
Arzular könlümdə ulduzlar sayda,
Qəlbimin telində sazım varıymış.

Tanrı da gözəllik sevir, Xınalı,
Gözlərin gözəllik sevir, Xınalı,
Halallıq-haqqından sevin Xınalı -
Tanrının payından payım varıymış.

***2004***

## HƏYAT GÖZƏLDİR

Al-əlvan çiçəkləri,
Yaşıl çəmənləri var.
Dağları, dərələri
Uca zirvələri var,
Həyat necə gözəldir.

Al yanaqlı qızları,
Əl-əlvan ulduzları.
Bəxti açıq, yolları
İgid ər-oğulları,
Həyat necə gözəldir.

Al səhəri nur ələr,
Günəş sehrinə bələr
Aylar keçib, il gələr
Könlüm qoşar nəğmələr,
Həyat necə gözəldir.

***04.03.2013***

## DÜNYANIN NEÇƏ YAŞI VAR

Kim bilir dünyanın neçə yaşı var?
Qıymətli incidən-ləldən qaşı var.
Nəfsi ac olandı, gözdə yaşı var,
Kim bilir dünyanın neçə yaşı var?

Bilmirəm kimlərlə, nə davası var,
Qanlı müharibə, hər savaşı var.
Baharı yayı var, soyuq qışı var
Kim bilir dünyanın neçə yaşı var?

Xanlara, bəylərə, qalmayan dünya,
Heç kimə əbədi qalmayan dünya.
Keçmişi yadına salmayan dünya,
Kim bilir dünyanın neçə yaşı var?

Dünyaya ər gəlib, ərənlər gedib,
Qeyrətli kişilər, hünərlər edib,
Savaşda, barışda gör nələr edib
Kim bilir dünyanın neçə yaşı var?

***01.03.2013***

## BU DÜNYANIN QONAĞIYIQ

Bu dünyaya zalım demə,
Üz döndərər səndən küsər,
Söz yarası ağır olur,
Qılınc kimi ötər-kəsər.

Bu həyatın qanunudur,
Günlər, aylar, illər keçər.
İnsan əcəl şərbətini
Son nəfəsdə, sonda içər.

Doğma olub, hər insana,
Üz verməyib o nadana,
Sükür eyləyək yaradana,
Bu dünyanın qonağıyıq.

***2011***

## XƏYALLAR KÖNLÜMDƏ QONAQ OLANDA

Ruh kimi canıma hopan məhəbbət,
Yol aldı, dağlara-daşlara sarı,
Baharda açılan bənövşə kimi
Gətirdi ömrümə şəxtanı-qarı.

Çiçəktək açılıb, gültək solanda,
Könlümə eşq ilə birgə dolanda,
Xəyallar könlümdə qonaq olanda,
Yaşatdın qəlbimdə saf arzuları.

Yadıma salıram ötən illəri,
Mənalı maraqlı, bir ömür sürdüm,
Yaxşılıq eyləyən, yaxşı kəsləri,
Xeyirxah əməldə, işində gördüm.

***2012***

## ŞAİR ÖMRÜ

Bir əbədi dünya kimi,
Yaşayacaq şair ömrü.
Bir əbədi həyat kimi,
İz qoyacaq şair ömrü.

Ana torpaq, uca dağ tək
Daşa dönmüş bir heykəltək.
Saf əməldə, təmiz qəlbdə
Yurd salacaq şair ömrü...

Əzablardan mətanətlə,
Məğrur çıxar, şair ömrü.
Təmiz adla, ləyaqətlə,
Gün tək parlar, şair ömrü.
Saf çeşmətək, çoşqunçaytək,
Axar-axar, şair ömrü.

***2002***

## AĞ GÜN GÖRMƏK İSTƏYƏN

Ağ gün görmək istəyən,
Alın tərin tökməli.
Elmin dərinliyindən,
Qaranlığı sökməli.
Ac da olsa dözməli,
Yorulsa da dözməli.
Babaların məsəli,

Yadda qalan binəli.
Yaman günün ömrünə,
Bir dəfəlik az qalıb,.
Yaxşı günlərsə səni,
Uzaqlardan səsləyib...
İşin yüngülə düşsə,
Bəxtin günlə ötüşsə,
Keçmişini unutma
Sənə kömək olanın,
Zəhmətini unutma.

***1982***

## SƏNİN NƏ İŞİN?

Ey torpaq üstündə dayanan insan!
Yer ilə göy ilə sənin nə işin?
Dənizlə, dalğayla pıçıldaşırsan
Dolan buludlarla sənin nə işin?

Göydə ulduzlarla vüqarlanırsan,
Qərib axşamlarla sənin nə işin.
Məhəbbət oduna alovlanırsan,
Əriyən şam ilə sənin nə işin?

Təbiət güllərdən don biçib geyir,
Min bir rənglər ilə sənin nə işin.
Dərələr cığırla uzanıb gedir,
Sıldırım qayayla sənin nə işin.

Bəxti qismətini hey danlayanda,
Sevinclə pay ilə sənin nə işin.
Gecələr yatmayıb oyaq qalanda,
Ulduzla, Ay ilə sənin nə işin.

***1984***

## HƏYATDA HƏR NƏYİN VARSA

Mən özümü çox sınadım,
Çətin İşdə, asan işdə.
Heç qorxmadım, çətin olar,
Ağır olar.

Eşitmişəm, bilirəm ki,
Sınaq çəkən mətin olar.
İnsan gəlir dünyaya ki,
Həm yaratsın, həm yaşatsın.
Mən insanam, mən anayam,
Övladıma nağıl dolu
Bir dünyayam.

Həsəd nədir, mən bilmərəm,
Darda qalmış bir kimsəyəm,
Köməyim yox, umanım çox,
Allah özün, sən kömək ol.

Sınaq çəkib, sınanmışam,
Şair kimi tanınmışam.
Həyatda hər nəyim varsa,
Təkcə özüm qazanmışam.

***2005***

## NOVRUZ BAYRAMI

Soyuq qış günləri əlvida deyir,
Çəmənlər öz yaşıl donunu geyir.
Nərgizlər lalələr, çölü bəzəyir,
Novruz bayramını hamı gözləyir.

Gəlişin mübarək, novruz bayramı,
Ürəkdən sevinsin, güslün qoy hamı.
Bəzəyək süfrəni, yandıraq şamı,
El-oba sevinsin, bayram axşamı.

Ocaqlar gur yansın, çıraqlar parlaq,
Novruz bayramından biz ilham alaq.
Bu gözəl bayramın əzizi gününü,
Hər zaman hamımız xoşbəxt yaşayaq.

***2007***

## XATIRLAYARSAN MƏNİ

Qönçə güllər, çiçəklər,
Bir zamanlar açanda,
Nərgizlər, yasəmənlər,
Yazda ətir saçanda-
Xatırlayarsan məni.

Yolu üstdə dayanıb,
Uzaqlara baxanda.
Xatirələr qəlbini
Yandıranda, yaxanda-
Xatırlayarsən məni.

Yoxluğum bilə-bilə,
Ağlasan gilə-gilə,
Xınalım deyə-deyə,
Ahın ucalar göyə-
Xatırlayarsan məni.

***2000***

## ARXALANMIŞAM

Sən elə bilmə ki, adi insanam,
Vüqarım ucadır, eşqim sönməzdir.
Niyyətim yol gedib yorulsa əgər,
Vücudum, varlığım yenə dönməzdir.

Soyuqda boranda üşüsəm əgər,
İsti nəfəsimi ocaq sanaram.
Sönməyən əbədi bir məşəl kimi,
Gecə də, gündüz də daim yanaram.

Uymadım nə eşqə, nə də işrətə
Vuruldum hər zaman halal zəhmətə.
Xınalıyam günəş olub yanmışam,
Mən ulu Tanrıma arxalanmışam.

***2006***

## CAN DEMƏ

Hər yetənə can yandırma can demə,
Kədərini unut daha qəm yemə
Yaxşılığı unudurlar sən demə,
Allah özü cəzasını verəcək.

Çox gedəmməz əməyini itirən,
Gül yerinə qaratikan bitirən.
Xəstə cana dəva-dərman yetirən,
Bal da yesə zəhər-acı içəcək.

Halal haqqa kimsə haram qatammaz,
Yalançılar mənzilinə çatammaz.
Əqli xəstə, xəstə düşər yatammaz,
Əzrayıl da əlacını verəcək.

Ay Xınalı, qəm eyləmə, heç zaman,
Gəlib keçər dağ başından çən duman,
Yaxşılığın çox olsa da unudan,
Sənə özü qiymət verər yaradan.

***13.09.2013***

## NAXÇIVAN, AY NAXÇIVAN

Gözəl olub keçmişin,
Qeyrətlidir hər kişin
Avand olsun hər işin
Naxçıvan, ay Naxçıvan

Sənə tay varmı görən,
Xəstəyə şəfa verən.
Sıldırımlı sal qayan
Naxçıvan, ay Naxçıvan.

Analar kəlağaylı,
Qızların çox həyalı,
Təbiətin səfalı,
Naxçıvan, ay Naxçıvan.

Xan Arazdır sirdaşın,
Bulaqlardır göz yaşın,
Gözəl keçir hər qışın
Naxçıvan, ay Naxçıvan.

***Naxçıvan 1996***

## OD OLMAZ DAHA

***Ocağın bir oda ehtiyacı var***

***Nəriman Həsənzadə***

Şaxtadan-sazaqdan üşüyüb dondum,
Sönmüş bir ocaqdan od olmaz daha,
Sevincdən uzağam kədərlə dolu
Qəm çəkən ürəyim şad olmaz daha.

Doğmalar içində tənhayam təkəm,
Dərdimi bicdim ki, bir libas tikəm.
Gedib cavanlığım hanı o, görkəm,
Xoşbəxtlik adıma, ad olmaz daha.

***2001***

## QADAN ALIM, ÇAL AY AŞIQ, ÇAL GÖRƏK!

Qadan alım, çal ay aşıq, çal görək,
Qan ağlayır sinəmdəki bu ürək.
Zəmanənin gərdişinə nə deyək,
Qadan alım, çal ay aşıq, çal görək.

Bu dünyadan bir vəfalı yar gedib,
Dağ başından duman gedib, qar gedib.
Bəxt sarayım uçub, sökək, ya hörək,
Qadan alım, çal ay aşıq, çal görək.

Taleyimdə bir gecikmiş sevdaya,
Gülə-gülə söyləmişdim mübarək.
Bu yollarda biz azmışıq neyləyək,
Qadan alım, çal ay aşıq, çal görək.

Zəmanənin üzü yaman qaralıb.
Bağçalarda gül-çiçəklər saralıb.
Gün-günorta gündüzlərim qaralıb,
Qadan alım, çal ay aşıq, çal görək.

Məclislərin açarıdır “Divani”,
Çal “Sarıtel”, “Gözəlləmə”, “Ruhani”.
“Yanıq Kərəm” dinlədikcə döz, ürək,
Qadan alım, çal ay aşıq, çal görək.

Uzun gecə yuxu gəlmir gözümə,
Şıltaq könlüm baxmır daha sözümə.

Söylənirəm, hərdən özüm-özümə,
Qadan alım, çal ay aşıq, çal görək.

Göy üzündən ulduzları sayıram,
İstəyirəm, mən xəyaldan ayılam,
Görən niyə mən yarımdan ayrıyam,
Qadan alım, çal ay aşıq, çal görək.

Sevgi-hörmət, bizim elin adəti,
Tanrı verib, bizə bu məhəbbəti,
Üzdə nuru, vəfanı-sədaqəti,
Qadan alım, çal ay aşıq, çal görək.

Şehli otu, bənövşəni titrədək,
Çəmənlikdə, yaşıllıqda əyləşək.
Şeir deyək, şirin sözlər söyləyək,
Qadan alım, çal aşıq, çal görək.

Payız gəlib, qış sorağın söyləyir,
Məclis əhli sənətkara güvənir.
Dərd əlindən neçə qədlər əyilir,
Qadan alım, çal ay aşıq, çal görək.

Nə yaxşı ki, bu dünyada saz varmış,
Fəsillərin ən gözəli yaz varmış,
Ömürlərdə şaxta-ayaz, qar varmış,
Qadan alım, çal ay aşıq, çal görək.

Ətotunun-kəkotunun ətrindən,
Ölən çoxdu, bu ellərin dərdindən.
Sən Zəminə Xınalının sözlərindən,
Qadan alım, çal ay aşıq, çal görək.

Ürəyimdə yanıb, ilham pərisi,
Dəryasında batıb, eşqin gəmisi.
Vəfasızdır dostlarımın hamısı,
Qadan alım, çal ay aşıq, çal görək.

Dərdim-qəmim ürəyimi göynədir,
Gah sızladır, gah ağladır göynədir.
And yerimdir, ulu tanrım, duz-çörək,
Qadan alım, çal ay aşıq, çal görək.

Şair qəlbi incələrdən incədir,
Ata yurdum, doğma elim İncədir,
Ayrılığı qəlbimi çox incidir,
Qadan alım, çal ay aşıq, çal görək.

Maralların dağ başından aşanda,
Dağ çayları, çağlayanda-daşanda.
Baş qaldırar, nəmişlikdə göbələk,
Qadan alım, çal ay aşıq, çal görək.

Cənnət guşəsidir, öz doğma elim,
Gözəllər sehrinə düşmüşəm neyim.
Öz bəxtim sarıdan açılmır eynim,
Qadan alım, çal ay aşıq, çal görək.

Göyəzənim göylər ilə qoşadır,
Sənətkarı xalqım özü yaşadır.
Telli sazı sevən varmı mənim tək,
Qadan alım, çal ay aşıq, çal görək.

Halal zəhmət, alın tərlə mən gərək,
Çətinliyə özüm sinə gərərək.
Ucalacam öz xalqımın qızı tək,
Qadan alım, çal ay aşıq, çal görək.

Qara üzlü, qara torpaq varsa da,
Geniş dünya insanlara darsa da.
Şahmar ilan məni vurub, çalsa da,
Qadan alım, çal ay aşıq, çal görək.

Elə bilmə, mən sizlərdən uzağam,
Bu dünyada müvəqqəti qonağam.
Öz dilimdə çağıracam, ay qağam,
Qadan alım, çal ay aşıq, çal görək.

Misri qılınc Koroğludan yadigar,
Telli sazı qəlbim necə unudar,
Həcər dönüb, Qaçaq Nəbi soraqlar,
Qadan alım, çal ay aşıq, çal görək.

Yandı Kərəm, Əsli deyib aradı,
Yazıq Məcnun, Leyli deyib soradı.
Türk oğludur, bu elimin soy adı,
Qadan alım, çal ay aşıq, çal görək.

Dost görmüşəm, dost yolunda hər zaman,
Əziyyətə, çətin işə qatlaşa.
Qurban olum, belə dosta-qardaşa,
Qadan alım, çal ay aşıq, çal görək.

Tale mənə qara yazdı yazımı,
Şaxta-boran etdi, bahar-yazımı.
Siz gətirin, mənə telli sazımı,
Qadan alım, çal ay aşıq, çal görək.

Ağlamağa qoymadılar dostlarım,
Mən onlarsız necə tənha qalardım.
Kövrələndə alışardım-yanardım,
Qadan alım, çal ay aşıq, çal görək.

Ömrümdə yurd salıb, həsrət karvanı,
Görüm dərdə düşsün, pisi-yamanı.
Allahım kəm eylə, ahı-amanı,
Qadan alım, çal ay aşıq, çal görək.

Vaxt olacaq mən köçəcəm dünyadan,
Soruşarsız oğlum Ayaz-Arzudan,
Söhbət açın, Zəminə Xınalıdan,
Şükür sənə, sən ey ulu Yaradan,
Qadan alım, çal ay aşıq, çal görək.

***2001***

# İTHAF ŞEİRLƏRİ

## QOŞA SEVGİ

***Rəsul Rza və Nigar xanım***
***Rəfibəylinin əziz xatirəsinə***

Rəsul Rza deyiləndə
Nigar xanım düşər yada.
Hər ikisi necə xoşbəxt
Bəxtəvərmiş bu dünyada.
Çətinliyə sinə gərib
Çox sevmişlər bu həyatı
Ömürləri dastan olub,
Sevgiləri bir bayatı
Duyğuları dərin olub,
Xəfif meh tək sərin olub,
Şeirləri sevənlərin
Qoşa ömür sürənlərin
Bağçalarda tər güllərin
Çəmənlərdə çiçəklərin
Ünvanıdır Nigar xanım, Rəsul Rza.

***2000***

## QƏLƏMİ SÜNGÜYDÜ

***Səməd Vurğunun əziz xatirəsinə***

Qələmi süngüydü, sinəsi dünya
Ömrü keçərdi baharla-yayla,
Analar sözünə qoşardı layla,
Körpələr yatardı şirin yuxuyla,
Çal aşıq, danışma belə dünyayla,
Çal aşıq, barışma belə dünyayla.

Axı Vurğun gedib uzaq səfərə,
Dərdini deməyib, heç bir nəfərə.
Dünya ömür verib gör bir kimlərə,
Ceyranlar oynayır ox ilə, yayla,
Çal aşıq, danışma belə dünyayla,
Çal aşıq, barışma belə dünyayla.

Dərə də dərd çəkir, dağ da dərd çəkir,
Ağ saç əllərini dağlara çəkir.
Vurğuna dərd verən, fələyə dərman,
Xınalı Zəminə söyləyər hər an,
Çal aşıq, danışma belə dünyayla,
Çal aşıq, barışma belə dünyayla.

***1983***

## MƏMMƏD ARAZ

***Xalq şairi Məmməd Araza***

Məmməd Araz!
Mamır oldun qayalarda,
Şeirlərin həkk olundu yaddaşlarda,
Nərə çəkdin haray saldın,
Oyandılar lal daşlar da.

Ayağa dur dedin özün,
Hərbə gərək hər bir sözün.
Gərək oldu öyüdlərin
Keşikdədir əsgərlərin.

Nidayla yazdığın şeir
Əsgərlərə silah oldu.
Ön cəbhədə səngərlərdə
Şeirin nurlu sabah oldu.
Nəfəsin də günəş kimi
Alışaraq nura döndü.
Bu müstəqil dövlətin də
Əzabını, zülümünü,
Xoş günlərin sədasını,
Tarixlərin yaddaşında
Bir əbədi məbəd kimi
Sətir-sətir şeirin ilə
Özün hördün Məmməd Araz!

Millətinlə, öz xalqınla
Şeirlərin qüdrətilə,
Dərd yaşadın, sevinc böldün,
Məmməd Araz!

***2009***

## ÇİÇƏKLƏRİ ÇOX SEVİRƏM

Çiçəkləri sətirlərə
Misra əvəzi düzmüşəm.
Bu gülləri Təngaltıdan
Afurçadan mən üzmüşəm.
Ətri necə xoşdu Allah,
Yaşıl yarpaq çiçəklərin...
Aparacam özüm ilə
Bu gülləri mən, şəhərə

İnanmıram indən belə
Yoldaş ollam mən qəhərə,
Vurğun oldum axan çaya,
Şəlaləyə al səhərə.
Çiçəkləri çox sevirəm
Çiçək özü səadətdir,
Xoş ətirli, gül qoxulu
Çiçək özü bir nemətdir.
Bu Tanrının möcüzəsi
Gülləri özü bir sərvətdir.

***Quba, Təngaltı 20.06.2008***

## AZƏRBAYCAN RADİOSUNUN "ƏSGƏR İSTƏYİ" VERİLİŞİNƏ

Səngər qoxusunun ətrini yayır,
Ellərə-evlərə - "Əsgər istəyi".
İgid oğulları hey salamlayır,
Efir dalğasıyla - "Əsgər istəyi".

"Əsgər istəyi"ndə - şəhid ruhları,
Milli Qəhrəçmanlar danışır sanki.
El gücü önündə dözməyən düşmən,
Bağrı qana dönüb, alışır sanki.

"Əsgər istəyi"ndən istəyimiz var,
Müjdəli xəbərlər yetirsin bizə.
Bu xalqın istəyi, xalqın arzusu,
Qələbə sorağın yetirsin bizə.

***2008***

## Azərbaycan radiosunun
## «OBALARDAN GƏLƏN SƏSLƏR» verilişinə

Ozanların gur səsidir
Qurbaninin haqq səsidir.
Dədə Qorqud nəfəsidir,
"Obalardan gələn səslər".

Həm tarixdi, həm yaddaşdı
Əsrlərə yar-yoldaşdı.
Çaylar kimi aşdı-daşdı,
"Obalardan gələn səslər".

Min illərin harayıdır
Ulu Tanrının payıdır.
Ömrün bahar, həm yayıdır,
"Obalardan gələn səslər".

Xətainin həvəsidir
Koroğlunun nərəsidir.
Sazın-sözün nəğməsidir
"Obalardan gələn səslər".

***2006***

## «QURBANİ MƏCLİSİ»
***"Dirili Qurban" məclisinə***

Həzin, xəfif bir meh əsdi,
Qarabağdan gələn səsdi,
Diridağdı – müqəddəsdi
Pirdi, «Qurbani məclisi».

Vətən dərdi bilənlərlə,
Savaşlarda ölənlərlə,
Yurd dərdini bölənlərlə,
Birdi, «Qurbani məclisi».

Ozanların nəfəsində,
Şairlərin nəğməsində.
Aşıqların sinəsində,
Sirdi, «Qurbani məclisi».

***2006***

## SƏRVİNTAC VƏ FƏXRİNTAC

***Polkovnik Sərvər Cəbrayılovun kiçik qızlarına***

Qönçə qızıl güldürlər,
Sərvintac və Fəxrintac.
Qoşa göyərçindirlər
Sərvintac və Fəxrintac.

Gözümüzün nurudur,
Başımızın tacıdır.
Sərdar baba deyir ki, -
Onlar bir cüt bacıdır.

Gülarə nənəmizdən
Nağıl payı istərlər.
Maraqla dinləyərlər
Sərvintac və Fəxrintac.

Həm ulduza bənzəyir,
Həm aya bənzəyirlər,
Üzlərində təbəssüm,
Günəşə bənzəyirlər.

***2002***

## "HƏRBİ AND" QƏZETİNIN 5 İLLİYİ MÜNASİBƏTİLƏ

Vətən keşiyində dayanan oğul,
Müqəddəs and olub "Hərbi andımız".
Ana vətənimiz Azərbaycanın,
Uğrunda içilər, hərbi andımız.

Hərbi and müqəddəs olduğu qədər,
Şərəfdir, şöhrətdir, qürur-vicdandır,
Ulu babalardan əmanət qalan,
Vətən torpağımız bir əmanətdir.

***2007***

## VƏTƏNOĞLU

***Bəhmən vətənoğlunun əziz xatirəsinə***

Göy üzündə gəzən ruhun,
Narahatdır, Vətənoğlu.
Kəlbəcərin həsrətlidir
Gör nə vaxtdır, Vətənoğlu.
İstisuyun suyu həsrət,
Ürəyimdə vardı bir dərd.
Sazın dinmir, özün söylət
Gör nə vaxtdır, Vətənoğlu.

Qara torpaq, qan ağlayır,
Tərtər çayın hey çağlayır,
Düşmən yolları bağlayır,
Gör nə vaxtdır, Vətənoğlu.

Ellər sənə yas saxlayır.
Kəlbəcərin qan ağlayır,
Şair deyib haraylayır,
Gör nə vaxtdır, Vətənoğlu.

***2003***

## ŞAİR NÜSRƏT KƏSƏMƏNLİNİN ÖLÜM XƏBƏRİNİ EŞİDƏNDƏ...

Yol gedirsən ruhlar olan dünyaya,
Sən sığmadın sevgi dolu dünyaya.
Şeirlərin əmanətdir bizlərə,
Bu dünyadan dərd götürüb gedirsən.

Mahnıların ürəklərdə qalası,
Toy-düyündə səni yada salası.
Ucaltmışdı səni dərdin qalası,
Bu dünyadan dərd götürüb gedirsən.

Şeirlərin sevgilərdən yoğruldu,
Nəğmələrin nur çeşmədən yoğruldu,
Şair qağam dərd çəkməkdən yoruldu
Bu dünyadan dərd götürüb gedirsən.

***2007***

## APARDI

***Milli ordumuzun şərəfli zabiti,***
***qeyrətli bacımız Məleykə Səmaya***

İsti yay günündə qopan tufanlar,
Məleykə Səmanı aldı, apardı.
Qartaltək dağlardan ayrıldığından,
Sağalmaz dərd, ağrı, amansız ölüm,
Əzrayıl ilan tək çaldı, apardı,
Məleykə Səmanı aldı, apardı.

Vətəni canımtək sevərəm dedi,
Göyçə, Qarabağsız ölərəm dedi.
Savaşa mən öndə gedərəm dedi,
Canımı qurban da edərəm dedi,
Əzrayıl ilan tək çaldı, apardı,
Məleykə Səmanı aldı, apardı.

Yurdumu yağıya verməm dedi,
Qələbə görməsəm ölmərəm dedi,
Mən odlar qızıyam sönmərəm dedi,
Fələk çox gəl dedi, gəlmərəm dedi,
Əzrayıl ilan tək çaldı, apardı,
Məleykə Səmanı aldı, apardı.

Qeyrətli bacımız, igid bacımız,
Sən hünər soraqlı, qeyrət tacımız,
Şəhid qardaşların səmadan baxdı, -
Göylərdən elə bil ildırım çaxdı, -
Əzrayıl ilan tək çaldı, apardı,
Məleykə Səmanı aldı, apardı.

Könlüm kaman kimi sızlayır bacım,
El-obam yas tutub ağlayır bacım.
Düşmənlər yolları bağlayır bacım,
Dünyadan köç edir qalmayır bacım,
Əzrayıl ilan tək çaldı, apardı,
Məleykə Səmanı aldı, apardı.

Məleykə ölməyib, o, sağdır deyin,
Düşmənlər eşidər, sevinər, bilin.
Dur bacım, sən hərbi mundiri geyin,
Dizində taqətin, yoxdurmu heyin?
Əzrayıl ilan tək çaldı, apardı,
Məleykə Səmanı aldı, apardı.

***2009***

## GÖY TÜRBƏMƏ QURBANAM

***Hacı Mahmud Əfəndi türbəsinə***

Mənim kəndim o kəndlərə tay deyil,
Mənim kəndim bir ayrıca aləmdir.
O kənddə ki, allah evi ucalır,
Türbəsinə qurban olum kəndimin.

Göy türbəmin göy qapısı ocaqdır,
Ocağına qurban olum türbəmin.
Qonaq gələr, yaxın-uzaq ellərdən,
Ocağına-qucağına turbəmin.

Ocağına qurban olum türbəmin,
Qucağına qurban olum türbəmin.
Ziyarətdir dağdağanı, yarpağı,
Şəfalıdır sərin suyu-bulağı,
Yarpızı, nanəsi, bağayarpağı.

Otuna da, suyuna da qurbanam,
Torpağına, daşına da qurbanam,
Hasarına, qapısına qurbanam,
Göy qapılı, Göy Türbəmə qurbanam.

## MƏN NƏLƏR ÇƏKİRƏM
***Ata yurduma***

Gecələr mən hərdən yuxulayanda
Ruhum İncəlidə gəzib dolanır.
Gəzir çay qırağı, bulaq başını,
Bağlara çəpərdən gizlin boylanır.

Əlim də çatmasa doğma kəndimə,
Ürəyim daima onunla vurur.
Darıxıb özümə yer tapmayanda,
Gözlərim yaşarır, ürəyim dolur.

İlahi! Mən nələr çəkirəm görən,
Bunları heç duyan, bilən vardımı.
Bizə uşaq vaxtı noğul paylayan,
Nurani nənələr görən sağdımı?

***1985***

## ATAMA İTHAF

Təmiz qəlb, saf vicdan verdiyin üçün,
Ata, vüqarının qurbanı olum.
Doğru söz, düzgün yol seçdiyin üçün,
Ata ilqarının qurbanı olum.

Oğul-qız böyüdüb, başa çatdıran
Ata ömürünün qurbanı olum.
Anamı saf qəlbdən sevdiyin üçün,
Ata, bu sevdanın qurbanı olum.

Həyatda yüz yaşa, min yaşa, ata,
Ömrünün-gününün qurbanı olum.
Sən artıq babasan, ağsaqqal baba,
Sənin bu çağının qurbanı olum.

***1985***

## AŞIQ ŞƏRQİYYƏ ZƏNGİLANLIYA

Çal Şərqiyyə, çal ürəkdən,
Qəmi unut, bilərəkdən.
De qoşmadan, de təcnisdən,
Bir maraqlı, xoş məclisdən.

Sən çaldıqca, daş yumşalar,
Qocalar da cavanlaşar,
Çaylar aşır, bulaq daşır,
Dərd də bizdən uzaqlaşır.

Ay yurdumun aşıq qızı,
Sən çaldıqca telli sazı,
Ürəyimdən xəbər verir,
Gəncliyimin bahar-yazı.

Çal Şərqiyyə, çal ürəkdən,
Dərdi unut, bilərəkdən,
Gəl uzaq ol, kövrəlməkdən
Sazlı-sözlü məclis yarat.

***2005***

## NİZAMİ

***Millət vəkili***
***Nizami Cəfərova***

Uca dağsan dağlar sənə baş əyir,
Barlı bağsan, bağlar sənə baş əyir,
Seçicilər sənə əhsən söyləyir
Etimadı doğrultmusan, Nizami!

Millət vəkilisən hörmətə layiq,
Sözünə , əhdinə, eşqinə sadiq,
Qeyrətinlə öyünürük, biz şadıq,
Qərinələr yaratmısan Nizami.

Türk dünyası, Azərbaycan dövləti
Bəlli olub, bu dünyaya qüdrəti
Vətən oğlu Vətənimin, şöhrəti
Al bayrağı ucaltmısan, Nizami!

Sən xalqımın alim, aqil oğlusan,
Müdrik insan ululardan ulusan,
Od-yurdunun, alovusan-odusan
Sən yurdumun nər oğlusan, Nizami!

Tanrı səni bəd nəzərdən qorusun,
İşin avand, yolun uğurlu olsun.
Ömrün-günün hər an işıqlı olsun,
Elimin hünər oğlusan, Nizami
Sən xalqımın nər oğlusan, Nizami.

***2013***

## DOYMADIM SƏNDƏN VƏTƏN

***Qazax mahalı Aslanbəyli kəndinin ilk hərbi təyyarəcisi olmuş kapitan Yaşar Mail oğlu Əhmədovun əziz xatirəsinə...***

Ömrün bahar çağında,
Göylər mənə dar oldu.
Ürəyimdə yarımçıq
Qalan arzular oldu.
Doymadı gözüm səndən
Doymadım, səndən Vətən!

Yollarımda duman-çən
Yollarıma çıxdın sən,
Səmadan-zirvələrdən,
Fələk niyə yıxdın sən?
Doymadı gözüm səndən
Doymadım, səndən Vətən.

Çiynimdəki ulduzlar,
Göy üzündə parladı,
Mənim hərbi təyyarəm
Buludları yarardı.
Doymadı gözüm səndən
Doymadım səndən Vətən!

Son nəfəsdə söylədim!
–Vətən sənin özündən
Solmayan gül üzündən
Gecəndən-gündüzündən
Doymadı gözüm səndən
Doymadım səndən Vətən.

***11.02.2013***

## BACIM

***Gülnigar Rəhimliyə***

Gəzir eldən-elə sözün söhbətin,
Ülvi duyğuların yurduma bəzək,
Leyli tək eşqinə sədaqətlisən,
Nağılsan, dastansan, desəm az olar.

İlahi!.. Bu zərif, nəcib qadının,
Gözündə, könlündə Vətən sevgisi,
Aşıqlar şerinə mahnı qoşandan,
Ruhu saz üstündə köklənən bacım.

Ruzindir halallıq, öz alın tərin,
Əməyin heç zaman boşa çıxmasın,

Həyatın qanunun beləymiş, yəqin,
İsmətli analar tənha qalarmış,

Mərdliyin, iradən sənin şərəfin,
Ləyaqət, əqidən, eşqin, ilqarın,
İllərdir səninlə yol gedir, bacım.

***11.11.2001***

## NƏSİB BABA

***Aslanbəyli kəndinin hörmətli***
***el ağsaqqalına...***

Ata əziz, ana zərif,
Atam bir məktub göndərib..
Deyir, Nəsib baban sənə,
El içində verdi tərif,
Sağ ol, səni Nəsib baba,
Var ol səni Nəsib baba.

Soruşuram hal-əhvalı,
Görməyəsən heç zavalı.
Elimizin ağsaqqalı,
Nəsib baba, Nəsib baba.

Heç olmasın, dərdin-sərin,
Xoşbəxt olsun nəvələrin.
Xalqa bəllidir hünərin,
Nəsib baba, Nəsib baba.

İstəmirəm var-dövləti,
Unutmaram səxavəti.
Olsun Allah əmanəti,
Nəsib baba, Nəsib baba.

***1996***

## HÖRMƏTLİ ÇİNGİZ EYYUBOĞLUNA

Gedənlərlə yol gedib, gələnlə qayıdıram,
Öz-özümə od olub, öz içimdə yanıram.
Niyə görən, ay Allah heç bilmirəm nə üçün,
Öz dərdimi özgəyə açmağa utanıram.

Dərdsiz insan varmıdır, bu həyatda, dünyada
Doğmalar uzaq olub, doğmalar düşmür yada,
Nəsil, tayfa, yad olub qalmaqallı dünyada
Çox sağ ol ki, qardaşım məni salmısan yada.

***AAHDM-də kursantlarla görüş zamanı***

***1997***

## FƏRİDƏ LƏMANA

**F**əsillər ömründən, günündən keçir,
**Ə**məlin, əməyin saflıq içində.
**R**ahatlıq tapmırsan şeirlərində,
**İ**radən, vücudun polad biçimdə
**D**ürrüsən şeiriyyət aləminin sən,
**Ə**hsən, şair bacım, sənə min həsən!

**L**irika aləmin bütöv dünyadı,
**Ə**llərin yaxşılıq qurub-yaradır.
**M**üqəddəs Göy türbən sənə dayaqdır,
**A**dınla hər zaman fəxr edirəm mən,
**N**adir bir incisən, əhsən min əhsən.

## GETMƏ... SƏN

***Südabə Sərvinin "Qızıma məndən sonra çatası şeirləri" şeirini oxuyandan sonra qələmə aldım***

Nur üzündən dərdə sərhəd çəkmisən,
Qüssə-qəmi ürəyində əkmisən,
Kim bilir ki, sən nələri çəkmisən,
Bu dünyadan inciyərək getmə sən.

Sirlərini bir kimsəyə açmadın,
Dərd əlindən baş götürüb qaçmadın,
Qönçə idin çiçək olub açmadın,
Bu dünyadan inciyərək getmə sən.

Səndən sonra dərd çəkəcək qızın da,
Xatirə tək qalacaqdır yazın da,
Tufan-çiskin qalacaqdır yazında,
Bu dünyadan inciyərək getmə sən.

Öz içində özün yandın-alışdın,
Elə bildim qismətinlə barışdın.
Kim deyər ki, dərdə-qəmə alışdın,
Bu dünyadan inciyərək getmə sən.

Amansızdı bu dünyanın özü də,
Zəhər olub, "əzizlərin" sözü də,
Çoxdan sönüb ocağının közü də,
Bu dünyadan inciyərək getmə sən.

Gözəlliyin öz başına bəladı,
Şux qamətin uca dağdı, qaladı,
Küskün könlün dərd əlindən yaradı,
Bu dünyadan inciyərək getmə sən.

Öz qızın yox, bütün qızlar kövrələr,
Dilə gələr yas tutarlar nəğmələr,
Məni yaman coşdururdu bu kəlmələr,
Bu dünyadan inciyərək getmə sən.

*29.XII.2011*

## SALAM DOĞMA KƏNDİM, DOĞMA MƏKTƏBİM

Salam doğma kəndim, doğma məktəbim,
Sənin görüşünə gəlmişəm bu gün.
Çoxdan həsrətini çəkdiyim üçün,
Sevincim daşsa da kövrəlmişəm mən.
Bu kənddə doğmalar əzizlərim var,
Mənə elm öyrədən müəllimlərim var,
Hələ deyilməmiş çox sözlərim var,
Al məni qoynuna, a doğma kəndim,
Al məni qoynuna, doğma məktəbim.
Gözümdən yaş gəlsə sil gözlərimi,
Danışsam unutma bil dərdlərimi,

Dərdim dağ boydadır birmi-ikimi,
Vaxtsız itimişəm öz sevgilimi,
Yox, kədər önündə aciz deyiləm.
İnanma dərd çəkib vaxtsız əyiləm,
Dara saçlarımı a, doğma kəndim,
Dara saçlarımı doğma məktəbim,
Çətinə düşəndə, dara düşəndə,
Göy Türbəm köməyim olubdur mənim,
Əsgər libasında keşik çəkəndə
Eşqin ürəyimə dolubdur mənim,
Qoynunda dil açıb uzaqlaşıram,
Olan dərdlərimdən uzaqlaşıram,
Ötən günlərimə yaxınlaşıram,
Dərin ehtiramla salamlaşıram,
Salam doğma kəndim, ay ata yurdum,
Salam doğma kəndim, doğma məktəbim.

***2001-ci il***

## İLK EŞQİN AĞRILARI

***Mərkəzi Klinik Hospitalda çalışan***
***həkim Pünhanə xanıma***

Ağır yol qəzasında həlak olubdur yarı,
Dərddən solub yanağı, donubdu dodaqları,
İçində qovrulubdu neçə min arzuları,
Ürəyində yurd salıb İlk eşqin ağrıları.

Hər dəfə görüşəndə gözlərinə baxıram,
Göydən ulduzlar kimi ürəyinə axıram,
Pünhanənin dərdinə alışıram-yanıram,
Ağ xalatlı həkimi bir mələykə sanıram.

Əksi gözü önündə, özü iş başındadır,
Baxırsan ki, cavandır ancaq dərd yaşındadır,
Qəfləti gələn ölüm gözlə qaş arasındadır.
Ağ xalatlı Pünhanə dərdin zirvəsindədir.

Yarı köçüb dünyadan sevgisi yetim qalıb,
Gündüzləri dözsə də gecələrdə ağlayıb,
Kimsəyə söz deməyib, öz bəxtini bağlayıb,
Yarı köçüb dünyadan Pünhanə tənha qalıb,
Yarımçıq sevgisiylə bu dünyada tək qalıb.

***2011***

## NƏDƏN QOCALIRSAN

***Akif Səmədə***

Dönə-dönə and verirəm
Az yaz, əcəldən, ölümdən,
Hələ sənin nə çağındır
Qocalırsan dərd əlindən.

Evin bircə oğulusan,
Ocağısan, çırağısan
Söylə mənə, söylə görüm,
Niyə, nədən qocalırsan.

Yaşdan cavan, üzdən qoca,
Şair qağam, Akif Səməd.
İncəlilər gözündə sən,
Dağlardan da ucadasan.

Hamı sənə şair deyir,
İncəlilər candan sevir,
Niyə axı, nədən görən
Ürəyin səni incidir?

***1996***

## VAXTSIZ KÖÇ EYLƏYƏN OQTAY

***Hərbi kommisar polkovnik Seyidov Oqtay Xəlil oğlunun əziz xatirəsinə***

Obam-elim yasa batıb
Dərd bizləri çalıb-çapıb.
Adın dildə əzbər qalıb,
Vaxtsız köç eyləyən Oqtay,
Lay-lay Oqtay, lay-lay Oqtay.

İncə çayı ağı qoşdu,
Evdə-işdə yerin boşdu,
Göz yaşlarım aşdı-coşdu,
Vaxtsız köç eyləyən Oqtay
Lay-lay Oqtay, lay-lay Oqtay.

Ordumuzun uca dağı,
Telli sazın deyir ağı,
Çəkdin sinəmizə dağı,
Vaxtsız köç eyləyən Oqtay
Lay-lay Oqtay, lay-lay Oqtay.

Gedər-gəlməz yoldan dönməz,
Ulduzların heç vaxt sönməz,

Oqtay kimi oğul ölməz,
Vaxtsız köç eyləyən Oqtay,
Lay-lay Oqtay, lay-lay Oqtay.

***2006***

## CİJİM* ŞİRİN BİR NAĞILDI
***Niyar nənəmə***

Niyar cijim nuranıydı,
Niyar cijim  arzuluydu.
Ağzı yaşmaq, başındakı kəlağaydı...
Namaz qılan, ağzı-quran dualıydı.
Qurbanlıqda ağ qoyundan qurban kəsib,
Qapı-qapı paylayırdı.
Su daşından, su götürüb,
Samovarı qayandırdı....
Xamralını, şirin kömbə,
Fətir bişirib, sulayırdı,
Kölgəlikdə... ağac altda taxt üstündə
Bizə dürmək paylayırdı,
Çijim şirin bir nağıldı,
Çijim əzəl bir dünyaydı,
Cijim gözəl bayatıydı,
Çijim, başqa həyat idi.

---

* Ciji- Qazax mahalında nənə deməkdir.
1995-ci ildə Nüsrət Kəsəmənli AAHDM-də kursantlar qarşısında çıxış edərkən demişdir. ki, “ciji” sözünü Azərbaycan ədəbiyyatına ilk dəfə Zəminə Xınalı gətirmişdir.

## XINALI OLUB

***Özümlə baş-başa qalanda***

Tanrı dərgahına sığınmışam ki,
Vətən keşiyində dayana bilim.
Zülmət gecələrdə yatmıram hətta,
Günəş şəfəqindən oyana bilim.

“Qızılı qan” ilə Vətən sözünü,
Köksümün üstünə həkk eyləmişəm.
Səsimə səs verən ana Vətəndə,
Vətəni, Vətən tək dərk eyləmişəm.

Ən ali rütbədir, ana rütbəsi,
Bu adın ən uca zirvəsindəyəm.
Oxunan marşların müəllifi tək
Əsgər oğulların nəfəsindəyəm.

Tanrının sevimli bəndəsi kimi,
Saçlarım binadan xınalı olub.
Əsgəri xidmətdə bir əsgər qadın
Deyərlər: –Zəminə Xınalı olub.

***H.Əliyev adına AAHM***

***6.XI.2012***

## OXUYA BİLMƏDİ MƏKTUBLARINI

***Əziz Musanın «Dağlara məktub»***
***kitabını oxuduqdan sonra qələmə aldım***

Dağlar, uca dağlar sən yazanları,
Oxuya bilmədi məktublarını.
Saxlaya bilməyib göz yaşlarını
Oxuya bilmədi məktublarını.

Dağ-dağdır, dağın da min bir dərdi var,
Şəhidi-itkini, igid mərdi var.
Çadır şəhərindən nə xəbəri var?
Oxuya bilmədi məktublarını.

Araz sahilində mamırlı daşlar,
Göydəki buludlar, yağan yağışlar,
Zirvədə qartallar, çəməndə quşlar
Oxuya bilmədi məktublarını.

Oxşamır, titrəmir Xan çinarları,
Əyilib qaməti, qırılıb beli.
Dil açır, ağlayır Arazın seli,
Oxuya bilmədi məktublarını.

Düşmənlər araya ayrılıq saldı,
Yaylaqlar arandan bixəbər qaldı,
Güllərin dərdini bülbüllər aldı,
Oxuya bilmədi məktublarını.

Ocaq, yurd yerləri qalıb həsrətdə
Tapıb ürəkləri kədər də, dərd də.
Bağlanıb bərə də, bağlanıb bənd də
Oxuya bilmədi məktublarını.

Qurbaninin qəbri qeybə çəkilib,
Ruhundan yerlərə kədər səpilib.
Sızlamır telli saz, o tilsimlənib
Oxuya bilmədi məktublarını.

Dirili dağının daşı sökülüb,
Bənövşə yas tutub, boynu bükülüb,
Mərcan bulaqların gözü tökülüb,
Oxuya bilmədi məktublarını.

Qarabağ düşmənə bir şikar olub,
Qayalar lal olub, daşlar kar olub,
Ağlayıb-ağlayıb dağlar kor olub,
Oxuya bilmədi məktublarını.

Zəminə Xınalı dağlar qızıdı,
Dağların dərdindən qəlbi sızladı.
Dağ çayı, bulaqlar həsrətdə qaldı,
Oxuya bilmədi məktublarını.

***2008***

## ŞINIX TƏRANƏLƏRİ

*Aqşin Tariyeloğlu sazda ifa edərkən*

Qollarıma güc verir,
Qəlbimi sevindirir.
Dinməyəni dindirir,
Könlümün nəğmələri
"Şınıx təranələri"

Dağ çayıdır çoşur o,
Nəğmələri qoşur o.
Halımı soruşur o
Könlümün nəğmələri,
"Şınıx təranələri"

Günəşdimi, nurdumu?
Cənnət edib yurdumu.
Çoşar, toylar oldumu,
Könlümün nğmələri
"Şınıx təranələri"

Aşıqlar sazda çaldı,
Könlüm xəyala daldı.
Məni özümdən aldı,
Könlümün nəğmələri
"Şınıx təranələri"

***2012***

## AĞ DUVAQDA KÖÇƏN QIZ

***Gəlin köçən qızlara***

El-obanın adətilə köçürsən,
Niyə nədən ürəyini üzürsən,
Yanağına göz yaşını düzürsən,
Ağ örpəkdə, ağ duvaqda köçən qız.

Xeyir-dua verir, atan-anan da,
Çəkilib yolundan çən də, duman da.
Günəş kimi nur parlasın dünyan da
Ağ örpəkdə, ağ duvaqda köçən qız.

Vağzalının səsi səni kövrəldib,
Qönçə gülsən, çəmənlərdən gül dərib.
Tanrı, sənə öz yarını göndərib
Ağ örpəkdə, ağ duvaqda köçən qız.

Oğlan evi, əllərində xonçası,
Gözəl qızlar əllərində xınası.
Gəlin köçür bu gün sular sonası,
Ağ duvaqda, ağ örpəkdə köçən qız.
Ağ örpəkdə, ağ duvaqda köçən qız.

***2004***

## UCAL UCALARA

***Nəvəmə ithaf***

İllərin kədəri, illərin qəmi,
Sovuşdu könlümdən kədər həmdəmi.
Baban hərbiçiydi, söylə səndəmi –
Vətən keşiyində dayanacaqsan?

Atan da hərbiçi, əmin hərbiçi,
Marşlar müəllifi, nənən hərbiçi.
Bütün ailəliklə, hamı hərbiçi,
Sən də bu peşəni daşıyacaqsan.

Yastığın altına qılınc qoyduq ki,
Mənfur düşmənlərə qalib gələsən.
Böyü igid nəvəm, cəngavər ol sən,
Düşmənin başına od ələyəsən.

Anan Qarabağda göz açmışdısa,
Beşiyi gülləyə tutuldu onun.
Sənintək oğulu Tanrı verdisə,
Böyü sahibi ol, o gözəl yurdun.

İlk oğul balamın, ilk oğulusan,
Gəlnim Qubaxanımın ilk noğulusan.
Anan Qarabağlı-atan Qazaxlı,
Ellərdən-ellərə körpü salmısan.

Ucal-ucalarda görüm mən səni,
Sevindir hər zaman sən öz nənəni.
Vətən sevgisiylə böyü ay Akif,
Qoru öz yurdunu, öz vətənini.

***23. 11.2013***

## ƏSGƏR OCAĞINA

***"Əsgəri xidmət"dən ehtiyata buraxılandan sonra "Əsgər Ocağı" adlı qəzeti təsis etdim***

Çatıb Ocağını səngər başında,
Əsgərlər xoş xəbər yetirəcəkdir.

Xoş müjdə, Qələbə, sülh sorağını,
Zəfər çələngini gətirəcəkdir.

Çatıb Ocağını səngər başında,
Vətən oğulları bayram edirlər.
Ananın-bacının alqışlarında,
Onu görənləri heyran edirlər.

Əsgər ocağının hərarətindən,
Yurdumuz-yuvamız isinəcəkdir.
Dönüb yurd,  yerinə soydaşlarımız,
Ürəkdən şad olub sevinəcəkdir.

Çatın bu ocağı alışsın-yansın,
Göydə durnalar da qanad saxlasın,.
Ocağın başında Əsgər dayansın,
Bağrı qana dönən düşmən çatlasın,
"Əsgər Ocağımız" Vətəndə yansın.

***2013***

## ƏBƏDİ HEYKƏLLƏŞİB

*Şairə Mərcan Şahbuzlıya*

Sədaqətli dost kimi,
Tanımışam Mərcanı.
Ürəyi dünya boyda,
Sevir Azərbaycanı.
Heç kəsə bənzəməyən,
Mərcan kimi dost hanı
Millətini çox sevir.
Bayrağa səcdə edir.

Cəngavərdi desəm az,
Kişi tək qeyrət edib.
O, yolundan dönməzdir
Nadanlar heyrət edir.
Bata-batın suyundan,
Şahbuzdan bəhrələnib,
Günəş hərarətlidir
Qəlbinə nur ələnib.

Xınalının qəlbində,
Mərcan Şahbuzu adı.
Sədaqətli dost kimi,
Əbədi heykəlləşib.

***2012 oktyabr***

## ŞƏMS XANIMA

Göydən yerə enən mələk,
Söylə, danış-danış görək.
Ürəyimdə tutsan dilək,
Tanrı özü dayaq olar.

Tənha sanma sən özünü,
Tanrıdan çəkmə gözünü,
Deyirəm sənə düzünü,
Tanrı sənə dayaq olar.

Çox ağlama, çox sızlama,
Ürəyini heç dağlama.

And verirəm gəl ağlama,
Tanrı sənə dayaq olar.

Ulu tanrı varlığına,
Sığınmısan, inanmısan.
Demə ki, tənha qalmısan,
Tanrı sənə dayaq olar.

Uca Allah, uca Tanrı,
Halallığın, haqqın yarı.
Yaşat, ucalt arzuları,
Tanrı sənə dayaq olar.

***2013***

## ATAM KÖÇDÜ DÜNYADAN

Göy gurladı, dağ oynadı yerindən,
Ata dedim, tutdum onun əlindən.
Can söylədi eşitdim öz dilindən,
Atam köçdü, bir əbədi dünyaya.

Ümidim o, anda bitdi, tükəndi.
Dünya insanların belin bükəndi,
Ağladım, ağladım səbrim tükəndi.
Sual etdim belə, qansız dünyaya.

Gözlərimdən dünya düşüb, küsmüşəm,
Gülüşümü bir yaylığa bükmüşəm.
Atasızlıq nədir? – indi bilmişəm,
Səfər edib, gedər-gəlməz dünyaya.
Atam köçüb bir əbədi dünyaya.

***15.08.2012***

## İNCƏ DUYĞULARDA YAŞAYACAQSAN

***Türk generalı Zəki Paşa Durlanıka***

**Musiqi:** ***Ələsgər Xəlifə***

Günəş şəfəqilə, günəş nuruyla
Tanrı sevgisiylə dünyaya gəldin.
Vaxtsız ölümünlə, son gedişinlə,
Azəri-türk xalqın qəlbin göynətdin.

Ölüm xəbərini eşidən zaman,
Dünyamız qaranlıq zülmətə döndü.
Sənə güvənərək güc alanların
Əyildi qaməti, qırıldı qolu.

Bir Ramazan günü, Ramazan ayı,
Tanrı dərgahına qovuşdu ruhun.
Sayın Zəki Paşa sevimli insan,
İncə duyğularda yaşayacaqsan.

Sayın Zəki Paşa türk dünyasında,
Atatürk adını müqəddəs bildi.
Tanrı sevgisiylə dünyaya gəldi,
Müqəddəs insan tək dünyadan getdi.

## AZƏR BALAM

***Azər Aqşinoğlunun bir yaşına***

Azəri yurdumun Azər balası,
Böyü kişi kimi, böyü nər kimi.
Səndə gözəllərin gözü qalası,
Böyü kişi kimi, böyü ər kimi.

Soyun, soyadının kökü dərindi,
Sən muğam beşikli Qarabağlısan,
Dinlə sözlərimi, eşit sən indi,
Düşməndən qisası sən almalısan.

Ağ atlı oğlan ol! Yolun uğurlu,
Həyat yollarında ucalığa get.
Mahirə nənənin, Tariyel babanın,
Müdriklik çağında köməyinə yet.

Sənin ad gününə yığışıb hamı,
Məfkürə nənən də, Sirac baban da.
Sevinsin, şadlansın, yandırsın şamı
Əmin də, dayın da, bibin, xalan da.

Anan Vüsalənin, atan Aqşinin,
Gözünün nurusan, ilk nübarısan,
Məhəbbət payından – tanrı eşqinin,
Sevgidən yoğrulmuş ilk baharısan.

Atalı-analı böyü, başa çat,
Tanrı yollarında köməyin olsun.
Sayılıb seçilən, firavan həyat,
Barlı-bərəkətli əməyin olsun.

Böyü Azər balam, böyü başa çat
Arxa ol, kömək ol, dayaq ol bizə,
Bircə yaş nədir ki, sən yüz yaşa çat
Azəri yurdunda dayaq ol bizə.

Dünyanın ən gözəl nemətlərini
Zəminə Xınalı sənə arzular.
Azərim, ad günün, bu şad günündə,
Sevinib şad olsun bütün qohumlar.

***25 dekabr***

## AZƏR AQŞİNOĞLUNA

***(Nəğmə)***

Vətənimin adını,
Azər balam daşıyır.
Dünya boyda sevinclə
Arzularla yaşayır.

**Nəqarət:**
Şirindir bal sözləri
Nur saçır nur gözləri.
Sevindirir bizləri
Azər balam, bal balam.

Atasına oğuldur
Nənəsinə noğuldur.
Babasına sərvətdir
Azər Şirin nemətdir.

**Nəqarət:**
Şirindir bal sözləri
Nur saçır nur gözləri.
Sevindirir bizləri
Azər balam, bal balam.

***25 dekabr 2006***

## ÇAL ƏDALƏT

***Aşıq Ədalət Nəsibova həsr olunan bu şeiri ustad özü «Yanıq Kərəmi»havasında «Dağ boyda dərdin var, vüqarım uca» –adlı audio kasetimdə 2004-cü ildə müşayiət etmişdir.***

Durna boğaz sazın sinən üstündə,
Sən çaldıqca «Odlar yurdu» nurlanır.
Ruhdan düşmüş beli bükük qoca da,
Saz səsindən cana gəlir, canlanır,
Çal Ədalət, Tanrı sənə yar olsun!

Cəng-Misri dinlədikcə oğullar,
Savaş üçün, döyüş üçün ruhlanar.
Xain düşmən saz səsindən xoflanar,
İçin-için alovlanar, odlanar,
Çal Ədalət, Tanrı sənə yar olsun!

Bu nə sirdir, ellər sənə vurğundur,
Saz sehrilə dərdliləri ovundur.
Dinlədikcə hər kəs dərdin unudur,
Telli sazın tanrı verən bir nurdur.
Çal Ədalət, Tanrı sənə yar olsun!

Hərbiçi şairə – Zəminə Xınalı,
Ömrün bahar çağı yardan aralı.
Dərd çəkir, sinəsi olub yaralı
Məlhəmi telli saz, düz ilqar olsun,
Çal Ədalət, Tanrı sənə yar olsun!

***2000***

## «İNCƏGÜLÜ» ÇALANDA

***Aşıq Avdıya ithaf olunur***

Avdı babam, əsrlərin yaddaşı,
Şirin sözün, telli sazın sirdaşı.
Aşar-daşar bulaqların göz yaşı,
Avdı babam, «İncəgülü» çalanda.

İncə dərəm, İncə çaya calanar,
İncə çayı, kəmər kimi dolanar,
Bu yerlərdə səmimiyyət yaranar,
Avdı babam, «İncəgülü» çalanda.

Dərd də qovar, qəm də qovar kədəri,
Tanrı yazıb bu yazını-qədəri,
Öyünər obamın igidi-əri,
Avdı babam, «İncəgülü» çalanda.

Çöl-çəmənlər çiçək açar baharda,
Yaraşar dağlara duman da, qar da,
Kimsə qalmaz nə çətində, nə darda,
Avdı babam, «İncəgülü» çalanda.

Sirli dünya kimlər oldu qonağın,
Suallara cavab verir sorağın.
Dilə gəlir şeir dolu varağın,
Avdı babam, «İncəgülü» çalanda.

***1997***

## AĞSAQQALLAR ŞURASINA İTHAF

Ötsə qərinələr, ötsə də dövran,
Dahilər demişkən deyirik hər an.
Aqil babaların söz kəlamından,
Ağsaqqal nurundan bəhrələnmişik.

**Nəqarət**
Məğrur yerişlidir, qartal gözlüdür,
Mənim diyarımın ağsaqqaları.
Nurani simalı, dağ vüqarlıdır,

Mənim diyarımın ağsaqqalları.
Ağsaqqal ayağı dəyən yerlərdə,
Bərəkət, ruzi var, xeyir-dua var.
Odlar diyarının səlnaməsində

Ulu Öndər kimi böyük düha var.
Ağsaqqal adının ucalığında,
Tanrı sevgiisi var, günəş nuru var.
İsti nəfəsində, gur ocağında,
Qorqud babamızın odu, qoru var.

***2007***

## UCALASAN SƏN

***Şair Barat Vüsalın «Qazaxda yaşadım mən öz ömrümü» - kitabının oxuduqdan sonra qələmə aldım.***

Qazaxda yaşayan şair qardaşım,
Köhnə kişilərdən nişanəsən sən.

Çapıb Dilböz atı, qılınc əlində,
Düşməndən qisası alasısan sən.

Saza səcdə edib, sözə tapındın,
Qırova bürünüb kürkün, yapıncın.
Sən odlar oğlusan dən-dəndir saçın,
Köhnə yurd yerindən yaralısan sən.

Yandır yurd yerində ocağı-odu,
Köhnə kişilərin peşəsi budu.
Pərən sal göylərdən qara buludu,
Kindən-kidurətdən aralısan sən.

Qardaşım çəkirsən hər kəsin dərdin,
Tanrıya bir namə yazıb göndərdin.
Çəkdin ürəyində el-oba dərdin,
Xalqın gözlərində ucalasan sən.

***Oktyabr, 2008.***

## ŞƏHRİYAR

***Mus: Nailə Mirməmmədli***

Adın mənim öz qəlbimdə yaşayar,
Bulaq kimi həzin-həzin çağlayar,
Acı dərddən nəmli gözlər ağlayar,
Ürəyimin incə teli sızlayar,
Ürəyimdə, qəlbimdəsən, Şəhriyar.

Xan Arazım dəli Kürə qovuşdu,
Suyun içdim, dərdim bir az sovuşdu,

Öz içimdə məndən kimsə soruşdu,
Şair qəlbi dünyanı dərin duyar,
Şeirlərin bir dünyadır, Şəhriyar.

Su aydınlıq, su paklıqdır, su haqdır,
Şair ömrü bir qaynayan bulaqdır,
Öz peşəmiz gözəl şeir yazmaqdır,
Tarix boyu adın daim yaşayar,
Nəsillərə izin qalar Şəhriyar,

Həsrət üçün ölənlər var, qalan yox,
Sözüm düzdür, heç dilimdə yalan yox,
Bu dünyada səni yada salan çox,
Dərd çəkirik, dərdimizi bilən yox,
Dərddən, qəmdən uzaq olar, Şəhriyar.

Salamımı qoy küləklər yetirsin,
Dünya özü həsrət ömrü bitirsin,
Qaranquşlar xoş müjdələr gətirsin
Şad xəbərdən ürəyimiz şadlansın,
Sən şad olsan, şad olaram, Şəhriyar.

***1993***

## OĞLUM ARZUYA

***Türkiyədə Qara Harb Okulunda təhsil aldığı illərdə...***

İllərdir ki, gözlərim gecə-gündüz yol çəkər,
Tənhalığım sinəmdə qubar əkir, qəm səpir.
İntizardan gözlərim könlüm yaman kövrəlir,
İllər quş kimi uçur, gecə yaman uzanır.

Oğlum Arzu, Ayaz da şərəfli bir yol keçir,
Atasının yoluyla eniş-yoxuşlar keçir.
Oğullarım Vətənə ana deyib and içir,
Hər ikisi keşikdə fəxarətlə dayanır.

Bu Tanrının yazısı, yazıdan qaçmaq olmaz,
Ürək sirri xəzinə, heç kimə açmaq olmaz.
Yaman günün ömrü qısadır uzun olmaz,
Zülmətləri yararaq günəş göydən boylanar.

Yol çəkən gözlərim də bir rahatlıq tapacaq,
Zirvəyə lap az qalıb oğullarım çatacaq.
Çoxlu nəvəm, nəticəm,kötükcəm də olacaq.
Ona görə Xınalı özünü xoşbəxt sanır.
Ona görə Zəminə özünü xoşbəxt sanır.

***2007***

## SƏNİN ÜRƏYİNİN NƏ GÜNAHI VAR

***Faiz Üzgünün "Ağrılı ürəyim, yaralı bağrım" şeirini oxuyandan sonra qələmə aldım.***

Susub bulaqların zümzüməsi də,
Bənövşə ətri də bülbül səsi də,
Yarıya bölübdür dərd hər kəsi də,
Sənin ürəyinin nə günahı var?

Cəsəddən ayırmaq olmaz ürəyi,
Şairin heç zaman solmaz ürəyi,
Dünyadan köçübsə qalmaz ürəyi
Sənin ürəyinin nə günahı var?

İkiyə bölübsən dərdli sinəni,
Dərd-sərə salıbsan səni görəni,
Kəsib doğramazlar vaxtsız öləni,
Sənin ürəyinin nə günahı var?

Biz fani dünyada yaşayırıqsa,
Ürəyi danlayıb qınayırıqsa,
Ölənlər dalınca ağlayırıqsa,
Sənin ürəyinin nə günahı var?

Cərrah bıçağının insafı varmı?
Varsa da bəs nədən kəsib doğrayır.
Köksündə hər zaman qəlbin ağlayır,
Sənin ürəyinin nə günahı var?

Dərdin Vətən dərdi, Qarabağ dərdi,
Fələk bu ağrını vaxtsız göndərdi,
Vətənin ağrısı hər kəsə gəldi
Sənin ürəyinin nə günahı var?

Alınmaz Qalada məhbusdu Şuşa,
Dərdimiz birdimi, dərd qoşa-qoşa,
Çəkdiyin ağrını çəkdikcə yaşa,
Sənin ürəyinin nə günahı var?

Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər,
Xocalı, Füzuli, Ağdam, Ağdərə
Yurd yeri qalıbdır, yad-özgələrə,
Sənin ürəyinin nə günahı var?

Çinarlı Cəbrayıl, barlı Cəbrayıl,
Ağlayır-ağlayır qarlı Cəbrayıl,
Sən dərdin qoynunda yatmısan ayıl,
Sənin ürəyinin nə günahı var?

Ayrılıq ağrısı yaman dərd olar,
Ölüm qarşısında şair mərd olar,
Əzrayıl amansız, həm namərd olar,
Sənin ürəyinin nə günahı var?

Ürəksiz çürüməz şair cəsədi,
Şair ürəkləri pirdi-məşəldi,
Oxudum şeirini qəlbim kövrəldi,
Sənin ürəyinin nə günahı var?

Günahsız ürəyin, dərdli ürəyin,
Vətən torpağının məlhəmidir bil,
Köksün qan ağlayır, gözlərini sil,
Sənin ürəyinin nə günahı var?

***2006***

## SƏMƏD VURĞUNA

Meşələr, oylaqlar o buz bulaqlar
Vurğunun daima yurd yeri olub.
Həyatda çətinə-dara düşənlər,
Dərdini həmişə vurğunla bölüb.

Uçan turaclar da, qaçan ceyran da,
Baş əyir, adına Vurğun deyəndə,

Şəlalə çağlayır, çaylar gurlayır,
Vurğundan bir kəlmə şeir deyəndə.

Həm şeir, həm şair sənət dünyalı
Vurğunla fəxr edir, Qazax mahalı,
Gəl məndən soruşma dağlar maralı,
Vurğunsuz sinəmiz olub, yaralı

***1982***

## AY OĞUL

***30.12.2008 oğlum Ayaz təhsil aldığı Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbində "Növbədə" olduğunu bildirdi və dedi ki, darıxma "Yeni il" axşamı evə gələcəm...***

Gözlə gələcəyəm deyirsən mənə,
Gözlərim yollarda qalıb, ay oğul,
Qərib gecələrdə tənhalıq özü,
Başımın üstünü alıb ay oğul.

Evin son beşiyi şirin olursa,
Şəkərdən-şərbətdən şirinsən oğul,
Arzu ilk nübarım başımın tacı,
Sənin şirin dilin, dərdim əlacı.

Xidmətdə irəli, dərsdə əlacı,
Oxşa qardaşına, oxşa ay oğul,
Sev ana Vətəni, sığın Tanrıya,
Qohum-qardaşımız yoxsa, ay oğul.

Tanrıdan savayı kimimiz var ki,
Tanrının qoynuna sığınmışıq biz.
Torpağa, bayrağa olan sevdiylə,
Vətən keşiyində dayanmışıq biz.

Əsrlət ötəcək, illər keçəcək,
Bizi yaşadacaq tarixin özü,
Açıb varaq-varaq səhifəsini
Bizdən danışacaq arxivin özü.

Vətən keşiyində müqəddəs borcun,
Xoşbəxt edəcəkdir səni həyatda.
Yeni yaranacaq elmi əsərlər,
Axtarıb tapacaq kölgəni hətta.

Elmin işığından nur al, ay oğul,
Odlar diyarına gərəklisən sən.
Zirehli mundirdən nur al, ay oğul,
Azəri yurduna gərəklisən sən,

Kimsəyə demirəm özünə güvən,
Doğru ol, düzgün ol, sözünə güvən,
Qartal baxışlısan gözünə güvən,
Özünə-sözünə qurbanam, oğul.

Hərbin sirlərini öyrənmək üçün,
Savadlı biliki olmalısan sən.
Fəth edib, göyləri, açıq səmanı,
Tarix yaddaşında qalmalısan sən.

Şərəfli yol olub, hərb sənətimiz
Vətən sevgisidir, zər-zinyətimiz,
Hər zaman beləcə olun, ay oğul.

Asdım divar boyu fəxri-fərmanlar,
Tanrının yazısı nə gözəl onlar,
Bizimlə öyünür, bizi duyanlar,
Sənə qurban olum, sənə ay oğul.

***2008***

## GÖZÜMÜN NURU

***Oğlum Arzu-Türkiyədə Kara Harb Okulunda, oxuyarkən qələmə aldım.***

Səni gözləməkdən gözümün nuru,
Tamam kəsilsə də gözləyəcəyəm.
Sıxıb ürəyimi hər axşam-səhər,
Axan göz yaşımı gizləyəcəyəm.

Kədərli-qəmli də olsam onu bil,
Dərdimi heç zaman duyan olmayıb,
Ay oğul ümidim-pənahım sənsən,
Kimsə həyan olub, kömək olmayıb.

Səni gözləyirəm, gözümün nuru,
Sən ilk nübarımsan eşqimi qoru.
Sən vətən oğlusan, vətəni qoru,
Səni dualarım qoruyacaqdır.

Sən bahar payımsan, sən yay payımsan.
Sən günəş payımsan, sən ay payımsan,
Qurulu bəxtimin saray payımsan,
Səni gözləyəcəm, gözümün nuru.

***01.01.2009***

## OĞLUM AYAZA

Adın Ayaz olsa da,
Özün soyuq olmadın.
Hərb sənəti seçəndə,
Heç yolundan qalmadın.

Amalın vətən eşqi
Vətən andın-amalın,
Müdriklərə bənzəyir
Sənin ağıl-kamalın.

Nə yaxşı ki, vaxtında,
Elmin yolunu seçdin.
Uşaqlıq illərindən
Eniş-yoxuşlar keçdin,

Kimsə səni anlamaz,
Mən anlaram, ay oğul.
Sözümə baxmayanda
Səni danlaram oğul.

Atasız böyüsən də,
Həyat öyüdü aldın.

Dərslərini oxudun
Ona görə ucaldın.

Vətən sevənlər yalnız,
Hərb sənətin seçərlər,
Bayraq, millət sevənlər,
Vətən andı içərlər.

Andın şərəfli anddır,
Andına sadiq ol sən,
Vətənin xidmətində,
Vətənə layiq ol sən.

***2008***

**OĞLUM ARZUYA**

Əzizinəm, ay oğul
Canım qurban, ay oğul.
Danışıram səninlə-
Ürəyimlə ay oğul.

Səsinə qurban olum,
Boyuna qurban olum,
Məndən nigaran qalma
Sənə qurbanam oğul.

Çətinliklər çox çəkdin,
Çətinlik görmə oğul,
Tanrı sənə yar olsun,
Boyuna qurban, oğul.

Sən məndən çox uzaqda
Sən başqa bir diyarda,
Bir allahdan savayı
Kimsəmiz yoxdu oğul

Mənim fəxrim vüqarım
Başımın tacı oğul.
Səninlə öyünürəm
Dərdim əlacı oğul.

***2003***

## MƏĞLUB OLDU DÜŞMƏNİN

***Milli Qəhrəman Mübariz İbrahimova ithaf***

Mübarizlik qanında
Canında vardı sənin,
Qanına qəltan etdin,
Məğlub oldu düşmənin.

Neçə çırağı sönmüş,
Anaların evinə
Nur əlәdin, ey igid,
Məlhəm oldun könlünə,

Səninlə fəxr eyləyir,
Bütün ellər-obalar,
Sənə igidim deyir,
Ağbirçəklər, babalar.

Yaşayır adın sənin,
Tarixin yaddaşında,
Adın dillər əzbəri,
Adın vətən daşında.

Sən vətənin dağısan,
Sən vətənin daşısan.
Müqəddəs şəhid adlı,
Xalqın vətəndaşısan.

***12.12.2009***

## AŞIQ KƏRƏMƏ

Gəl ağlama, telli sazım,
Çat-çat olur, dilim-ağzım,
El ağlar Aşıq Kərəmi
Sazı çalmayır, “Dilqəmi”,

Şair aşıq yetişdirib,
Tarix boyu İncə dərə
Dönük tale niyə görən,
Kərəmin ömrün bitirib.

Sazda çaldığın havaya,
Qol süzdürüb oynayanlar,
İndi isə məzarına, baş əyirlər,
Ağlayırlar.

***2007***

## SUMQAYIT
***(mahnı)***

Hələ neçə üfüqdən
Güləcəksən günəş tək,
Sənə baxıb sevinir
Sinəmdə çarpan ürək Sumqayıt.

**Nəqarət**
Sumqayıt, Sumqayıt gənclik şəhəri,
Sumqayıt, Sumqayıt dillər əzbəri.

Xəzərin qucağında
Artır şöhrətin-şanın,
Sən nurlu şəhərisən
Doğma Azərbaycanın, Sumqayıt.

**Nəqarət**
Sumqayıt, Sumqayıt gənclik şəhəri,
Sumqayıt, Sumqayıt dillər əzbəri.

***1981***

## MƏLAHƏT HƏMİDQIZINA

Gör neçə mahnılar bəstələdin sən,
Könlündə yurd salan ağrılarınla,
Həm ata yanğısı, həm ana dərdi,
Cənnət Qarabağ da əldən gedərdi?

Həsrətlə-hicranla baş-başa bacım,
Sən dərddən uzaq ol, yüz yaşa bacım.

Mən Ulu Tanrıdan arzu edirəm,
Qəlbində arzular hey daşa bacım.

Yox artıq yolunda zülmət qaranlıq
Sən özün işıqsan, günəş-ayısan.
Çağlayan şəlalə, axan bir çaysan,
Tarixsən, dastansan tanrıdan paysan.

Üzündə nur görüm hər zaman belə,
Parla günəş kimi sən indən belə
Sən oğul-qızınla sevinə gülə,
Hər zaman şən-xoşbəxt olasan bacım.

***Bakı-Şüvəlan 2000***

## İNCƏ DƏRƏSİNDƏ TOY ÇALINIRDI

***İncə dərəsində yaşayan Güləndam Dağlarqızının övladının toy mərasimində***

Avey sevinirdi, incə coşmuşdu,
Güləndam sözləri sözə qoşmuşdu,
Durnalar da göydə qanad açmışdı
İncə dərəsində toy çalınırdı.

Bir gözəl qız köçür, oğlan evinə,
Hamı tərif etdi, bəylə-gəlinə,
Sevinc bəxş etmişdi doğma elinə,
İncə dərəsində toy çalınırdı

Bəy igid, gəlinsə sular sonası,
Yaman kövrəlmişdi gəlin anası,

Xonçalar əl-əlvan, əldə xınası
İncə dərəsində toy çalınırdı

Qol açıb, oynadım, sevindim-güldüm,
Doğma-əzizləri bu toyda gördüm,
Xınalıyam, sevincimi tən böldüm
İncə dərəsində toy çalınırdı

***İncə dərəsi 5.10.2012***

## YURDUMUN FƏXRİ

***Azərbaycanın ilk general qadını***
***Sudabə xanım Həsənovaya***

Xalqın gözlərində özün ucaldın,
Xalqın hörmətini özün qazandın,
Odlar diyarının qeyrətli qızı,
Yurdumun fəxrisən Sudabə xanım.

Ürəkdə arzular qalaq-qalaqdır,
Yolların hamardır işinsə haqdır,
Vətən torpağına, ülvi sevginsə
Gələcək günündə parlaq çıraqdır.

Sən sinə gərdikcə çətinliklərə,
Düz yol göstərirsən oğula-ərə,
Əhsən səndə olan qeyrət-hünərə,
Sən örnək olmusan, qız-gəlinlərə

Haqqın haqq səsindən yazsın qələmin,
Ömrünə nur saçsın, eşqin-əməlin,

Namusun, qeyrətin ən saf niyyətin
Gələcək nəsilə nümunə olsun.

*1997*

## YARIMÇIQ ARZULAR

***Kənd qəbirstanlığında uyuyan-dünyadan***
***köçənlərin ruhuna ehtiramla***

Naümid, naçarə qalmasın heç kəs.
Kaş nakam ürəklə köçməsin heç kəs.
Həyatı gözləri dolu yaşasın,
Həyatdan doymamış, getməsin heç kəs.

Həyat çox şirindir, yaşamaq zülüm,
Həyatda çətinlik çəkən neyləsin?
Alın yazısını haradan bilsin?
Bilsə də yazını, de necə silsin?

Kimi yüz yaşayır, kimi tez ölür,
Hərəyə bir cürə paylanıb ömür,
Gələn qəfil ölüm, gələndə birdən
Qocanı-cavanı, ayırmır-görmür.

Nə qədər nakamlar, köçüb dünyadan,
Ömürdən doymamış, gündən doymamış
Nə qədər ömürlər yarımçıq qalmış...
Nə qədər arzular yarımçıq qalmış.

Məzarlar üstündə bitən çiçəklər,
Məzarlar üstündə göyərən otlar.

Onlar nə çiçəkdir, nə də ki, otdur,
Ürəkdə yarımçıq qalmış arzudur.

*İncə dərəsi 1987*

## İNCƏ DƏRƏSİ

*Ata yurdum incə dərəsinə...*

İncə dərəsində ayaq saxlasan,
Ətrindən doyarsan gülün çiçəyin,
Dağların döşündə açanda lalə
Heyarnı olarsan incə dərənin.

İncənin qonağı olsaydın əgər,
Ömrünün üstünə, ömür gələrdi,
Əlləri xınalı incə qızları,
Sənə könül verib, səni sevərdi.

Qocası, cavanı şirin dillidir,
Açılan sabahı xoş nəğməlidir,
Boylan ətrafına, hər yan gözəldir,
Bu, İncə dərəsi, bu incəlidir.

*1981*

## AYAZ BALAM

Yolların hamar olsun,
Əməyim halal olsun.
Qəlbin sevinclə dolsun,
Ay mənim Ayaz balam.

Ürəyində arzular
Çiçək açsın, gül açsın.
Bəxtin gün tək parlasın
Ay mənim Ayaz balam.
Böyü toyunu görüm,
Xoşbəxt analar kimi
Mən də özümü öyüm
Ay mənim Ayaz balam.

***1992***

## ANAM GÖZƏLLƏR GÖZƏLİ

***Anama***

Anam evin gur işığı,
Evimizin ocağıdır.
Anam isti bir yuvadır,
Anam gözəl bir obadır.

Anam qaynar bir şəlalə,
Şeh üstündə bitən lalə,
Anam dünya gözəlidir,
Sevgilərin, əzəlidir məhəbbətin.

Xalı üstə gəzər əli,
Yaradar ellər gözəli,
İpəkmidir, nurmu əli
Anam-gözəllər gözəli.

***1991***

## XALQ ŞAİRI MİRVARİD DİLBAZİYƏ

Həyat yollarında əzab çəkdinsə,
Yormadı çətinlik, qətiyyət səni,
Şeirdən alışan yanan sinəni,
Söndürə bilmədi, dağ çayları da.

Sən qoca çinarın son yarpağını,
Ömrünə bənzətmə ay şair anam.
Son yarpaq budaqdan qopsa onu bil,
Sənət aləmində ağlayar dünyam.

Şeir dünyasında barlı bir bağsan,
Çoşğun şəlaləsən, qaynar bulaqsan
Ulduz tək daimi parlayacaqsan,
Bu dünya durduqca yaşayacaqsan.

***1997 Bakı Şəhəri***

## KAM AL SƏN

***Şair Orxan Adiloğluna***

Dağlar oğlu! Dağlar kimi ucasan,
Sən şairsən, sən aşiqsən, ozansan.
Yaxşılığı yaxşılıqla yozansan,
Yaşa, yarat, bu dünyadan kam al sən.

Könülündə gizləmisən sevgini,
Çox sıxmısan ürəyini, qəlbini,
Tanrı versin şair sənin səbrini
Yaşa, yarat, bu dünyadan kam al sən.

El yığışıb gələcəkdir toyuna,
Sevinəcək anan baxıb boyuna,
Hər an güvən öz adına soyuna,
Yaşa, yarat, bu dünyadan kam al sən.

Hələ gəncsən yaxşı günlər öndədir,
Şad xəbərlər, xoş müjdələr səndədir,
Eşitdim ki, büsat Orxangildədir,
Yaşa, yarat bu dünyadan kam al sən.

***24.11.2012***

## ODLAR DİYARININ QEYRƏTLİ OĞLU

***Xalqımın qeyrətli oğlu baş leytenant Ramil Səfərov Macarıstanda həbsdə olarkən...***

Adınla fəxr edir, Azəri xalqı,
Cəngavər libaslı qəhrəman oğlan,
Öpdü bayrağını, içdi hərbi and,
Eşidin, ey məni dinləyən kəslər,
İntiqam qisasın tək Ramil aldı.

Eşq olsun adına,
Eşq olsun sənə,
Sən örnək olmusan
Elə-vətənə.
Analar öyündü
Bacılar sevdi
Sənin dağ vüqarın, uca qamətin,
Düşmənin gözünə ox kimi girdi.

Sən torpaq sevgisin, bayraq sevgisin,
Tanrı dərgahında müqəddəs bildin.
Barışa bilmədin məğlubiyyətlə,
Məğlubluq damğasın əbədi sildin.
Doğma Qarabağı, ata yurdunu,
Ən uca müqəddəs bir varlıq bildin,
Hər zaman təlimdə ön cəbhələrdə,
Sən məğrur gedirdin, mətin gedirdin.
Sən başdan, binadan müdrik olmusan,
Macar torpağında şanlı adınla
Sən odlar yuduna-Azərbaycana,
Bir mayak olmusan, işıq olmusan,
Sənin qeyrətinə qurban olum mən,
Sən xalqın gözündə, elin gözündə,
Bir igid olmusan, bir nər olmusan.
Sən qeyrət rəmzimiz hünər olmusan.
Azəri xalqımın dilində, Ramil,
Ən şirin kəlmədir qeyrətli adın.
Darıxma, ay Ramil adına qurban,
Dönərsən Vətənə, dönərsən elə.
Səni ziyarətçün insan axını,
Dönəcək dağ çayı, ən güclü selə,
Gör sənə nə qədər qurban deyiblər,*
Qurbanlar kəsilib paylanacaqdır,
Ramil Səfərovun qəhrəman adı,
Tarixdə əbədi yaşayacaqdır!

***Ali Hərbi Məktəb 2004***

---

* 2012-ci ildə Ramil Səfərov vətənə döndü. Yüzlərlə insan onun ziyarətinə gəldi, ayağı altında qurbanlar kəsildi.

## OĞLUM ARZU VƏ AYAZA

Arzu ürəyimdir,
Ayaz dünyamdır,
Arzu günəşimdir,
Ayaz röyamdır,
Arzu güvənc yerim,
Ayaz dayağım,
Arzu işığımdır,
Ayaz mayağım,
Arzu yol göstərən,
Ayaz məkanım,
Arzu ömür yolum,
Ayaz hər anım,
Sizinlə öyündüm,
mən niyə danım,
Sizə qurban olsun,
Bu şirin canım.

***2012***

# DEYİŞMƏLƏR

## ZƏMINƏ XINALI ILƏ SEYFƏDDIN ŞIXLININ DEYIŞMƏSI

***Seyfəddin Şıxlı:***
Səni görməmişəm başdan-binadan,
Səsin şirin gəlir mənə hamıdan.
Gözəllərdir, məni hərdən oyadan,
Səndəmi gözəlsən, Zəminə Xınalı?

***Zəminə Xınalı:***
Nə yaxşı ki, görməmisən əzəldən,
Taleyimdir incə qəlbi göynədən,
Mənim dərdim oldu, məni göynədən,
Ölüm qisas aldı, mən tək gözəldən.

***Seyfəddin Şıxlı:***
Gözəl odur, yuxudan tez oyana,
Şer yaza, yaza-yaza oxuya,
Misraları çələng kimi toxuya
Bunları biləsən, Zəminə Xınalı.

***Zəminə Xınalı:***
Dərd əlindən yorulmuşam yatmışam,
Cavan ikən qovrulmuşam yanmışam.
Şirin tikəm-acı zəhər dadmışam,
Bunları biləsən, Seyfəddin Şıxlı.

***Seyfəddin Şıxlı:***
Uca dağam, zirvəm buzla örtülü,
Yal-yamacım, daş-qayayla örtülü,
Qalaq-qalaq dərdim layla örtülü,
Bəlkə də görərsən, Zəminə Xınalı.

***Zəminə Xınalı:***
Uca dağın kölgəsində varamsa,
Vaxtsız düşmüş şaxta-boran, qaramsa,
Öz içimdə göynər-göynər yaramsa,
Bunları duyasan, Seyfəddin Şıxlı.

***Seyfəddin Şıxlı:***
Mən gözələ gözəlliyə möhtacam,
Şirin sözə, şən gülüşə möhtacam,
Qönçələnmiş qızılgülə möhtacam,
Deyirəm biləsən, Zəminə Xınalı.

***Zəminə Xınalı:***
Qızılgüləm başqa gülü sevmərəm,
Dərd önündə öz qəddimi əymərəm,
Göz yaşımı gizlədərəm, gülmərəm
Deyirəm biləsən, Seyfəddin Şıxlı.

***Seyfəddin Şıxlı:***
Seyfəddin Şıxlıyam, hanı gözəllər,
Uzaqdamı, yaxındamı gözəllər,
Mən ki, görməyirəm, varmı gözəllər,
Varsa göstərəsən, Zəminə Xınalı.

***Zəminə Xınalı:***
Öz elimdə, obamda var gözəllər,
Şair kəsə Qazaxlıdır deyərlər,
Səsmi eşidib, üzümü görməyənlər,
Dərd əhlidir, Zəminə Xınalı deyərlər.

***12.11.2001***

## PƏRVANƏ ZƏNGƏZURLU VƏ ZƏMİNƏ XINALININ DEYIŞMƏSİ

***Zəminə Xınalı:***
Zəngəzur həsrətli, a dağlar qızı,
Yaz gəlib, dağlara getməyirsənmi
Sıldırım qayanın, uca, dağların,
Döşündə çiçək tək bitməyirsənmi?

***Pərvanə Zəngəzurlu:***
Yaralı yerimdir, toxunma bacı,
Qədəm basıb, gedəmmirəm dağlara,
Nə müddətdir ora gedən yolları
Yağı kəsib, gedəmmirəm dağlara.

***Zəminə Xınalı:***
Şerindən süzülür dərin duyğular
Saf bulaqdır, axar-axar durular,
Yayda yaylaqlarda çadır qurular,
Durub, o dağlara getməyirsənmi?

***Pərvanə Zəngəzurlu:***
Azğın düşmənləri əzməyim gəlir,
Gedib yurd-yuvamı gəzməyim gəlir,
Qayadan çiçəyi üzməyim gəlir,
Tufan qopub, gedəmmirəm dağlara.

***Zəminə Xınalı:***
Sən dağlar qızısan, dağ vuqarlısan,
Bulaqlar, yaylaqlar intizarlısan,

Şair təbiətli, şair ruhlusan,
Bülbül tək gülşəndə ötməyirsənmi,
Durub, o dağlara getməyirsənmi?

***Pərvanə Zəngəzurlu:***
Mənim xəyalımda gəzir həmişə,
Qoynu qızartaqlı, yamyaşıl meşə,
Boynunu bükərək, şehli bənövşə,
Məndən küsüb, gedəmmirəm dağlara.

***Zəminə Xınalı:***
Ruhun Zəngəzuru gəzib-dolanır,
Moruqlu çəpərdən baxıb boylanır,
Həsrətin, hicranın səni qınayır,
Şerinə vüsalı qatmayırsanmı,
Durub, o dağlara getməyirsənmi?

***Pərvanə Zəngəzurlu:***
Yoluna qoyandır zaman hər işi,
Düzələcək bu zamanın gərdişi,
Dözmək olub, Pərvanənin vərdişi,
Zülmə dözüb, gedəmmirəm dağlara.

***Zəminə Xınalı:***
Qərbi Azərbaycan, Qazax, Göyəzən,
Tarixən öyünüb mərdnən, igidnən,
Müjdə gözlə, Xınalı Zəminədən,
Dərd-qəmi başından atmayırsanmı,
Durub, o dağlara getməyirsənmi?

***12.09.2005***

## ZƏMİNƏ XINALININ OĞLU ARZU İLƏ DEYIŞMƏSİ

***Zəminə Xınalı:***
– De atan yadına düşəndə oğlum,
Hansı iztirabı çəkirsən özün,
Evdə, iş yerində, de görüm harda,
Atanı de harda gəzirsən oğlum.

***Oğlum Arzu:***
– Anam, ay Xınalı, sözün düzünü,
Desəm bilirəm ki, sən dözməyərsən.
Qoy mənim öz dərdim içimdə qalsın,
Sən özün aslansan, igidsən, nərsən.

***Zəminə Xınalı:***
– Mənim sualıma cavab vermədin,
Dərdini nə üçün məndən gizlədin.
Axan göz yaşını özüm bilirəm,
Gözündə saxlayıb, qəlbən göynədin.

***Oğlum Arzu:***
– Atamın yoxluğu ən ağır dərdim,
Atamı hər zaman özüm gözlədim,
Dərdimi içimdə gözlədim ana,
Sızladım, ağladım, özüm göynədim.

***Zəminə Xınalı:***
– İçində çəkdiyin mənim dərdimdi
Dərdin ürəyimə gələydi oğlum,

Bir yandan bağlayan bir yandan açar,
Üzün indən belə güləydi, oğlum.

***Oğlum Arzu:***
– Atamın ürəkdə arzu-diləyin,
Özüm keçirəcəm həyata ana,
Elə istəyirəm, solğun çırağımız,
Hər zaman günəş tək parlaya ana.

***Zəminə Xınalı:***
– Atandan yadigar siz ki varsınız,
Siz mənə təsəlli həm qanadsınız,
Qoy Allah sizlərə kömək olsun ki,
Bütün arzulara siz çatasınız.

***Oğlum Arzu:***
Sən anam Xınalı ellər maralı,
Atamdan sən vaxtsız düşdün aralı,
Sən öz şerində öz sözlərində,
Yaşatdın hər zaman xoş arzuları.
Dərdinlə baş-başa ömrün baharı.

***1999***

# POEMALAR

## ÖTƏN İLLƏRİMDƏN XATİRƏLƏR.

*Ustad Şəhriyarın ruhuna*
*böyük ehtiramla*

Mənim ustad babam, Şəhriyar babam,
Ruhunu çağırdım, gör necə şadam.
İstədim tutduğum arzuya çatam.
Ehtiram edirəm, dahi ustada,
Dahilər dahisi var ol, dünyada.

Uca idin ucalığa sən çatdın,
«Heydər baba"« zirvəsini yaratdın.
Günəş olub, nur paylayıb oyatdın.
Könlümüzdə, qəlbimizdə bitmisən,
O tay, bu tay həsrətdən yol çəkmisən.

Əzab çəkib, əzablara qatlaşdın,
Dağ çayıtək dərd əlindən hey daşdın,
Ömür yolu tənhalıqla rastlaşdın,
Əzizənin yoxluğuna dözmədin,
Mənzilində daha onu görmədin.

«Heydər baba» dinlədikcə dərdini,
Dağlar bildi Şəhriyarın qədrini,
Ulu tanrı bəxş eylədi səbrini.
İllər keçdi əsrlərə qovuşdu,
Nəsillərdən Şəhriyarı soruşdu.

Cənub-Qərbə sərin bir meh göndərdi,
Ayrılığın sonu qəmdi-kədərdi.

Neyləyəsən alın-yazı qədərdi,
Ömrü boyu bu həsrətə dözmüşük,
Dərdimizi muncuq kimi düzmüşük.

O tay, bu tay Azərbaycan torpağı,
Qovuşanda çaylar söylədi ağı,
Xan Arazla, Dəli Kürün sorağı,
Xəzər boyda bir dənizdən gəlirdi,
Dərd də bizim bağrımızı dəlirdi.

Yatmış idim balış yumşaq qu kimi,
Ömür keçdi sanki axan su kimi,
Geri döndüm uşaq arzusu kimi,
Ötən illər düşdü mənim yadıma,
Şəhriyarın ruhu çatdı dadıma.

Xəyallarım qanad açdı göylərə,
Çiçək açdı Avey dağım, Ağdərə,
Könlüm sanki çəkdi dəli bir nərə –
Doğma olur ata yurdu ocağı,
Yada saldım ötən ili, o çağı:

Nigar nənəm sübh çağı tez durardı,
Dağ suyundan samovar qaynadardı,
Şirin çaya mürəbbə də qatardı,
Pendir, lavaş büküb dürmək yeyərdik,
Bir ağızdan nənə, sağ ol deyərdik.

Yaz gələndə dağ döşünə çıxardıq,
«Düzdağlı»dan Avey dağa baxardıq,

Mamır daşdan ələ xına yaxardıq,
Göy üzündən ildırımlar çaxardı,
Yaz yağışı leysan kimi yağardı.

Həftə sonu anam təndir yapardı,
Xoş ətiri canımıza hopardı,
Söylü nənəm at belində çapardı,
İllər gəlib bax beləcə sovuşdu,
Ömrümüzə həsrət gəlib qovuşdu.

Anam Həvva müəllim arvadıydı,
Deputat idi, könlü yaman şad idi.
Halal zəhmət, bağçası gülşad idi,
Mənim anam atamı çox sevərdi,
Toy-nişana onla birgə gedərdi.

Kamal əmim yaman əli açıqdı,
Dost-tanışı şair, bir də aşıqdı.
«İncəli» təxəllüs bir yaraşıqdı,
Ədalətə yaman qibtə edərdi,
Məclislərdə çoxlu şeir deyərdi.

Tüfəngini aşırardı çiyninə,
Ov paltarı geyinərdi əyninə,
Arxasınca ağlayardı Kəminə,
Üçcə qızı, iki oğlu var idi
Kamal əmim yaman bəxtiyar idi.

Aşıq Kərəm əmimgilə gələrdi,
Qonşular da saz havasın dinlərdi.

Feruz nənə niyə nədən kövrəldi? –
Gedəcəkdi səhər tezdən şəhərə,
Ona görə batmış idi qəhərə.

Qərib idi Kamal əmimin yarı,
İncitməzdi qaynanası Niyarı.
Biləyini sancmış idi bir arı,
Qorxusundan o, heç kimə demirdi,
Utanırdı heç çörək də yemirdi.

Camal əmim kəndə gec-gec gələrdi,
Dağa çıxıb kəndi seyr eyləyərdi.
Kəkotulu çayı yaman sevərdi,
Bir həftədən sonra geri dönərdi,
Çatdım deyə məktub da göndərərdi.

Cin dərəsi cinlər ilə doluydu,
Əfsanəydi ululardan uluydu.
Əkin üçün yararlı yer «Sulu»ydu
«Sovet dövrü» üzüm bağı saldılar,
Sonralar da ot əvəzi çaldılar.

Qatıq çalıb, süzmə edib, süzdülər,
Bir torbada büzmə edib, büzdülər.
Qurud edib taxt üstünə düzdülər,
Yarpaq-yarpaq bişirdilər xəngəli
Həlim içdik başımıza əngəli.

Əriştəni nazik-nazik kəsdilər,
Tökülməsin deyə üstə əsdilər.

Yığışdılar Qəribələr, Bəsdilər,
Bişirdilər yağlı əriştə aşı,
Çağırdılar yemək üçün Qaqaşı.

Örüşlərdən mal-qara da gələrdi,
Körpə buzov, çəpiş, quzu mələrdi,
Dağ qoynundan sərin bir meh əsərdi,
Axşamüstü inəkləri sağardıq,
Süd bişirib pendir, qatıq çalardıq.

Qaz otarmaq ustasıydım mən özüm,
Heç bilmirdim hardan idi bu dözüm,
Su içməzdi bala qazdan heç gözüm,
Onu tutub xəlvət başın kəsərdik,
Qaz ətindən dadlı kabab çəkərdik.

Diləfrüzün gözlərində yuxusu,
Gecə-gündüz var idi bir qorxusu.
Qoçaq idi qonşu qızın çoxusu,
Xalam oğlu Mövludu çox sevərdi,
Bax bu sirri bircə mənə deyərdi.

Moruqları çəpərlərdən dərərdik,
Ağaclardan budaqları əyərdik.
Alma-armud ləzzət ilə yeyərdik,
Bağçalardan çiçəkləri yığardıq,
Çələng edib saçımıza taxardıq.

Qonşu kənddən qarğa uçub gələrdi,
Ağaclardan qoz qoparıb gedərdi,

Kəndin əhli bunu birdən görərdi,
Qovardılar oğru qara qarğanı,
Görməzdilər xəbərçi sağsağanı.

Kür qırağı əqrəbalar var idi,
«Sınıq Körpü» onlara çox dar idi.
Bağlarında alma, üzüm, nar idi,
Tokar Alı Rustaviyə gedərdi
Fikirində dəmir-dümürdü dərdi.

Kəmərlinin kəməri var belində,
Aslanbəyli: -nər-əri var elində,
Qaymaqlının nəməri var əlində
İgidləri Kürü keçib atlandı,
Düşmən baxıb, parça-parça çatlandı.

Aşıq, şair yurdu olub obam da,
İlk seminarın məzunuydu babam da,
Müəllimlikdən məmnun idi atam da,
Elmin yolu asan deyil, çox çətin,
Həkim oldu mamamqızı Güləbətin.

Seyid babam müharibəni görmüşdü,
Qardaşı da o davada ölmüşdü,
Dul arvadlar Hitleri çox söymüşdü,
Hirslənəndə uşaqları döyərdi,
Söz düşəndə özlərini öyərdi.

Nobat üçün dəyirmana gedərdik,
Axşamüstü evimizə dönərdik,

Ləyənlərdə çoxlu xəmir edərdik
Kündələri süfrə üstə yığardıq,
Duvaq üstə nazik yuxa yayardıq.

Ağac altda yığışardıq kölgəyə,
Uşaqları biz alardıq dövrəyə,
Deyərdik ki, kaş anamız görməyə,
Göy soğanı daş üstündə döyərdik
«Xamralı»yla şirin-şirin yeyərdik.

Almaların yanaqları qırmızı,
Dilim-dilim eyləyərdik qarpızı,
Dəstə-dəstə bağlayardıq yarpızı,
Gavalını ağaclardan dərərdik,
Doğrayardıq gün altına sərərdik.

«Cəfər» Fatma, «Bala» Fatma varıydı,
Saqya nənəm gözəl-göyçək qarıydı.
Bağımızda əriklər sap-sarıydı,
Meyvələri bircə-bircə dərərdik,
Əkənlərə çoxlu sağ ol deyərdik.

Xalsa nənəm dayımı çox sevərdi,
Yusif dayım «Moskviç»i sürərdi.
Qohumları yol üstündə görərdi,
Dayanmazdı, sürətlə hey gedərdi,
Allah, Allah, dayım yaman betərdi.

Gülşad xalam arıq, zəif, cansızdı,
Fatma xalam soyuqqanlı, qansızdı,

Heç bilmirdim kim haqlıdı, haqsızdı,
Xalalarım küsərdi bir-birindən
Göz yaşları süzərdi gözlərindən.

İncə dərəm, Göyəzənə aşiqdi,
Aşıq İlham uşaqlıqdan aşıqdı,
«Qara Həqi» evimizə yaraşıqdı,
Gəlməz idi əlindən heç bişirmək
Peşəsiydi riyaziyyatı düşünmək.

And içərdi İlyas «bava» deyimi,
İlqarınkı bircə halva yeyimi,
Məhəmmədin əyni molla geyimi,
Hilal nənəm gözəl «dambat» nənəydi,
Gülüş dolu bir zarafat nənəydi.

Ayşə, Saqya, Cahan nənəm var idi,
Sağlığında canlı nağıllar idi,
Cehizləri farmaş, xalılar idi,
Yun əyirdi cəhrə ilə nənələr,
Yağ yeyərdi nəhrə ilə nənələr.

Bayram günü şamdana şam düzərdik,
Süfrələri şirniyyatla bəzərdik,
Çərşənbədə qapı-qapı gəzərdik,
«Papaq atıb», tez qaçıb gizlənərdik,
«Baca-baca» paylarını bölərdik.

Minayəni sancaq ilə bağlardıq,
Səhərəcən yanı üstə saxlardıq,

Qaranlıqdan qorxar deyə yoxlardıq,
Bax beləcə şən keçərdi günümüz,
Maraqlıydı, mənalıydı ömrümüz.

Bir işimiz var idi, dərs oxumaq,
Dərsdən sonra güllü corab toxumaq,
Xoşlayardıq çayda yun xalça yumaq,
Çay daşını toplayardıq, yığardıq,
Evcik tikib tezcə də dağıdardıq.

Lalə xalam adlı-sanlı həkimdi,
Gözəl idi, qəşəng idi, nəcibdi.
Anam derdi: -Lalə bizə vacibdi,
O, gəlməsə xəstəlikdən durmaram,
Mən əlimi bir işə də vurmaram.

Yay olanda Hənifə bibim gələrdi,
Qohumlarla danışardı, gülərdi.
Gətirdiyi payı tezcə bölərdi,
Nar bağından şirin narı dərərdik,
Nahar vaxtı süfrələrə düzərdik.

Şəymən xalam Borçalıda yaşardı,
Qəriblikdə baş çıxartdı-başardı,
Zalım qızı elə bil ki, «pojar»dı
Bağ-bağçadan meyvələri dərərdi,
Qohumlara çoxlu pay göndərərdi.

Qəmbər oğlu Söyün baba var idi,
Nəvələri dəcəl uşaqlar idi,

Var-dövləti inək-qoyunlar idi
Yay olanda gedərdilər dağlara,
Nəvələri girərdilər bağlara.

Aişə nənəm Ənvər əmimin anası,
Fatma nənəm kəndimizin «maması»,
Çağırardı Koroğlunun Fatması,
Ağlaşmada ağı deyib ağlardı,
Başlarına qara yaylıq bağlardı.

Əvəliyi saç hörüyü hörərdik,
Baldırğanı qayalardan dərərdik,
Kəkotunu qurutmağa sərərdik,
Dağlar bizə loğman idi, təbibdi,
Bu sərvəti tanrı pay göndəribdi.

Kəmərlidə zoğal yaman «lılıq»dı,
Qaymaqlıda sənət xalçaçılıqdı,
Bizim kənddə su yox – quraqçılıqdı,
Yay olanda biz gedərdik dağlara,
Dönmək olmur indi ötən çağlara.

Anam əti doğrardı xurma-xurma,
Qazanlarda bişirərdi qovurma.
Deyərdi ki, çox istidir, əl vurma,
Soyuyanda küpələrə yığardı,
Ağzını da möhkəm-möhkəm bağlardı.

Aylı gecə isti keçər bizdə yay,
Pəncərəni açardılar taybatay,

Səhər tezdən qızlar salardı haray,
Bulaq üstə gedərdilər səhənglə,
Qımqımanı deyərdilər ahənglə.

Kəndimizdə gözəl qızlar var idi,
Oğlanlarsa «yad» qızına yar idi,
Qoşa şəkil sanki yadigar idi,
Qocalanda geri dönüb gəldilər
Qara gözlü o qızları sevdilər.

Elçiliyin özü gözəl adətdi,
Oğlan evi qız evini gözlətdi,
Oğlan ləldi, qızın özü dövlətdi.
Bax beləcə şirin dilə saldılar,
Qonşumuzdan bir gözəli aldılar.

Toy günləri qara zurna coşardı,
Mağarlardan aşıb-coşub daşardı,
Nişanlılar utanardı, çaşardı.
Subaylar da oğrun-oğrun baxardı,
Payız vaxtı onlar nişan taxardı.

Yorğan-döşək təzə yundan olardı,
Qız cehizi maşınlara dolardı,
Bəy evi də çoxlu nəmər salardı,
Yeddi arvad qurardılar bir xana,
Xalılarla bəzənərdi toyxana.

Qayıb oğlu Mədəd kəndin aşbazı,
Xeyir-şərdə bişirərdi bozbaşı,

Dadlı idi, həm plovu, həm aşı,
Kəfkir ilə sinilərə çəkərdi,
Üstünə də ərinmiş yağ tökərdi.

Çoban idi kənddə Süleyman baba,
Hörmətini saxlayırdı el-oba,
Uşaqlar da çağırardı – ay baba.
Tütək çalıb, yapıncını geyərdi,
Halallıqla çörəyini yeyərdi.

Əmim idi «montyor» İsmayıl da,
Qonşu idi müəllimimiz Mayıl da,
Mehribandı, Gülüstan da, Kamıl da,
Ömür keçdi, qocaldılar qonşular,
Gözlərimdə ucaldılar qonşular.

Xoruz banı, xoruzların səsinə,
Oyanardıq quşların nəğməsinə,
Avand işin düşərdisə tərsinə,
Atardılar ocağa duz-üzərlik,
Çathaçatla yanardı bədnəzərlik.

Göyün üzü göy buludla boyansa,
Gün-günorta kölgən sənlə dayansa,
Yuxu üçün gözün alışıb yansa,
Şər vaxtında yatma, dedi nənələr,
Qaşlarını çatma, dedi nənələr.

Əfsanələr, rəvayətlər uluydu,
Deyərdilər Kərəm-Əsliyə uydu,

Sinələri nağıl ilə doluydu,
Münəccimdi, bəlkə sirdi nənələr,
Oxumamış alim, pirdi nənələr.

Duzlu kökə bişirərdi nənələr,
Qız-gəlinə yedirərdi nənələr,
Qonşuya pay göndərərdi nənələr,
Yuxular çin, düz deyərdi nənələr,
Şirin şərbət süz deyərdi nənələr.

Cəhrə ilə əyirərdik yunları,
Yumaq edib öyrəndik oyunları,
Xatirimə gətirirəm bunları,
Gün günorta yığışardı nənələr,
Meyxanada qarışardı nənələr.

Gümüş kəmər bağlayardı belinə,
Zər-qumaşı saxlayardı gəlinə,
Təqaüdü gələrdi öz əlinə,
Xalsa nənəm, uca boylu qarıydı,
Mən görəndə yüz on yaşı varıydı.

«Azərbaycan» şeiri məlhəm Vurğunun,
Şan-şöhrəti vüqarıydı yurdunun,
Bir müsəllah əsgəriydi ordunun
Salahlıda Vurğun olub anadan,
Pay veribdi, bizə onu yaradan.

Hər baharda Vurğun gələr dünyaya,
Günəş kimi nur ələyər dünyaya,

Yaşa deyər, gülümsəyər dünyaya,
Vurğun ömrü saf bulaqdır qaynayar,
Aşıq çalar, el yığışıb oynayar.

Qazaxlılar sevirlər Aybənizi,
Yaşa dolub solub, bir az bənizi,
Vurğun kimi sevibdir ölkəmizi,
Dilə gəlib Kürlə, Xəzər dənizi,
Deyirlər ki, qoruyaq Aybənizi.

Aybənizdən eşitmişdim bir dastan
Dəli oğlan yıxılıbdı bir «mostdan»
Bu dəlinin adı, soyadı Mostan,
Vurğun ona yaman dayaq olarmış,
Hər ay ona çoxlu pul yollayarmış.

Qərb qapısı şairlərin diyarı,
Vurğun olub dünyanın bəxtiyarı
Saz-söz olub onun sənət meyarı,
Xalılarda toxudular Vurğunu,
Mahnılarda oxudular Vurğunu.

Aşıq Kərəm, şair Vəli, Şəmiddin,
Məclisində sazı-sözü eşitdin.
Zalım dünya niyə, nədən qəsd etdin?
Uca boylu, nər kişilər getdilər,
Ürəklərdə heykəl kimi bitdilər.

Osman, Sayad, Musa müəllim var idi,
Dağ vüqarlı saçları da qar idi,

Saf vicdanlı dosta etibar idi,
Köhnə kişi, sözü bütöv idilər,
Yada düşdü, rəhmətliklər dedilər.

Ziyaddin babanın balını dadan,
Uzaq olardılar qorxu-qadadan,
Arıları bəxş etmişdi yaradan,
Dağ qoynunda çiçəklərə qondular
Çiçəklərin şirəsini sordular.

Yaz gələndə «İncə» çayı daşardı,
«İncə dərə» durub-durub coşardı,
Camaat da seyr eyləyib çaşardı
Kəndimizdə dağdan axan çay vardı,
Neçə dəfə kəndi yuyub apardı.

Payız vaxtı bağımız bol olardı,
Çəpərlərdən uşaqlar da yolardı,
Zahid görcək onları tez qovardı,
Qonşumuzda Cəmi adlı qız vardı,
Şirin dillə qardaşımı tovlardı.

Yay olanda biz gedərdik yaylağa,
Vurğun idik sərin sulu «Maymağ»a,
Axşamçağı yığışardıq bulağa,
Nişanlı qız nişanlısın gözlərdi,
Gəlməyəndə ümidini üzərdi.

Akif Səməd evdə bircə oğuldu,
Atasına-anasına noğuldu.
Dərya idi, duyğularda boğuldu,

Zalım fələk aldı, Akif Səmədi,
İlan kimi çaldı, Akif Səmədi.

Gözə gəldi, daşa dəydi sevdası,
Yol üstünə çıxdı dərdi-qadası,
Qara xəbər oldu «Layla» havası,
Bu dünyada o da xoş gün görmədi
Ürəklərə köçdü, Oqtay ölmədi.

Səba xalam ağı deyib ağladı,
Sinəsini oğul dağı dağladı,
Vaxtsız ölüm yollarını bağladı
Gedər-gəlməz səfərindən dönmədi
Ulduz idi, günəş kimi sönmədi.

Ziyarətə gələrdilər Göyçədən,
Mədinədən, Kərbəladan, Kəbədən,
Söz düşərdi müqəddəs «Göy Türbə»dən,
Nəsib baba uca boylu kişiydi,
Xeyirxahlıq onun savab işiydi.

Məhbub nənə yaman şirindilliydi,
Düşdüyü yer müqəddəsdi, piriydi.
Dilindəki bayatıydı, şeiriydi,
Ağ qoçlardan qurban kəsib paylardı,
Kasıbların özü könlün alardı.

Ərik, alma, iydə, üzüm bağları,
Bol olardı, bostanları, tağları,
Yada salma ötüb keçən çağları,

Gözlərimdən göz yaşlarım sellənər,
Selləndikcə sinəm üstə göllənər.

Qoşa qəbir «Dərəlilər» var idi,
Yel hərəmdə çox xəstələr var idi,
Bu dünyada möcüzələr var idi,
Xəstə gələn sağlam döndü evinə,
Pir dedilər Aslanbəyli elinə.

Ağ dərənin suyu, gili qaynadı,
Axar suyu dupdurudu – aynadı,
Saz səsinə qocalar da oynadı,
Aşıq Qərib, Dilman, Mirzə çaldılar,
Ustadlardan yaxşıca dərs aldılar.

Qaçaq Kərəm, İsmayılın dostuymuş,
İncə dərəm tarixdə dastan olmuş,
Oğulları igid, həm aslan olmuş,
Bu dərənin suyun içən nər olar,
Bəxti açıq, qoşa düşən zər olar.

Zöhrə xalam kənddə ara həkimdi,
Xalam olan yerdə loğmanlar kimdi?
Sehir idi, möcüzəydi, ya sirdi,
Nar qabığın qaynadardı verərdi,
Xəstələrə dur, sağaldın deyərdi.

Səhər oldu evdə tapmazdın onu,
Geyinərdi allı-güllü donunu,
Məqsədinin var idi bircə sonu,

Toy-nişanda xalam öndə gedərdi,
Köçən qıza özü yengə gedərdi.

Tanrının xəbəri yox bədnəzərdən,
Fələk yan keçmədi mən tək gözəldən,
Ayrılıq qismətmiş bizə əzəldən,
Ömrün bahar çağı ayrıldım yardan,
Üşüdüm hər zaman soyuqdan-qardan.

Çətinə düşəndə, dara düşəndə,
Tufana düşəndə, qara düşəndə,
Özümü tək gördüm, hara düşəndə,
Axdı gözlərimdən acı göz yaşı,
Yanımda görmədim bacı-qardaşı.

Şərəfli yol seçdim, əsgər yolunu,
Enişli-yoxuşlu səngər yolunu,
Özüm qəbul etdim bu ər yolunu,
Qadın libasından mən uzaq düşdüm
Əsgər libasında özüm görmüşdüm.

Tənhalıq amansız olduğu qədər,
Dözürdüm yanağım solduğu qədər,
Dərdimlə baş-başa olduğu qədər
Dayandım dağ kimi vüqarı uca,
Ömrümü vermədim heç zaman puça.

Oğullarım evdə idi şah idim,
Könlü çox xoş, qəlbi bir gülşad idim,
İntizardan, xəyallardan yad idim,

Payız gəldi köç etdilər ellərə,
Tənhalıqdan bel bağladım illərə.

Qış gələndə soyuq oldu mənzilim,
Ürəyimə dərd yükləyim, ya silim,
Sirr açmağa öyrənmədi heç dilim,
Dərdlərimi ürəyimdə daşıdım,
Dərdli dağlar oldu mənim yaşıdım

Qürurumu uca tutdum hər zaman,
Bəxtəvərdir söylədilər, ay aman –
Taleyim sərt, zalım oldu bu dövran,
Cavanlıqda öz yarımı itirdim,
Bununla da saf eşqimi bitirdim.

Bayram günü danışmadım, gülmədim,
Tənha qaldım sevincimi bölmədim,
Doğmalardan bir xoş sifət görmədim,
Bax beləcə öz içimə qapandım,
Mülayimdim, soyuqqanlı yarandım.

Lal divarlar danışmadı-dinmədi,
Zülmət gecə sükut özü inlədi,
Əhvalımdan heç kəs xəbər bilmədi,
Qohum-qardaş dərdlərini yüklədi,
Ürək sirri nə açmadı-bükmədi.

Yaxın dostum oldu mənim kitablar
Qonaq oldu mənə xəyal-arzular,
Şairlər də öz taleyin yazırlar,

İnsan ömrü bulaq kimi qaynayar
Zalım fələk sərt oyunla oynayar.

Gecə yarı mənə həmdəm tənhalıq,
Dinləyirəm lal sükutu bir anlıq,
Bir səs gəlir: -Səndən uzaq yamanlıq,
Tanrı özü saçlarımı boyadı,
«Xınalı»ya Vətən oldu soyadı.

Reyhan müəllim «Vətən», «Ana» sözünü,
Öyrədəndə sevdirmişdi özünü,
Deyəcəyəm bu gün sözün düzünü
Minnətdaram, çox sevirəm mən onu,
Tükənməzdir, eşqimin yoxdur sonu.

Vaxt olacaq gün doğacaq bəxtimə,
Nur saçacaq günəş mənim xətrimə,
Paxıl kəslər durman mənim qəsdimə,
Allah mənim öz ruzumu veribdir,
Qisməti də tanrı özü seçibdir.

Aza-çoxa şükür dedim hər zaman,
Nəfis məndən uzaq olsun ay aman.
İnsanları çox dəyişib bu dövran,
Yaxşıların yaxşı adı ucadır,
Nuh dövründən dünya özü qocadır.

Qoca dünya şairləri yaşatdı,
Sazlı-sözlü ömür-gün də həyatdı,
Şəhriyardı «Heydər baba» yaratdı
Salam olsun Şəhriyarın ruhuna,
Yol göstərdi yazarların çoxuna.

## BƏNÖVŞƏ VƏ QIZILGÜL
*(Əfsanə-poema)*

Bənövşəylə Qızılgülün,
Vardı belə rəvayəti...
Bu əfsanə hekayəti
Eşitmişdim uşaq vaxtı...
Deyərdilər bahar fəsli
Təbiətin bayaramıdır.
Boynubükük Bənövşəylə
Qızılgülün əyyamıdır.
Yaz gələndə soyuq qış da,
Söyləmişdi xoş alqış da.
Pöhrələnən ağacların
Çiçəkləri gözəlləşər.
Dağ çayından axan sular
Bulaqlarla nəğmələşər.
Dəstə-dəstə quşlar uçar,
Boz sərçələr cikkildəşər.
Novruz günü xeyirlə-şər,
Gecə gündüzlə birləşər.
Buludların arxasında,
Ayla günəş də öpüşər.
Qayalarda nazlı gəlin
Xınalı kəklik ötüşər.
Ceyran-cüyür sürüləri
Marallar ilə mələşər.
Qırqovullar turaclarla,
Durnalar ilə səsləşər.
Uca dağların başından

Buzlar əriyib sürüşər.
Gedən qışdır, gələn bahar,
Əlini sıxıb görüşər.
Oyanan torpaqla bahar,
Deyər-gülər tən bölüşər.
Qız gəlinlər bayram günü
Dadlı xörəklər bişirər.
Şəkərbura paxlavanı,
Səmənini, qoz halvanı,
Süfrələrə min bir zövqlə,
Xonçaları düzər, düzər.
Otaqları eyvanları,
Təzə gəlin bəzər, bəzər.
Şirin noğul gül balalar
Xalı üstə gəzər, gəzər.
Xoş məramlı göyərçinlər
Bahar müjdəsin gətirər.
Göy üzündən səmalardan
Tanrı sevgisin yetirər.
İnsanların könülləri,
Ürəkləri hey sevinər.
Kol dibində gül bənövşə,
Qüssə çəkib boynun bükər.
Deyirlər ki, güllər şahı
Qızılgülü gizlin sevər.
Çiçəklərlə bölüşməyib
Öz dərdini də gizlədər.
Qızılgülün qoxusunu,
Sərin mehə baxıb izlər.

Bu həsrətin yolu uzun,
Boynun büküb- əyib gözlər.
Ümidini üzməyərək,
Deyir bəlkə bu sevgini
Şah Qızılgül eşidərək
Gül Bənövşə ünvanını
Soraqlayıb elçi gələr...
Güllər şahı Qızılgülsə,
Çiçəklərin sevgisindən
Şan-şöhrətə uyuyubdu.
Kol dibində həsrət çəkən,
Quzeylərdə boynun bükən,
Qız Bənövşə üşüyübdü.
Xoş qoxusu təravəti
Çöl-çəməni bürüyübdü.
Yarpağının, ləçəyinin,
Gül Bənövşə çiçəyinin
Gözü dolub kövrəklikdən,
Qara xalı sinəsində
Xəbər verir gözəllikdən....
Dərd çəkirlər, qəm bölürlər,
Təbiətdən ilham alan
Kam almayanlar ölürlər...
Çiçəklər də bu dünyada
Sevənlərin sevgisini
Gözəlliklə bölüşürlər.
Nərgiz, lalə yasəmənlər,
Ətir saçır çöl-çəmənlər.
Gözəl bahar gözəllikdə

Tək yaradıb Bənövşəni.
Ulu tanrı bəxş eyləyib
Kol dibində bu guşəni...
Bihuş edir xoş qoxusu
Qibtə edirlər çoxusu.
Sevənlər də naməsində
Qoxlayarlar Bənövşəni.

Yaz gələndə Bənövşəni
Dəstə-dəstə bağlayarlar.
Qıvrım-qıvrım hörüklərdə
Çələng edib darayarlar.

Sevilən gül sevgisinə
Həsrət qalıb Nuh dövründən.
Qızılgülü sevdiyindən
Pay veribdir gül ömründən.

Kol dibində nisgilindən,,
Bənövşələr xəzan olub.
Onun dərdi haqq aşiqi,
Qurbaniyə əyan olub.

Öz şerilə bənövşəni
Eldən-elə, dilə salıb.
Kol dibində tənha bitən
Bənövşəyə şeir yazıb.

Qurbaninin “Bənövşəsi “
Şeirlərin tacı oldu.
Alın yazı, tale-qismət
Rüzgar ona acı oldu.

Yerə-göyə sığmaz dərdi,
Saf eşqi də bir kədərdi,
İztirab da bir qədərdi
Boynubükük Bənövşəyə.

Əsən rüzgar Bənövşəni
Üşüdübdü boran-qarla
İmtahana çəkib tale
Qurbanini gözəl yarla.

Haqq aşiqi, dərd aşiqi,
Sazlı-sözlü mərd aşiqi.
Kəməndinə salıb onu,
Fəndilə namərd, aşiqi.

Dərd əlindən dəli olub,
Dağda-daşda binə qurdu.
Bənövşənin ətirində
Sevgisinə qovuşurdu.

Boynubükük Bənövşənin
Dərdini öz dərdi bildi.
Bənövşənin yanağından
Səhər-səhər şehi sildi.

Qurbani öz Pərisini
Bənövşəyə bənzədirdi.
Dağ çəkilən sinəsini
Bənövşədən gizlədirdi.

Qurbani də, Bənövşə də
Yardan ayrı dözəmmədi.
Dağ başından qartallar da,
Qanad açıb süzəmmədi.

Bənövşəni xəzan vurdu,
Qurbanini ilan vurdu.
Nakam eşqin şərəfinə
Təbiət də matəm qurdu.

Diridağda Qurbaninin
Məzarında çiçək bitdi.
Güllər matəm libasında,
Tək bənövşə titrək bitdi.

Qurbaninin məzarına
Xoş ovqatlı, bahar fəsli,
Xoş qoxulu, gül nəfəsli
Düzülmüşdü bənövşələr.

Bu dünyadan haqq aşiqi
Köçəndə də sinəsinə,
Məzarına göz yaşıtək
Süzülmüşdü bənövşələr.

Boynubükük bənövşələr
Ayrılığın rəmzi oldu.
Göydən enmiş mələk kimi
Pəmbə bulud rəngi oldu.

Yar həsrəti çəkənlərin
Dərdin çəkdi bənövşələr.
Qurbanidən əmanətdir,
Gül göyçəkli bənövşələr.

Əsmə, dayan xəzan külək,
Bənövşələr üşüyərlər.
Sevgilisi Qızılgülü
Müjdə ilə bürüyərlər.

Yox! Bu sevgi gizli deyil,
Ulu tanrıya əyandır.
Güllər tacı Qızılgülü
Qəflət yuxudan oyandır.

Hardan bilsin şah Qızılgül,
Onu sevir Bənövşə gül.
Dövrəsində tikanların
Canı yanmaz üşüsə gül.

Bənövşənin Qızılgülə
Məhəbbəti dastan oldu.
Gün görmədi qara bəxti
Sevinmədi yasdan öldü.

Yazan yazıb poza bilməz,
Bu tanrının fərmanıdır.
Yer üzünü axtar, yoxsa,
Sevənlərin dərmanıdır.

Uca boylu Qızılgülün
Həsrtini çəkən çiçək.
Bədnəzərdən gizlənərək
Kol dibində bitən göyçək.

Bənövşənin Qızılgülə
Qovuşması mümkün deyil.
Bu dastanı, rəvayəti
Ağbirçəkli mələk üzlü
MənimNigar nənəm demiş...
Mənə belə nəql eyləmiş...

Biri vardı, biri yoxdu,
Bir qız vardı, titrək-kövrək.
Adı isə Hurimələk.
Çiçək kimi gözəl-göyçək...
Nə eşqinə yetişmişdi,
Nə doyunca sevişmişdi..
Bu dünyaya tək gəlmişdi
Bu dünyada bənövşətək,
Bahar fəsli ömür sürüb
Bu dünyadan köç etmişdi.
Bu dünyadan tək köçmüşdü.

Deyirlər ki, bu nakam qız
Haqqın yolunu seçmişdi.
Əziz müqəddəs günlərdə
Belə bir yuxu görmüşdü;
-Qarabağda, Diridağda
Qurbanidi durub sağda.
Bənövşəli gül bağçada,
Pərisilə gəzir bağda.
Tül geyimdə mələykələr,
Gül geyimdə mələykələr,
Müqəddəslər, peyğəmbərlər,
Rəhmətliklər, cənnətliklər
Gəzdikləri yol-izlərə
Sərilmişdi çəmənliklər.

Qayalardan süzülürdü,
Aydın çeşmə, nur bulaqlar.
Coşub-daşıb qaynayırdı
Çağlayırdı gur bulaqlar.

Adəm ilə Həvva özü, -
Bənövşəydi söhbət sözü.
Bu çiçəyin ismət üzü,
Dolmuş idi qara gözü.
Əsrlərin yaşı yüzdü.
Rəvayətlər özü düzdü.
Qərinələr keçsə belə,
Söz sərrafı qoşdu-düzdü.

Muncuq-muncuq ipə düzdü.
Bu yuxunu, əfsanəni
Hurimələk görmüşdü tək.
Çiçək ətri, gül ətrindən
Məst olmuşdu, Hurimələk.
Birdən bir səs eşitdi ki,
Seyid Nigaridir gələn.
Əfəndilər yanındaydı,
Bənövşələr bağındaydı.
Hacı Mahmud Əfəndisə
Dayanmışdı solundaydı....
Cənnətməkan haqq dünyada.
Gül-gülü çağırır,
Bülbül bülbülü,
Bənövşə səsləyir
Tər Qızılgülü....
Səsləyir, səsləyir,
Eşidən olmur.
Bənövşə gülünün nakam eşqinə
Şərikəm, şərikdir bütün sevənlər.
Gəlimli-gedimli qoca dünyada
Eşqin qurbanıdır vaxtsız köçənlər.

Bu dünya demirəm, bax o dünyada
Çiçək Bənövşənin könlü şad olmur.
Qızılgül adına Bənövşə adı
Ayrılıq qismətdir yenə ad olmur.

Bənövşə gülünü aşıq Qurbani
Sevmişdi, adına şeir yazmışdı.
Balaca boyuna bənövşə gülü
Gözünün yaşıyla qəbir qazmışdı.

Bir nakam sevginin təlatümündən
Oyandı yuxudan qız Hurimələk.
Söylədi;-Deyirlər yuxunu görcək,
Sübh çağı sulara söyləmək gərək

Enib Kür çayının sahillərinə,
Ovcuyla su aldı öz əllərinə.
Torpağın bağrından qopub, cücərən
Suvardı, su səpdi qız güllərinə.

Çayın sahilində bitən güllərdən
Bir dəstə bağlayıb əlinə aldı.
Bir anlıq dayanıb xəyala daldı...
Xan Araz gözündə axdı-dayandı.
Dedi nə baxırsan bu bir sualdı.

Dəli Kür Kükrəyib,aşıb-daşırdı.
Günəş şəfəqindən göz qamaşırdı.
Çayın sahilindən sərin meh əsdi
Sular qovuşmağa yaman tələsdi.

Səpib çiçəklərdən Kürün köksünə,
Apar Xan Araza bağışla dedi.
Barışa bilmirəm nakam sevgidə
Mən belə bəxt ilə, naxışla dedi.

Gedəcəm müqəddəs, o pir yerlərə,
Bənövşə bəxtinə dua edəcəm.
Bəxtli Qızılgülə, bəxtsiz Bənövşə,
Qovuşsunlar deyə rica edəcəm.

İllərdir müqəddəs yollar yolçusu
Qız idi, qarıdı nənə dedilər.
Bənövşə haqqında rəvayət bilən
Təzədən-köhnədən yenə dedilər...

Dedilər belə bir əfsanə də var.
Kim ki, Bənövşəni gül Qızılgülün,
Yanında basdırsa qovuşar onlar.

Bənövşə qoxusu, Qızılgül ətri
İncədir gözəldir yaraşar onlar.
Ancaq ki, bunları bilmək gərəkdir,
Səbəbkar kim olsa, ömrü gödəkdir...

Dayanıb önündə olum və ölüm,
Gərək ki,ömrümü güllərə bölüm.
Əbədi həyatı qazanmaq üçün,
Özümü toplayım qəhrəman görüm.

Nənə oyanmışdı yuxudan erkən
Gedəcək müqəddəs yerlərə yenə.
Qarabağ, Qazaxda pirlərə yenə.
Dilək diləyəcək sirlərə yenə.

Hacı Mahmud Əfəndi,
-"Göy Türbəsindən"
Ziyarət eyləyir səfərə çıxır.
Qurbani, Nigari qoxusu gələn
Bənövşə gülünü köksünə sıxır.

Qarabağ elindən Qazax mahalı,
Uzaqdır, əlçatmaz xeyli aralı.
Xudaya kömək ol, olmasın belə,
Bənövşə gülünün qəlbi yaralı.

Güllərin vurğunu bu göyçək nənə
Dərdi bir deyil ki, gül-çiçək nənə.
Bənövşə gülütək gül-göyçək nənə,
Ağbəniz, nur üzlü həm ipək nənə.

Boran da, tufan da çıxdı yoluna,
Qayadan daş qopdu, yıxdı yoluna.
Göydən ildırımlar çaxdı yoluna,
Bənövşə, Qızılgül baxdı yoluna.

Qurbani məzarı, Nigari yurdu,
Bənövşə ətrindən cənnət-məkandır.
Qızılgül eşqindən pərişan çiçək
Boynu bükük qalıb gör nə zamandır.

Bulaqlar Araza qovuşduğu yer,
Hurimələk nənəyə gör nələr deyir:
Bütün fəsillərdə təbiət burda
Bəzənib-düzənib min bir rəng geyir.

Aşıq Qurbaninin məzarı burda
Gecələr Xan Araz laylasındadır.
Bənövşə gülünün həsrət qoxusu,
Cənubla, Şimalın arasındadır.

Qərbin qapıları açılıb tay-tay,
Bu vüsal gününə hazırlıq görür.
Bənövşə güllərin şahını sevir,
Bəxtin sarayını çiçəklə hörür.

Adəmlə-Həvvanı məst edən gülün
Nədəndir dərdinə dərman tapılmır?-
Dağlardan yol gedən kolun dibində
Qayalar, yarğanlar nədən çapılmır?

Xəyallar, fikirlər apardı onu,
Deyəsən yox imiş bu dərdin sonu.
Bu qədər güllərin içində sanki,
Bənövşə gülünün sirdaşı yoxmu?

Birdən xatırladı haqq aşığını...
Bənövşə gülünün yaraşığını.
Belə söyləmişdi, Qurbani babam;
“-Söylə dərdin bilənlərə,
Dərd başına gələnlərə,
Hər üzünə gülənlərə
Etibar eyləmək olmaz”

Qurbani sözünün sehrinə düşən,
Bənövşə güllərə etibar etmir.

Sevib çiçəkləri dil-dil ötüşən,
Xarı bülbülü də yar qəbul etmir.

Göy üzündən məleykələr,
Göndəriblər bənövşələr.
Kol dibinə sığınıbdır
Boynu bükük bənövşələr.

Cənnət məkan çiçəyidir,
Çiçəklərin göyçəyidir.
Boynubükük kədərlidir,
Boynubükük bənövşələr.

Ləçəyində şeh damlası,
Əl vurarsan ağlayası.
Çeşmə deyil çağlayası,
Boynubükük bənövşələr.

Zərif incə bir zinətdir,
Göy üzündən əmanətdir.
Etibardır, sədaqətdir,
Boynubükük bənövşələr.

Gözəl gülün gül üzünü,
Kol dibində görmək olar.
Yağış yağar göyçək olar,
Boynubükük bənövşələr.

Odlar yurdu torpağında,
Obasında-oylağında.

Qızılgüllər sorağında
Boynubükük bənövşələr.

Qısa olar ömür payı,
Həsrət qalar qışı-yayı,
Göydən həsrət qoyub ayı,
Boynubükük bənövşələr.

Həsrət qalıb qızılgülə,
Çata bilməyir mənzilə.
Ağlayıbdı gilə-gilə,
Boynubükük bənövşələr.

Nə yol bilir, nə iz bilir,
Kol dibində bir sirr bilir.
Qüssə kədər bir dürr bilir,
Boynubükük bənövşələr.

İstəyinə çata bilməz,
Yar qoynunda yata bilməz.
Qızılgülü ata bilməz,
Boynubükük bənövşələr.

Deyərlər ki, bar verənlər,
Başlarını yerə dikər.
Bar verməyib gül bitirər,
Boynubükük bənövşələr.

Bənövşənin, Qızılgülün
Ətri yoxdu heç bir güldə.

Dərilibdi az ömürdə,
Boynubükük bənövşələr.

Bağrının başı xallıdır,
Sevgisinə tən yarıdır.
Qızılgülün öz yarıdır,
Boynubükük bənövşələr.

Cəhənnəm əzabı çəksə də belə,
Kol dibi əzabdı, cənnət deyil ki.
İlk beşiyi, son mənzili olsa da,
Bu da bir qismətdi, minnət deyil ki.

Qalsa da yer ilə göy arasında,
Sevir Qızılgülü gül arasında.
Xəyal qanadında qovuşduğu an,
Fikirdən ayıldı kolun səsinə......

***Kol dedi:***
-Gözəlim, gəl sənə yar olum özüm,
Gecə də, gündüz də səndədir gözüm.
Mənə sığınmısan, mən necə dözüm,
Kölgəmdə boynunu bükən, Bənövşə.

***Bənövşə:***
-Sənə sığınsam da yar deməyəcəm,
Ağlına gətirmə heç sevməyəcəm.
Ayrılıq hicrinə heç dözməyəcəm,
Qızılgül eşqindən bükülmüşəm mən.

***Kol:***
-Mən səni verməərəm şah Qızılgülə,
Qənim kəsiləcəm gah Qızılgülə.
Hönkürüb çəkirsən ah! Qızılgülə,
Könlümə qovuşub bitən, Bənövşə.

***Bənövşə:***
-Mənim sevgilimdir, şah Qızılgülüm,
O məni sevməsə sevəcəm özüm.
Arayar hər yerdə kor olmuş gözüm,
Ah-nalə çəkməkdən üzülmüşəm, mən.

***Kol:***
-Mən yaşıl Kolamsa, sən ətirli gül,
Çəkərəm üzünə saf dumandan tül.
Gəl mənim yarım ol, sən üzümə gül,
Gülüşü gözündən itən, Bənövşə.

***Bənövşə:***
-Çiçəklər içində qız Bənövşəyəm,
Duvağı üzündə çiçək təşnəyəm.
Eşqim Qızılgüldür onsuz heç nəyəm,
Taledən qismətdən tez küsmüşəm, mən.

***Kol:***
-Gecələr ay bizə nəğmə oxuyur,
Ulduzlar sayrışıb çələng toxuyur.
Günəş işığından ətrin qoxuyur,
Olum bu eşqinə mən tən ,Bənövşə.

***Bənövşə:***
-Kədərdən fəryadım göyə ucalar,
Ləçəyim tez solar, zaman qocalar.
Torpaq hərarəti günəşdən alar,
Əlimi hər yandan hey üzmüşəm, mən.

***Kol:***
-Mənim qismətimsən qoruyacağam,
Sən məni sevməsən quruyacağam.
Mən sənə açılmış geniş qucağam,
Gəl mənim sevgilim ol, sən Bənövşə.

***Bənövşə:***
-Məni qorusan da qismət deyiləm,
Quruyub solsan da həsrət deyiləm.
Kölgəndə solsam da nifrət deyiləm,
Səni sevmirəmsə bil, düzmüşəm mən.

***Kol:***
-Sevib əzizlərəm sevgilim olsan,
Sən mənim çiçəyim öz gülüm olsan.
Ömrün də uzanar, öz ömrüm olsan,
Qurbanın olaram min yol, Bənövşəm.

***Bənövşə:***
-Mən sənin sevgilin ola bilmərəm,
Qızıldan badə ol, dola bilmərəm.
Ölsən də saçımı yola bilmərəm,
Qurbanı olmuşam mən, Qızılgülün.

***Kol:***
-Yoxdur çəmənlikdə sən tək tüləkdən,
Səni qoruyaram əsən küləkdən.
Yox daha qorxmuram vaxtsız ölməkdən,
Ətrafım cənnətdir sağ-sol, Bənövşəm.

***Bənövşə:***
-Əsən küləklərdən xəbər gözlərəm,
Qızılgül sevməsə vaxtsız ölərəm.
Cəhənnəm əzabı, cənnət görərəm,
Gözəldir qaməti şah Qızılgülün.

***Kol:***
-Vaxtında gəlmişdin, vaxtsız gedirsən,
Sən qara taleli baxtsız gedirsən.
Gəlin otağın yox, taxtsız gedirsən,
Quzeyli kölgəmdə solan Bənövşəm.

***Bənövşə:***
-Daha taleyimlə barışmışam mən,
Solsam da torpağa qarışmışam mən.
Boynubükük gül, bir "qarış"mışam mən
Quzeydə bitməyə alışmışam, mən.

***Kol:***
-Gəlməyə qoymaram yarı yanına,
Hopdurram soyuğu, qarı canına.
Özüm yetişəcəm, mən son anına,
Çiçəklər içində xəzan Bənövşəm.

***Bənövşə:***
-Təbiət sənə ki, kol adı verib,
Balaca, bəstəboy, soy adı verib.
Həmdəmi sənintək, bir yadı verib,
Qızılgül eşqindən xəzan oluram.

Bənövşə çiçəyi açıb qolunu,
Qucağı sevgiyə həsrət qalıbdı.
Bəlkə ona görə kollar dibində
Gecə də, gündüz də tənha qalıbdı....

Ayrılmaq istəyir kolun dibindən
Çıxara bilməyir onu qəlbindən.
Məst olubdur Qızılgülün eşqindən
Kolların dibində bitən, Bənövşə.

Dözmür əzablara, dözmür bənövşə,
Kollardan əlini üzür Bənövşə.
Şehi ləçəyinə düzür Bənövşə,
Sazaqdan-şaxtadan itən Bənövşə.

Qızların telində çələngə dönüb,
Burda Qızılgülü doyunca görüb.
Qovuşub güllərə oxşayıb, öpüb,
Çiçək sevgisinə yetən, Bənövşə.

Abırdan, ismətdən naza dönübdür,
Qışdan qayıdıbdır, yaza dönübdür.
Güllər nübarıdır aza dönübdür,
Kövrək vücuduyla əsən Bənövşə.

Xəyal qanadında kəpənəklərin,
Xallı qanadına ətir veribdir.
Yad gözlər, baxışlar görməsin deyə,
Kollar Bənövşəyə çətir veribdir.

Gəlinlik libası qismətin deyil..
Sən göydən gəlmisən, göylərə üz tüt.
Çıxart qəm libasın, qamətin düz tut,
Vətən torpağında bəzən, Bənövşə.

Sənintək nə qədər qız-gəlinlər var,
Boynubükük qalıb dərddən, bənövşə.
Vüsal günlərini gözləyənlər var,
Gəlintək naz eylə, özün, bənövşə.

Deyirlər yas tutub kövrək Bənövşə.
Özünü heç zaman öymür, Bənövşə.
Onu sevənləri görmür Bənövşə.
Ətrafa boylansın gözün, Bənövşə.

Bahar buludunun kölgəsi düşüb,
Xal-xal olub bağrı Bənövşələrin.
Qızılgül dərdindən boynu bükülüb,
Didib köksün ağrı, Bənövşələrin.

Bu qədər güllərin içində qərib
Tənhalıq əlindən yaman kövrəlib.
Göylərdən mələklər göndərən gülü,
Dərib kol dibindən məzara sərib.

Bənövşə qoxlayan Hurimələk nənə,
Kolların dibindən gülü çıxartdı.
Sevən gözəllərin fəsli baharda,
Qızılgül əkilən bağa apardı.

Torpağın qoxusu gül ətirindən
Açıb qollarını xoş gəldin dedi.
Fələk qılıncını çəkib nənəyə,
Bu bahar köçəsi sən idin dedi.

Qızılgül Bənövşə əlini sıxıb,
Yaxın gəl, gözəlim, sevən sənmisən?-
İllərdir yol gəldin qovuşmaq üçün,
Heyif ki, ömrünün sonu gəlmisən.

***Qızılgül:***
Yaxın gəl, yaxın gəl gözəl çiçəyim
Eşqini gizlədən əzəl çiçəyim.
Şaxtadan-sazaqdan xəzəl çiçəyim
Nədən göndərmədin xəbər, çiçəyim?

***Bənövşə:***
Sənin həsrətindən boynum büküldü.
Küskün taleyimdəm əlim üzüldü.
Göz yaşım gözümdən axdı-süzüldü,
Xəbərin olmadı məndən, Qızılgül.

***Qızılgül:***
Məhəbbət könlümün harayı olsun.
Bu gündən saf eşqin könlümə dolsun.

Çapar çiçəklərə qoy qənim olsun,
Mən səndən eşitdim inan, Bənövşə.

***Bənövşə:***
Çiçəklər demirəm kolların özü,
Sirrimi eşidib gizli saxladı.
Bulaqlar çağladı, çaylar çağladı
Sözümdə yox yalan inan, Qızılgül.

***Qızılgül:***
Güllərin şahıyam bilirsən özün,
Qızıl taxtım varsa, qızıl bəxtim yox.
Dövrəmdə tikanlar bilirsən ki,çox
Səni yaman sevdim yaman, Bənövşə.

***Bənövşə:***
Səninlə qovuşdum ömrümün sonu
Savab iş eylədi Hurimələk bunu.
Bizə bağışlayıb o, öz ömrünü,
Xeyirxah bir qarı köçdü dünyadan.

***Qızılgül:***
Məhəbbət yolunun yolçusu oldun,
Qollarım üstündə saraldın-soldun.
Gəl mənim xətrimə getmə dünyadan,
Qamətim qırılar sənsiz, Bənövşə.

***Bənövşə:***
Görüşdük qovuşmaq qismət ki, deyil
Yaşa öz ömrünü, yaşa, Qızılgül.

Göylərdən mələklər mənə gəl deyir,
Ömrüm yetişibdir başa, Qızılgül.

***Qızılgül:***
Hardandır bu qədər kövrəklik səndə
Xətrinə kim dəyib, sənin, Bənövşə.
Boynunu uğrumda çəkdiyin əzab,
Dünyanın dərdimi əyib, Bənövşə?

***Bənövşə:***
Sözün yarası var dərindən-dərin,
Sinəmi yarmağa qılınc göndərin.
Tənəli kolların,qərib çöllərin,
Əyibdi qəddimi mənim, Qızılgül.

***Qızılgül:***
Taledən küssən də gəl məndən küsmə,
Mənim əllərimdən əlini üzmə.
Bilirəm kövrəksən dodağın büzmə,
Utancaq, həyalı, çiçək Bənövşə.

***Bənövşə:***
Ömrümün sonudur yumulur gözüm.
Sənə olacaqdır mənim son sözüm.
Ölürəm qolların üstə al məni,
Son dəfə can verim özüm, Qızılgül.

***Qızılgül:***
Tikanlar bağlayan qolum qurusun,
Mənzilə çatmayan yolum qurusun,

Axirət dünyamda gorum qurusun,
Qollarım üstündə can ver, Bənövşə.

***Bənövşə:***
Sənə ürəyində vardı son sözüm
Yenidən dünyaya gələcəm özüm.
Səni axtaracaq hər yanda gözüm,
Sən mənim ilk eşqim oldun, Qızılgül.

Solsa da vücudu gül Bənövşənin,
Qızılgül ətrinə qovuşdu ətri.
Yox imiş dünyada belə bir ətir,
Xəzan ləçəyindən sovuşdu ətri.

Çiçək ətirləri, gül ətirləri,
Son məqam - görüşüb qovuşmadılar.
Əlləri əlinə çatmayan güllər,
Qızılgül, Bənövşə qovuşmadılar.

***

Quşlar dəstə-dəstə durna qatarla,
Bülbül ah-naləylə, turac harayla
Qaranquş oxudu həzin bir layla
Çiçək bənövşəyə, gül bənövşəyə.

Bulaqlar gözünün yaşını tökdü.
Dumanlar dağlara dərəyə çökdü.
Qızılgül bəxtini yaylığa bükdü.
Matəm saxladılar gül bənövşəyə.

Oyandı yuxudan anası torpaq,
Çağırdı güllərin anası torpaq,
Söylədi:-dörd həftə ,bir aya yaxın
Çərşənbə olacaq od,yel,su,torpaq.

Çatılsın ***tonqallar***, yansın düşmənlər
Atlansın üstündən çiçəklər-güllər.
Yox olsun bizlərdən azarlar-dərdlər
Baharla gəlməsin kor bədnəzərlər.

Birdən tufan qopdu, ***yel*** idi gələn,
Çöllərə söylədi yaşıla bələn.
Bizi qarşılayır hər qədirbilən
Sovuşsun dərdimiz çərşənbə yelnən.

Süzüldü bir damla saf zəmzəm suyu,
Solmuş bənövşənin ləçəklərindən.
Təbiət canlandı ömürü boyu,
Baharın ***su*** adlı çərşənbəsindən.

Bahar çiçəyinin qoxub ətrini
Ellərə payladı anamız ***torpaq***.
Dünyaya gələnə nakam köçənə
Həzin bir layladı anamız ***torpaq***.

Bükülmüş boynunu əydi Bənövşə.
Yenə kol dibinə dəydi, Bənövşə.
Hurimələk nənənin can verdiyini-
Görərkən boynunu əydi, Bənənövşə

Günəş şəfəqinə boylanıb nənə,
Üzünü tutmuşdu qibləyə yenə.
İmdad diləyirdi mələklər enə,
Deyə ki, sahib dur öz bənövşənə.

Müqəddəs çiçəyin eşqi uğrunda,
Canını tapşırdı ağbirçək nənə.
Köçüb bu dünyadan getmədi qoşa,
Bənövşə kədərlə bitmişdi yenə.

Uca bir zirvədə tanrıya yaxın
Hurimələk nənənin nur məzarı var.
Qoşa qəbirlərdən çox aralıda,
Bənövşə qoxulu bir məzarı var.

Qurbani, Nigari, Hacı Əfəndi
Ruhuna qovuşub nurüzlü nənə.
Çiçəklər uğrunda ölümə gedib
Xətadan sovuşub Hurimələk nənə.

Hurimələk nənənin məzarı üstə,
Bənövşə, Qızılgül qoşa bitiblər.
Günəş qürub çağı, ayla görüşür
Göylərdə bir nakam eşqə yetiblər.

Göyün qurşağının yeddi rəngi var.
Bənövşə gülünün öz ahəngi var.
Qızılgül məxməri, al, ağ, rəngi var
Burda ilk sevginin bir çələngi var.

Oxucum! Sanma ki, onlar qoşadı.
Gül vurğun idisə şah Qızılgülə,
Qızılgül tikanla, Bənövşə qəmlə-
Kolların dibində tənha yaşadı.

Hurimələk nənənin məzarı üstə
Bənövşə Qızılgül ətri gətirər.
Sevənlər səcdəyə bura gələrlər,
Şəfa da taparlar hətta xəstələr...

Bənövşə gülünə əl tutduğundan
Sorğudan –sualdan uzaqdır nənə.
Xoş ətirli torpaqda o yatdığından
Behiştdə uyuyan uşaqdır nənə.

Nənənin məzarı bənövşə kimi
Çiçək ətirlidir, gül qoxuludur.
Leysan yağışların gur çeşməsində,
İlk sevgi, məhəbbət, eşq toxumudur.
Bitəcək bənövşə kollar dibində,
Dastana dönəcək ellər dilində....

Oxucum! Bənövşə dastanını mən,
Çoxdan eşitmişdim Nigar nənəmdən.
Nakam Bənövşənin dastana dönən
Söz açdım sizlərə rəvayətindən.

Bənövşə bəxtindən halı olmuşdum.
Mən də bir igidin yarı olmuşdum.

Ömrün bahar çağı gənclik yaşımda,
Tənhalıq durmuşdu mənim qarşımda,
Üşüyüb dağların qarı olmuşdum.
İlk eşqin uğrunda gül tək solmuşdum.

Aşıq Qurbaninin “Bənövşəsini”
Oxuyub, ağlayıb, kövrək olmuşdum.
Dinləyib nənəmin rəvayətini,
Bənövşə gülü tək vaxtsız solmuşdum.

Bənövşə gülünü sıxıb köksümə
Gözümü yumaraq ətrin qoxmuşdum.
Dalıb xəyallara ötən günləri
Yadıma salaraq yaman dolmuşdum.

Dərdini duyaraq kövrək çiçəyin
Sirdaşı olmağı qərara aldım.
Kövrəlmiş könlünü ovundurmaqçün
Bənövşə eşqinə bir nəğmə yazdım:

-Bizim taleyimiz oxşardır desəm ,
Ellər qınamasın bizi ,bənövşə.
Mən qara taleli, sənsə ömrükəm
Sındırıblar qəlbimizi, bənövşə.

Mən yarımdan,sən çəməndən ayrısan
Mən şəhidin bəs sən kimi yarısan?
Nalə çəkib, fəryad edib çağırsan,
Eşitməzlər səsimizi, bənövşə.

Əsirlikdə qız-gəlinlər inildər,
Yurd itkisi qəlbimizi göynədər,
Belə imiş alın yazı, həm qədər,
Bilən olmaz qədrimizi, bənövşə.

Kədər üçün biçilibdir boyumuz,
Vağzalısız ötüb keçdi toyumuz,
Dərd çəkəndi, qəm böləndi soyumuz,
Tanrı yazıb bəxtimizi, bənövşə.

Çəmənlər-çiçəklər qəm libasında,
Bülbül nalə çəkər öz yuvasında,
Xınalı Zəminə qəm laylasında
Gəl bölüşək dərdimizi bənövşə.

Öpüşdük,görüşdük dərdi bölüşdük.
Çiçək bənövşəylə,gül bənövşəylə...

Məhəbbət elə bir bəla olub ki,
Nə çiçəyə baxmır, nə gülə baxmır.
Dərib kol dibindən gül Bənövşəni,
Qızılgül köksünə nədəndir, taxmır?

Məhəbbət sarıdan yarımayanlar,
Güllərin bu eşqi çox uğursuzdur.
Oğlan Qızılgülün, qız Bənövşənin
Həsrət yollarının sonu sonsuzdur.

Göydən mələklər də fərman göndərsə,
Yazıya pozu yox, ayrılacaqlar.

Qızılgül şah ömrü, bənövşə nakam,
Həsrətlə, hicranla yaşayacaqlar.

Hər bahar gələndə kollar dibindən,
Bənövşə boylanıb yar görməyəcək.
Şaxtadan donacaq eşqin əlindən
Göylərdən ələnən qar görməyəcək.

Beləcə fəsillər,illər keçəcək
Dərdli bənövşələr yenə bitəcək.
Qısa bir ömürdür gəlib keçəcək
Bəxti də üzünə heç gülməyəcək.

Bənövşə gülünün rəvayəti də
Sevənlər dilində söylənəcəkdir.
Uzaq keçmişlərdən bizə yadigar
Dastanlar çiçək tək göyərəcəkdir

Nağıl istəyəndə nəvə-nənədən
Nənələr sübhəcən danışacaqdır..
Güllərin sevgisi nağıla dönüb,
Heç zaman bu eşqə çatmayacaqdır.

## HƏRƏNIN BIR ÖMRÜ VAR

Hələ qədim zamandan
Adla tanınıb insan.
Tanrının bir payıdır
İnsanda inam-iman.
Fəqət hər kəsə eyni
Yazılmayır tale-bəxt.
Elmi sevən insanlar
Olur əbədi xoşbəxt
Hərənin bir ömrü var,
Hərənin bir yazısı.
Eniş-yoxuşlu olur
Ömürlərin yarısı,
Həyat mənalı olmaz,
İnsan əzab çəkməsə.
Ömür maraqlı olmaz,
İztirab da çəkməsə.
Yaxşı gün də gün deyil;
İnsan doyur, usanır.
Haqqın yolu çətindir,
Sonu işıqlı olur,
Halallıq gözəl nemət,
Hər kəsə qismət olmur.
Zəhmətkeşlik, sadəlik,
Tacdır başda insana.
Keçdiyi ömür yolu
Bacdır yaşda insana.
İnsan özü qərinə,

İnsan özü dünyadır.
İnsanların əməli
Yatanları oyadır.

Körpə gül balalara
Nənələr nağıl olur,
Tanrının xoş qisməti
Oğullar noğul olur.
İnsanı zirvələrə
Qaldıran ağıl olur –
Aqil babalar deyib;
“Ot kökü üstə bitər”,
Haqq yolunu tutanın,
Yollarına nur səpər.
Saf niyyəti olana
Ağıl, zəka, iradə
İman-inam da verər.
Milyonların içində
Müdrikliklə seçilər,
Qohum-qardaş, dostlar da
Alqışlayar, sevilər.

Ənvər İmanlı haqda
Oqtay Rza deyir ki,
Hələ uşaq olanda
Ona “Paşa deyiblər.
Şanlı Türk ordusunun
Qəhrəmanlıq dastanı,

Azərbaycan xalqının
Ürəyində-canında,
Orduya hörmət özü
Damarında qanında:

1918...
Tarixin daş yaddaşı;
Qırğın-qiyamət vaxtı.
Türklərin türk qardaşı
Azəri torpağını,
Bolşevik-daşnakların
Zülmündən xilas edib.
Azərbaycan xalqı da
Ənvər Paşa eşqinə
Kimin oğlu olubsa
Adını Ənvər qoyub.
Oğul düşmən çəpəri,
Düşmənləri kor qoyub.
Bütün türk dünyasında
Ənvərlər Paşa olub,
Sayılıb seçiliblər,
Ağılla yaşa dolub.

1952-də
Ənvər anadan olub
Oğul payını verən
Ulu yaradan olub.
Beşik başında hər gün
Nənəsi Ceyran olub.

Ana Dünyaxanıma
Hər zaman həyan olub.
Gül ətirli laylaya
Körpə də heyran olub.
Beşikdə parvazlanan
Uşaq pəhləvan olub.
İlk addımın atanda
Yeriyib əsgər kimi.
Qədəmlərindən torpaq
İnləyib səngər kimi.

Sinədəftər nənəsi
Sinəsi sözlə dolu,
Sevincdən fərəhlənir
Böyüyür körpə oğlu,
Xəyalında canlanır
Qəhrəman Ənvər Paşa.
O, vaxtlar cavan nənə,
İndi dolubdur yasa.
İllər sürətlə ötür,
İllər quş qanadlıdır.
Təhsil almayan nənə
Hamıdan savadlıdır.
Orta əsrdən belə
Tarixi əzbər bilir.
Sözləri muncuq kimi
Düzərək şeir deyir,
Körpə ayaq açanda
Yamanca sevinirmiş.

Ceyran nənə, nəvəyə
Beləcə söyləyirmiş-
-"Ənvər Paşa!
yüz yaşa!
Gəl o başa,
keç başa!"
Uşaq da fərəhlənib
Lap başda oturarmış
Yemək yeyəndən sonra
Kitab da oxuyarmış.
Sonra böyük həvəslə
Dərsini danışarmış
Nənə öz nəvəsinə
Ucalıq arzularmış.

Nənənin niyyətini
Tanrı da alqışlayıb.
Söz böyük bir dəryadır,
Arzular da röyadır.
Çaydır, dəniz, ümmandır
Alim Ənvər İmandır.

Ənvər uşaq olanda
Ata köçür dünyadan,
Onlara kömək olur
Ulu varlıq-Yaradan.

Ana səkkiz uşağı
Çətinliklə böyüdür.

Arpa-buğda dənini
Dəyirmanda üyüdür.

Gecələr uzun olur,
Ana xalı toxuyur.
Çırağın işığında
Uşaqlar dərs oxuyur.

Biri-birindən gözəl
Uşaqlar çox ağıllı,
Dünyaxanım ananın
Günü ağrı-acılı.

Kövrələndə, dolanda
Göz yaşını gizləyib,
Ağır, çətin günlərin
Başına od ələyib.

Böyüyüb oğulları,
Böyüyüybdü qızları,
Çox yaxşılıq edibdi
Onların ataları.

Əliaçıq olubdur,
Qonaqpərvər olubdur,
Yaxşılığı bacaran
Yaxşı kişi olubdur.

Darda qalan kəslərə
Həmişə dayaq olub.

Sanki vaxtsız ölümü
Özünə əyan olub.

Aqil kişi olubdur
Niftulla İman oğlu,
Sayılan kişi olub
Niftulla İman oğlu.

Kasıba, kimsəsizə,
Əl tutub dayaq olub.
Neftçala, Salyanda o
Sanki bir mayak olub.

Xeyirdə-şərdə öndə
Niftulla kişi gedib,
Böyük nüfuz sahibi,
El-obada sevilib.

Bu dünyadan köçsə də,
Adı dillərdə qalıb,
Ürəklərdə yurd salıb
Heykəl kimi ucalıb.

Onu xatırlayanlar,
Ona rəhmət diləyir.
Heç kimə bənzəməyən
Yaxşılığın söyləyir.

Orta məktəb zamanı
Şagirdlərdən çoxunun

Ata-anası vardı.
Kövrəlib dolan Ənvər
Atasın xatırlardı.

Hamı onu çox sevir,
Hamı ona can deyir,
Qaragözlü oğluna
Anası qurban deyir.

Arzular qalaq-qalaq
Arzular dünya boyda
Hələ uşaq vaxtından
Zirvəyə yol almışdır,
Doğru-dürüst insanı
Hamı alqışlamışdır.
Oğul dayıya oxşar
Bunu babalar deyib.
Ənvər bəyin dayısı
Elmə töhvələr verib.
Əjdər Ağanın yolun
Ənvər İmanlı gedib.
Elmə-təhsilə hər an
O da töhvələr verib.
Hər eldə hər obada
Çoxlu dostları olub,
Elmin dərinliyindən
Qaranlıqları qovub.

Artıq müdrik çağıdır
Bir azca yaşa dolub.

Şahlıq quşu tək ömrün
Altımışına dolub.
Ağıl-zəka, müdriklik,
Çiyinlərinə qonub.
Həyatda ilk sevgisi
Firuzə xanım olub.
Mayaları sevgidən,
Məhəbbətdən yoğrulub.

Oğulları Bəxtiyar
Qızları Dünya, Nərgiz,
Şən-mehriban olublar,
Elmin yoluyla gedib
Ali təhsil alıblar.
Bu həyatın qanunu:
Dünya ailə qurub.
Nərgiz hələ subaydır,
Dayanıbdır, durubdur,
Şair Oqtay Rzanın
Şerini oxuyubdur.
Ona çiçək deyəndə
Fəxrlə öyünübdür.

Xanım-xatın Vəsilə
Evin bircə gəlini,
Söhbət eyləyən zaman
Şirin edir dilini,
Qaynanaya köməkdir,
Gəlinlərə örnəkdir.

Ad alıb süfrə salıb
Tərifə layiq təkdir,
Ənvər müəllim gəlninə
Qızım, Vəsilə deyir.
Süfrəni bəzəyəndə
Sözü təriflə deyir.
Səliqə-səhmanına
Həmişə əhsən, deyir.
Oğlumu çox sevirsən
Gözəl gəlinsən, deyir.
ki oğul anası
Gəlin sular sonası.
Çox ədəbli uşaqdır
Nicat, Ənvər nəvələr.
Nəvə Ənvər babaya
Çox oxşamaq istəyir,
Söhbətə qoşulanda
Maraqlı söz söyləyir.
Nicat isə böyüyüb
Polis olmaq istəyir.

Qöncə gülə bənzəyir,
Rəhiməylə Xədicə.
Bal süzülür dodaqdan,
Onlar xoş söz deyincə.
Körpə olsa da onlar,
Çox sevmirlər əyləncə.
Yazmağı öyrəniblər,
Onlar dərsə gedincə.

Bu qızlar çox zərifdir.
Kəpənək kimi incə.
Elə gözəl görünür,
Onlar deyib-gülüncə.
Arzum budur ki, onlar
Bələnsinlər sevincə.
Ənvər babanı onlar,
Sevinirlər görüncə.
Baba-nənəli qızlar,
Ata-analı olsun.
Qızıl taxtlı demirəm.
Qızıl bəxtləri olsun.
Nəvə Ənvər deyir ki,
Babamla ova getdik.
Ov çətin olduğundan,
Sonralar "tövbə" etdik.
Babanı incitmirik,
Nənəni incitmirik,
Hər ikimiz əlaçı
Məktəbə cüt gedirik.

Müdrik kəlam söyləyən
Nəvə Ənvər hamını,
Heyran qoyur hər zaman
Söyləyir alim babam,
Mahir ovçuluğuyla
Hamını edir heyran

Danışanda elə bil
Bir qocaman danışır,

Keçmişdən-gələcəkdən
Sanki dastan danışır.
Onu dinləyənlərə
Hərdən maraqla baxır.
Sinəsindən kəlamlar
Sanki çay kimi axır.
Söhbətin qızğın vaxtı
Birdən ayağa durur.
Ona sual verəndə
O həssasdır, tez duyur.
Sonra özü-özünə
Balaca Ənvər deyir:
– Əfsanə söyləmirəm,
Doğru sözü deyirəm,
Babamın dostlarıyla
Mən də fəxr eləyirəm.
Babamın alim dostu,
Həkim dostları çoxdu.
Mən elə bilirdim ki,
Hərbçi dostu yoxdu.
Sən demə çox şeyləri
Mən hələ bilmirəmmiş.
Babamın yaxın dostu
Hərbçi-zabitlərmiş.
Şərəfli adlı-sanlı
Vətənpərvər, xeyirxah
İsmayıl Əliyev adlı
Polkovnik dostu varmış.
Cənab polkovnik bir gün.

Onlara qonaq gəlir.
Qonağın gəlişindən
Uşaqlar da sevinir.
Nəvə Ənvər deyir ki,
Üzümü ona tutub,
Iki təbrik söylədim,
– Üçüncü təbrikisə
Bilərəkdən gizlədim.
Bu balaca Ənvərin
Ağlına əhsən dedim,

Aramla danışdıqca
Maraqla dinləyirdim.
Deyib: - polkovnik, bizə
Əvvəla xoş gəlmisən.
Mənə şirniyyat alıb
Yaman zəhmət çəkmisən.
Bütün bunlara görə:
Sizə sağ ol deyirəm.
İkinci təbrikimdə
Sizdən xahiş edirəm;
Darda qalan Vətəni
İşğaldan azad edin.
Azərbaycan xalqını
Ürəkdən sevindirin.
Üçüncü təbrikimi
Siz qələbə xəbərin
Yetirəndə deyəcəm.
Ondan sonra mən sizdən

Heç nə istəməyəcəm,
Siz babamın dostusuz,
Babam Sizin dostunuz.
Sizə diləyirəm ki,
Tez yetişsin arzumuz.

Nəvə Ənvər deyir ki,
Babamla fəxr edirəm.
Mənim babam ziyalı,
Aqil insan, alimdir.
Onu da söyləyim ki,
Döyünən ürəyimdir.
Fəxr edib deyirəm ki,
Nə yaxşı ki, babamın
Adını mən daşıdım,
Mənim Ənvər babamın
Altmış yaşı olur.
Nənə - babalarıma
Uzun ömür dilərəm.
Nənə - babalarımı
Ömrü boyu sevərəm.

Burda sözünü kəsib,
Mənə söyləyir nəvə:
– Yəqin söhbət zamanı
Sizi də bir az yordum,
Bütün bunlara görə
Sizdən üzr dilərəm.
Ilk baxışdan çox şiltaq

Göründü nəvə Ənvər
Sonda müdrik kəlama,
Büründü nəvə Ənvər.
Əsərin qəhrəmanı
Baba Ənvər olsa da
Nəvə Ənvər hamını
Bir anlıq heyran qoydu.
Müdrik kəlamlarıyla
Ürəyimizə doldu.
Babanın ad günündə
Nəvə Ənvərin özü,
Müdrik hikmətli sözü
Böyük hədiyyə oldu.

Xəyalımdan bir anlıq
Kədəri-qəmi qovdu.
Təki bütün insanlar
Şən-mehriban olsunlar.
Bütün ömrü boyunca
Xoş-firavan olsunlar.
Aylar-illər, fəsillər,
Ömürdən-gündən gedir.
Həyat eşqli insanlar
Həm sevir, həm sevilir.
Bu gün bu xoş məclisdə
Çox təbriklər deyilir.
Alim Ənvər İmanlı
Hər bir eldə sevilir.
Bu onun halal haqqı,

Bu tanrının payıdır.
İmanlının ad günü
Oktyabr ayıdır.
Payızda doğulmusuz,
Ömrünüz bahar olsun.
Məndən Sizə ərməğan,
Ən xoş arzular olsun.

Xalqın ziyalısı tək
Bizə örnək oldun sən.
Oxumaq istəyənə
Hər an kömək oldun sən.
Müəllimin meyvəsi
Onun şagirdləridir.
Orta məktəbdən sonra
Həyat fəlsəfəsidir.
Hər kəsə kömək oldun,
Tanrı köməyin olsun!
Həyatda sağlam yaşa,
Halal əməyin olsun.
Bu dünyanın neməti,
Insan-ömrün sərvəti,
Qoy Sizə nəsib olsun.
Arzuların şöhrəti.
Əsrə yaxın bu “60”,
Dağlar kimi ucalmış.
Ənvər İman ömrünü
Alnı-açıq yaşamış
Bir daha can sağlığı,

Uzun ömür dilərəm,
100 yaşayın dostlarla
Sizə qonaq gələrəm.
Siz Firuzə xanımla
Əbədi ömür sürün.
Xoş günlər nəsib olsun
Nur paylasın hər günün.



## İBRAHİM ATA

O, gecə göylərdən ildırım çaxdı,
O, gecə göylərdən ulduzlar axdı,
O, gecə "İncə çay" ağladı axdı,
Bağlar da barını yandırıb-yaxdı.

Dedilər el köçür, oba dağılır.
Yanar ocağlar da sönüb-qaralır.
Göylərdə buludlar dolub-ağlayır.
Körpələr göz kimi ocağda yanır.

Vahimə, qorxuya düşdü camaat
Yuxular gözlərdən ərşə çəkildi.
Göz yaşı içində didərgin millət
Doğma Qarabağdan köç eyləyirdi.

Analar, bacılar, körpə balalar.
Ürəkdən ağladı, qəlbdən sızladı
Bu acı xəbərə dözməyib onlar,
Döyüşə atıldı igid oğullar.

Qəm dəryasında boğulanda Qarabağ.
Ağladı Göyəzən, həm də Averdağ
Ağladı, ağladı, axan hər bulaq
Ağladı Damcılıda olan hər qonaq.

Göylər dilə gəldi, daşlar titrədi
Analar Allahdan imdad dilədi

Qarabağ elinin qaçqınlarına
İncəli İbarahim kömək eylədi.

İsti nəfəsiylə, şirin sözüylə,
Pənah gətirənə sığınacaq verir,
Bu acı taleli insanlar üçün,
Qəlbinin ən incə teli göynəyir.

Qaçqını, köçkünü dinlədikcə o,
Düşmənə nifrəti hədsiz çoxalır.
Ürəkdə qövr edən kədərdən-dərddən
Gümüşü saçları qar tək ağarır.

Dümdüz qamətiylə, şux yerişiylə,
Hər zaman fəxr edir, doğma eliylə
Vüqarı dağlara bənzəyən ata
De necə dincələ, de necə yata!

Gör neçə evlərin çırağı söndü.
Gör neçə evlərin qonağı döndü.
Gör neçə igidin, hirsdən-qəzəbdən
Ürəyi gör neçə yerə bölündü.

Yox dözə bilmərik, bu böyük dərdə
İçindən qırıldı, körpə nəvə də
Qaməti əyilmiş, qoca baba də,
Bu dərddən danışdı, hər bir kəlmədə.

İbrahim! Oğlum, titrək bir səslə
İrəli gələrək, bir nurlu qoca.

Dərdini danışır, kövrək bir səslə...
Oxucum! Bu qoca qaçqın kişinin
Sözünü sən özün, bir yaxşı dinlə:
Qoca babam, deyir :–balam
İndən belə yaşamaram.
Heç ölsəm də unutmaram.
Namusları oyun oldu, qız-gəlinin.
Süngülərə qurban gedən körpələrin
Ah naləsi, göz yaşların,
Yalvarışın, qışqırtısın,
İçin-için hıçqırtısın,
Həm eşitdim, həm də gördüm,
Mən bu dərdə necə dözüm...
Laçın, Şuşa, Kəlbəcərin,
Qubadlının, Zəngilanın,
Füzulinin, Cəbrayılın,
Ağdamımın...dağlarından uzaq düşdüm,
Kor olaydı, kaş ki gözüm,
Mən bu dərdə necə dözüm.

Dinləyir qocanı, İbrahim ata!
Bundan ağır dərd var?-deyir dünyada
Axı biz sahibik layiqli ada
Biz sərt olmalıyıq, düşmənə, yada.

Ana fəryadına, oğul səsinə,
Səsinə səs verdi, İbrahim ata!
İncə dərəsinin bir qarışın da,
Vermədi yağıya, İbrahim ata.

Torpağım müqəddəs, torpağım əziz,
Qoy Allah evinə çatsın səsimiz,
Bizə dayaq olsun, o Göy Türbəmiz.
Allahı sevirik, biz hər birimiz.

Həmişə deyirdi, təkrar edirdi,
Köksündə bu sözlər qövr eyləyirdi.
Mən dözə bilmərəm, heç vaxt ömrümdə,
Xainlər gəzərsə, İncə dərəmdə.

Koroğlu nərəli, Babək hünərli,
İgidlər yetirib, İncə dərəsi,
Düşmənə sədd çəkdi, məğrur sinəsi.
Ürəyə yatandır, hər bir kəlməsi.

O, aqil atadır, böyük dünyadır.
İgid oğullardan, qeyrət rəmzindən
Basılmaz bir igid, ordu yaradır.
Düşmənin bağrına onlar yaradır.

Soyuq səngərləri, qara torpağı
Isti nəfəsiylə, o, isindirdi.
Halal çörəyinin son tikəsini,
Əsgər oğullara yedizdirirdi.

Qış sərt idisə, onun qəlbini
Göynədən bir ağır, dərd özü idi.
Oğullar döyüşə yollanan zaman
Həmişə deyirdi, irəli gedin:

Sənin nəsiətini, İbrahim ata!
Eşidən qulaqda sırğa eylədi.
Hökmün, şücaətin erməniləri
Tülküdən də qorxan qarğa eylədi.

Sən igid oğlusan obanın-elin
Sən güvənc yerisən İncə dərənin,
Qədrini bilirsən, çölün çəmənin
Dillərdə dastandır, o, saf qeyrətin.

Hamını birliyə çağırdın özün,
Ümid çırağını yandırdın özün,
Yol alıb yurdundan çıxan kəsləri
Evinə qaytardın, qaytardın özün.

Dağların başını çən alan zaman
Ürəyin həm qəlbin, göynədi yaman
Sözün hədəf oldu, mahir ovçu tək.
Düşmənin köksünə dəydi nə yaman.

Dedin nökər idi, dünənə qədər.
Necə ikiüzlü, yaltaq idilər.
Bu günsə torpaqdan pay istəyirlər.
Deyəsən son günə vay istəyirlər.

Azərbaycan torpağında xainlər
Zaman-zaman xəyanətlər eyləyib,
“Yersiz gəldi, yerli qaç”-məsəlini
Yerli-yersiz harda gəldi söyləyib.

Torpağımın hər qarışı müqəddəs,
Ana tək sevməli, vətəni hər kəs,
Güllü yaylaqlarda, yaşıl çəməndə
Nə düşmən gəzməsin, nə də yad nəfəs.

Hələ ki, düşmənlər meydan sulayır,
Yurdumu, elimi,-çapıb-talayır,
Bir işə bax xain düşmən-kafirlər
Qarabağı tonqal kimi qalayır.

Azərbaycan xəritəsi qartalın
Həm özüdür, həm gözüdür, siz bilin.
Ey xalqımın igid-nər oğulları
Qarabağa siz köməyə tələsin.

El qədrini bilənləri
Ellər özü yaşadacaq
Dil qədrini bilin oğul
Dillər sizi yaşadacaq.

Dağ qədrini, bilin oğul,
Dağlar sizi ucaldacaq.
Millət qədri bilməsəniz
Dərd sizləri qocaldacaq.

Söz qədrini bilin oğul,
Sazda aşıqlar çalacaq.
İgid kimi şəhid olsaq,
Yurdda uşaqlar qalacaq.

Qarabağa kömək üçün,
Getdi igid oğullar.
Oyanmışdı ürəklərdə
Neçə-neçə arzular.
Xain düşmənə qarşı
Döyüşdülər, vuruşdular.
Neçə oğul, neçə igid,
Vətən yolu, xalq yolunda
Onlar şəhid oldular.
Qəhrəman tək, tarix boyu
Yaddaşlarda qaldılar.

Aşıqlar sazına qara bağladı.
Analar şəhidim, deyib ağladı.
Atalar ağlamaz, dözümlü olar,
Göz yaşın gözündə sixib, saxladı.

Yaman dərddir, dözülməzdir.
Şəhid oğullar ölməzdir.
Günəş kimi həm sönməzdir.
İgid yolundan dönməzdir.

Mənim bir şərtim var, eşidin məni,
Heç kim tərk etməyəcək, İncə dərəni,
İbrahim atanın, özü demişdi,
Bu aqil sözləri, müdrik kəlməni.
Kimdir bu erməni gəlsin irəli,
Bütün var səsiylə verərək əmri,

Səsindən qorxuya düşən erməni,
Vücudu titrədi, əsdi əlləri.

Dedi! Bax gözümə ey xain qonşu,
Ölərəm torpağı vermərəm sənə.
Əgər şəhid olsam, ölsəm də bil ki,
Bu yoldan geriyə dönmərəm yenə.

Hamını birliyə çağıranda sən,
Ürəklə gəlirdi, döyüşə gələn.
Deyirdin nur kimi torpağımıza
Güllə tək düşmənin başına ələn.

Azəri yurdunun, övladıyıq biz
Tarixin əbədi yaddaşıyıq biz.
Nə üçün keçmişi unutmalıyıq.
Niyə də olmayaq, həssas, ayıq, biz.

Güc birlikdədir, gəlin birləşək.
Yumruq tək birləşib, polad tək bişək.
Hamının arzusu xoş qələbəni
Bahar bayramında, bir al səhərdə.

Hamımız bir yerdə, birgə eşidək.
İncə dərəsinin baharı, yazı,
Qollara güc verdi o, telli sazı,
Qoca nələlərin xeyir duası,
Xain qonşuları qorxuya saldı.

Vətənə məhəbbət, düşmənə nifrət,
Tarixin özüdü, ədəbi yoldur.
Vətən eşqi torpağına məhəbbət
İncə dərəsinin qəlbinə doldu.

Özgə torpağında gözümüz yoxdur.
Şükür ki, hər zaman nəfsimiz toxdur.
Bağ-bostan becərib, alın-tərilə
Halallığı sevən insanlar çoxdur.

İncə dərəm, İncə çayım incədir.
Oğulların igidlikdə bircədir.
Yad kəslərin, pis kəslərin gözünü
Həzin-həzin, göyüm-göyüm göynədir.

Sözün silah oldu, keçdi daşlardan
Qılınc tək doğradı, sal qayaları.
Torpağa göz dikmiş xain kəsləri.
Mat qoya bilmisən, o, qonşuları.

Hər sözündə bir hikmət var, amal var.
Nəsihətində dərin ağıl-kamal var.
Ad almısan ürəyinin oduyla
Çağrılırsan sən ağsaqqal adıyla.

Dostlar üçün xoş xasiyyətin bəs edər.
Qəlblər üçün saf niyyətin bəs edər.
Alın tərin zəhmətin bəhrəsində.
Doğru sözün, ciddiyyətin bəs edər.

İncə dərəm, aşıq-şair yurdudur,
Səngərlərdə keşik çəkən ordudur.
Ey oxucum! Yaddaşında saxla sən,
İbrahim Orucov, İncə dərənin
Ağsaqqalı, ən dəyərli oğludur.
Vətənə məhəbbət, yurda məhəbbət
Babaların şanlı tarix yoludur.



# DASTANLAR

# QAÇAQ İSMAYIL DASTANI

## *MÜƏLLİFDƏN*

*Əziz oxucularım!*

*"Qaçaq İsmayıl" dastanının dillər əzbəri olmasının şahidi İncə dərəsi, müqəddəs bir obadır. Hacı Mahmud Əfəndi «Goy Türbə»si ilə məşhur olan bu mahalda dünyaya gələnlərə ilk öncə ilahi halallıq deyilən gözəl bir mükafat verir. Bu mükafatın isə dəyəri yoxdur. Halal adamların işini əyənlərin varı-halı ellərə qismət olar, sağlam canı olmaz, yeddi arxa dönəni belə ziyan çəkər. Allah namərdi sizlərdən-bizlərdən uzaq eləsin. Amin!*

*Halallığın bir qolu da mərdlikdir. Mərdi-mərdanə halal kişilərdən danışanlar fəxr edərlər, öyünərlər, yeri gələndə belə sinələrinə döyərlər. Bax elə İncə dərəsinin adamları da halallığından ötrü qaçaq düşən İsmayılnan həmişə öyünüblər. Elimizdə-obamızda insanların ürəyində qəhrəmanlıq heykəli qurmuş, Qaçaq İsmayıl haqqında Telman Qəhrəmanovun «Qaçaq İsmayıl» poemasını oxuyandan sonra şairə təşəkkür üçün «Kredo» qəzetində geniş bir yazı yazdım. Qəzet çapdan çıxandan sonra İncə dərəsinin ağsaqqallarına və şairin özünə də göndərdim.*

*Ancaq mənim daxili aləmimdə bir narahat-*

*lıq yarandı. Bu da onunla bağlı idi ki, yeniyetməlik illərindən Qaçaq İsmayıl haqqında nənələrimdən və eləcə də incəlilərin dilindən eşitdiklərimi dastan halında yazmaq istəyirdim. Daxilimdəki təlatümün ən əsası da o idi ki, Qaçaq İsmayıl Cəlilöyündən olduğundan o, mənim anam - Gülhava xanımın babası olub. İncə dərəsində Cəlilöyü deyəndə: - aman-aman Cəlilöylərindən. Dava-dalaş, vuran-tutan nəsil kimi tanınırlar - deyirdilər. Deyilənlərə görə Cəliloğlu (yəni Qaçaq İsmayılın babası) yol ilə gedirmiş. Baxıb görür ki, ayağının altında bir kağız var. Kağızı götürüb gətirir kəndə və kənd adamlarına göstərir ki, belə bir kağız tapmışam. Baxın görüm bu nə kağızdır. Cavanlardan biri deyir ki, ay baba bu qiymətli kağızdır, yəni böyük miqdarda puldur. Cəliloğlu da təəssüflənərək: «Pahoo, mən də elə bildim ki, dava kağızıdır»- deyərək pulu cırıb atır.*

*Əslində İncə dərəsində qolu güclü adamlar olduğu qədər də, əli qələm tutanlar, yazarlar da çox olub. Bəs nədən belə Qaçaq İsmayıl haqqında indiyə qədər heç nə yazılmayıb. Yazıçı Fərman Eyvazlının «Qaçaq Kərəm» romanında da Qaçaq İsmayılla bağlı səthi yazıldığı üçün bu məni hələ tələbəlik illərindən bu yana yaman düşündürürdü. Nəhayət ki, Qaçaq İsmayılın da bəxtinə gün doğdu. Sən demə haqqın yolu çətin olduğu qədər də sonu işıqlıymış. Bu işıq da Telman Qəhrəmanovun qələmindən doğdu. Bax elə ona görə də*

*bütün İncə dərəsinin əhli və Cəlilöylərinin hər birinin adından qələm dostuma təşəkkür edirəm. İnanıram ki, adı adlara qoyulan Qaçaq İsmayılın ruhu İncə dərəsini dolandıqca şad olacaq.*

*Oxucularım isə bu dastanı oxuduqca qürur duyacaqlar, fəxr edəcəklər ki, elimizin-obamızın belə bir qeyrətli oğlu olub.*

*Ruhun şad olsun İsmayıl baba. Adına ehsan verməsəm də elə bilirəm ki, bu əziz və müqəddəs Ramazan ayında gözlərimin nuru ilə borcumdan çıxdım.*

***2008***

***İncə dərəsində ömür-gün sürmüş, öz halallıqlarına tapınmış və dünyadan köçmüş köhnə kişilərin – el ağsaqqallarının və ağbirçək nənələrin unudulmaz xatirəsinə ehtiramla.***

Hə**,** əzizlərimiz**, s**izə hardan söyləyim, hardan xəbər verim, qədim Qazax mahalının igidlər oylağı, şairlər yurdu, müqəddəs Göy türbə ziyarətgahı ilə məşhur olan İncə dərəsindən – Aslanbəyli obasından.

Haqqın əmri ilə mərd yaranıbdı,
Hər daşı, qayası sərt yaranıbdı,
Düşmənin canına dərd yaranıbdı,
Bunu yəqin bilsin qoy yer kürəsi,-
Qeyrət dərəsidi, İncə dərəsi.

Bu yerdə od yanır, ocaq qalanır,
Bu yerdə namusla qeyrət calanır,
Burda İsmayılın ruhu dolanır,
Qulağı kar edir dəli nərəsi,-
Qeyrət dərəsidi, İncə dərəsi

Yüz şair gərəkdi, birindən yaza,
Ağlını cəm edə dərindən yaza,
Hacı Əfəndinin pirindən yaza,
Bəsirət gərəkdi bunu görəsi,-
Qeyrət dərəsidi, İncə dərəsi.

Əsrlərin yaşıdı Aslanbəyli obasında dünyaya gələn oğullar nər biləkli, qızları uzun saçlı, anaları ağzı yaşmaqlı, babalar buxara papaqlı kişilər olduğundan bu obanın adamları halal tikələrinə haram qatmayan insanlar olublar. Halal zəhmətlərindən bəhrələnən sadə zəhmət adamları göydə ulu Tanrıya, yerdə Göy türbəli Hacı Mahmud Əfəndi ocağına sığınıblar. İncə çayının laylasından, İncə dərəsinin abı-havasından pərvazlanan halal adamların halallığına şahid ulu tanrı onlara tükənməyən sərvət kimi sağlam can, polad iradə, nəfisdən çox-çox uzaq, tamahı yaxına belə qoymayan sağlam düşüncə bəxş edib.

Əsrlərin yaşıdı, tarixlərin yaddaşı Qazax mahalının - İncə dərəsi tanrının hökmüylə yaranmış tarixi ğir qala, əbədi bir səngərdir. Sıldırım qayaların əks-sədalarına dönən Telli sazı dilləndirən ozanların dili ilə desək:

Meşələr, oylaqlar, o buz bulaqlar,
İgid-ərənlərin yurd yeri olub,
Əsrlər boyunca Qazax mahalı
Müqəddəs sayılıb, mərd yeri olub.

Bir səngər olubdur, Avey dağları,
Aləmə yayılıb, səsi-sorağı,
Qaçaq İsmayılın ata ocağı
Söz ilə qılıncın sərt yeri olub.

Həm şeir, həm şair sənət dünyalı,
Əsrin yaddaşdır, Qazax mahalı,
Dilboz atlarının qızılı –nalı,
Namərd düşmənlərə dərd yeri olub.

İncə dərəsi, torpağı, daşı, qayası, dağları, çayları, bulaqları, allı-güllü yaylaqları, barlı bərəkətli bağları, ər-oğulları, aşıqları, şairləri, pəhləvanları, tarixin daş yaddaşına həkk olunmuş müqəddəs bir yurd yeridir.

İncə dərəsində İncə çayının zümzüməsindən, mamırlı daşların yaraşığından könül oxşayan bayatılar, nənələrin laylası, babaların dastanı yaranıb.

Gün doğana yaxın çiçəklərin ləçəyindən, güllərin yarpağından parıldayan lilparlı şeh damlaları min bir dərdin dərmanıdır. Nanə-yarpız, kəklikotunun ətri, Avey dağından əsən mehlə adamın ciyərlərinə dolanda, elə əsl cənnət-məkan deyilən yerin özü, İncə dərəsiymiş - deyirsən.

Yaz olanda gül-gülü, bülbül-bülbülü çağırar bu yerlərdə. Alça ağaclarının çiçəkləri çəpərlərdən salxım-salxım asılar, yovşan ətri torpaq ətrinə qarışan İncə dərəsinə:

– İncə dərəsində ayaq saxlasan
Ətrindən doyarsan gülün-çiçəyin.
Dağların döşündə açanda lalə
Heyranı olarsan İncə dərənin.

İncənin qonağı olan kəslərin
Ömrünün üstünə ömür də gələr.
Əlləri xınalı İncə qızları
İgid-ərənləri ürəkdən sevər.

Qocası, cavanı şirin dillidir,
Açılan sabahı xoş nəğmələdir.
Boylan ətrafına, hər yan gözəldir,
Bu, İncə dərəsi, bu-İncəlidir!

Bu kəndə qonaq kimi gələnlər ev yiyələrinin şirin dillərinin sehrinə düşdüyündən özlərini qərib saymırlar. Dadı-tamı ilə adamı iştaha gətirən dəyirman unundan bişirilən yuxanın, fətirin, xamralı əppəyinin ətrindən parvazlanan, halal süd əmmiş İsmayıl hardan biləydi ki, halal qazanc dalınca gedəndə qabağına gavur sifətli, vardan-dövlətdən gözü doymayan, tamahkar, paxıl, nökərlərilə son dərəcə insafsız davranan İbrahim ağa adlı qəlbi dar, gözü ac, namərd bir adam çıxacaq. Bu da bir alın yazısı, bu da bir baxt imiş, İsmayılın taleyinə yazılıbmış. Bəlkə də İsmayıl keçməkeşli, təlatümlü ömür yaşamasaydı, onun adı dillərə, ağızlara düşməzdi. Bu da ulu Tanrının İsmayıl ömrünün, İsmayıl adının əbədi-yaşamasına, İncə dərəsində, Aslanbəyli obasında, el arasında qeyrətli bir kişinin əbədi varlığına verdiyi bir töhfədir.

Deyilənnərə görə İsmayıl uşaq olanda uzaq-uzaq ellərdən müqəddəs Göy Türbəyə gələn qonaqlar gecələr Sədəddinöylərində, Cəlilöyündə gecələyirmişlər. Hacı Mahmud Əfəndinin anası Güllü qarı – Körvəlik qızı, Cəlilöyü nəslindən olduğundan, İsmayıl da nənəsigilə gələn qonaqlara qoşulub, Borçalı mahalına işləməyə getmək qərarına gəlir.

Cijisi Xədicə qarıya söyləyir ki, hələ qağama demə, ağlıma belə bir fikir gəlib ki, gedim Borçalıda varlı adamların qapısında işləyim.

Cijisi də narahat olur ki, ay bala, uzaqlara getməyinə bir söz deyəmmərəm, ona görə ki, Borçalı mahalının adamlarına yaxşı bələdəm, onlar da zəhmətkeş adamlardır, ancaq meşə çaqqalsız olmaz. Hər yerin yaxşısı da var, pisi də. Birdən gedersən qabağına namərd çıxar. Bəs, onda mən anan ölmüş nağayraram. İsmayıl da cavab verir ki, allah eləməmiş qaba-

ğıma namərd çıxsa, mən də mərd kimi cavabını verərəm. Xədicə qarı da deyir ki, - ay bala, mərdin-mərdanənin də paxıllığını çəkən, gözü götürməyəni də çox olur.

İsmayıl da gülə-gülə cavab verir ki, ay ciji, Hacı Mahmud Əfəndi babamın ruhu heç kimi darda qoymayıb, inşallah məni də darda qoymaz.

İsmayıl xoruz banı durub, sübh çağı, İncə çayının saf suyu ilə əl-üzünü yuyur və Müqəddəs ocağa gəlir, səfər üstündə, yol üstündə ikən Göy Türbəni ziyarət edir. Bu ziyarətgahdan xeyir-dua alıb uzaq səfərlərə üz tutanlır, son anlarında da olsa bu torpağa qayıtmağı özlərinə müqəddəs borc bilirlər. Müqəddəs borcu qaytarmaq özü, müqəddəs ruhlara olan ehtiramdan, allah-taalaya olan inamdan irəli gəlir.

Bəli, əzizlərimiz! Sözümüzün canı, tarixlərin daş yaddaşında əbədi iz qoyan Qaçaq İsmayıl haqqında danışmaqdır. Qaçaq İsmayıl İncə dərəsində, Aslanbəyli obasında Cəlil öylərinin oğlu Omar kişinin övladı olub. Deyilənnərə görə sakit təbiətli, heç kimlə işi olmayan, alın tərilə balalarını dolandıran, sadə kəndli ömrü yaşayan Omar kişinin amalı düzlük, halal ömür yaşamaq olub. Onun arvadı Xədicə qarı isə Şədillilər nəslindən olub. Omar kişinin və Xədicə qarının iki övladı var imiş. Oğlunun adı İsmayıl, qızının adı isə Səyalı olub.

İsmayıl qarayanız-tunc sifətli oğlan olduğundan, ağır zəhmətlərin öhdəsindən məharətlə gələrdi. Qışda sazaqda, yayda günün altında işləməkdən qap-qara qaraldığından el arasında ona Qara İsmayıl da deyərdilər. Pəhləvan cüssəli İsmayıl artıq ərgənlik dövrünü yaşadığından bulaq başına yığılan qızların içərisində İsmayılı sevənlər, ondan xoşu gələnlər də az deyildi. Ancaq İsmaylın anası öz oğluna, özü bir qızı

bəyənib seçmişdi. Bu qızın adı da Tükəzban idi. Bir gün Xədicə qarı cehizlik sandığının ağzını açıb, özünün toy günündə əri Ömar kişinin anasının ona bağışladığı üzüyü çıxarır. Qırmızı yaylığın arasından üzüyü çıxarıb, övcunun içinə qoyur, ürəyində sevincək üzüyə baxıb, özü-özüylə danışaraq, indi səni gözümün ağı-qarası oğul balam İsmayılın nişanlısına bağışlayacam deyir. Xədicə qarı belə də edir. Omar kişiynən elçi gedib, qızın «hə»sini alandan sonra, Novruz bayramında Tükəzbana nişan taxır. Elə həmin ilin  payızında da mağar qurulur, qara zurnanın haraylarıyla İsmayılın toyu olur. Toy günü Omar kişi əhd eyləyir ki, İsmayılın oğlu olsa atamın, qızı olsa anamın adını verəcəm. Belə də olur. Doqquz ay, doqquz gün, doqquz saat, doqquz saniyədən sonra Omar kişinin qız nəvəsi dünyaya gəlir. Adını Pəri qoyurlar. Pəri Omar kişinin ilk nəvəsi olduğundan baldan şirin nəvəsini həddən artıq çox istəyirdi. O, nəvəsi Pəriyə yanı buzovlu, bol süd verən bir inək də bağışlayır. İnəyin südünün, qaymağının dadından Pərinin yanaqları alma kimi qırmızı olur.

Omar kişi və Xədicə qarı oğlu İsmayılın arvadı Tükəzbandan da çox razı idilər. Qaynana-qaynata qulluğunda canla-başla dayanan Tükəzban əri İsmayılla  da  fəxr edərdi. Ancaq el arasında  bir məsəl də  var, deyir:

– «Sən saydığını say, gör fələk nə sayır». Bir-birilə can deyib, can eşidən bu ailəyə fələk də əlini çəkir. Əzrayılın sərt hökmü ilə Omar kişi dünyadan köçür. Atasının ölümü ilə barışmayan İsmayılın sinəsinə sanki qor dolubmuş. Evlərinin bərəkəti sanki Omar kişinin ölümündən sonra azalırdı. Külfətin ağırlığı İsmayılın çiyinlərinə düşmüşdü. O illər aclıq olduğundan bütün kəndin əhalisi əziyyət çəkirdi. Yağ-yavanlıq

olmadığından quru çörəyə möhtac olmağı özünə sığışdırmayan İsmayıl halal çörəyini qazanmaq üçün uzaq ellərə getməyi qərara alır. O zamanlar Borçalı mahalından Aslanbəyli obasına «Göy Türbəyə» ziyarətə gələnlər qonaq kimi Xədicə qarıgildə, İsmayılın atası evində gecələyərlərmiş. Elə o vaxt söhbət eləyənlərdən eşitmişdi ki, Borçalıda İbrahim adlı bir ağa yaşayır. Çoxlu mal-qarası, var dövləti olsa da İbrahim ağa zalım adam olduğundan həmkəndlilərindən heç kim onun qapısında işləməzmiş. İbrahim ağanın qapısında işləyənlərin əksəriyyəti qərib yerdən gələnlər imiş. Bu minvalla da İsmayıl ona yardımçı olan bir nəfərin vasitəsilə Borçalıya İbrahim ağanın yanına gəlir. İbrahim ağa varlı və xəsis olduğundan, yalan vəd verməyi də yaman xoşlayarmış. İsmayıl İbrahim ağaya gəlişinin səbəbini deyəndə ağa yağlı dillərini işə salaraq yalandan vədlər verir. İbrahim ağa ilə İsmayıl belə razılaşırlar ki, sürünü bir il otardıqdan sonra yaylaqdan qayıdanda ağa ona iyirmi erkək verəcəkdir.

İsmayıl, İbrahim ağanın yağlı dilinə inansa da, halallığından qalmır, öz halal zəhmətinə tapınıb, sürüləri canla-başla otarır, gecəsini-gündüzünə qatırdı ki, mal-qaradan qurd-quş yeyəni olmasın. Belə də olur. İsmayıl sürüləri yaylaqdan qaytaranda İbrahim ağa qoçların sallaq quyruğunu görəndə və qoyunların kökəlib dəriyə sığmadığını seyr edəndə açıq-aşkar deməsə də ürəyində İsmayıla əhsən deyir.

Sürüləri saf-çürük edəndən sonra, satılan satılır, qalanlar qalır, payız tez ötüşür, dünyanın üzünü qarlı qış alanda, İsmayıl yenə də sürüləri qardan-soyuqdan qoruyurdu. Sürülər qışdan çıxır, yazda qoyun quzularıyla, inək buzovlarıyla İbrahim ağanın tövləsində yeri daraldır, sürülərin sayı artır.

Sən demə sürülərin sayı artdıqca İbrahim ağanın gözü doymurmuş artan var-dövlətdən. Hələ ürəyindən keçirmiş ki, qonşu yaylaqlarda köç salan sürülərdən oğurladıb, öz sürüsünə qatsın. Bu xəbis fikri qəlbində dolandıran İbrahim ağa öz-özünə fikirləşir ki, vaxtı çatanda onu İsmayıla tapşırar. Və İbrahim ağa belə düşünür ki, İsmayıl ehtiyac içində dolanan adamdı, yəqin ki, razılaşar...

Yaz fəslinin son ayları olduğundan artıq sürülərin yaylağa çıxmaq vaxtı yetişir, İsmayıl İbrahim ağanın yanına gəlir. Ədəblə, baş endirib ağaya deyir ki, sizinlə bir il qabaq şərtləşdik. Zəhmət haqqımın əvəzində mənə verəcəyiniz erkəkləri və bir də motalı verin ki, ailəmə çatdırım, aclıqdan əziyyət çəkməsinlər. Belə qərara gəlmişəm ki, bu gün, ya da sabah evimizə baş çəkim, görüm necə dolanırlar.

İbrahim ağa İsmayılı başdan-ayağa süzərək: -Hara tələsirsən, darıxma, bir gün tez, bir gün gec, nə fərqi var ki? Sən get, qoy mən yaxşı-yaxşı fikirləşim.

İsmayıl da düşünür ki, onsuz da bir ildir ki, buradayam, bir gün artıq qalanda nə olar? Bu fikirlər İsmayılın başına təmiz qəlbindən doğulan duyğulardan irəli gəlsə də, ağlına belə gətirməzdi ki, ağa ona kələk gəlir. İsmayıl bir neçə gündən sonra yenə ağanın yanına gəlir.

İbrahim ağa İsmayılı başdan-ayağa süzərək deyir:

-Görürəm halallığı sevirsən və gözlərindəki cəsarətini duyub, sənə bir söz də demək istəyirəm.

İsmayıl soruşur:

-Şərtimizdən əlavə nə söz söyləmək istəyirsiniz, ağa?

İbrahim ağa bir az ürəklənir:

- Halallığını gördümsə, cəsarətini də göstərmək üçün

gərək ki, mənim dostum gürcünün sürüsündən oğurluq edəsən.

Bu sözləri eşidən İsmayılı sanki ildırım vurur. İnana bilmir ki, bu boyda ağa belə bir axmaq fikir söyləsin, haramlığa əl atsın. İsmayıl qulaqları ilə eşitdiyi sözlərə inana bilmir. Təəccüblə deyir:

-Siz nə danışırsınız, ay ağa,  mən halal zəhmətlə yaşamışam, haramlıqdan uzağam, oğurluq, quldurluq mənə yaraşmaz, -deyəndə, İbrahim ağa əmr edir ki, İsmayılı kötəkləsinlər. Belə də edirlər, İsmayılın əl-qolunu bağlayıb, al-qan içində qaranlıq dərin bir quyuya atırlar. Ağrıdan bədəni göyüm-göyüm göynəyən İsmayılın xəyalları qanad açıb ata yurduna-Aslanbəyli elinə uçur. Gözünün qabağına atası gəlir. Atasının ruhu ilə danışan İsmayıla atası deyir:

«Ay oğul, oğurluq edən, kəslərin
Hamıdan çox olar qara-qorxusu.
Gündüzlər rahatlıq tapa bilməzlər,
Gecələr gözündən qaçar yuxusu.

Acından ölsən də oğurluq etmə,
O maldan imarət qurula bilməz.
Əgər qurulsa da yarımçıq qalar,
Sonuncu mismarı vurula bilməz.

Gözünü açanda yaman günündə İsmayılın köməyinə gələn atasının ruhu qeybə çəkilir.

Bir gün sonra İbrahim ağanın qulluqçuları quyunun ağzını açıb, İsmayılı oradan çıxarırlar. İbrahim ağa fikirləşirdi ki, yəqin İsmayıl belə ağır işgəncədən sonra oğurluq etməyə razılaşar. Əmr edir ki, İsmayılın əl-qolunu açsınlar. Yazığın

əl-qolunu açsalar da, çoxlu qan itirdiyindən ayaq üstə dura bilmirdi, yer-göy başına fırlanırdı, dizlərində taqəti olmadığından İsmayıl qəflətən yerə yıxıldı.

İbrahim ağa, İsmayılın başının üstündə dayanaraq:

-Sən mənim sözümə baxıb, oğurluq etsəydin, heç belə al-qana da boyanmazdın, oğurluq etdiyin mal-qaradan da öz payını götürüb, gedib ailənə də baş çəkərdin.

İsmayıl qabarlı əllərini ağaya tərəf uzadaraq:

-Ağam, mənim bu əllərim haram tikə görməyib, görməyəcək də, - deyir. Ancaq sizdən xahiş edirəm ki, mənim haqqımı verin çıxım gedim.

İbrahim ağa qəzəblə cavab verdi:

-Oğurluq etməsən sənin haqqını verməyəcəyəm.

İsmayıl ağaya üz tutaraq zəif səslə:

-Ağa, mənim qoca anam, ailəm, körpə balam var. Mən onlara haram çörək yedizdirə bilmərəm. İnsaf elə ağa, gəl şərtimizi pozma, halal haqqımı ver çıxım gedim.

İbrahim ağa yenə təkəbbürlü halda cavab verdi:

-Mənim səninlə hansı şərt kəsdiyim yadımda deyil, əgər ki, oğurluq etməyəcəksənsə, cəhənnəm ol çıx get, bir də bu qapıya gəlmə. Əgər ki, öz xoşunla çıxıb getməsən səni özüm buradan iti qovan kimi qovacam, it oğlu, axmağın balası, - deyərək onu yenidən hədələməyə başladı.

-Ay ağa söyüş niyə edirsən?- deyə İsmayıl bir az dirçəldi.

-Yaxşı eləyirəm köpəyin oğlu, heyvanın balası - deyərək İbrahim ağa xəncərini sıyırıb, şahmar ilan tək onun üstünə şığıdı.

Bu zaman Tanrı elə bil ki, İsmayıla güc verdi. O, ağır çomağı qaldırıb, var gücü ilə İbrahim ağanın təpəsinə vurdu.

Elə o andaca İbrahim ağa köklü ağac kimi yerə sərildi. Başından axan qıpqırmızı qan həyəti boyadı. Bir andaca gözləri bərəldi və ağa canını tapşırdı. İbrahim ağanın ölüm xəbəri bir neçə saatda bıtın Borçalı mahalına yayıldı. Onun ölümünü eşidən qulluqçuların elə bil ki, üstünə gün doğmuşdu. Zalım İbrahim ağa yerli ağaların, yerli əhalinin söylədiyi kimi ölməmişdi, gəbərmişdi. Elə o andaca xəbər tutan jandarmalar gəlib İsmayılın əl-qolunu bağlayıb Tiflisə apardılar.

Ailəsi ilə görüşmək arzusunda olan İsmayılın qara günləri bundan sonra başlayır. Onu Tiflisdəki Metex qalasına gətirmişdilər.

Əzəmətiylə şah sarayına bənzəyən Metex qalası Kürün sahilində, nəhəng bir qayanın üstündə yerləşirdi. İsmayılı qalaya salandan sonra o, sanki yuxudan ayılmışdı. Qarışqanı belə tapdalamayan İsmayıl adam öldürmüşdü, o öz günahını boynuna alsa da qara fikirlər, şübhələr onun köksünü yeyib-didirdi. Axı o, evdən adam öldürmək üçün yox, halal çörək qazanmaq üçün çıxmışdı. Həyatın sərt sınağı İsmayılı yaman yaxalamışdı. Zindan həyatı onu yaman sıxırdı. Buranın da bəzi qanunlarını götür-qoy edən İsmayıl görürdü ki, burada yatanlar da onun kimi kişilərdi. Ancaq onlardan bəziləri oğurluq üstündə, bəziləri şərə düşüb heç nədən, bəziləri isə kişiliyə yaraşmayan əməllə qadına, qıza sataşmaq üstündə məhbus həyatı keçirirdilər. Məhbus həyatının da ayrıca qanunları var imiş, burada ağlayana, tez-tez gülənə, tək yeyənə, aciz olana yaman pis baxırdılar. Qolu güclü olmağın da heç bir faydası  yox idi. Burada işləyən məmurlar isə allahdan, insafdan, mürvətdən xəbəri olmayan adamlar idi. Sahibsiz məhbuslara qənim kəsilsələr də, canlarında rəislə-

rindən qorxu da var idi.

İsmayıl yaman darıxırdı, ancaq əlindən də heç nə gəlmirdi. Qaranlıq zindan, dəmir barmaqlıqlar İsmayılı yaman sarsıdırdı. İsmayıl düşünürdü:

-Zindanda şir kimi nərildəməkdən
Canavar olaydı, bayırda gərək.

Həyat çox qəribəymiş. Mərdi qova-qova namərd edərmiş, zalım dünya. Bəlkə də elə dünyanı zalım edən, zülümkar insanlar, İbrahim ağa kimi zalımlar imiş. Əslində İsmayıl Borçalı elində adam öldürsə də bir kəndi, bir eli çirkab fikirli, haram bir ağadan xilas eləmişdi. İsmayıl halal haqqına görə, İbrahim ağanı öldürdüyünə görə zindana düşdüyünə belə peşman deyildi. Ancaq ailəsindən ayrı düşdüyündən daxili narahatçılığı onun rahat buraxmırdı. Ona görə də zindanda zülüm çəkən məhbus dostları ilə buradan qaçmaq üçün çox götür-qoy edirlər. Dustaqlar yaxşı bilirdi ki, buradan qaçmaq asan iş deyil. Ancaq İsmayıl qəti qərara gəlmişdi, ölmək var, dönmək yoxdur, deyərək gecə-gündüz fikirləşirdi. İsmayılın belə inadkarlığına dustaq yoldaşları qibtə edirdilər. Əslində onlar da İsmayıla kömək etmək istəyində olduqlarından, ona qaçmaq üçün çıxış yolu axtarırdılar. Axırda belə qərara gəldilər ki, gizlincə kəndir toxusunlar. Toxuduqları kəndiri ümidlə, nicatla toxuduqlarından:

Nicat kəndiriydi kəndirin adı
Gör neçə ildir ki, toxunur burda.
Gör neçə ildir ki, ilk «qaranquşa»
Ürəkdən dualar oxunur burda.

Hələ yarımçıqdır nicat kəndiri,
Cəmi on beş metr uzunluğu var.
Ancaq pəncərədən Kürün səthinə
Təxminən yüz metr məsafə olar.

Əzəmətli Metex qalasının pəncərəsinin altından görünən sərt qayalıqlar onun əzəmətini birə-beş artırırdı. Şir ürəkli İsmayıl isə fikirləşirdi ki, çətini Kürə tullanmaqdı, ondan sonrasına allah özü kömək olar.

İsmayıl dilləndi: -Verin kəndiri,
Bəxtimi allaha tapşırıram mən.
Ya ölüm, ya qalım, daha bezmişəm
Bu zalım dünyanın dəhşətlərindən.

Artıq İsmayılın bu dar zindandan canını qurtarmaq məqamı çatdığından o, zindandakı dostlarının hamısıyla bir-bir görüşüb halallaşdı. – «Allah qapınızı açsın, qardaşlar»-deyərək onlarla öpüşüb görüşdü.

Kəndiri kənar barmaqlıqdan bağlayan dustaq işarə etdi yəni ki, hər şey hazırdı. İsmayıl dar barmaqlığı polad bilə-yilə sındıraraq, sıyrılıb çölə sürüşdü. Kəndir boyu aşağıya sürüşən İsmayılın ayaqları sərt qayalıqlara dəyəndə, başa düşdü ki, kəndirin sonu bura qədərdi. Bəzən ulu Tanrı da sevdiyi insanlara ağır məqamlarda kömək durur, ona yol göstərir. İsmayılın ayaqları qayalara dəyərkən birdən, ildırım çaxdı, göy quruldamağa başladı. Çaxan ildırımın işığından zülmət gecənin gözü qamaşır, elə bil ki, Allah-taala da İsmayılın daşlı-qayalı yollarına işıq saçırdı. Növbəti şimşək işıqlandırmasından sonra İsmayıl – ya Allah!-deyərək suya tullandı.

Gözlərilə bu möcüzəni görən və körpünün üstündə keşik

çəkən növbətçi gözlərinə inana bilmir ki, bu qədər yüksəklikdən suya atdanan adam salamat qalsın. Ucadan həyəcan fiti çalan növbətçi suya atılan qaraltıya tərəf güllə yağdırdı. Növbətçi jandarmalar Kürü gülləbaran etsələr də gecənin qaranlığında göz-gözü görmədiyindən İsmayıl Kür aşağı, əl-qolunu tərpətməyərək axar suların qoynuna sarıldı. Beləcə xeyli üzəndən sonra İsmayıl Qarayazı meşəsində sahilə çıxdı. Zindan əzabları arxada qaldığından artıq kənd üçün, ev üçün, ailə üçün yaman darıxdı.

Haqqında axtarış başlanıldığını duyan İsmayıl hər addımbaşı jandarmalar tərəfindən tutulacağını başa düşdüyündən, qaçaqlıq həyatı yaşamalı idi. Uca dağ kimi qürurunu uca tutan İsmayıl, bir zamanlar evdən çoban kimi çıxmışdısa, artıq öz ata yurduna qaçaq kimi qayıtmalı idi.

İndən belə qalan ömrünü qaçaqlıq həyatı ilə keçirən İsmayıl gecə yarı evinə gəlir, xoruz banından qabaq isə üzünü çöllərə tuturdu. Bundan sonra onun ömrünün qaçaqlıq həyatı başlayır və bu yol onun əbədi ömür yolu olur.

Artıq Qazax mahalında, Borçalı mahalında, Qərbi Azərbaycanda söz-söhbət yayılmışdı ki, Omar kişinin oğlu İsmayıl zindandan qaçdığından qaçaqçılıq edir. Kimi deyirdi ki, kənddədir, kimi deyirdi Ceyrançöldədi, kimi deyirdi Avey dağlarındadır, kimi söyləyirdi Şinkarda, kimi deyirdi Gülüldə, kimi də deyirdi ki,-bəs Qaçaq Kərəmin dəstəsinə qoşulub.

Avey dağında daldalanan İsmayıl axşamlar damlarından burulan tüstünü, çırağın işartısını görəndə canına qor dolurdu. Canı alışıb yanan İsmayıl deyirdi:

- İlahi! Mən nələr çəkirəm, görən bunları heç duyan, bilən varmı?...

İsmayıl öz-özünə fikirləşirdi ki, tək əldən səs çıxmaz, mütləq Qaçaq Kərəmin dəstəsinə qoşulmalıyam. Buna görə də son dəfə ailəsi ilə görüşmək qərarına gəldi. Payızın soyuğu sümüyünə işləyən İsmayılın azuqəsi də qurtarmışdı. Meşələr xəzana büründüyündən onun sıx meşələrdə çılpaq ağacların arasından tapmaq da jandarmaların işinin asanlaşdığından xəbər verirdi. Qurd ürəkli İsmayıl gecə yarı düşəndə atını kənddən xeyli aralıda Cin dərəsi deyilən bir yerdə hörükləyərək evinə girib, tüfəngini köhnə yerindən, divardan asdı. Körpə balası Pərinin üz-gözündən öpüb, taxtın üstündə mütəkkəyə dirsəklənib, ağlamaqdan kor olan anası Xədicə qarının da əllərindən öpərək gözlərinin üstünə qoydu. Xədicə qarı İsmayılın qıvrım saçlarına, cod və qabarlı əllərinə, enli kürəyinə sığal çəkdi. Bir belə zülmlərdən sonra buxarının dibində bardaş quran İsmayılın canı isindi. Xamralı əppəyini əllərilə paralayıb, motal pendirindən yedikcə gözünə işıq gəlirdi. Arvadı Tükəzban yenə mis qazanda su isitdi, İsmayıl yaxşıca çimib, əynini-başını dəyişdi. Artıq getmək vaxtı çatmışdı. Birdən lal sükutu pozan atların kişnəməsi, pristav Abbas bəyin gur səsi aydınca eşidildi:

-Ay İsmayıl, çölə çıx,  
Tüfəngi qoy, təslim ol.  
Hər tərəf bağlanıbdır,  
Çıxmaq üçün yoxdu yol.

Bu dəmdə İsmayıl Tükəzbana başa saldı ki, mən arxa tərəfdən çıxacam. Sən isə pristavın başını qatmaq üçün evdən bayıra arabir güllə atarsan. Tükəzban belə də elədi. Atışma səsindən qulaqlar tutulur, yuxudan oyanan kənd əhli vahiməyə düşürdü. Atışmanın qızğın vaxtında Xədicə qarı

qapını açaraq çölə çıxdı:

-Ay biqeyrət uşağı,
Bizdən nə istəyirsiz.
Qadınla vuruşana
Necə kişi deyək biz?!

Qaynanasının dalınca bayıra çıxan Tükəzban əlində beşaçılanı göstərərək:

-Daha gülləm qurtarıb,
Gəlin bizi məhv edin.
Sonra biqeyrət kimi,
Rədd olub burdan gedin.

Abbas bəy əmr elədi ki:

-Daha vaxt itirməyin,
Keçin içəri dolun!
Birdən yalan danışar.
Bir azca ayıq olun!

Evə soxulan jandarmalar nə Xədicə qarıya, nə də Tükəzbana dəymədən, evi ələk-vələk etsələr də İsmayılın nə ölüsünü, nə də dirisini tapmadılar, ancaq körpə Pərinin beşikdə ağladığını görüb, çıxıb getməyi qərara aldılar. Gözləməyin bir xeyri də yox idi, artıq İsmayıl dağlara qaçmışdı. Ancaq Abbas bəy İsmayılı tutub Rusiyanın böyük çinli zabitlərinə təhvil verəcəyinə və əvəzində rütbə alacağına inanırdı. Ona görə də İsmayılı diri tutmağına söz verdiyindən Abbas bəyin qardaşı Qoşun bəy, Laçın bəy də qaçağı tutmaq jandarmaya təhvil vermək arzusu ilə alışıb yanırdılar. Yeri-göyü ələk-vələk etsələr də İsmayılı tapmaq mümkün olmurdu.

Abbas bəyə xəbər yetirmişdilər ki, İsmayıl Fərəhli meşəsinin şimalında gizlənib. Bu minvalla Abbas bəy öz dəstəsi ilə

Fərəhli meşəsinə yollandı. Deyəsən İsmayılın gizləndiyi yeri dəqiq demişdilər. Həmin yeri tanıyan jandarmalar Abbas bəy də başda olmaqla İsmayılın gizləndiyi yerə gəldilər. İsmayılın gülləsi az olsa da dəqiq hədəfə aldığından ona tərəf gələn əli silahlı pristavın kəlləsini nişan aldı. Bax beləcə Fərəhli meşəsində qan su yerinə axmağa başladı. Axırıncı dəfə Abbas bəyi yenə hədəfə alan İsmayıl:

-Yaxın gəl, rusun köpəyi!-desə də, Abbas bəyi öldürmək istəməyərək öz-özünə dedi:

Axı buna neyləmişəm:
Atasına söyməmişəm,
Anasına söyməmişəm,
Qardaşını vurmamışam,
Qohumuna dəyməmişəm.
Həmişə gəlir üstümə,
Sanki fərman imzalayıb,
Mənim qətlimə, qəsdimə…

İsmayıl gördü ki, yox Abbas bəy tüfəngini nişan alıb ki, onu öldürsün. Quşu gözündən vuran İsmayıl Abbas bəyi öldürmək istəməsə də artıq o məqam çatmışdı. Bir göz qırpımında o Abbas bəyi nişan aldı. Sonra da dəli bir nərə çəkərək:

-Əcəliniz çatmasın
Ayə, burdan dağılın.
Sizi bir-bir qıraram
Özünüzə yığılın!

Abbas bəyin meyidini bir təhər atın tərkinə qoyan pristav dəstələri gözdən itdilər.

Boz qurd kimi gündüzlər gözə görünməyən İsmayılın ürəyi daşa döndüyündən, məhəbbətdən uzaq, nifrət dolu

hisslərilə baş-başa qalmışdı. Artıq ondan ötrü ən gözəl məqam, ən gözəl mənzərə kimisə nişana almaq, kimisə gülləylə öldürmək idi. Şəffaf bulaqların gözündən axan büllur sular sanki qan rəngində görünürdü.

Pisliklə yoğrulub, fələyin qanı,
Şüşədə yoxuymuş divlərin canı.
Görən bu dərdlərə salan insanı
İnsan özüdürmü, ya zəmanədir?

Cavabsız suallar burulğanında sınmayan İsmayılı isə Abbas bəyin qohum-qardaşları dağları–daşları ələk-vələk edərək qardaşlarının qanını almaq üçün axtarırdılar. Onlar xəbər tutmuşdular ki, İsmayıl Şıxlı tərəfdə Kürün qırağındakı meşələrdədir. Artıq İsmayıl Qarayazı meşəsini özünə səngər seçdiyindən atını Kürə vurub o biri taya keçmək istəyirdi. İsmayıl bilirdi ki, Kərəm də buralarda gizlənib. O, elə Kürü təzəcə keçmişdi ki, Abbas bəyin qardaşları onun arxasınca bir neçə güllə atdılar. İsmayıl geri dönüb Qoşun bəyi nişana aldı. Gözlərinin qabağında canını tapşıran qardaşının dərdi Laçın bəyin bir dərdini iki elədi. Artıq iki qardaşını itirən Laçın bəyin əllərilə başını tutub İsmayılı söyməkdən başqa əlindən heç nə gəlmirdi.

İsmayılın gülləsi azalmışdı, azuqəsi qurtardığından dizində taqəti qalmamışdı. Onun arxasınca düşən jandarmalar isə ona yaxınlaşmaqda idi. O, əllərini göyə açıb:

-Ya Rəbb, yasa qərq etmə,
Mənim İncə dərəmi.
Möcüzənlə gəl mənə
Yetir qaçaq Kərəmi.

Yenilməz bir qaçaq kimi adı dillərə düşən Qaçaq Kərəm

hər yanda tanınırdı. Qaçaq Kərəm həmişə sadə insanlara yardımçı olduğundan, vicdansız bəylər onun adı gələndə tir-tir əsirdilər. El arasında belə də deyirlərmiş ki, Qaçaq Kərəm Allah-taala tərəfindən ovsunlandığından ona güllə də batmır. Əlçatmaz igid Qaçaq Kərəm hələ sağlığında ikən əfsanəyə dönmüşdü.

Əfsanəyə dönən Kərəm sən demə İsmayılın dalınca düşən pristavları görüb, atışma səsinin hansı səmtdən gəldiyini duymuşdu. Güllə səsi gələn tərəfə çatanda gördü ki, Qaçaq İsmayıl palıd ağacının dalına söykənib, onun halına ürəyində acıyan Qaçaq Kərəm, İsmayıla kömək etmək qərarına gəldi. Baxıb görürdü ki, İsmayıl tək olsa da böyük bir qoşunun öhdəsindən gəlir. Laçın bəy hövsələdən çıxdığından İsmayılı hədəfə aldığına sevinirdi. Ancaq onun sevinci çox sürmədi. İsmayıl onu da nişan alıb, yerindəcə bir gülləyə öldürdü. Bu mənzərədən qorxuya düşən qoşun qaçhaqaça düşüb, geri çəkilməyə məcbur oldu. Hərə öz canının hayına qalmışdı. İsmayılı uzaqdan seyr eləyən Kərəm onun mərdi-mərdanəliyinə heyran qalmışdı. Amma tüfəngini tətikdə saxlamışdı ki, İsmayıl çətinə düşsə ona kömək eləsin. İsmayıl isə artıq özü öz işini görmüşdü. Bundan sonra İsmayılı özünə görən göz bilib, ona yaxınlaşan Qaçaq Kərəm əlini onun çiyninə qoyub: - Əhsən sənə İncəli balası -deyərək İsmayılla dostcasına görüşdü.

Bütün çətinliyə sinə gərən İsmayıl arzuladığı günə, Kərəmlə görüşünə ürəkdən şad oldu.

Pəhləvan cüssəli iki qaçaq əl-ələ verib qardaş oldular. İsmayıl dedi:

-Ay Kərəm, səsimi eşidib Allah,

Qeybdən bu meydana göndərdi səni
Ölüm ayağında çatdın dadıma,
Saldın pərən-pərən yağı düşməni.

Qaçaq Kərəm bığlarını eşərək dedi:
-Ay qağa, səhvin var, ulu Yaradan
Bil, mənim xətrimə yetirib səni.
Düşmənlə böyük sədd çəkib aradan,
Minillik palıdtək bitirib səni.

Qaçaq İsmayıl, Qaçaq Kərəmi qürurla süzərək əlavə etdi:
-Ay Kərəm, mən sənin yanına gəlib,
Etibar edirəm öz həyatımı.
Cavan olsan belə ağsaqqal bilib
Sənə həsr edirəm, hər saatımı.

Qaçaq Kərəm də cavab verdi ki:
-Tək əldən səs çıxmaz, -deyiblər, qağa,
Dərya ümman olar, sellər daşanda,
Nə var ki, döyüşdən qalib çıxmağa,
Meydanda kişilər qoşalaşanda.

Qaçaq İsmayıl:
Çox yerlər gəzmişəm dolaşmışıq biz,
Hər tərəf meşədi, dərədi, dağdı.
Əgər eyni olsa fikirlərimiz
Tanrı özü bizi qoruyacaqdı.

Qaçaq Kərəm:
-Birinci addımdı əsas hər işdə.
Ölsək də, qalsaq da, bir olmalıyıq.

Qaçıb qurtarmışıq zalım əlindən
Bu cür həyatdan da həzz almalıyıq.

Qaçaq İsmayıl:
-Bilmirəm, ay qardaş, hara gedək ki,
Başımız açılsın qeylü-qallardan,
Yaman yorulmuşam necə edək ki,
Bir az uzaqlaşaq biz bu yollardan.

Qaçaq Kərəm, atının yəhərini çəkərək:
-Vaxtdır, min atını, ey dəliqanlı,
İncə dərəsinə başlanır səfər.
Həm mənsəb sahibi, həm adlı-sanlı
Atamın dostu var, orda bir nəfər.

Mustafa koxadır, dediyim kişi,
Pristav işləyib, ad-san alıbdı.
Qıraq Kəsəmənə düşəndə yolu,
Bizdə çörək kəsib, bizdə qalıbdır.

Qaçaq Kərəmlə Qaçaq İsmayıl at belində, tüfəngləri çiynində yol aldılar İncə dərəsinə, elə yol üstü müqəddəs «Göy türbəni» ziyarət etdilər. Aslanbəyli kəndindən keçib, Qaymaqlı kəndinə Mustafa Koxanın evinə gəldilər. Darvazaya çatanda Mustafa kişinin nökəri atın kişnəməsini eşidib darvazanın ağzına gəldi. Atlıları görən nökər dabanı üstə dala qayıdıb Mustafa Koxaya xitabən dedi:

-Sizi çağırırlar, qonağınız var!

Mustafa kişi darvazaya çatanda:

-Əssəlam əleyküm, Mustafa əmi!
Koxa cavab verdi:
-Əleyküm salam.
Qaçaq astadan dilləndi:
-Mənəm Kərəməm.
Mustafa kişi sevincək:
-Paho, xoş gəlmisən, qəhrəman balam. Atın üstündə niyə dayanıbsınız? İçəri keçin.
Nökəri çağırdı:
-Ayə, ay gədə, tez bura gəl. Atları dama sal, özün də tez bir erkək kəs.
Qaçaq Kərəm, Mustafa Koxaya:
-Bu da İsmayıldı, indi o, mənim ən yaxın silahdaşımdı.
Mustafa Koxa:
-Həə, indi tanıdım, şükür allaha
Siz ki, birləşdiniz, qorxunuz yoxdu
Ordu da batammaz sizlərə daha.
Sizə el-obanın istəyi çoxdu.

Qaçaq Kərəm:
-Erkəyi kəsdirmə, Mustafa əmi,
Bu evin tükənməz gəlib-gedəni,
Hamının ağzını bağlamaq olmur,
Çoxdur pristavın ağız güdəni.

Qaçaq Kərəm, Mustafa Koxaya ərknən, -Ay Mustafa əmi, imkan varsa, başqa bir yer təşkil et, yaman yorulmuşuq, beş-on gün dincəlmək istəyirik.
Mustafa koxa başını bulayaraq dedi:

-Ay bala, zəmanə yaman xarab olub, insanlar cırlaşıb, sonra, nökəri yanına çağırıb, tapşırıq verdi ki, get Molla Nəbini burya çağır. Nökər Molla Nəbiyi çağırmaq üçün qaça-qaça getdi. Ona kimi Mustafa Koxa Molla Nəbinin yaxşı dost, sirr saxlamağı bacaran qeyrətli adam olduğunu qonaqlara başa saldı. Molla Nəbinin öz şəxsi evini məktəbə çevirməklə İncə dərəsinin cavanlarını savadlı görmək istəyən kişi olduğunu da söylədi. Elə Mustafa Koxanın bu qaçaqları evində qonaq etməsi özü bir cəsurluq idi.

Molla Nəbi qonaqları görən kimi:

-Xoş gəlib elimin mərd oğulları,
Bu təşrif şərəfdir, şöhrətdir bizə.
Artıq hər tərəfdə böyük hörmət var,
Sizin adınıza, qeyrətinizə.

Mustafa Koxanın qonaqlarının şərəfinə kabab çəkildi, yeyib-içəndən sonra Noykeçən bağında dincəlməyi məsləhət gördülər. Hələ qonaqlar Mustafa Koxanın evindəykən kar Abdulla sazını götürüb, dastanlar söylədi. Saz sədaları altında dərddən, qəmdən uzaqlaşan qaçaqlar, özləri haqda söylənilən dastanlara maraqla qulaq asdılar.

Qaçaq Kərəm gülə-gülə zarafatla söylədi:

Onsuz da düşmüşük ağıza, dilə
-Bir də belə hava çalma, ay aşıq,
Pəsdən de, səsini qaldırma zilə,
Bizi dilə-daşa salma, ay aşıq.

Aşıq cavab verdi ki:

-Ay Kərəm, bir ağac yaşayar min il,
Qurd onu içindən yeməsə əgər,
Ancaq o sənətkar, sənətkar deyil,

Qəhrəman oğlundan deməsə əgər…

Noykeçən bağında Mustafa Koxanın alaçığına gələnlər geri dönmək istəməzdilər. Alaçığı xalı-xalçalarla bəzəmişdilər, tavanın ortasından asılmış yel fənəri də gecə-gündüz yanardı. Elə bu yel fənərini də Mustafa Koxaya qaçaqlar bağışlamışdılar. Yel fənəri xalis qızıldan olduğundan alaçığı qoruyanlar öz yerində, yel fənərini qoruyanlar başları ilə cavabdeh idilər. Ona görə də bu fənəri oğurlamaq iddiasında olanlar ilk öncə ölümlərini gözlərinin önündə canlandırdıqlarından bu fikirdən yan keçərdilər. Ömrünün, zamanının, saniyəsinin, dəqiqəsinin hər anını bu alaçıqda keçirən İnniƏhməd oğlu Nəbi idi. O, həm saz havalarını yaxşı çalıb, oxuyur, həm də muğamları ustalıqla oxuduğundan Mustafa Koxa ona ürəyi istədiyi qədər pul-peşkəş verirdi ki, İnniƏhməd oğlu Nəbi daimi bu alaçığa gələn qonaqları öz səsinin sehri ilə feyziyab etsin. Deyilənlərə görə bir dəfə Qaçaq İsmayılnan, Qaçaq Kərəm Noykeçən bağında həmin alaçığa qonaq gəlibmişlər və çaya enirlər ki, əllərini yusunlar. Elə bu dəmdə pristavlar alaçığı əhatəyə alırlar. İlliəhməd oğlu Nəbi segah üstündə oxuyur ki,

Pristavlar gəliflər,
Alaçığı dəliflər,
Məni dövrəyə alıf
Bu avamlar, hərriflər.

Elə o andaca İsmayıl Kərəmə deyir, ay qağa, İnniƏhməd oğlu Nəbi açıq-aşkar bizə pristavların gəlişindən xəbər verir. Gözünə döndüyüm qaçaqlar palıd ağacının dalından pristavları nişan alırlar. Pristavlar bu günmü ölübsən, dünənmi, qanadı qırılmış quş kimi torpağa sərilirlər. Qaçaqlar onların

üstündəki silahı-sursatı özlərinə qənimət kimi götürüb, atlarını da, öz atlarının tərkinə qoşub, dəstələrinə yeni qoşulmuş qaçaqlara vermək üçün Noykeçən bağındakı alaçıqdan uzaqlaşırlar. Nə qədər uzaqda olsalar da İnniƏhməd oğlu Nəbinin səsi dağları başına bürümüşdü. Gözləri-qulaqları səksəkədə olan qaçaqların ürəkləri ata yurdlarında alsa da, könülləri o dağlarda yurd salmışdı.

***

Artıq Qazax mahalında söz-söhbət gəzirdi ki, Mustafa Koxanın öyü, qaçaqların daldey yerinə çevrilib. Ona görə də pristavlar Mustafa Koxanın evini göz altına almışdılar. Elə bu dəmlərdə Molla Nəbinin nökərlərindən biri gəlib qaçaqlara xəbər verdi ki, sizi Molla Nəbi çağırır. Burada ciddi nəsə olduğunu duyan Kərəmlə, İsmayıl Molla Nəbigilə gəldilər, atdan düşüb salamlaşdıqdan sonra Kərəm:

-Xeyir olsun, ay Molla Nəbi,
Bəlkə xoşagəlməz bir hadisə var?
Molla Nəbi:
Mənim əzizlərim, xoş gəlmisiniz,
Ay Kərəm, İsmayıl, keçin içəri,
Sizinlə düz-çörək kəsmək istərdim,
İmkan tapammırdım nə vaxtdan bəri.

Qaçaqlar içəri keçəndə Molla Nəbinin üzündəki kədəri duydular. Ancaq nə Kərəm dilləndi, nə də İsmayıl. Molla Nəbi dinib sükutu pozdu:

-Kişi qonağını evdə qarşılar,
Kişi qonağını evdən ötürər,
Qonağa gizlində çörək verən kəs,
Eldən özü boyda töhmət götürər.

İsmayıl işin nə yerdə olduğunu bilib, dilləndi:
-Qoy xəbərin olsun, ay Molla Nəbi,
Bizi izləyirlər, qarabaqara,
Axı nəyə görə bizdən ötəri,
Səni də salalar qeylü-qallara.

Yox, ay bala, nə qeylü-qal, mənim heç kimdən qorxum-zadım yoxdu, elə ürəyimdən keçir ki, kar Abdullanı da çağırım, sabaha kimi sizinlə yeyim-içim. Elə bu dəmdə nökər içəri girib:

-Ay Molla Nəbi,
Tez çıxın həyətə pristav gəlib.
Nəbi çölə çıxdı, Kərəm dilləndi,
İsmayıl deyəsən qurğu düzəlib.

İsmayılnan Kərəm tez yerlərindən durub, bağa endilər, elə bu dəmdə pristavlar içəri doluşdular. Doğurdan da evdə qonaq var imiş, çünki isti kabab şişin üstündə, şərablar da saxsı qablardan süzüldüyündən yerə düşən damcılar belə heç qurumamışdı.

Pristav süfrəni süzərək:

-Tələsmə, qağa,
Bilirəm süfrəsi açıq kişisən,
Hələ vaxtımız var qonaq qalmağa.

Molla Nəbi tövrünü pozmadan asta-asta:

-Siz nə danışırsınız, cənab pristav, qonağa qulluq eləmək borcumuzdur.

Pristav da eyni tərzdə dedi:

-Sağ ol. Ancaq eşitmişəm ki, Qaçaq Kərəm Qaymaqlı kəndində gizlənir, üstəlik Qaçaq İsmayıl da ona qoşulub. Mahalda çaxnaşma salır, varlıların, imkanlıların qabağını kəsib on-

ları qarət edirlər. Siz isə onlara rəvac verirsiniz. Bir də ki, biz nə karəyik. Onları Nikolay özü soruşur, siz də, biz də bu işə kömək olub, əlimizdən gələni etməliyik. Molla Nəbi çıxılmaz vəziyyətdə qalmışdı.

Molla Nəbi ilə pristavın söhbətini eşitdikcə Kərəmlə, İsmayıl hövsələdən çıxırdılar. Kərəm Molla Nəbiyə işarə etdi ki:

-Gəzdiyi Kərəmlə İsmayıldırsa,
Qoy gəlib tanısın bizləri alçaq.

Əlacı kəsilən Molla Nəbi pristavı şirin dilə tutaraq, cənab pristav sizinlə xəlvəti bir söhbətim var, deyərək onu bağa gətirdi. Pristav qarşısında Kərəmlə, İsmayılı görəndə qorxudan gözləri həlqəsindən çıxdı.

Kərəm pristavı hədəfə alaraq ona tərəf gəldi. O, sakit səslə:

-Gəl qulaq as mənə, əvvala bil ki,
Birinci dəfədir, bura gəlmişəm,
Bir allah bilir ki, Molla Nəbiyə
Ömrümdə heç zaman düşməyib işim.
İndi də sözümə yaxşı qulaq as,
Bax Molla Nəbidən bir az uzaq gəz.
İnan ki, əlimdən qurtarammazsan
Səni də bir ordu qoruya bilməz.
Çalış ki, heç zaman izləmə bizi,
Biznən düşmənçilik təhlükəlidir.
Sizin arxanızda dövlət durursa,
Bizim arxamızda haqqın əlidir.

Pristav bir anlıq Abbas bəyin və onun qardaşlarının ölümünü gözünün önündə canlandırdı. Yox, deyəsən can şirin

şeydi. Qaçaqlara söz verdi ki, onları burada gördüyünü heç kimə deməyəcək, ancaq onu salamat buraxsınlar. Pristav və onun dəstəsi bir təhər canını qaçaqların əlindən sağ-salamat qurtardığından geriyə belə dönmədən çıxıb getdilər.

Qaçaqlar da Molla Nəbigildən getməyə hazırlaşanda Molla Nəbi gözləri dolmuş halda:

-Ay Kərəm, getməyin, bir çörək kəsək.

Kərəm atın belinə qalxaraq:

İnsan çiy süd əmib, Ay Molla Nəbi
Qayıda bilərlər, gərək tələsək.
Özündə heç günah axtarma, heç vaxt,
Dünya yaranandan qulaqlıdır yer,
Sənə bir xahişim olacaq indi,
Bu gümüş kəməri Abdullaya ver.

Qaçaqlar Molla Nəbiynən xudahafizləşib, atlarını çaparaq dağlara tərəf getdilər. Dağların qoynunda sal qayalarda daşlardan döşənmiş mağaraya girib bir az dinclərini almağa qərarlaşan Qaçaqların biri yatanda o, biri keşik çəkirdi. İsmayıl elə dərin yuxuya getmişdi ki, xorultusundan Guy-guy qaya sanki dəli bir nərə çəkirdi. Qaçaq Kərəmin səbri tükəndiyindən tüfəngin qundağı ilə İsmayılı vuraraq:

- Ayə, Allahsız, niyə belə xoruldayırsan elə, bil ki, pristavları özün çağırırsan ki, gəlin biz burdayıq. İsmayıl yarı yuxulu durub, qəh-qəhə ilə gülməyə başladı.

Kərəm:

-Ayə dəlimi olufsan, nəyə gülürsən, yoxsa İncəlidə içdiyin tut arağın təsirindən meyxoş olubsan?

Kərəm – Ayə, özünə gəl,- dedikcə İsmayıl daha bərkdən gülməyə başladı və əllərini bir-birinə vuranda Kərəm onun

əllərindən tutub dedi:

-İsmayıl sən tərssənsə, mən səndən on qat tərsəm. Məni özümdən çıxarma. Ayə, qardaş yatanda da dəli kimi yatırsan. İndi zəhmət çək, sən mağaranın ağzında keşik çək. Mən də bir az gözümün acısını alem. Yuxudan ötrü gözüm çıxer.

İsmayıl papağını qıyğacı qoyub dedi:

-Ay qağa, harya yatersən? Sənə nəyə güldüyümin səbəbini söyləyəcəm.

Kərəm yarı yuxulu halda əsnəyə-əsnəyə:

-Ayə, sən başın danış görüm nə danışersən?

İsmayıl dedi:

-Ay qağa mənə irad tutursan ki, yatanda xoruldayıram, bə nağayrem. Sənə kərəngüc məsələsini danışemmi?

Kərəm qəzəbli halda:

-Ayə, nə kərəngüc?

İsmayıl da cavab verdi ki, babamın kərəngücü?

Kərəm dedi:

-Ayə, a qıvlasız ürəyimi üzdün danış da.

İsmayıl başladı danışmağa nə başladı. Söylədi ki, Davakür Cəlilöyündən bir qolu güclü olur. Bu dəli-dolu kəndin ortasına çıxanda hərə bir şeyi bəhanə edib, ondan uzaqlaşırlarmış ki, nəyisə bəhanə edib dava salacaq. Cəliloğlu da neçə gün imiş ki, dalaşmağa adam tapammermış. Bir gün gedir kərəngücü gətirir yolun ortasına qoyur. Soruşurlar ki, ay kişi bu nədir?  Dəlimi olubsan, kərəngücü yolun ortasına niyə qoymusan. Bəs bu yoldan- ötüb keçənlərin atına arabasına mane olar axı.  Cəliloğlu da cavab verer ki, atamın goru haqq neçə gündür ki, dalaşmerəm, bağrım çatdaer. Özüm qəsdən yolun ortasına qoydum ki, bəlkə yoldan keçənlərin  kərən-

güc ayağına dolaşa. Mən də bir yaxşı dava edəm. Sözünə davam edən İsmayıl dedi:

-Ay qağa, özüm bərkdən xoruldayıram ki, bəlkə pristavdan-zaddan kimsə gələ, o dünyaya bezbilet göndərəm. Bayaq pristavi bəyi hədəfə almışdım, Molla Nəbinin həyətində öldürmədim ki, kişiyə xələl gələr.

Kərəm kərəngüc əhvalatını eşitdikdən sonra üzünü İsmayıla tutaraq:

-Atamın goru haqqı, elə sənin xorultun kərəngücdən betərdi, deyərək möhkəm güldü. Qaçaqların səsi-küyü Güyguy qayasını sanki yerindən titrədirdi.

Gecədən xeyli keçməsinə baxmayaraq qaçaqların yuxusu ərşə çəkilmişdi. Kərəm sal daşın dibindən isti nəfəs gəldiyini duyub, əli tətikdə oraya tərəf yaxınlaşdı. Daşın küncündəki canavar balalarını görcək:

-Ayə, İsmayıl, sən öl, deyəsən biz canavar yuvasında gecələyirik, demişdi ki, elə bu dəmdə iri bir canavar mağaranın ağzında dayanıb qaçaqların üstünə şığımaq istəyəndə, İsmayıl tətiyi çəkdi: elə o, andaca canavar canını tapşırdı. Kərəm tez canavara yaxınlaşdı, onun öldüyünü görüb, qəh-qəhə çəkib dedi:

-İsmayıl, deyəsən sənin kərəngücünə bu yazıq canavar dolaşdı. Bayaqdan davadan ötrü ovcuyun içi qaşınerdı, deyərək canavarı sürüyüb mağaradan aşağıdakı dərəyə tərəf apararkən İsmayıl dedi:

-Ayə, ay Kərəm, onu harya aparersən, qayadan üzü aşağı tullasana.

Kərəm cavab verdi ki, ayə atası rəhmətlik, qış üstümüzü alanda yadımıza canavar dərisi düşür. Allah yetirib də. Mən

canavarın dərisini soyum, sən gözdə-qulaqda ol. Aradan bir az keçmişdi ki, Kərəm canavarın dərisi əlində mağaraya yaxınlaşdı. Təzə soyulmuş dərinin isti olduğunu görüb atının belinə sərdi ki, neçə gündür at gözümə nasaz dəyir, soyuqdəyməsini götürər.

Canavarın qanı mağaranın ətrafına töküldüyündən qaçaqlar artıq bu sığınacaqdan da uzaqlaşmalı oldular. Ona görə də atlarını yəhərləyib Vəlixanlı meşəsinə üz tutdular. Artıq məşhur qoçaq kimi tanınan Qaçaq Kərəm və Qaçaq İsmayılın dəstəsinə qoşulmaq istəyənlərin sayı gündən-günə artırdı. İncəli Bayram, Sığnaxlı Omar, Haqqıxlı qoç İsfəndiyar, qaçaq Cahangir, Balasöyün, Pirvəli, Alıcan, Səməd kimi qaçaq-qaçaq oğullar Qaçaq Kərəmnən, Qaçaq İsmayılın dəstəsinə qoşuldular.

***

İsmayıl Ağ dərədən üzü yuxarı Aveyə tərəf gedəndə dava-dalaş səsi eşidib, atının yüyənini çəkdi. Yox, qardaş bu dava o, davalardan deyildi. Bu Söyün kişiynən, Səyalı qarının davası idi. Bu kənddə Söyün kişi arvadını döydüyünə görə yazıq arvad bu qapıya gələndən ömrü günü döyülməknən keçərmiş. İsmayıl Səyalı qarının ahı-naləsinə dözməyib, damın bacasından içəri girdi. Onu görən Söyün kişi ilə Səyalı qarı quruyub yerlərindəcə qaldılar. Səyalı qarı:

-Səni yetirən Allaha qurvan olom, ay İsmayıl, atamın goru haqqı, özünü yetirməsəydin kişi məni döyüb öldürəcəkdi, -Səyalı qarı İsmayıla sığınaraq, -hələ bax, qoluma-başıma döyməkdən vurğunnu dayın sür-sümüyümü qırıb.

Söyün kişi heç nə olmamış kimi:

-Ay arvad o, kəkotulu çaydan süz görüm, İsmayılnan bir

çay içək - deyib: - a bala niyə dayanıbsan, gəl taxtın üstündə əyləş, mütəkkəni də dirsəyinin altına qoy, - deyərək, gözü ilə işarə elədi.

Səyalı qarı üstünü-başını çırpıb, samovardan çay süzdü. İsmayıl çaya zoğal mürəbbəsi qatdı, birnəfəsə başına çəkib, ayağa durdu: - Hə, Söyün baba, Səyalı nənə, di gecəniz xeyrə qalsın, yolçu yolda gərək deyərək - atına mindi, onlarla sağollaşıb, yoluna davam elədi. Elə hey, yol boyu İsmayıl düşünürdü: - Ay allah, görəsən gecənin bu vaxtı qarıynan qoca bir-birilə nəyin üstündə dalaşırdı.

İsmayıl yaxşı bilirdi ki, Söyün kişi kür adamdı, arvad-zad qayğısına qalan da döyül. Yazıq Səyalı qarının cındırından cin hürkürdü. İsmayıl qəti qərara gəldi ki, Kərəmnən birlikdə təcili varlı bir tacirin yolunu kəsməli və zərdən-xaradan gətirib Səyalı nənəyə verməlidirlər. Elə bu dəmdə qayaların arasından bir fit səsi gəldi. Bu Qaçaq Kərəm idi, nəfəsini dərmədən:

- Ayə, İsmayıl, bayaqdan hardasan, mənə xəbər gəlib ki, o, gavur qonşularımızın ən varlı taciri İrana səfərə çıxacaq. Qaçaqlarından bir neçə nəfər gediblər pusquya. İndi yəqin ki, bizi gözləyirlər.

İsmayıl tez qəlbində bayaqkı fikri dolandırdı - Allah qocalarınkını yetirdi, - dedi.

İsmayılnan, Kərəm atlarını çaparaq Böyük Kəsik tərəfə gedəndə, artıq gördülər ki, qoçu Bayram o yandan bəri işarə edir ki, tacirlər yaxınlaşırlar. Elə bu dəmdə İsmayıl bir yandan, Kərəm də o biri yandan tacirin üstünə qızılquş kimi şığıdılar. Tacir canının qorxusundan: -Nə istəyirsiniz götürün, -deyə bir addım geri çəkildi. Kərəm faytondakı farmaşların

ağzının kəndirini kəsib:

-Ayə İsmayıl, qaçaqlara işarə et faytona çıxıb, kisələri doldursunlar-deyərək, özü ətrafa nəzər saldı ki, birdən pristavlar-zad olar. Qaçaqlar faytona doluşub kisələri doldurdular və qayalıqlara tərəf üz tutdular. Mal sahibi qorxusundan tir-tir əsdiyindən heç dinib-danışa bilmirdi. Qaçaq İsmayıl tüfəngin qundağı ilə onu itələyərək:

-Ay fərsiz, yerdə qalanlarını da götür, cəhənnəm ol-deyərək üstünə bağırdı. İsmayılın bağırtısından qulaqları tutulan tacir əlini çuxasının cibinə salıb, qaçmağa başladı. Sən demə varı-halı talanan tacirin başına hava gəlibmiş. Tacir gözləri bərəlmiş halda:

-Ara, ara, mazhab haqqı sizi öldürəcəm-deyəndə, Qaçaq Kərəm gördü ki, onun səsi-küyü dağlara-daşlara yayılır. Alnından nişan aldı..

Qaçaqlar farmaşları yırtıb qırı-qızılı yerbəyer eləyəndə İsmayıl içəri girdi. Qaçaqlar əllərini saxlayanda, İsmayıl bir ovuc tənbəkini, bir biküm kağıza büküb dürməklədi. Çaxmaq daşı ilə yandırıb, gözlərini qıyaraq üzünü qaçaqlara tutdu:

-Hə, qoçular gavurun varını pay-mal elədinizmi. Ordan o, al-yaşıl xaralardan bir topasını qırağa qoyun- deyib bayıra çıxdı.

Kərəm gavuru çoxdan cəhənnəmə göndərmişdi, atları da faytonları da tamam boşaltmışdı. Elə bu dəmdə İsmayılı görcək Kərəm ona:

-Ayə, İsmayıl, bu faytonda gəzənlər bəyəm, bizimkilərdən artıqdımı? Gəlsənə bu faytonu Mehdi kişiyə göndərək.

İsmayıl:

-Lap yaxşı olar, - dedi, -ay Kərəm bəlkə elə Qarayazıdan

da İncəliyə keçək. Neçə vaxtdır ki, atlarımız da Kürdə çimməyib, yazıqların kürəyindən od qalxır.

Kərəm bığlarını eşərək:

-Onda qaçaqlara tapşır hər kəsin payını ayrıca qoysunlar ki, tezbazar olsun.

Artıq qaçaqlar hər şeyi yerli-yerində bölüşdürmüşdülər. İsmayılnan Kərəm Qarayazı tərəfə yol aldılar.

Qarayazıya çatanda Mehdi kişi faytonun cırıltısına darvazaya çıxdı. Gördüklərinə inana bilmirdi. Xoş-beşdən sonra qaçaqları içəri dəvət etdi və gülə-gülə:

-Ayə bəxtiniz yeyin olsun, a bala, sizin bəxtinizdən İnniƏhməd oğlu Nəbi də bizdədi, ağrısını aldığım elə bil ki, sizin gəlişinizi bildiyindən gəlib bizə çıxıb.

İsmayıl dilləndi:

-Nəbi kişi elə-belə gəlməz, yəqin xeyir iş var.

Mehdi kişi:

-Ayə, Sizin gəlişiniz xeyir iş döymü, a qıvlasızlar,- deyib, gülərüzlə qonaqları içəri dəvət elədi. İnni Əhməd oğlu Nəbi sazını sinəsinə basıb:

-Qarayazıya xoş gəlibdi
Qaçaq Kərəmnən, İsmayıl.
Kim deyir ki, boş gəlibdi
Qaçaq Kərəmnən, İsmayıl.
Onu yəqin bilirəm ki,
Gavur tacir qoçuların
Gülləsinə tuş gəlibdi

-deyərək çalıb-oxumağına davam elədi. Kərəm sual dolu baxışlarla İsmayıla işarə etdi ki, ayə bu hardan biler, bu gavur məsələsini, -deyəndə- Mehdi kişi:

-Ay bala, elin-obanın sözü-söhbəti aşığın dilindən qopar dana, -deyərək bayıra çıxdı.

Aşıq çalıb-oxuduqca qaçaqlar aşığı qızıl onluqlara bürümüşdülər. Gecədən xeyli keçsə də onlar İncəliyə getməli idilər. Ona görə də Mehdi kişinin sovqatını verib, Kürü yarıb, Şıxlıya ordan da İncəliyə gəldilər. Elə kəndə təzə çatmışdılar ki, Kərəm soruşdu:

-Ayə, İsmayıl ailənləmi görüşməyə gəlmisən, a qıvlasız.

İsmayıl cavab verdi ki, yox elə ailəmin sovqatından başqa Söylü nənəmə pay gətirmişəm. Kərəm təəccüblə:

-İndi gecənin bu vaxtı qapı-qapı gəzəceyikmi, ayə?

İsmayıl da cavab verdi ki,

-Ayə, nə danışersən, qapı-qapı gəzmək nədi. İndi sən gözdə qulaqda ol-mən əmanətləri həyətə qoyub qayıdıram. Getdiyilə də dabanı üstə geri qayıdan İsmayıl, - qağa daha gedə bilərik,- deyib atın üstünə sıçradı. Kənd əhli dərin yuxuda olduğundan qaçaqların gəlişindən heç kim xəbər tutmamışdı.

***

Sübh tezdən Tükəzban durub həyətə çıxanda gördü ki, iki yanaşı xurcun var. Xurcunların üstünə odun parçası qoyulmuşdu. Tükəzban öz-özünə:

-Yəqin İsmayıl gəlibmiş, -deyə xurcunlara diqqətlə baxdı. Onların üstünə qoyulmuş odunun birinin istiqaməti öz öylərinə tərəf, o biri isə Söyün kişi, Səyalı qarıgilə tərəf dayanmışdı. Tükəzban yəqin etdi ki, bu xurcunun biri özlərinin, o biri isə Səyalı qarıgilindir. Qapını açıb öz xurcunlarını içəri qoydu və kəlağayısını boynunun arxasından bağlaya-bağlaya qonşuya tərəf getdi:

-Ay Söyün dayı, Səyalı nənəm yuxudan durufdumu?-deyə soruşanda Söyün kişi də cavab verdi ki, Səyalı xoruz banından qabaq durub.

-Ay Səyalı, ay Səyalı, - çağırdı və –ay səni mənə calayanın-deyib, dodaqaltı mızıldandı.

Səyalı qarı, Tükəzbanı görüb:

-Boy sənə qurban olom, a qızım nə oluf, olmaya Pəriyə bir şey-zad oluf.

Tükəzban heç nə olmayıb,- deyərək, Səyalı qarının qulağına pıçıldadı.

Söyün kişi hirsini cilovlaya bilməyib:

-Səyalı kardımı, qulağına niyə pıçıldayersən, hündürdən de görək nə oluf?

Tükəzban:

-Allah köməyi olmuş İsmayıl sizə əmanət göndərib, deyirəm, bəlkə gəlib onu götürüb gətirəsiniz.

Söyün kişi yenə yekəxanalığını yerə qoymadan:

-Elə şeyə Səyalı yaxşıdı. Mən kişi xeylağı sizin qapıya getməyim düzgün olmaz.

Səyalı qarı Tükəzbanla onların həyətinə gəldilər. Tükəzban xurcunu qarıya göstərəndə Səyalı qarı:

-Bıyy, atam-anam sənin qavağında ölöm, a qızım aç görək içində nə var?

Tükəzban təmkinlə:

-Yox, Səyalı nənə, xurcunu açmaq mənlik deyil, mən əmanətə xəyanət edə bilmərəm.

Səyalı qarı yarı zarafat

-Bıyy, verana qalmışın qızı öz ərin gətirən xurcunu sən açmayanda bə mənmi açem? –Aaz, aç başına dönem, mənim

əlim ayağımmı var? Sən yenə məndən güclüsən.

Bax beləcə Səyalı qarı şirin dilinə salıb, xurcunu Tükəzbana açdırdı. Bəlkə də Söyün kişi Səyalı qarını qaçırdandan bəri belə qiymətli pal-paltar almamışdı ona. Səyalı qarı qırçınlı tumanın üstündən geydiyi paltarın belinə gümüş kəməri bağlayıb, şaqraq gülüşlərlə:

-Qağamın goru haqqı, Söyün mənə təzədən vurulajax. Verana qalmışın kişisi özü mənə heç nə almer, elə hey məni döyör ki, əynin-başın qaraçı ijimindədi. Qarı kəməri belinə bağlayıb sözünə belə davam elədi ki, neçə gün bundan öncə Söyün dayın mənim pal-paltarımın cırıq olduğunu bəhanə edib, məni yaman döyürdü. Gecənin yarısı İsmayılı Allah-Təala özü bacamızdan içəri saldı, məni Söyün dayıyın əlindən aldı, bircə dolça da çayımızı içib bir söz demədən getdi. Səyalı qarının yanaqları qızara-qızara: - A bala, ay Tükəzban yəqin Söyün məni döyəndə mən də canımı qurtarmaq üçün dediyim sözləri İsmayıl eşidib, deyə mənə donluq şallıq göndərib, - deyərək əllərini göyə açdı:

-Allahım, İsmayıl balamı özün qolunda-qanadında saxla, - deyərək dua elədi.

Səyalı qarı geyindiyini-geyindi, geyinmədiklərini də Qaçaq İsmayılın adından, kasub-kusublara payladı. Kəndin ağbirçək qarıları İsmayılnan öyündüklərindən xeyirdə-şərdə ondan hər zaman ürəkdolusu danışırdılar.

Bir gün də İskəndəröyünün qarısı Söylü nənə Tükəzbanı evlərinə çağırdı. Tükəzban çayı necə keçəcəyinə inana bilmirdi, gecədən çay yaman daşmışdı, böyür-başına boylanıb özü-özünə:

-Qaçaq arvadı olasan çaydan keçə bilməyəsən. Ya allah,-

deyib, bir göz qırpımında çayın o biri tərəfinə keçdi:

Söylü qarı talvarın altında oturub öz-özünə zümzümə eləyirdi:

Beləcə oturub viran qoydular,
Haramnan ucalmış yurdu-yuvanı
Xaradan-xalçadan paylayıb kəndə
Nura döndərdilər eli-obanı.

Söylü qarı Tükəzbanı görüb sevincək:

-Başına dönüm, ay igidin yarı, bəs çayı nətəri keçdin? - deyərək Tükəzbanı qucaqlayıb, üz-gözündən öpdü: - Sən ki, bu seli yarıb keçibsən, doğrudan da Cəlilöyünün gəlnisən. Bir də ki, «Gəlin ocağa çəkər», deyənlər də düz deyiblər a qızım. Cəlilöyünün çörəyi sənə halal olsun, - deyib, sandığın ağzını açdı və oradan qotazlı corabları çıxarıb:

-Ay gəlin, sən atayın goru bu corabları İsmayıla ver, denən bir cütünü də Kərəmə versin. Nənə payıdır. Bavamızın goru haqqı onların adına toxumuşam. Tükəzban Söylü qarının payını geri qaytarsaydı, bəlkə də inciyərdi. Ona görə də yun corabları əlinə götürüb:

-İman yiyəsi ol, ay Söylü nənə mütləq çatdıracam. Özün bilirsən İsmayıl da sənin xətrini yaman çox istəyir.

Söylü nənə:

-Allah da onu istəsin bala, xətriniz xoş olsun ay bala heç neyleyem, neje eyleyem deməyəsiniz. İsmayılın sayəsində kasıbların da üzü güldü.

Qaçaqların tez-tez qonağı olan kar Abdıllanın da üstünə gün doğmuşdu. Ayağında xrom çəkmə, başında gümüşü papağı, Nəcəfilli oğlunun bağışladığı at da ki, düşmən gözü tökürdü.

***

Qaçaqlar dağlarda-daşlarda, Qaçaq İsmayılın qızı Pərinin isə artıq qızlar bulağından su içən vaxtı idi. Gözü tutub, könlü oxşayanlar olsa da, onunla evlənməyə atası Qaçaq İsmayılın qorxusundan heç kim ürək eləmirdi. Evlərində tüfəng olduğunu və Pərinin sərrast tüfəng atdığını və at oynatdığını da kənd əhli yaxşı bilirdi. Hələ neçə dəfə Pəri anası Tükəzbana bildirmişdi ki, gedib o da atasının dəstəsinə qoşulacaq. Ancaq anası Tükəzbanın icazə verməməsi o yana, atası  Qaçaq İsmayılın ağır zəhmi gözlərinin önündə canlananda bu fikiri yerə qoymuşdu. Hərdən Pərinin qanı coşanda gecənin bir yarısında öylərinin dalına çıxıb tüfəng atırdı. Bir dəfə də belə eləyəndə anası Tükəzban:

- O günün qara gəlsin, qağan İsmayıl kimi rahat durammersənmi? Camaatı qorxuya salma, elə bilərlər ki, kəndə yenə pristav gəlib. Qaxıl yerində otur, -deyərək qızının əlindən tüfəngi alıb, yerindən asdı. Qızını xeyli danladı:

-Ay bala, atan qaçaq düşsə də biz yiyəsiz ha döyülük, kəndin o boyda ağsaqqalı Abbas Nəcəf oğlu var, özümün də doğmaca dayımdı. Bu kənddə elə onun adı bəsimizdi, bizə onun qorxusundan kim neyləyə bilər. Sən  bavayın goru bir də gecələr tüfəng atma. Hələ burya gəl sənə bir sözüm də var, məndən gizləmə, deyillər ki, Müsədiröynün oğluna könül veribsən. Ay bala, qorxun-zadın yoxdumu, demersənmi atan eşidər.

Pəri patronları əlində oynada-oynada:

-Cəlilöyuynən Müsədiröyü qohum döymü? –ay ana. Bəs deyirlər ki, yaxşı qohum olmaq üçün qız verib, qız alırlar.

Tükəzban arvad yemşəyini ağzına alıb:

- Bu kişi söhbətidi, a bala. Nağayrem qarnım cırıleydi, səni qız doğduğum yerdə. Allahın altında oğlan olaydun. Eh, oğlan da olsan atan kimi qaçaq olub, dağlara çəkilərdin. Yenə tanrının payına şükür, sən həm oğlum, həm də qızımsan.

***

İndi isə sizə kimdən deyim, kimdən danışım. Tükəzban qarının dayısı Aslanbəyli kəndinin ağsaqqalı Abbas Nəcəfoğlundan. Bu kişi elə belə kişilərdən deyildi ha, əsilli-əcabətli, yerin-yerlisi, dörün-dörlüsü. Nəcəfoğlu yeriyəndə yer yırğanırdı, danışanda göy yırğanırdı, varı-halı başından aşan, kasıbın-kimsəsizin qolundan tutan, ac qarınlar doyuzduran, elədiyi yaxşılığı heç zaman dilinə almayan kişilərdən idi. Qaçaq İsmayıl zindandan qaçandan sonra ona at, patron verən elə Nəcəfillioğlu Abbas kişi olub. Bir söznən Qaçaq İsmayılın ayağa durmasında qolundan tutan Abbas Nəcəfilli oğlunun elədiyi bu yaxşılığı Tükəzban qarı və İsmayıldan başqa heç kim bilməməli idi. Səbəbi də o idi ki, qolu zorlu pristavlar bu əhvalatı bilsəydilər Nəcəfilli oğluna ziyankarlıq edə bilərdilər.

Qaçaq İsmayıl evinə gələn ərəfələrdə də Tükəzban qarı taxtın altında qazılmış quyudakı qovurma qazanlarını, ət qazanlarını ərinə azuqə kimi xurcuna dolduranda hər şey aydın olurdu.

Bir dəfə Abbas Nəcəfoğlu eşitmişdi ki, Qaçaq İsmayıl və Qaçaq Kərəm Qıraq Kəsəməndə İsrafil ağanın öyünə qonaq gələndə ağa onları yaxşı qarşılayıb. Nəcəfoğlu bir fürsət axtarırdı ki, İsrafil ağaya bu yaxşılığı qaytarsın. Ancaq elə etməli idi ki, bu yaxşılıq əvəzi üstü örtülü olsun.

Bir bazar günü Nəcəfoğlu nökərlərinə tapşırıq verir ki, onun mal-qarasından bazara satmağa aparsınlar və orada İsrafil ağanın nökərlərilə tanış olsunlar ki, bir adla ona hədiyyə göndərə bilsin. Həmin ərəfədə Nəcəfoğlu da atına minib bazara gəlir. Onun atının maydanı da yanlarında idi. Sığalnan-tumarnan böyüyən maydanı bazarda görən bir nəfər bu maydanı almaq istəyir. Abbas Nəcəfoğlu bu sözü eşidəndə bircə kəlmə deyir ki, - Bu satdıq deyil! Sən demə bunu soruşduran İsrafil ağaymış, soruşan isə ağanın nökəriymiş. Aradan bir müddət keçəndən sonra Nəcəfoğlu eşidir ki, elə o maydanı arzulayan İsrafil ağanın özüymüş. Nəcəfoğlu bu fürsəti əldən buraxmır və nökərinə deyir ki, təcili Tiflisə get, bu maydan üçün bahalı bir yəhər al, bər-bəzəyi də gümüşdən olsun. Nökər deyir ki, ağa başına dönüm yəhər almağına alaram, elə gərək gümüş bəzəkli olsun. Abbas Nəcəfoğlu cavab verir ki

-Mən Nəcəfoğluyam, nəslim, köküm var,
Eldə sayılıram ağır çəkim var.
İsrafil demişdi, -Bu maydanı sat,
Qurbandı ağaya yüz min belə at.
Bir də adlı-sanlı İsrafil bəyə,
Layiq olmalıdır, bizim hədiyyə.

Nəcəfoğlunun nökəri Tiflisə gedir və ağa deyənləri alıb dabanı üstə geri qayıdır. Bir at və bir də xallı maydanı tövlədən çıxarıb, yəhərini taxıb, yanına da adam qoşub göndərir Qıraq Kəsəmənli İsrafil ağanın evinə. Sən demə İsrafil ağa da ürəyinə salıbmış ki, görəsən bu atı və maydanı o gün bazarda niyə satmadılar. Sual dolu fikirlər onun ürəyini yeyib-didirdi. Öz-özünə hərdən sual da verirdi ki, bəlkə o, atın sahibləri heç

məni tanımayıblar? Bu sualların narahatçılığı İsrafil ağanı rahat buraxmırdı. Ancaq İsrafil ağanın ağlına belə gəlməzdi ki, onun nə vaxtsa İsmayıla etdiyi yaxşılıq qabağına çıxacaq. Bu minvalla İsrafil ağa gəbənin üstündə dirsəyini mütəkkəyə söykəyib, yaman fikrə getmişdi, birdən nökər qapının ağzında dayanıb:

-Ay ağa, qonaq gəlib, sizi soruşurlar, - dedi.

İsrafil ağa cavab verdi ki,

-Qonaq allah qonağıdır, get qabaqlarına, mən də gəlirəm. Nökər taxta darvazanın ağzında qonaqlara çathaçatda İsrafil ağa bayıra çıxdı. Gördü ki, həmən at və xallı maydan qapısındadı. Ancaq atın və maydanın üstündəki zər qumaşlı, məxmər çullu, gümüş toqqalı yəhər onu bir az da çaşdırdı. İsrafil ağa:

-Bu nədir, - deyərək, gələn qonaqlardan soruşdu. Qonaq cavab verdi:

-Bu Nəcəfoğlunun hədiyyəsidir. İsrafil ağa bir anlığa dərin xəyala getdi. Görəsən Nəcəfoğlunun bu hədiyyəni göndərməkdə niyyəti nədir? Ona görə də İsrafil ağa fikirləşdi ki, Nəcəfoğlunun adından gələn qonaqları gecə evində mehman kimi saxlasın, belə də etdi. Yaxşı ziyafət verdi, aşıqlar çaldı-çağırdı, uzun gecənin ömrü az oldu.

Nəcəfoğlu da görmüş-götürmüş kişiydi, ona görə bilirdi ki, hədiyyə göndərdiyi adamlar İsrafil ağanın evində qonaq qaldılarsa, deməli sabah mütləq İsrafil ağa öz adamlarıyla İncə dərəsinə qonaq gələcək. Belə də oldu. Həmin günün səhərisi İsrafil ağa, Abbas Nəcəfoğluynan yaxından tanış olmaq üçün İncə dərəsinə, Aslanbəyli obasına gəldi.

Nəcəfoğlunun qapısında sanki toy-bayram idi. Bəli, dost

gəlişi bayram olar,- deyiblər babalarımız. Nəcəfoğlunun qapısında erkək kəsən kim, pörtdəmə bişirən kim, kabab çəkən kim, aşı dəmə qoyan, yuxa yayan, samovar qaynadan, şərab süzən kim. Məclisdə çalıb-çağırmaq üçün aşıq kar Abdıllanın dalınca qaçan kim, bir söznən əsl toy-bayram havası duyulurdu buradan.

Qonaqlar qapıya çatanda Abbas Nəcəfoğlu əmr etdi ki, İsrafil ağanın ayağının altında qurban kəsilsin. Belə də etdilər, quyruğu yerə dəyən iri bir erkəyi İsrafil ağanın ayağı altda kəsdilər. Xoş-beşdən sonra İsrafil ağa məmnun halda qoca qartalın əlini sıxaraq:

-Payın çox olsun ki, ay Nəcəfoğlu, Məni çox şad eylədim, halın xoş olsun. İsrafil ağa da özüylə bir deyil, beş deyil, Qıraq Kəsəmənin sayılıb seçilən mötəbər kişilərilə gəlmişdi. Qonaqlar yeyib-içməyə başlayanda, Nəcəfoğlu üzünü kar Abdıllaya tutub:

-Məclislərin açarıdır, «Divani»
Çal «Sarıtel», «Gözəlləmə», «Ruhani»,
«Yanıq Kərəm» dinlədikcə döz ürək,
Ağrın alem, çal ay aşıq, çal görək.

İsrafil ağa əlini Nəcəfoğlunun çiyninə qoyaraq:

-Dost görmüşəm, dost yolunda hər zaman
Əziyyətə, çətin işə qatlaşa.
Qurban olum, belə dosta-tanışa,
Ağrın alem, çal ay aşıq, çal görək.

Elə bu dəmdə Qaçaq Kərəm ağalardan icazə alaraq, aldı görək nə dedi:

Tale mənə qara yazdı yazımı,
Şaxta-boran etdi, bahar-yazımı,

Siz gətirin mənə telli sazımı,
Ağrın alem, çal ay aşıq, çal görək.

Məclis get-gedə qızışırdı. Kimin nə haqqı var idi ki, Nəcəfoğlunun evində qaçaqlara nəsə desin. İsrafil ağanın gəlişini bilən kimi Nəcəfoğlu İsmayılla Kərəmi də məclisə çağərtdırmışdı. Qaçaq İsmayıl bəlkə də birinci dəfə idi ki, ata yurdu, İncə dərəsində öz silahdaşı Kərəmlə birgə ağalarnan bir məclisdə rahat əyləşmişdi. Kövrək notlar üstə köklənən İsmayıl Kərəmdən sonra ayağa durdu, söylədi görək nə dedi:

Şair qəlbi incələrdən incədir,
Ata yurdum, doğma elim İncədir,
Ayrılığı qəlbim yaman incidir,
Ağrın alem, çal ay aşıq, çal görək.

Birdən Nəcəfoğlu kar Abdıllaya: -Niyə oxumursan?- A bala,-dedi- camaat səni gözləyir. Elə bu dəmdə kar Abdılla sazı sinəsinə basıb, elin igid oğullarına Qaçaq Kərəmə və Qaçaq İsmayıla tərif deyəndə ağalar durub, kar Abdıllanı nəmərə bürüdülər. Aşıq çalmağında olsun, sizə kimdən deyim İsrafil ağadan. Ağa fürsətdən istifadə edib, Nəcəfoğlunun qulağına pıçıldadı ki, ayə qardaş bu nə məsələdi, bu atı, bu maydanı mənə nəyin müqabilində hədiyyə etmisən və üstəlik bizi qonaq da çağırmısan. Nəcəfoğlu barmağı ilə Qaçaq İsmayılı göstərərək:

-Bax o, qara qoçu balaya elədiyin yaxşılığa görə. Sən ki, dəfələrnən Qaçaq İsmayılı evində qonaq etmisən, ayə qardaş, öz elədiyin yaxşılıqdı da qabağına çıxıb. Bilmək istəyirsənsə İsmayıl mənim göyümdü də.

İsrafil ağa bığlarını eşərək:

-Hə, belə de də! Özüm ölüm sən şir ürəyi yeyibsənmiş.

Qaçağa qız veribsən.

Nəcəfoğlu cavab verdi ki:

-Qızı mən verməmişəm, qoçunun özü qaçırıb. Arvadı Tükəzban atamın qardaşı qızıdı.

İsrafil ağa qaşlarını çataraq:

-Ə, qardaş İsmayılın arvadı–uşağı sağdımı?

Nəcəfoğlu gülümsəyərək:

-Nooluf sağ olmayanda, arvadı Tükəzban, qızı Pəri beşaçılandan atdığı gülləynən quşu gözündən vururlar. Günü qaralar, qaçaqdan betərdilər. Onların başının üstündən uçan quş onların qorxusundan qanad salırlar.

-İsrafil ağa, bığlarını tumarlayaraq:

-İncəlilərin qeyrəti bütün elə bəllidir-dedi. Təki sən deyən olsun. Şükür ki, İsmayılın yurdunda balası varıymış.

Nəcəfoğlu, mütəkkəni dirsəyinə tərəf çəkərək dilləndi:

-Allah qoysa İsmayılın qızı Pərinin toyuna səni mütləq dəvət edərəm.

İsrafil ağa,  allah qoysa, mən də damazlıq bir heyvan, bir də bir gəbə hədiyyə edərəm, İsmayılın qız balasına.

Elə bu dəmdə məclisə totuq-motuq bir oğlan uşağı girdi. İsrafil ağa Nəcəfoğlundan soruşdu:

-Bu igid kimin balasıdır?

Nəcəfoğlu cavab verdi ki:

-Sizinkilərlə belə allah saxlasın, mənim böyük oğlumdur.

İsrafil ağa soruşdu:

-Ay qağa, uşaqlara kiçik toy etmisənmi?

Nəcəfoğlu cavab verdi ki, bu böyük uşaqdan savayı ikisi, üçü də var.

İsrafil ağa da dedi:

-Onda uşaqların kirvəsi oldum özüm.

Bax beləcə bu şadlıq məclisində Nəcəfoğlu ilə İsrafil ağa kirvəliyin təməlini qoydular və məclisdə əyləşənlər də bu məsələdən halı olub, ürəkdən şad oldular.

Qaçaq İsmayıl kirvələrin şərəfinə beşaçılandan gilizlər boşalana qədər atəş açır və bu atəşfəşanlıq bütün İncə dərəsinə bəyan edirdi ki, bilənlər bildi, bilməyənlər də bilsinlər ki, İsrafil ağaynan Abbas Nəcəfoğlu müqəddəs kirvəliyin təməlini qoydular.

Aylar, illər keçdi, kirvəliyin vaxtı, məqamı çatdı. İncə dərəsində Nəcəfoğlu uşaqlarına kiçik toy üçün tədarük gördü, toyxana xalılarnan bəzədildi. Toy başlandı, nə başlandı...

Aşıq bizə söyləyəcək
Bizim Qazax toylarından.
Bu toyların dirədöymə oyunundan,
Bu toylarda, köhlən çapan,
Güllə atan, ət doğrayan,
Mağar tikən, kabab çəkən,
Nərə çəkib güləşəngi çaldıranlar,
Ağır daşlar qaldıranlar,
Toy başlanır, nə başlanır.
Mağarın tən ortasında
Dastan deyir aşıqlar,
Toyxanada lap yuxarıda
Əyləşibdi ağalar.
Bellərində gümüş kəmər,
Aşıqlara verir nəmər,
İsrafil ağaynan, Nəcəfoğlunun
Kirvəliynə gələnlər,

Yığılıbdı bu məclisə
Dost qədrini bilənlər.

İncə dərəsində toy ola, bu toya qaçaqlar gəlməyə. Onda bu toyun nə dadı olar, nə duzu. Qaçaq İsmayılnan, Qaçaq Kərəm məclisə girəndə kar Abdulla bir az da ürəkdən çaldı sazını. Nurani bir qoca qaçaqların qarşısına gələrək dilləndi:

-Ay Kərəm, ay mənim İsmayıl balam,
Elimin obamın mərd igidləri,
Sizin boyunuza qurban olum mən
Haqq rəva görməsin böhtanı, şəri.

Qaçaqların şərəfinə sağlıqlar deyildi, qara zurnanın harayı İncə dərəsini başına götürmüşdü. Elə bu dəmdə mağara qara nəfəs bir adam girdi. Ağalar əyləşən tərəfə keçmək istəyəndə qabağını kəsdilər ki, toyun qayda-qanununa riayət etməyən mütləq dirədöymə oynamalıdır. O, nəfəsi kəsilə-kəsilə güclə dilləndi:

-Ayə, başınıza dönüm qayda-qanun pozmaq nədir? Sizə xəbər gətirmişəm ki, ehtiyatlı olun, Kərəmnən İsmayılın toyda olduqlarını pristavlara xəbər veriblər. Bayaqdan gözlərilə nişan aldıqları bu adamın nə məqsədlə gəldiyini başa düşən, qoçağım qaçaqlar bir-birinə işarə edərək, qıy vurub atlarının üstünə şığıyaraq qızılquş kimi toyxanadan uzaqlaşdılar. Kefləri kök, damaqları çağ qaçaqlar birdən güllə səsi eşitdilər. Güllə səsi eşitcək Kərəm İsmayıla dedi:

-Ayə, İsmayıl, sənin ata yurdunda bizə gülləmi atırlar?

İsmayıl gülə-gülə dedi, düz deyirsən güllə atıldı, qardaş bu düşmən gülləsi ha deyil, bu dost gülləsidir. Özü də bunu atan da Uzun Allahverəndi, görmürsənmi, a Kərəm gülləni bizdən 5-10 addım qabağa atıb, atası cənnətlik.

İsmayıl atının yəhərini çəkərək dayandı və Kərəmə başa saldı ki, Uzun Allahverən öz gülləsiylə bizə demək istəyir ki, ehtiyatlı olun qabaqda düşmən var.

Kərəm gülə-gülə:

-Ayə, bu incəlilərin sirrindən-sehrindən baş açmaq da olmur.

İsmayıl atın yəhərini çəkərək:

-Ayə, Kərəm qağamın goru haqqı sənə bircə bənd şer demək istəyirəm, Kərəm gülə-gülə: –Ayə, -de gəlsin.

İsmayıl:

-Yığval əkər, ah-vay dərər-of deməz,
Hər əzaba sinə gərər -of deməz.
Yüz oğlunu qurban verər – of deməz
Bir qonağı bada verməz, bu yerlər.

Ayə, bu yerlərin havasına da qurban, daşına da. Ürəyimdən bir şey keçir, gəl gedək İncə çayında bir yaxşı yaxalanaq. Bu yerləri gəzib dolandım, bir halda ki, uzun Allahverən işarə etdi ki, qarşıda düşmən var, olsun da, atamın goru haqqı yadıma qaçaqlıqdan qabaqkı uşaqlıq illərim düşdü.

İsmayıl da razılaşdı, İncə çayında, ayın işığında əl-ayaqlarını yudular və atın cilovunu əllərinə alıb, pay-piyada «Göy Türbəyə» ziyarata gəldilər. Müqəddəs ruhlar başlarının üstündə dolandıqca, qaçaqların sanki polad biləklərinə güc gəlirdi. İsmayıl qoltuq cibindən balaca bir çubuq çıxarıb dedi:

-Ayə, Kərəm, bilersənmi bu nədir?

Kərəm soruşdu:

-Nədi, ay İsmayıl o?

İsmayıl dedi:

-Bu dağdağan ağacından düzəldilmiş cürdəkdi, rəh-

mətlik qağam, mən uşaq olanda biləyimə bağlayırdı ki, bəd-nəzərdən uzaq olum. A Kərəm, inan ki, məni min bir bəladan qurtarıb, qurban olduğum «Göy Türbə». Hələ o vaxtlar təzə qaçaqlıq edəndə göydə allaha, yerdə «Göy Türbə»yə yalvarırdım ki, mənim əlimi sənə çatdırsın. Yadına düşürmü a Kərəm, sən mənim ən çətin anımda özünü yetirdin. İndi də çox şükür ki, səninlə birlikdə «Göy Türbə»ni ziyarət edirik. Bax bunun özü də ilahinin gözə görünməyən sirli möcüzələrindən biriymiş, qardaş.

Kərəmlə İsmayıl Türbənin hasarından, daşından ziyarət edəndən sonra Kərəm dedi:

-Ayə, İsmayıl, Allah haqqı ürəyimə damıb ki, daha bizə dəyib-dolaşan olmayacaq. Bu ziyarətdən əsən meh içimə belə yaxşı fikirlər doldurdu.

İsmayıl dedi:

-Hacı Əfəndi haqqı, çətini biz bura gələnə kimiydi. Qurban olduğum heç kimi darda qoymayıb, bir də ki, bura gələn naümid qayıtmaz, qardaş. Allah qoysa hər şey yaxşı olar. Allah böyükdür.

Ay işığından göydən yerə sanki nur yağırdı, gecə yarı olsa da gecənin aydınlığında doğma kəndindən ayrılmaq istəməyən İsmayıl atın yəhərini çəkib dayandı. Kərəm geri dönüb:

-Ayə, a qıvlasız, sabah açıler hələ biz ortalıqda gəzirik. Sən atayın goru bir az tez ol, deyəsən bu gecə biz sağ başı gora salamat apara bilməyəcəyik.

Qaçaq İsmayıl gülə-gülə cavab verdi ki, ölən düşmənlər olsun. Hələ ki, bizi arxın o tərəfində qonaq gözləyənlərdən deyəsən xəbərin yoxdu. Kərəm təəccüblə:

-Ayə, İsmayıl qağa deyəsən sən getdikcə havalanersən. Nə qonaqlıq, nə danışersən.

Qaçaq İsmayıl qamçının ucu ilə Cəlilöyünün bağını göstərərək:

-O, cöyüz ağacının altındakı işıltıyı görersənmi?

Kərəm cavab verdi ki, tutalım ki, görürəm, indi nə demək istəyersən?

İsmayıl cavab verdi ki, Cəliloğlu Məhəmməd babam çırağı yandırıb, ağacın dibinə qoyub, bu da o deməkdi ki, bayaqdan bizi gözləyir. Qaçaq Kərəm gülə-gülə:

-Ayə, bu incəlilərin sirri-sehri dünyanın heç bir yerində yoxdu ha.

Beləcə zarafatlaşa-zarafatlaşa gəlib çıxdılar həmin ağacın dibinə. İsmayıl atdan düşüb çırağı söndürdü, elə bu dəmdə öy damından çıxıb onların qavağına uşaq kimi qaçan bir adam:

-Ayə, ağrın alem a qoçaq, bayaq silahdaşınla Qaymaqlıya keçəndə gördüm, axşamdan bəri gözləyerik ki, gəlib bizim də qonağımız olasınız. Sonra da astadan İsmayılın qulağına pıçıldayaraq:

-Cıjın Xədicə də, arvadın uşağın da bizdədi. Elə onlarla da görüşərsən.

İsmayıl sanki qulaqlarına inanmırdı.

Məhəmməd kişi, Qaçaq Kərəmin də boynunu qucaqlayıb. Xoş gəlmisən ağrın alem, deyərək üz-gözündən öpdü. Qaçaqlar içəri girəndə Xədicə qarı:

- Ayaqlarınızın altında ölöm, ay mənim qoçularım, Məhəmməd əmimin atası-anası cənnətlik olsun. Siz Qaymaxlıya keçəndən dedi ki, darıxma onları mütləq qonaq çağıra-

cam. Məhəmməd kişinin qarısı Yetər nənə ovcundakı duzu, üzərrliyi qaçaqların başına dolayıb, ocağa atdı, üzərlik çatha-çatla yandıqca Yetər qarı:

Üzərriksən, havasan,
Min bir dərdə davasan.
Üzərriklər çırtdasın,
Yaman gözlər pırtdasın.

-Bala yaman gözlər çıxsın, adınız-sanınız el-el, oba-oba dildən-dilə düşüb. Allah sizi qorusun- deyib kövrəldi.

Cəliloğlu Məhəmməd, əmisi qızı Xədicəyə;

- Əmimqızı, ağlamaq-sızlamaq vaxtı deyil. Xurcunları, farmaşları bura gətirin, qaçaqların azuqəsini hazırlayın, və birdən:

-A Tükəzban, a yığvalı qaranın qızı, sən də əl-ayaq ver, savah açıler, qaçaqları yolundan eləmək olmaz.

Yetər nənə xurcunların bir gözünə təzə bişirdiyi xamralı əppəyindən, o biri gözünə fətir qatlayıb yığdı. Qovurmaları isə saxsı küpə qablara doldurub, çatı ilə çataqlayıb, atın belinə aşırdılar.

Qarılar farmaşı yığanda Cəliloğlu Məhəmməd, yorğan-döşəyin altındakı patronları və bir cüt də qoşalüləni çıxarıb, öz-özünə dedi.

-Qaçaqlara yeməkdən-içməkdən əvvəl silah daha gərəklidir.

Elə bunu demişdi ki, Qaçaq Kərəm ayə, deyirəm bu İsmayıl kimə oxşayıb deyəndə Məhəmməd kişi əlini saxlayıb:

-Ağrın alem a Kərəm, bilmerəm İsmayıl sənə danışıbmı, İsmayılın babası Cəliloğlu Cəlil bir dəfə yol ilə gedirmiş, birdən baxıb görür ki, ayağının altında bir parça kağız var. Kağı-

zı qatlayıb, qoyur cibinə. Sonra gəlib kəndin ortasında yığışan cavanlara göstərir ki, ayə, ay uşaxlar bir baxın görün bu nə kağızdı, bunu Salahlı yolundan tapmışam. Cavanlardan biri deyir ki, ay Cəlil baba bu kağız deyil, qiymətli puldur, heç kimə göstərmə əlindən alarlar.

Bu sözləri eşitcək, Cəlil kişi həmin kağızı cırıb atır və deyir ki, atamın goru haqqı bilseydim puldur heç götürməzdim, mən də elə bildim dava kağızıdır.

Yetər arvad ağzının yaşmağını tutaraq:

-Qanına bulanmış qaynatam da yaman davakar adam idi. İndi, ay oğul, ay bala İsmayıl da babalarına oxşayıb.

Kərəm gülə-gülə:

-Ay Yetər nənə, o günləri də varlı bir tacirin qavağını kəsmişdi. Yaman xara-zad götürdük. İsmayıl dedi ki, mənim ciyim belə şey geyinmer. Ona görə Şıxlı kəndində bir kasıb qarı var idi, apardıq verdik o, qarıya ki, qonu-qonşuya paylasın. Atamın goru haqqı, qarı bizə o qədər alxış elədi ki.

İsmayıl söhbətə qoşularaq: - Ay Kərəm, elə ona görə də adamların alqışından güllə bizdən yan ötür.

Birdən Kərəm gördü ki, atın belinə bir qız sıçrayıb çıxdı.

-Ayə, İsmayıl, o qız uşağı kimdi? - deyə Kərəm soruşdu.

İsmayıl cavab verdi ki, qızım Pəridir.

-Maşallah.

-Bu ata minməyi hardan öyrənib?- deyə, Pərini yanına çağırdı və ətəyinə bir ovuc qızıl pul tökdü.

Pəri də ovcuna yığdığı pulları xurcunların birinə tökərək:- özünüz uzaq səfərə çıxırsınız, özünüzə gərək olar. Əslində mən elə arzulayıram bircə tüfəngim olaydı.

Tükəzban da qızının sözünü təsdiqləyərək.

-Tüfəngimiz olsaydı, heç qorxu-qadamız olmazdı. Elə bu dəmdə Cəliloğlu Məhəmməd:

-Quyuda beş-altısı var, hansı xoşunuza gəlsə, gedin götürün.

Yetər qarı əlinə çıraq alıb, quyuya yaxınlaşdı, oradan iki tüfəng çıxarıb birini Pəriyə, birini də Tükəzbana tərəf uzadaraq:

- Hələ öz evinizdə də biri var. Ömrünüzün axırına qədər bəs edər. Tükəzban əlini uzatmaq istəyəndə Pəri qabağa durub, hər iki tüfəngi sinəsindən çarpaz halda asdı. İsmayıl qızını qucaqlayıb, üzündən-gözündən öpdü və allah amanında - deyərək, qaçaqlar atlarını çaparaq gözdən itdilər.

Yetər qarı arxdan dolçaya su doldurub, arxalarınca atdı.

Qaçaqlar az getdilər, üz getdilər, dərə-təpə düz getdilər, gəlib yenidən Qarayazı tərəfə çıxdılar.

***

Qazax mahalına xəbər yayılmışdı ki, qaçaqları gürcü millətindən olan Çavçavadze və atlı kazaklar axtarır. İncə dərəsinin camaatı təlaş içində idilər. Qaçaqları axtaranlar qoy axtarsınlar, onları Allah-Təala öz qanadında saxlayırdı. Yəni bir-iki pristav, yaxud da alkaş Nikolay allahnan-allahlıqmı edəcəkdi. Allah saxlayanda, saxlayır, bəndə kimdi ki, Allahın bəndəsinə azad firavan yaşamağı yasaq edir. Bir də ki, bəndə-bəndədən qaçıb, gizlənə bilər, allahdan qaçıb gizlənmək qeyri mümkündür. Yer üstündə hər nə, hər kim varsa Allah-Təalaya əyandır. Deməli, bu igidlərin də qismətini allah-taala özü belə yazıb. Yazıya pozu ki, yoxdu. Bir də ki, oğul qoçaq oldu, ya qaçaq, gözü götürməyən nə çoxdu. O ki, qaldı rus pristavına, Allahın da onlardan zəhləsi gedir, ga-

vur törəmələridi də. Mərdi qova-qova namərd etmək onların köhnə peşələridi, babalarından miras qalıb, xaçpərəst ruslara. Cənnət kimi bulaqlarımızı, yaylaqlarımızı da gavur ermənilər, elə rusların köməkliyi ilə bizlərdən it kimi qoparıblar. Qaçaqları qarabaqara izlədiyini görən qaçaq Kərəm Çavçavadzeyə yazdığı namədə belə deyirdi:

-Məni heç vaxt qorxutmayıb ölüm, hədə,
Yelimizə çata bilməz, dəstənizdən yüz min gədə...

Çavaçavadze Kərəmin məktubuna cavab olaraq ismarış etdi ki:

Ancaq həqiqəti bilsən yaxşıdı,
Başının qiyməti qızıldan baha,
Sizi məhv etməkçün çoxları kimi,
Mən də söz vermişəm Nikolay şaha.

Naməsinə cavab alandan sonra Kərəm İsmayıla dedi ki, qardaş deyəsən bu kopayoğlu Nikolay bizim axrımıza çıxmasa əl çəkən deyil. Nə vaxta kimi dağda-daşda ömür sürəcəyik, özün yaxşı bilirsən ki, o zamanlar babalarımızın İranda yaxşı qohum-qardaşları olubdur. Allaha pənah, bir bu şansı da sınayaq, görək axırımız hara çıxır. Bir də ki, «Yağışa düşənin, yağmurdan nə qorxusu». Bu fikir İsmayılın beyninə yaman batdı. Bu fikirlə son dəfə ailəsilə görüşmək qərarına gəldi. Bax beləcə yolu əlinə alıb, gəlib çıxdı Aslanbəyli kəndinə. Qaranlıq gecənin gözlərinə işıq saçan İsmayıl, evlərinə çatanda ehtiyatı əldən vermədi. Atını bir az aralıdakı palıd ağacına bağlayıb, yan-yörəsinə baxdı, elə bu dəmdə:

Güllələr dalbadal şaqqıldayaraq,
Dəydi ağacların qol-budağına,
İsmayıl hə deyib şahə qaldırdı

Yönəltdi atını Çılpaq dağına.

İsmayılın dalınca atılan güllələr, sanki qızı Pəriylə arvadı Tükəzbanın ürəyinə dəyirdi. Yox belə həyəcan və təlaş keçirən dağlar qızı Tükəzban yatağında rahat uzana bilməzdi. Beşaçılanı çiyninə aşırıb, atını çaparaq əri İsmayılın izinə düşdü. Qaranlıqda kazak əsgərlərinin və rus pristavlarının canavar gözü kimi işıldayan gözlərinə lənət yağdıra-yağdıra dağlara qalxdı. İsmayılın izinə düşənləri azdırmaq üçün atəş açmağa başladı. Elə o anda İsmayıl bildi ki, bu Tükəzbandır. Ərinə sədaqətli İncəli qızı, İsmaylın yolunda tələf olacağını bilsə də, yolundan dönmədi. Mühasirəyə düşən Tükəzbanı dörd bir yandan güllə-baran etdilər. Artıq Tükəzbanın damarda qaynayan qanı buza dönmüşdü, ilk eşqi, sədaqəti uğrunda ölümsüzlüyə qovuşan Qaçaq İsmaylın sevimli yarı Tükəzbanın adı, adlara qoyuldu. Düşmənlərin də gözü oyuldu. Qaçaq İsmayıl da Avey dağlarının qoynunda xəyala döndü, bəlkə də əsən yellərə, axan sellərə qovuşdu. Elə həmin gündən Qaçaq İsmayıl dastanı dillərə düşdü. Tarixlərin yaddaşına həkk olundu. Dastanlara dönən Qaçaq İsmayılla Tükəzbanın ruhu tanrı dərgahında bir-birinə qovuşdu.

***2008***

## PƏHLƏVAN KAMİLİN DASTANI

Hə, əzizlərim, sizə hardan söyləyim, hardan xəbər verim, igidlər oylağı Qazax mahalının İncə dərəsində dünyaya göz açmış, ala gözlü, enli kürəkli, nəriltisi dağları-daşları yerindən oynadan pəhləvan Kamildən.

Dingədaşdan yol al Qılınckəndinə,
Dünyanın üzünü cənnət görərsən.
Gül-gülə sarmaşıb, çiçək-çiçəyə
Hər qarış torpaqda zinət görərsən.

Buludlar çətirdi cığıra, yola,
"Keçəlin bulağı" meydi, məzədi.
Lilpardan dolçası tərdi, təzədi,
Burda yaşayanın heç olmaz dərdi.

"Batdaqlı"nın buzlu suyu bal dadır,
Ağacların budağından şeh damır.
Qayaların xınasıdır göy mamır,
Ruhum pərvazlanıb xəyala dalır.

Dumandandır meşələrin yorğanı,
Gözəllikdir hər tərəfi, hər yanı.
Ay Kamil, ömrünün ötən hər anı,
Qışı da bahardı ana yurdumun.

Dünyaya gəlişiylə İncə dərəsində toy-bayram əhval-ruhiyyəsi yaradan, atası Yusif kişinin sinəsinə döyüb, oğul atası olmağından, anası Ayşa nənənin oğul anası olmağından xəbər tutan dostlar sevindi, düşmənlər isə yandı-yaxıldı, kül kimi küllüyü göyə soyruldu düşmənlərin. Nənəsi Mələk

qarı Kamilin beşiyinə dağdağandan, göz muncuğundan asıb, üzərliyi uşağın başına dolayıb oda atanda deyərmiş ki:

Üzərliyim çatdasın,
Yaman gözlər pardasın.

Çathaçatla yanan üzərliyin tüstüsünü üşağın başına dolayan Mələk qarı hərdən gəlini Lətifəyə də him-cim eləyərmiş ki, ay gəlin yaxın gəl üzərliyin tüstüsü bəd nəzəri yox eləsin. Mələk qarı oğluyla öyündüyü qədər, gəlini ilə də öyünərmiş ki, uşağa ana südü yedizdirən gəlini balnan yağı fətirnən dürmək edəndə, iştahla yeyəndə «Halalın olsun ay gəlin» deyərmiş. Yağlı südünlə pəhləvan böyüt deyərmiş. Kamil qundaqda ikən qucağa almaq da olmurmuş, acanda da uşaq elə bir nərə çəkərmiş ki, göydən salxım buludlar yellənərmiş, ildırım çaxarmış, sular axarmış, otlar göyərərmiş. Gecələr ana laylasında mışıl-mışıl yatan Kamil İncə çayının zümzüməsiylə qoşalaşan laylalardan pərvazlanırmış. İldırım çaxanda gecənin bağrını yaran nurdan biləklərinə güc gələrmiş. Sən demə ulu Tanrı Kəmərli kəndinin belinə şah damar yaradıbmış pəhləvan Kamili. Damarında coşan qan halallıqdan-haqdan yoğrulubmuş sən demə. Alın yazısı ana bətnində alnına yazılmış pəhləvan adıyla ellərə səs salacağından xəbərsiz körpənin həyat yolu enişli-yoxuşlu olduğunu hardan biləydi. Hardan biləydi ki, hələ uşaqlıqda onunla dava eləmək istəyənlərin qol-qıçını sındıranda atasının qapısına gələnlər Kamili görən kimi aman Allah yaşıdlarından necə də seçilir deyəcəklər. Qapılarında yeddi inəyin südünü qaynar-qaynar başına çəkib içəndə anası da, nənəsi də halal xoşun olsun deyərlərmiş bir ağızdan. Xamralı əppəyini cijisi sacdan yerə qoyan kimi, isti-isti paralayıb yeyəndə elə iştahla yeyərmiş ki, qonşu uşaqlar da ay nənə bizim əlimiz yanır, o, isti çörəkdən bizə də kəs ver deyərlərmiş. Yaşıdları onu qoç Koroğluya bənzədərlərmiş. Bir qoçu bir oturuma yeyərmiş,

nəhrədən qaymağı başına çəkərmiş, diş donduran bulaqlardan ovcuyla dolu suyu içəndən sonra sarışın saçlarına sürtərmiş. İncə çayı daşanda bu taydan o taya keçə bilməyənlər Kamilə üz tutarlarmış. Dəyirmana gedənlər kisələrlə dolu buğdaları su dəyirmanına aşıra bilməyəndə Kamilə üz tutarlarmış. Bulaq başına yığışan qızların sözlərinin əvvəli də, axırı da pəhləvan Kamil olarmış. Kamil yeriyəndə yeri, deyişəndə göyü titrədərmiş. Dağlar qoynunda səngərə bənzəyən evlərindən boylananda qızlar görüb dərdindən ölərlərmiş. Hələ pəhləvan Kamilin sevdası ilə gecələr başlarının altına noğul qoyub onun xəyalıyla yatanların heç sayı-hesabı olmazmış.

Üç övlad anası İncə dərəsində Aslanbəyli, Qaymaqlı, Kəmərli kəndinin qızları xəyal qanadlarında pəhləvan Kamilin yarı olmaq arzusuyla gözləri yol çəkərmiş. Könül sevən göyçək olar deyib babalarımız. Pəhləvan Kamilin isə ürəyinə od salan, onun eşqiylə qayalardan daş qoparan igidin sevdiyi qızın adı isə lətifə imiş. Kamil anasına bu sevdasını söyləyəndə anası Ayşa qarı, ay bala, gəlin ocağa çəkər deyibmiş. Lətifə də, nə Lətifə, iki göz istəyir dönüb baxsın, uca boylu, qara qaş, qara göz, uzun hörüklü elə bir suyu da yarına bənzəyən Lətifənin biləyi enli, qolu canlı olduğundan kimin ağzı idi ki, ona bir söz desin. Yaşıdları oğlanların gözünü elə qorxutmuşdu ki, heç kim ona qorxusundan heç nə deyə bilməzdi. Kamil eşq əlindən dəli olsa da, dəliqanlı pəhləvan elə öz sözünü də, özü deyir Lətifə xanıma. Gözlərindən gözlərinə, ürəyindən ürəyinə elə bil ki, ox batır. Bu oxun adı da sevgi oxuymuş. Lətifənin yaşıdı qızların isə xəbəri yoxuymuş. Sən demə pəhləvan Kamilin dərdindən ölənlər çoxuymuş. Çox gözəllərin arasından seçdiyi bu gözəlin sevgidən dili tutulur, dinə bilmir, bax onda pəhləvan Kamil anlayır ki, bu qız onun əbədi qismətidir. Bu istək, bu sevgi onu daha güclü edir. Dirədöymə oynayanda,

güləşəngiyə çıxanda heç kim Kamil pəhləvanın qabağında tab gətirə bilmirmiş. At yarışında hamıdan birinci olduğundan atının gözləri də parpar yanarmış. Yarışdan sonra atını İncə çayında çimizdirəndə atın kürəyindən buxar çıxarmış. Palıd ağacının altında kölgəlikdə atın qabağına çiçək ətirli otlardan yolub tökərmiş ki, atın dişləri bərk olsun ki, yəhərə-yüyənə, pəhləvanın ağırlığına dözə bilsin. Yayda yaylaqda, qışda qışlaqda ömür sürən pəhləvanın gecələr gözündən yuxusu ərşə çəkilmişdi. Ürəyinə od salan Lətifəyə elçi göndərmək qərarına gəlsə də, yox o qızı qaçıracam deyərək ürəyində var-gəl eyləyirdi. Ağlına gələn elə başına da gəldi Kamil pəhləvanın. Özü-özüylə vargəl eyləyən pəhləvanın Lətifəni qaçırmaq qərarına gələndən sonra ürəyində rahatlıq tapdı. Ancaq bu rahatlıq deyildi, bu pəhləvanın özünün-özünə hesabatıydı. Bir yerdə qərar tuta bilməyən pəhləvan günlərin bir günü dostu Aşıq Cəlalın yanına gəldi, ayə ağrın alem ay Cəlal, sazını köynəyindən çıxart, sən çal mən də dərdimi sənə danışem deyəndə, aşıq Cəlal sazı kökləyə-kökləyə:

–A qardaş, mən aşığam, sən pəhləvan, ancaq qağamın canı haqqı aşiq olduğunu eşidəndə dedim ayə bu qıvlasız qan eliyəjək. Yazıq Lətifənin ürəyinə qor doldurajaq. Özü də məhəbbət odu-alovu.

Pəhləvan Kamil gözlərindən gülərək:

– Ayə, ay qağa, ondan xavarım yoxdu, qağamın canı haqqı mən odsuz-alovsuz yanerəm. Ağrın alem bir el havası çal.

Aşıq Cəlal,

– Ayə, belə ağrını da alem, dərdini də alem, bu alov hər kəsə qismət olmur ki, belə sağ əlin bütün cavanların başına, deyərək sazının sədası daşı-divarı başına bürüdü. Pəhləvan Kamil aşıq Cəlalnan bölüşdüyündən azca rahatlıq tapsa da, üzünü aşığa tutaraq:

Aşıq Cəlal, dürr tökülür dilindən,
Qoy dünyamız dürlü olsun, nə gözəl.
Günəş çıxar, nur yayılar aləmə,
Qoy dünyamız dürlü olsun, nə gözəl.

Sənətkarsan çıxmaz hər kəs qarşına,
Qiymət alar üzük baha qaşına.
Nəzər yetir hərdən bu sirdaşına,
Dostluğumuz sirli olsun, nə gözəl.

Aşıq Cəlal sazı köksündə saxlayıb:

– Ayə, ağrın alem, a pəhləvan, sənin kimi igid öz sirrini mənə açırsa bavamın canı haqqı elə bil mən də pəhləvanlaşerəm. Ayə, üstünə gün doğsun nə yaxşı elədin gəldin, özün bilirsən ki, aşıq çoxluğu sevər, tək qalanda elə bil başıma hava gəler. – deyib, sazə sinəsinə basdı, görək ə dedi:

Bu gün bir nazənin bizə gəl dedi,
Dedim: – deməsən də gələsiyəm mən.
Dedi: – inciyərəm əgər gəlməsən,
Dedim: – doğru sözün köləsiyəm mən.

Dedi: – əhvalımı özün bilərsən,
Dedim: – acıqlısan, gah da gülərsən,
Dedi: – hədyan demə, vurram ölərsən
Dedim: – ölüm haqdı, öləsiyəm mən.

Dedi: – nagümanam bu dərdlə qalam,
Çox çətin ki, mən yenidən sağalam.
Dedim: – qəm eyləmə aşıq Cəlalam,
Dərdinə dərmanı biləsiyəm mən.

Pəhləvan Kamil dostunun könlünün xoş olduğundan:

– Havalan ədə, havalan ədə - deyəndə dostların şaqraq gülüşləri sanki İncə dərəsini yerindən oynatdı. Sanki dağın da, dərənin də qulağı səsdəydi ki, pəhləvan Kamil bu gün, sabah Lətifəni qaçıracaq. Hələ bir çoxlarının bu işdən xəbəri olmasa da qız qaçırılandan sonra bu işin hayı-harayı İncə dərəsini bürüyəcəkdi. Elə bürüdü də.

Tutlu dərədə «tələ» qurmaq niyyətiylə pəhləvan atnan-arabaynan dostları da başında oraya gəlirlər. Lətifəyə isə qonşunun balaca oğlundan xəbər göndərirlər ki, bəs xəbərin varmı anan Tutlu dərədə yıxılıb ayağı sınıb. Bu xəbəri eşidən Lətifə qaça-qaça dərəyə gəlir. Yaz fəsli olduğundan bu dərədə gül-gülü, bülbül-bülbülü çağırdığından, yaşıllıqlardan xalı sərmiş çəmənliyə valeh olan qız, Aman Allah anam harada olar,deyərək fikirləşmək istəyəndə biləyindən kimsə yapışır. Aman Allah bu ki, sevdiyi pəhləvan oğlandır, deyərək ürəyinə od düşür. Buraya niyə, nə üçün gəldiyi sanki bir anlığa yadından çıxır. Gözlərindən qığılcım yağan pəhləvanı görən Lətifəni qorxudan üşütmə tutur. Onda ayılır ki, araba yerindən qızıl quş kimi tərpənir. Elə o andaca başa düşür ki, onu aldadıb Tutlu dərəyə çağırtdırıblar. Artıq pəhləvan Kamilin qanadından qopa da bilməzdi.

Səhərisi gün qız evinin adamları hay-haray salsalar da, artıq gec idi. Lətifə pəhləvanın yarı olduğuna ürəkdən razılıq verdiyi üçün onun dalınca gələn xalasının qulağına pıçıldamışdı ki, qağama, cijimə deynən ki, özüm qoşulub qaçmışam və bu qismət yazan yaradanıma da minnətdaram. Daha qız belə deyəndən sonra qızın ata-anası, qohum əqrəbası nə deyə bilərdi. Allah xeyir versin sözü bircə kəlmə ilə bəs elədi. Oğlan evi ilə qız evi barışıq edəndən sonra üç gün, üç gecə qara zurnanın sədaları altında pəhləvan Kamilnən

Lətifənin toyu oldu. El yığışdı, ağsaqqalların xeyir-duası ilə ailə həyatı qurdular. Bu şirin sevginin acısı da cavanları yaman sınağa çəkdi. Onların övladları gec dünyaya gəldi. Hərdən qaynanasının məzəmmətli baxışından qorxuya düşən Lətifə elə bilirdi ki, pəhləvan Kamil onu boşayacaq. Yox, bu belə olmadı. Pəhləvan Kamil kişi kimi sevdi, kişi kimi də sevgisinə sadiq qaldı. Tanrıdan əlini üzmədi. Özü bilən məsləhətdi. deyərək Tanrıdan övlad payı dilədi.

Ayşa qarı tut ağacının altındakı taxtın üstünə xalı sərdi, mütəkkələrin, döşəkçələrin də tozunu çırpıb yan-yana düzdü. Samovar çayı hazır olanda süfrə açdı, motal pendiri xamralı əppəyi, fətir-fəsəlinin ətri hər yanı bürümüşdü.

Ayşa qarı cümə axşamlarında boxçasını açıb nəzir-niyaz paylayırdı ki, oğlu ilə gəlini uşaq üstündə bir-birindən ayrılmasınlar. Pəhləvan Kamil yarını yaman sevirdi: Ayşa qarı oğlunun bu sevgisindən yaman öyünürdü. Hərdən oğluna söz də atırdı: “Atadan, anadan yar şirin olur”. Əslində bu el arasında gəzən məsəl olsa da xalq mahnısı idi.

***

Sübh çağı Ayşa qarı səhəngi götürüb bulağa suya getmişdi. Qayıdanda gördü ki, gəlini həyəti sulayıb, süpürüb. Samovarı qaynadıb, kəklikotulu çay da dəmləmişdi. Yenicə süfrə başında əyləşmək istəyirdilər ki, poçtalyon əlində kağız həyətə daxil oldu. Ayşa qarı tez ayağa durdu.

– Xeyir ola, ay oğul?

Poçtalyon pəhləvan Kamilə tərəf baxaraq:

– Oğlunu əsgərliyə çağırırlar, ay nənə, gözün aydın olsun.

Ayşa qarı qürurlu qadın idi. Elə ona görə də poçtalyonun sözünü cavabsız qoymadı.

– Oğul, Vətən qorumalıdır, ay bala. Mənim pəhləvan

balamın əlində əsgərlik nədir? Hələ belə komandirlik də edər. Allah baxtını açıq edib, inşallah yollarını da açıq edər...

Lətifə xanım daxilən həyəcanlandı, ancaq üstünü vurmadı, bir az yarından, bir az qaynanasından, bir az poçtalyondan utandı.

Üç gündən sonra Ayşa qarı oğlunu əsgər yola salmalı oldu. Hamı gözaydınlığına gəlmişdi. Aşıq Cəlalın sədəfli sazının sədası, İncə dərəsini ağuşuna almışdı. Su kimi axırı aydın olmuş Kamil pəhləvan əsgərliyə yola düşdü...

Günlərin bir günü Lətifə ərindən məktub alır, əl boyda kağıza Kamil pəhləvan belə bir şeir yazmışdı:

Hər sabah bir ümiddirsə,
Ümidimiz qırılmasın.
Sabaha gedən yollarda,
Ayağımız yorulmasın.
Bəxtimizə doğsun Günəş,
Sevincimiz aşsın-daşsın.
Gecələri qoy ulduzlu,
Buludların üzü gülsün.
Sevgilim heç dərd görməsin,
Nalə, fəryad, ah görməsin.
Diləyimiz budur ancaq
Sən ey Xudam,
Ümidimiz qırılmasın.

Bax beləcə, günlər ayları, aylar illəri, əvəz elədi. Hər günü bir ilə dönən Lətifə xanımın üstünə gün doğdu. Pəhləvan Kamil əsgərliyini başa vururb elinə-obasına qayıtdı...

Gəlişindən el-oba şənlik edir, sevinirdi, ayağı altında qurban kəsdirən Ayşa qarı sanki oğlunun gəlişini gözləyirmiş kimi dünyasını dəyişdi. Oğul çiynində dünyadan köçən Ayşa

qarının ölümü pəhləvan Kamili yaman sarsıtdı. Pəhləvanın göz yaşları köksünə axdı. Ağbirçək anasının yoxluğuna yazdığı şeirlər aşıqların dillərində əzbər oldu, dildən-dilə düşdü. Aşıqlar çalıb-oxumaqlarında olsun, dinləyək görək «Ağır sərili» üstündə pəhləvan Kamilin oxunan şeirini eşidənlər eşidib, biz də dinləyək, eşidək, necə deyərlər qulağımız Quran səsi eşitsin.

Köç üstündə səni andım, ay ana!
Oda dönüb, közə dönüb,
Qora dönüb yana-yana
Yandım, yandım, ay ana!
Əllərinin sığalını istədim,
İsti, ılıq qucağını istədim.
İstədim başımı bir sıx bağrına,
Bəlkə bir az əlac ola
Bu dərdimə, ağrıma.
Neçə gündür yuxusuzam yatmıram
Qollarının yüyrüyini istədim,
Çağa kimi güllü şalda kürəyində
Mışıl-mışıl yatmağımı istədim.
Bir layla, de, bəlkə yatdım,ay ana!
Yuxularda sənə çatdım, ay ana!

El arasında belə bir məsəl də var ki, pəhləvanın sarsılmasını Allah heç kimə göstərməsin. Qəzəblənmiş şir kimi olurlar onlar. Kamil pəhləvan anasının yoxluğu ilə barışa bilmədiyindən içindən coşan gücün qabağını sel də ala bilməzdi. Kamil pəhləvan fələyin zərbəsinə qolunun gücüylə cavab verməli idi.

Sübh tezdən, gün doğmamışdan ala toran vaxtında yuxudan durub Kəmənd qayaya tərəf iz tutdu. Dağları özünə sirdaş

sayan pəhləvan Kamil lal qayalardan sal daşları qopardıqca canının ağrısı azalırdı. Yox, bu ağrı o ağrılardan deyildi. Bu yaman ayrılığın ağrısı idi. Dilə gələn daşlardan qopardığı sal qayalardan sanki anasının heykəlini yaratmaq qərarına gəlmişdi. Bəlkə də Qazax mahalında «Gəlin qaya» adı ilə məşhur olan bu yer də dünyadan vatxsız köçmüş bu cavan ananın şərəfinə tanrı tərəfindən ucaldılıb.

Ancaq Kamil pəhləvan bu heykəli anasının ömür sürdüyü evlərinin həyətində ucaltmaq arzusunda idi. El arasında belə bir məsəl də var: «Niyyətin hara, mənzilin ora». Anasının yaşadığı mənzilin pəncərəsinin altından bu sal Qayanı yaşatmaq arzusu ilə dəli bir nərə çəkdi. Tanrı qollarına güc verən pəhləvanın qayadan qopardığı daşı Kəmərli kəndinə gətirəndə hamı onun tamaşasına dayanmışdı. Pəhləvan o boyda daşı kəndə necə gətirmişdi deyə təəccüb dolu suallardan hamı çaşbaş qalmışdı.

***

Aylar, illər pəhləvan Kamilin ömründən quş kimi uçub gedirdi. Əsgərlikdən qayıdandan sonra Qarayazıya Kür qırağına köçməyi qərara almışdı. Mal-qoyun saxlamaq, yetimin-yesirin əlini tutmaq qərarı ilə Kür qırağına köçən pəhləvanın arzuları Allahın köməyi ilə həyata keçirdi. Kamil pəhləvanın həyatında mənəvi dayaq olan qohumlarından biri də Qazax mahalında, Qarayazı sovxozunun binasını qoyan, mahalda öz xeyirxahlığı ilə ad-san qazanmış Niyaz kişiyə pəhləvan belə bir şeir yazmışdı:

İlk gündən doğmalıq görmüşəm səndə,
Xoşdilək insansan, ay Niyaz dayı,
Kasıba arxasan, yada dayaqsan,
İmansan, insafsan, ay Niyaz dayı.

Nə gecən bəllidir, nə də gündüzün,
El içində yanansan, ay Niyaz dayı.
Xeyirdə başdasan, şərdə başdasan,
Hər kəsi anansan, ay Niyaz dayı.

Qoy var olsun sənin təki adamlar,
Sən çörək verənsən, ay Niyaz dayı.
Kimsənin dərdinə şərik, havadar,
Sabahı görənsən, ay Niyaz dayı.

İlahi ona övlad payı da verdi. Necə deyərlər, qız payı, qızıl payı, körpənin adını Fəridə qoydular. Sən demə Fəridənin başı dövlətli, ayağı səyalı imiş. Fəridədən sonra onların ikinci övladı dünyaya gəldi. Adını Yusif qoydular. Yusifdən sonra Nəsib, Nəsibdən sonra Yetər, Yetərdən sonra Həsən, Həsəndən sonra Ayşə, Ayşədən sonra Kamilə. Bax beləcə varları, dövlətləri, külli-külfətləri başdan aşıb-daşırdı. Oğlanlar atasına, qızlar da anasına kömək eləməkdən zövq alırdılar. Fəridə evin böyük qızı olduğundan anası sacın üstündə fətir bişirəndən sonra onu çiçək kimi sulayardı. Yağlı motal pendirindən dürmək düzəldib, balaca qardaş-bacılarına yedizdirərdi.

Qoyunlar, quzular yaşıl çəmənlikdə otlayanda, axşamlar ulduzlar yerə nur ələyəndə, sübh tezdən günəş göydən şəfəq saçanda balaca Fəridə gözəllik vurğunu olduğundan görüb, müşahidə etdiklərini könül duyğularına həkk eləyirdi.

Elə uşaqlıqdan şeir vurğunu olan Fəridənin mayası pəhləvan Kamilin ocağından yoğrulmuşdu. Kamil pəhləvan Fərudənin gözü açıqlığından, şirinliyindən yaman qürurlanırdı. Ona belə bir şeir də yazmışdı:

Mənim ömür ağacımdan göyərən,
Bar-bağımda bəhər qızım, Fəridə,

Sıralandım kişilər sırasında,
Ey dan üzlüm, səhər qızım, Fəridə.

Sən olalı dünyam daha şad olub,
İlk sevincim, çiçək qızım, Fəridə.
Hər yerdə taleyin üzünə gülsün,
Qızılgülüm, göyçək qızım, Fəridə.

Oğul çəpərdisə, qız yaraşıqdı,
Bəzəyim, ürəyim, qızım, Fəridə.
Evimə səsləyir isti nəfəsin,
Mələyim, gərəyim, qızım, Fəridə.

Pəhləvan Kamilin qolunun gücü hamını valeh etdiyi qədər də onun nəsihət dolu şeirləri də dillər əzbəri olmuşdu. Gözü ac adamlardan, paxıl kəslərdən heç xoşu gəlməzdi Kamil pəhləvanın. Onun «Bizə qalmayan dünya”«” şeirini eşidənlər eşidib, eşitməyənlər də eşitsinlər:

Nə gözlərin doyur, nə də ki, könlün,
Ay zalım, bu dünya kimə qalıbdı...
Nə xeyirxah olmusan, nə əl tutmusan,
Görmürsən açan gül necə solubdu?

Ayağın altını seçmir gözlərin,
Başın havalıdı, göynən gedirsən.
Bu yerin altında minlərlə insan,
Bir düşün, fikirləş nələr edirsən?

Demə ki, güclüyəm, pulum var mənim,
Verən də Tanrıdı, alan da Tanrı.
Di yoluna düzəl, di xeyirxah ol,
Sənə var-dövləti verəni tanı.

Bir bulaq düzəltdir, körpü sal, yol çək,
Qoy rəhmət oxusun, hər burdan keçən.
Bir yetim sevindir, bir arzu çin et,
Hər şey əbədidir, insansa köçən.

Allah-Təala Kamil pəhləvana güc verdiyi qədər də o güləş fəndlərinin hamısının da ustası idi. Hər hansı bir yarış üçün mərcə girərdisə, heç vaxt uduzmazdı. Bir dəfə Novruz bayramının gəlişi münasibətilə İncə dərəsinin cavanları mərcə girirlər ki, «Kim qara kəlin sırtından bir çimdik götürə bilər. Cavanlar nə qədər edirlərsə, qara kəlin sırtından çimdik götürə bilmirlər. Pəhləvan Kamil deyir:

– Ayə, a xalası göyçəklər! Dillənəndə dilinizlə fili dizə gətirirsiniz. Geri durun görün analar necə oğullar doğub. O, bu sözü deyər-deməz əl atır qara kəlin sırtına. Bir də onu görürlər ki, qara kəl ət ürpəşdirici böyürtü ilə, boyunduruqdakı zoğal ağacından düzəldilmiş bağı sındırıb üz tutdu çaylağa. Hamı heyranlıqla Kamil pəhləvanı alqışlayır.

***

Pəhləvan Kamil qolu güclü olduğu qədər də əliaçıq, xeyir-şərdə hər kəsə imkanı daxilində əl tutan, qohum-qonşu, elcanlı idi. O, heç vaxt kasıbın, gücsüzün namını zorlu, varlıya verməzdi. El pəhləvanı kimi şöhrət qazanan adam olsa da saz çala bilmədiyini heç özünə bağışlaya bilmirdi. Əslində «qolunun qarısında cəviz sındıran» pəhləvana qara saz tab gətirə bilərdimi? Yox əsla! Bunu bilənlər bilir, bilməyənlərə də əyan olsun ki, günlərin bir günü Kamil pəhləvan Yuxarı Salahlıdan maşınla dönüb İncə dərəsinə tərəf irəliləyəndə özünə güvənənlərdən biri, dava eləmək istədiyini bildirəndə, bədbəxt heç ağlına belə gətirməyib ki, onun qarşısındakı Kamil pəhləvandır.

Gözünə döndüyüm Kamil pəhləvan maşından endiyi ilə bu cavanı şil-küt edib yaman günə qoyur. Bunu görən Yuxarı Salahlı camaatı əllərində daşnan-dəyənəknən pəhləvana tərəf gəlirlər. Gəldiklərinə peşiman olanlar dabanlarına tüpürüb arxaya baxmadan qaçırlar. Bu səs, bu səda hər yana yayılır, yox deyəsən salahlılar əcəli gözlərinin qabağına gətirmişdilər. Bir dəfə də qolu güclü salahlılar söz bir yerə qoyurlar ki, o pəhləvanla əlbəyaxa dava etməlidirlər. Nəhayət ki, o gün də gəlib çatır. Günlərin bir günü «əlbəyaxa» davası başlanır, nə başlanır. 20-25 nəfər cavan oğlan Kamil pəhləvanla «döyüşə» başlayırlar. Cavan oğlanlar bu enlikürək pəhləvanı dövrəyə alıb köhnə dirədöymə oyununda olduğu kimi hərəsi bir tərəfdən onu vurmağa çalışırlar. Gözünə döndüyüm Kamil pəhləvan qamətini pozmadan yerində fırlanıb özünü müdafiə edərək, onlardan əlinə keçən hər hansı birini tutub 3-4 metr kənara atır. Bunu görən polis İsmayıl Carçıyev onlara yaxınlaşır. Baxıb görür ki, bu ortada dayanan adam heç kimə məhəl qoymadan hamısını şil-küt edir. Polis göyə xəbərdarlıq atəşi açır. Bundan sonra savaş dayandırılır. Milis təəccüblə tək adamın kim olmasını soruşanda deyirlər ki, bəs bu İncə dərəsi Kəmərli kəndinin pəhləvan oğlu Kamil Mustafayevdir. Polis həmin gündən Kamil pəhləvanla dost olur. Dost gəlişi bayram olar deyiblər babalarımız. Polis İsmayıl Carçıyev Kəmərli kəndinə hər zaman başının dəstəsi ilə gələrmiş və hər zaman da Kamil pəhləvan onlara zümrüd bulaqlı yaylaqlarda ziyafət verərmiş.

***

Hələ sağlığında ikən dillərdə dastan olan Kamil pəhləvan Allahın xoş saatında, xoş dəqiqəsində dünyaya gəldiyindən tanrı ondan heç bir insanı keyfiyyəti, zahiri görkəmi əsirgəməmişdi. Elo-banın xeyir-şərində müdriklər, aqillər mərəkəsində öz yeri, şairlikdə öz dəst-xətti olan Tanrı vergili, Tanrı sevgili insanlardan biri olub.

***

Evi hər zaman qonaqlı-qaralı olan Kamil pəhləvanın xanımı Lətifə yaman dadlı-ləzzətli qrudlu xəngəl bişirərmiş. Bir gün dostlarından biri Kamil pəhləvana deyir:

– A Kamil, qadan alım, Padar qızına desənə, bir Tüyürlü xəngəli bişirsin. Ağzımız dadatama gəlsin.

Kamil pəhləvan da cavab verir ki, ayə, ay atası rəhmətliyin oğlu xəngəlin suyu ocağın üstündə pıçırpıçır qaynayır, yəqin qaynanan səni yaman çox istəyir. Sən, mən azlıq edərik, gedək aşıq Cəlalı da özümüzlə götürək, qonudan-qonşudan da 10-15 nəfər çağıraq zoğal, tut arağından da götürək, biz xəngəlimizi yeyək. Aşıq Cəlal da telli sazı dilləndirər, bax onda deyərəm ki, sazlısözlü məclisdə xəngəl yerinə düşər.

***

Günlərin bir günü Lətifə xanımın qardaşı onlara qonaq gəlir. Barlı-bərəkətli bağı gəzərkən:

– A Kamil yeznə, gəlsən bir güləşək. –deyir.

Kamil pəhləvan özünəməxsus təbəssümlə:

– Ayə, uşaqsan, belin-başın ağrıyar. Qoy durduğumuz yerdə duraq deyəndə, qoçağım Kamil pəhləvana arxadan badalaq vurur. Pəhləvan Kamil böyrü üstə yerə dəyir. Əsəbini cilovlaya bilməyən pəhləvan onu qoluqarışıq ortasından iki qatlayır, elə sıxır ki, qonağın qışqırtısı aləmi götürür. Qışqırtıya Lətifə xanım çıxır qonağın ağrıdan büküldüyünü görəndə:

– A Kamil, ayə uşağa neylədin?

Kamil pəhləvan da cavab verir ki:

– Az, uşaqdı uşaq yerində, qonaqdı qonaq yerində otursun. Özünü niyə kalın buynuzuna keçirir. Heç nə olmaz, qorxma get təpitmə elə, qoy qabırğasının üstünə. Yəqin qavırğası batdı.

Deməli bir az da bərk sıxsaydı qonağın qavırğaları sınarmış.

Pəhləvan Kamilin bağı-bağatı barlı-bərəkətli olduğu qədər, evi-eşiyi də hər zaman qonaq-qaralı olardı. İncə dərəsinin döşündə səngərə bənzəyən Kəmərli kəndində hər kəsin evində olduğundan çox pəhləvan Kamilin zirzəmisində tut, alça, zoğal araqları boçkalarda olardı. Onun tamı da başqa cür idi. Bir dəfə pəhləvan Kamil Borçalı mahalına yaxın qohumlarıgilə qonaq gedir. Onun gəlişini eşidən kənd əhli pəhləvanın görüşünə gəlirlər. Birdən hay düşür ki, Xram çayından keçmək istəyən traktor batıb, traktorçu da içindədir. Hadisə yerinə gələnlərin bu hadisəyə tamaşa eləməkdən başqa əllərindən bir şey gəlmir. Elə bu dəmdə pəhləvan Kamil qurşaqdan yuxarı paltarını soyunub çaya tullananda arvad-uşaq qışqırır ki, ay aman Qızxanım nənənin evinə gələn qonaq suda boğulacaq. Aradan bir az keçəndən sonra baxırlar ki, pəhləvan Kamil traktoru dartıb çayın sahilinə çıxartdı. Çay daşdığından heç kim ürək eləmədiyindən suya girməyə qorxurdularsa, pəhləvan Kamil artıq traktoru və traktorçunu sağsalamat xatadan-baladan qurtarmışdı.

Artıq pəhləvan Kamilə qoşulub onunla dostluq eləmək istəyənlərin sayı günbəgün artırdı. Elə oradaca qohumlardan biri onunla ata yurdlarına Kəmərli kəndinə gəlməyi qərara alır. Süfrədə olan araqları görəndə iştahasını saxlaya bilmir, ancaq pəhləvan Kamilin qorxusundan da içə bilmirmiş. Qızxanım nənənin qulağına pıçıldayır ki, ay bibi, sənə qurban olum, məni pəhləvana tapşır. Bayaqdan yanında oturmuşam, mənə içməyə aman vermir.

Pəhləvan Kamil də bunu eşitcək:

– Ayə, qarnına şiş girsin, qoy kəndə sağsalamat gedək çataq. Mənim leş daşımağa vaxtım ha yoxdu. Camaat bunu eşidəndə gülüşürlər və məəttəl qalırlar ki, pəhləvan da belə zarafatlar edərmiş.

Köhnə dədə-baba yurdlarımız olmuş Noyanberyan, Allahverdi rayonları sonralardan mənfur ermənilərə verilmiş o qədim torpaqlarımız Kəmərli kəndinin qonşuluğunda olduğundan hərdən pəhləvan Kamilin damarında qanı coşanda hirsini soyutmaqdan ötrü o kəndlərə gedərmiş. Qandan qorxan erməniləri qanına bulayandan sonra canı rahatlıq taparmış. Üzü o yandan bəri qayıdanda arvadı Lətifə xanım duyarmış ki, erməniləri döyüb gəlir. Qızları da atasının qabağına qaçarlarmış və fəxr edərlərmiş ki, ataları ermənilərə qan uddurub.

Pəhləvan Kamilin ilk məhəbbəti Tutdu dərəsindən pərvazlandığından imkan verməzdi ki, ermənilər orada at oynatsınlar. Elə ona görə də ermənilər pəhləvan Kamilin papağının ucunu görən kimi qorxularından eşşəyə minib qaçardılar.

Elə pəhləvanın sorağı Qazax, Göyçə, Borçalı mahalında yayıldığından onun nə biləyinin əyildiyini, nə də ki, kürəyinin yerə dəydiyini görən olmayıb.

***

Yayda, yazda pəhləvan Kamil qohumlara baş çəkməyi yaman xoşlayarmış. Bir dəfə yenə səfərə hazırlaşırmış ki, qonşuları qabağına çıxır. El məsəlində deyildiyi kimi elə bil qonşu özünə əcəl axtarırmış kimi, pəhləvan Kamilə deyir ki, gəl güləşək. Pəhləvan da özünəməxsus tərzdə gülümsəyərək:

– Ayə keçinin əcəli çatanda çobanın çomağına sürtünürmüş kimi, sənə nə olub?

Qonşu da inadından dönməyərək:

Mən səninlə güləşmək istəyirəm.

Pəhləvan Kamil sözün dalını dinləmədən, qonşunu göyə qaldırıb, yerə çırpır. Qıçı möhkəm əzilən qonşu sürünə-sürünə onun yolundan çəkilməyə məcbur olur.

***

Günlərin bir günü meşəbəyi adamların meşəyə odun qırmağa getməməsi üçün yalandan şaiyələr yayır ki, guya meşədə bəbir, pələng var, o da gəlib kəndə çıxıb. Bu, kənd camaatı arasında söz-söhbətə səbəb olur. Günbatana yaxın Mahmud kişinin bağında qarğıdalının içində xışıltı eşidilir, uzaqdan qalınlıqdan göz parıldayır, yaman qorxurlar. Səsə qonum-qonşu tökülüb gəlsə də heç kəs ürək eləmir ki, bağa girib xışıltının nə olduğunu aydınlaşdırsın. Bu hay-haraya pəhləvan Kamil özünü yetirir və qamışlığı aralaya-aralaya xışıltı gələn tərəfə gedir. Bir az keçməmiş bir heyvanın qıçından tutub camaat yığılan tərəfə atır. Baxanda görürlər ki, camaatı vahiməyə salan qonşu Mahmud kişinin 23 gun bundan əvvəl sürüdən ayrılıb itən toğlusuymuş.

***

Pəhləvan Kamilin ən çox gəzdiyi yerlər Batdaqlı bulağı, Qılınckəndi meşəsi, Qonaq bulağı, Avey dağlarıymış. Uşaqlıq illəri də elə buralarda dağlar qoynunda keçib. Anası Ayşa qarı da yaman sinədəftər olub. Bir dəfə Aşıq İmran onlara qonaq gəlibmiş. Pəhləvan Kamil deyir ki, ay ciji bu aşıq deyişməni yaman sevir. Gözünə döndüyüm Ayşa qarı aşıq İmranı sözünün sehri ilə bağlayır. Aşıq İmran camaatın gözünün qabağında aşıq halallığı ilə: Ayə, başınıza dönüm aşığa bu da azdır, aşıq gərək şir ürəyi yemiş ola ki, pəhləvanın cijisiynən deyişə.

***

Aşıq Cəlalın oğlu ədəbi mühitdə, yetərincə tanınmış şair-publisist, xarici dillər müəllimi Şöhrət Cəlaloğlu söyləyir ki, pəhləvan Kamil bizə qonaq gələndə bu enlikürək, cüssəli adama baxanda təəccüblənirdim ki, Ay Allah! atamdan güclü, qüvvətli görünən bu adam necə də sadə insandır. Onun cəsur

görkəmində həm də bir həlimlik vardı.

Aşıq Cəlal sədəfli sazını kökləyəndən sonra uzun gecələrdə dastanlar söyləməkdən, pəhləvan Kamili dinləməkdən, İncə dərəsinin tarixi keçmişindən aşıqlarından söhbət açmağı xoşlayarmış.

Aşıq Cəlal barmaqlarını pərdələrin üzərində gəzdirdikcə pəhləvan Kamil də zarafatla söyləyərmiş ki; Ay aşıq Cəlal, nolaydı, Allah-təala sənin o ikicə barmağını mənə qismət eləyəydi.

Aşıq Cəlal da çalğının şirin yerində əlini saxlayıb, gülə-gülə cavab verərmiş ki: Ayə, a qıvlasız, hamı sənin igidliyindən, pəhləvanlığından danışır, sən də gözünü mənim balaca barmaqlarıma dikmisən. El arasında belə bir məsəl də var, deyərlər ki: pəhləvan ürəyi dünya boydadırsa, aşıq ürəyi yumşaq olar. Elə ona görə də pəhləvan Kamilə telli sazı da Aşıq Cəlal özü bağışlamışdı. Şöhrət Cəlaloğlu pəhləvan Kamil və atası Aşıq Cəlal haqqında elə xoş xatirələr söyləyir ki, nə kitaba sığar, nə də ki, dəftərə. Odur ki, Şöhrət Cəlaloğlunun «Axtarır» şeiri lap yerinə düşərdi, elə düşür də, yaraşır da:

Könlün dağlarda gəzirdi,
Səni o dağlar axtarır.
Yaz gələndə payızadək,
Güllü yaylaqlar axtarır.

Düşdük ömrün izlərinə,
Yaman getdi söz dərinə,
Tor gəlibdir gözlərinə
Həzin bulaqlar axtarır.

Dilləndikcə aylar, illər,
Xəyalıma gəlir nələr,

Doluxsunmuş xatirələr
Xoş ki, xoş çağlar axtarır.

Zaman keçib, vaxt dəyişib,
Tale dönüb, baxt dəyişib.
Şah dəyişib, taxt dəyişib,
Yurdu qocalar axtarır.

Dastanın elin ağzında,
Varsan «Cəngi» avazında,
Səni Cəlalın sazında
İncə barmaqlar axtarır.

İnsanın ağlına gələnlər başına gələr deyiblər. Sən demə pəhləvan cüssəli Kamil pəhləvanı əcəl addım-addım izləyirmiş. Zirvələri fəth edən pəhləvan Kamili torpaq ağuşuna alacağını sanki duyurmuş kimi:

Mən deyirdim ömür çoxdur,
Hələ neçə ayım, ilim.
Güc tükənib, taqət gedib,
Hədələyir məni ölüm.
Heç bilmirəm
Qəlb dolusu güldümmü mən?
Bu dünyada
Xoş günləri gördümmü mən?

Ağarmış saçlarının gümüşü selindən nur saçan ağsaqqal pəhləvanın palıd qaməti, zirvələrdən uçan qoca qartalların ömrünə bənzəyən ömür sürüb pəhləvan Kamil.

Hər işdə səbirli, təmkinli olan pəhləvanın, Kəmərli kəndinin yaylaqları, meşələri ermənilərə, «ərməğan» ediləndən sonra ürəyində Vətən dərdi, yurd ağrısı yuva qurdu. Könlünü oyuq-oyuq elədi, köksünün altında ağrıların qığılcımı qor kimi doldu sinəsinə. Qılınckəndinin ayrılığı xəncər kimi ürəyinə sancıldı, gözlərindən qan-yaş tökdü Kamil pəhlvan, ilham pəriləri qəmli-kədərli notlara kökləndi, Şöhrət Cəlaloğlu bu yandan Aşıq Cəlaldan yadigar qalan Telli sazın dili ilə dilləndirdi. Aldı görək nə dedi:

Qəlbimə sirdaş dağlar,
Dağlar maralım hanı?
Ay mənə qardaş dağlar,
Könlü yaralım hanı?

Mənim həmdəmim dağlar,
Ağlaram, gülüm hanı?
Dərdim, dərmanım dağlar,
Günəşim, günüm hanı?

Sorğuları, sualları cavabsız qalan pəhləvan Kamilə pənah gətirənlərin sayı günü gündən artırdı. İrəvan ellərindən didərgin düşənlərin imdadına yetdikcə el aşıqları pəhləvan Kamilin könlündən süzülən ağrıları telli sazın dili ilə ellərə yaydılar və söylədilər ki, pəhləvan Kamil deyərdi ki:

Dünyanın işləri yaman qarışıb,
Başı ayaqdadır, ayağı başda.
Vurnuxur arada aravuranlar
Yoxdur ağıl verən bir ayıq baş da.

İrəvan elləri talanıb gəlir,
Sular selə dönüb bulanıb gəlir.
Evlər viran olub, ellər dağılıb,
Kimi vəzifəyə çullanıb gəlir.

Keçən əsrin süzgəcindən süzülən söz sərrafının dillər əzbəri olan «Heyif» şeirini kövrəlmədən, ağlamadan yada salmaq olmur. Hə, əzizlərim, yaddaşlara həkk olunan bu ağrılı-acılı, iztirablı kəlamları biz söyləyək, dinləyənlər də var olsunlar ki, yurd yerlərinin varlığını unutmasınlar:

Ocağın odunu yada verməzlər,
Ocaqdan odmuzu aldılar, heyif.
Dedilər: Allahdan gələn bəladı,
Sonra da boş fikrə daldılar, heyif.

Unutmaq olarmı yurd yerlərini,
İtdi babaların məzarı, heyif.
Getdi Qılınckəndi, getdi Ağoğlan,
Getdi Cəlal kimi yazarı, heyif.

Bulaqların gözü qan ağlar daha,
Fındıqlı, Almalı, Heyvalı, heyif.
Min dərdin dərmanı Batdaqlı bulaq,
Ağıza dad verən dağ balı, heyif.

Tanrı borclu qoymaz mərdi namərdə,
Namərdə borcumuz qalıbdı, heyif.
Özgənin atına minən tez düşər,
Yüyəni özgədə qalıbdı, heyif.

Hər günün bir hökmü olduğu qədər də, hər dərdin də dərmanı tapılmır ha! Pəhləvan Kamili dərdə salan yurd ağrıları oldu. Bu ağrılara nə ana südü, nə də dağ çiçəyi əlac olmadı. Dağ vüqarlı, dağlar oğlu Kamil pəhləvanın ömrü körpü kimi qollarını açanda artıq pəhləvan yaralanmış şir kimi dəli bir nərə çəkdi:

Nə ağır günümdü, nə acı günüm,
Bülbül tək qəfəsə salınmışam mən.
Yenilməz bilmişdim özüm-özümü,
Möhtəşəm qalaydım, alınmışam mən.

Oğulları atasının yastığının yanını kəsdirmişdilər. Atalarının nəsihətlərinə yaman ehtiyacları var idi. Övladları Yusif, Nəsib və Həsənə hələ 80-cı illərdə yazdığı "Ay oğul" şeiri yadına düşdü. Elə şeirin də deyilməli vaxtı yetişdiyindən, pəhləvan yastığa dirsəklənib asta səslə:

Bir gün olar, mən gedərəm dünyadan,
Onda bil ki, ağsaqqalın anadı.
Qulluq göstər, hörmət elə, uca tut,
Övlad üçün odlanandı, yanandı.

Acı sözlə qaraltmayın qanını,
Şirin sözlə ürəyini xoş eylə.
Geyiminə, geciminə fikir ver,
Oturanda yerini də baş eylə.

Dua desin qoy ananın dilləri,
Xəta-bala uzaq olsun yolundan,
Ağac olun, budağınız bar versin,
Dar günündə Xudam tutsun qolundan.

Xəstəliyin caynağında can verən pəhləvan oğullarına öyüd-nəsihət verir, analarına dayaq olmağı tövsiyə edir. Daxili narahatçılığını biruzə verməsə də xanımından yaman nigarandır.

Həyatın bütün çətinliklərinə qoşa qanad kimi sinə gərdiklərindən, Lətifə xanımın ondan ayrı necə yaşayacağını təsəvvürünə belə gətirə bilmirdi.

Ağır xəstəliyə düçar olan pəhləvana nə təbibin, nə loğmanın, nə də dərmanın köməyi dəymədi. Mayası dağ havasından tutulmuş, saz havasına köklənmiş, könlünə telli sazın sehri məlhəm olduğundan el aşıqları axın-axın ona baş çəkməyə gəlirdilər. Az da olsa ağrılarını unudan pəhləvana baş çəkməyə gələn elimizin-obamızın Ərəbzəngi qızı aşıq Ulduza pəhləvan Kamil nə dedi, nə söylədi dinləyək, bizlərə qoşulub dinləyənlərə də kimlər qoşulacaq Allah özü bilir. Yaxşı sözü söyləyənlər də, dinləyənlər də qəlbən bir-birinə yaxın olan adamlardır. Təki dostlarımızın sayı çox olsun, düşmənlərimizin ömrü gödək olsun. Uzun sözün qısası görək pəhləvan Kamil nə deyir, nə eşidir:

Dağlarımın izi sənsən,
Bulaqların gözü sənsən.
Elin aşıq qızı sənsən
Yaşa Ulduz, yaşa səni.

Yerinə yetsin diləyin,
Xalqın olsun qoy gərəyin,
Sazındı qızıl diləyin
Yaşa Ulduz, yaşa səni.

Göydə süzən bulud sənsən,
Qəlbdə işıq, ümid sənsən.

Yad ocağa kilid sənsən
Yaşa Ulduz, yaşa səni.

Aşıq Ulduz çalıb, oxuyandan sonra pəhləvanın əhvalının yaxşılaşdığını görüb: Ay qağa vallah səndə heç bir xəstəlik yoxdu. Pəhləvan da heç kürəyini yerə vurarmı? Yataqda yatmaq sənə yaraşmır. Bunu eşidən pəhləvan Kamil yaman kövrəlir. Göz yaşını gizlətməyə çalışsa da üz-gözündən yağan qəhəri qəti gizlədə bilmədi. Aldı görək pəhləvan Kamil nə dedi:

Yandım atəşlərə külüm sovruldu,
Dağlar dilə gəldi, dərddən qovruldu.
Zirvədə qıy vuran bir qartal idim,
Uçan qanadlarım daha yoruldu.

Pəhləvan sazın sədalarından dərdini, ağrılarını unutduğundan üzünü qızı Fəridəyə tutaraq:

– Ağrın alem, a qızım, kövrək notlara köklənsən də bir şeir də demək istəyirəm, aşıq Ulduz telli sazını kökləsin görək deyərək pəhləvan söylədi, dinləyənlər dinlədi, siz də dinləyin əzizlərim:

Nə ağır günümdür, nə acı günüm,
Bülbül tək qəfəsə salınmışam mən,
Yenilməz bilmişdim özüm-özümü,
Möhtəşəm qalaydım, alınmışam mən.

Gör harda qırıldı ömür kəndirim,
Gündüzüm gecəyə dönübdü, Allah.
Gözlərim doymayır Günəş nurundan,
Əzrayıl sinəmə qonubdu, Allah.

Yetir nəfəsini sən öz elimə,
Görüm o yerləri bir də doyunca.
Bakıda dərdimə əlac olmadı,
Aparım dərdimi özüm özümlə.

Körpü çatlayıbsa gərək sökülsün,
Ömrümün körpüsü çatlayıb daha.
Neynirəm həkimlər mənə nə deyir,
Görürəm özülüm laxlayıb daha.

Atalarının kövrəkləşməyini ağıllarına belə gətirməyən, ömürlərində birinci dəfə atalarını belə qəhərli görən qızları Fəridə, Yetər, Ayşa, Kamilənin başbaşa verib ağlamaqdan başqa əllərindən bir şey gəlmədi. Qızlarını gözüyaşlı görən pəhləvan:

Çəmənim soldu, neynim?
Gözlərim doldu, neynim?
Bu qədər ki, dərd çəkdim,
Ölürəm daha neynim?

Qızları atalarının boynuna sarılıb: ay ata qurbanın olum, sənə ölüm yaraşmır deyəndə pəhləvan qızlarına təsəlli olaraq söylədi ki, dünya Süleymanlara qalmayıf ay bala, gedəni saxlamaq olarmı? Elə hünərim var idisə qardaşlığım aşıq Cəlal köç eyləyən karvanı saxlardım? Deməli ömür dediyimiz bir karvan yoludu kimi tez gedir, kimi də gec. Bəlkə də aşıq Cəlal öləndən sonra sazı susdu deyə, məni də bu dərd tapdı. Dost itkisi yaman olur ay bala, deyərək köksünü ötürən pəhləvan nə söylədi, nələr danışdı dinləsək yerinə düşər:

Bir dost itirmişəm dostlar içində,
Hayıf oldu getdi, bir Aşıq Cəlal.
Susdu «Ruhani»si, susdu «Misri»si,
Şeirə, sənətə sirr Aşıq Cəlal.

İncə dərəsində bülbüllər susdu,
İncədərəsindən bülbüllər küsdü.
Gözlər qan ağladı, şən dillər susdu.
Şeirə, sənətə sirr Aşıq Cəlal.

Keçdi gözlərimdən dünya lent kimi,
Bir ömrün lenti də oxundu, bitdi.
Ömrü boş keçmədi, yazdı, yaratdı,
Aşıqlar içində nur, Aşıq Cəlal.

Hər sözdə, misrada yaşayır Cəlal,
Qəlbləri sözüylə oxşayır Cəlal.
Sənət Günəşidir, parlayır Cəlal,
Ocaqdı, çıraqdı, pir Aşıq Cəlal.

Pəhləvanın çarpayısının başının üstündən çalınan saz havası onu ağrı-acıdan uzaqlaşdırsa da xəyalında anasıyla danışır, əbədi mənzilinə baş çəkib qayıdanda, ay balalarım anam məni gözləyir, yeni mənzilim yaman bəzənib, anamın qolları uzana qalıb, mən artıq gedirəm, deyəndə bayaqdan uşaqlarının, qohum-qardaşlarının yanında abırlı-həyalı, təmkinlə dayanan həyat yoldaşı Lətifə xanım kəlağayısının ucu ilə gözlərini sildi. Gözlərini intizar, kövrək baxışıyla pəhləvanın gözlərinə zillədiyini görən Kamil pəhləvan söznən olsa da xanımının könlünü almağa çalışaraq son sözünü söylədi:

Bəlkə də qəlbinə dəymişəm sənin,
Bağışla, sevgilim mən gedən oldum.
Sənin zəhmətindi nəyim vardısa,
Fikrimlə qəlbimi didən mən oldum.

Əcəl köhlənimin qamçısı yadda,
Özünü çox üzüb, çox əldən salma.
Çıxıb yollar üstə axşam tərəfi,
Mən gedən yollarda xəyala dalma.

Nigaran ömrümün sonu yetibdi,
Tağı quruyubdu, gülü solubdu.
Haqqın tapşırığı, haqqın işidi,
Dünya boşalıbdı, dünya dolubdu.

Lətifə ana hıçqırıqdan boğulmasın deyə qızlar analarına su verdilər ki, içsin. Ana:

– Neynirəm ay bala, bu suyu, dünyam uçur, pəhləvan bir kişi əldən gedir. Mənə əl vurmayın, bəlkə mən də ölüm, canım qurtarsın bu zalım dünyanın əlindən. Gözümün qabağında kişi can verir, fələk yaman gününü məndən əsirgəmədi, neyləyirəm suyu-zadı. Mənə dəyməyin, ürəyim partlayır, qoyun ağlayım, bundan da acı gün olarmı?

Pəhləvan Kamil heysiz baxışları ilə ömür çırağına baxdı. Oğulları Yusif, Nəsib, Həsən atalarının halının yaxşı olmadığını görüb:

– Ay ata ürəyin nə istəyir! – deyərək, sözlə də olsa təsəlli vermək istədilər. Yox, deyəsən nə söz, nə saz təsəllisi pəhləvanın karına gəlmirdi. Ömür körpüsü çatçat olduğundan həkimlər də naəlac qalmışdılar. Hamının birbirinə sual dolu baxışlarla baxdığını görən pəhləvan Kamil üzünü oğullarına tutaraq:

Yetirin siz məni ata yurduma,
Görüm o yerləri bir də doyunca.
Bakıda dərdimə əlac olmadı,
Aparım dərdimi özüm-özümlə.

Artıq pəhləvan Kamil ata yurduna Kəmərli kəndinə ağır vəziyyətdə gəlmişdi. El axışıb onunla görüşə gəlirdi. Evində qonaq olanlar, çörəyini kəsənlər, süfrəsinin başında əyləşənlər son dəfə ondan halallıq almağa gəlmişdilər. Pəhləvanın evi yenə də qonaqlı qaralı idi. Onun xəstə halını görənlər isə yaman qanıqara idilər. Kamil pəhləvan isə bağı-bağatı gəzmək istəyirdi, taqətdən düşmüş dizləri onu dinləmədiyindən, amansız xəstəlikdən gileylənməkdən başqa əlindən bir şey gəlmədi. Xəstəlik isə öz işində idi, canına sarmaşıq kimi sarılmışdı. Amansız xəstəliyə, yaman ağrıya tab gətirə bilməyən pəhləvan:

Düşmənə əyilməz, yada baş əyməz,
Kamili nə yaman əydin, xəstəlik.
Uzaqdan atılan qara daş kimi,
Canıma nə yaman dəydin, xəstəlik.

Qanadı qırılmış quşa dönmüşəm,
Qoydun çırpıntıda məni, xəstəlik.
Kamilə atasız toymu edəcək?
Düşəsən min dərdə səni, xəstəlik.

Hələ neçə arzum, neçə kamım var,
Qoymadın gözümü açam, xəstəlik.
Hələ Yusifimdən nəvə payım var,
Zəmimdə dənimi biçən, xəstəlik.

Ölüm haqdır, haqqa canım sadağa,
Gözü, könlü ac oğlu, ac xəstəlik.
Ümid qıran, Aman verməz, qan soran,
İçi qara, bic oğlu bic xəstəlik.

«Ac» və «bic» xəstəlik pəhləvanın ağrılarından həzz aldığından sanki pəhləvanın palıd ömrünə balta çalırdı. Bu baltanın səsi təkcə pəhləvan Kamilin deyil, Qılınckəndinin, Tutlu dərənin, Dərəbəylinin, zümrüd bulaqların da, allı-güllü yaylaqların da ömrünə balta çalırdı. İncə dərəsində onu sevənlər, onunla öyünənlər, pəhləvanın ölüm ayağında olmasına ölümündən qabaq yas saxlayırdılar. Gələn qonaqlara kəkotu ətirli samovar çayını məcməyidə armudu stəkanda süfrələrə düzənlərin də əlləri kədərdən titrəyirdi. Pəhləvan Kamil dərin yuxuya getdiyindən dil açıb ağlayan, ağı söyləyənlərin də boğazından çay keçmirdi. Hamı nəyisə gözləyirmiş kimi uzun gecələrdə eyvanda, həyətdə tut ağacının altında gecə-gündüz sanki keşik çəkirdi. Pəhləvan Kamil deyəsən yuxudan oyanmaq istəyirdi, yerində qurcalanırdı. Hamı baxışını ona zilləyərək yorğanın tərpəndiyini görüb mütəkkənin xışıltısına tərəf boylandı. Başının üstündə övladlarını, yan-yörəsində qohum-qardaşlarını görən pəhləvan gördüyü yüxünü necə nəql eylədi, nələr söylədi, onun dililə deyək, dinləyənlərə isə can sağlığı diləyək:

Pəhləvan Kamil:
Ay ellər, bu gecə bir yuxu gördüm,
Gördüm ki, karvanım yol alıb gedir.
Boylandım dörd yana, nə qohum, nə yad
Ünüm yetişməyir, ahım çatmayır.
Qaranlıq boşluğun qara çadrası
Yoluma kölgə tək sərilib gedir.

Bayaqdan ağlaşmanı astadan ağlayan qadınlar dizlərinə döyərək: Ay Allah bu dağı bizə göstərmə, Lətifə yazıqdı, balaları yazıqdı. Pəhləvanın qapısını bağlama, ocağını soyutma deyib dil açanlar artıq duyurdular ki, pəhləvan ömrünün kitabını bağlayan əzrayılın gəlişini duyur. Lətifə xanım əri nəsə demək istəyəndə:

– Ay bacılar, qoyun görək kişi nə deyir, bir az asta olun, deyəndə aralığa bir sakitlik, sükut çökdü.

Kamil pəhləvan:
Vida söyləməyə dilim gəlməyir,
Məni ayıltmağa gülüm gəlməyir.
Qulağım tutulub, səsim batıbdı,
Məni bu yerlərə kimlər atıbdı?
Bir at arabayla gözləyir məni,
Demək bu əcəldi izləyir məni.

– sözünü deyib, bitirməyə macal tapmamış pəhləvanın alnına soyuq tər gəldi. Sən demə bu əcəl təriymiş. Al yanaqları saralmağa başladı, halı birdən-birə pisləşdi, artıq taqətsiz halda uzanmış pəhləvanın qəmli baxışlarından süzülən göz yaşları, sən demə ayrılıq, son vida nəğməsi imiş. Bu qəmli baxışlardan doğan kövrək nəğmə əsrlərin yaddaşında bayatıya çevrildi:

Əzizim səmənd atdı,
Qəmim dəryada batdı.
Yar qolunu gözlərəm,
Bilirsən neçə vaxtdı?!

Əzizim, dolu düşdü,
Yaz gəldi, dolu düşdü.
Yarıma qurban olum
Yolu uzağa düşdü.

Yağış yağdı göllərə,
Axdıdöndü sellərə,
Pəhləvan Kamil ölüb,
Haray salın ellərə.

Əlimdə kaman ağlar,
Eyləyər fəğan ağlar.
Ölmə gözüm giləsi,
Arxanca yarın ağlar.

Dağ vüqarlı pəhləvanın yarı Lətifə xanım dağdan ağır dərdinin önündə baş əymədi. Övladlarını qanadının altına alıb, dağlar qoynunda özü-özünə bayatı(ağı) deyə-deyə, mal-qoyun saxladı, xal-xalça toxudu, qızlarına cehizlik yığdı, oğullarına gözəl qızlardan gözaltı elədi. El arasında deyildiyi kimi: «İçi özünü yandırdı, çölü özgəsini». Dərd onun ürəyinə hakim kəsildi, üzündə yurd salan min bir qırış onun qocalığından deyil, ucalığından xəbər verdi.

Pəhləvan Kamil sazı, sözü mərəkəni, məclisi sevdiyindən övladlarını da o ruhda böyüdüb. Onun nəvəsi gənc şairə Pərvanə Nizaməddin şeirlərinin birində pəhləvan şair babasına «Kamil baba» adlı belə bir şeir yazdı.

Pəhləvan Kamilin nəvəsiyəm mən,
Ruhun qoy olsun şad, ay Kamil baba.
Adın bir Günəşdir ömrümlə qoşa,
Adımız üstündən ad, Kamil baba.

Pəhləvan cüssəni dağlar sanmışam,
Palıda baxanda səni anmışam.
Fikirlər içində tənha qalmışam,
Ocaqda közümüz, od kamil baba.

İncə dərəsi də sənə güvənir,
Sənə həsəd edir yad, Kamil baba.
Yenə evin şəndir, süfrən açıqdır,
Çörəyi damaqda dad, Kamil baba.

Görənlər bilənlər, hətta Pərvanə Nizaməddinin yaşıdları ona hər zaman həsəd aparırlar ki, bu qızın babası pəhləvan olub.

El-oba arasında mərəkədə, məclisdə pəhləvan Kamilin şeirlərinə aşıqlar mahnı qoşub oxuyanda adı anılanda Mustafa Hacımahmuda bədəhətən belə bir şeir söyləmişdi:

Mərd oldun dünyaya mərdanə gəldin,
Mən belə görmüşəm görəndə səni.
Layiqsiz. ədəbsiz işin olmadı,
Mən belə görmüşdüm, görəndə səni.

Halal əməyinə qanesən, qane,
Dost, yoldaş yanında verərsən canı.
Koroğlu misallı, igid nişanlı,
Mən belə görmüşdüm, görəndə səni.

Dağlar hünərlisən, polad biləkli,
Düşmən toxmağısan dizi dirəkli.
Mustafa deyər ki, təmiz ürəkli,
Mən belə görmüşdüm, görəndə səni.

***

İncə dərəsinin gözəlliyi Lətifə xanımı gözəl saxladı. Ayların, illərin ən böyük mükafatı onu nənəlik zirvəsinin ucalığına apardı. Yurdunu qorudu, ocağını sönməyə qoymadı, boxçasında, düyünçəsində saxladığı, varı-dövləti onun bayatıları oldu.

Pəhləvan Kamilin ocağından pərvazlanan övladlarından öz qələmilə, qabiliyyətilə adsan qazanmış Fəridə Ləman poeziya aləmində yetərincə öz sözünü dedi. Yaradıcılığının şah əsəri ata yurdu oldu. Atasının ölümü onu yaman sarsıtdı, könlü qəm dəryası oldu, qələmindən süzülən kövrək nəğmələr ata yoxluğundan xəbər verdi. Gözləri dolanda özünə təsəlli tapmaq üçün anasına məktub yazdı:

Yasəmənlərin açıldımı, ay ana?!
Ətrini duymağa gəlmək istərəm.
İncəçayı daşıbdımı, ay ana?
Səsində uymağa gəlmək istərəm.

Göyəribmi Kəməndin göy sinəsi,
Çöllər yenə kəklikotu qoxurmu?
Uluca göylərdən günəş doğmamış,
Torağaylar nəğməsini oxurmu?

Bürüyübmü yolu-izi qırxbuğum,
Gicitkanın nübarını etdinmi?
Şükr eyləyib tanrının bu gününə,
Şıx qayanı ziyarətə getdinmi?

Qara Quzey saxlayıbmı qarını,
Çağlayırmı zümzüməli Kor bulaq?
İstəyirəm təpələrin döşündən,
Ətəkətək əvəlik, yemlik yığaq.

Unnucadan zər düşübmü torpağa,
Yarpızların arx boyunca çıxıbmı?
Şeh düşübmü təzətər yarpaqlara,
Pəmbə bulud kipriyini sıxıbmı?

Qılıncıkəndi görən yada düşürmü?
Yaz gələndə köç edərdi kəndimiz.
Bulaqların şərbətindən daddıqca,
Torpaqlarda tükənməzdi qəndimiz.

Dərəbəyli yaddaşımdan silinmir,
Qurulu çadırlar gözünə hopub,
Heyvalı, Fındıqlı, Pirədərəsi,
Elə bil, yer batıb altına köçüb.

Elə kövrəlmişəm, elə dolmuşam,
Tüyürlü Kamilin ruhu şad olsun.
Daşbulaq deyəndə istərəm hər an,
Bu gözəl insanın adı yad olsun.

Fəridə vurğundu el-obasına,
Bu, əziz anama kiçik məktubdur,
Borcluyam anama, bir də Allaha,
Həyatım varlığı onda tapıbdır.

Məktub Lətifə xanıma çatan günü, yaman kövrəlmişdi. Özünə təsəlli olaraq qımqıma, oxuya-oxuya sanki Fəridə Ləmanın məktubundakı sətirləri təhlil edirdi. Sinəsi söz xəzinəsilə dolu olan Lətifə xanım qızının məktublarını mütəkkənin altında qızılgül ləçəyinə büküb saxlayardı. Məktubların kağızları saralsa da, şeiriyyat vurğunu olan ana bəlkə də hər gün belə dərin mənalı məktubların yolunu gözləyirdi. Şairin də sovqatı şeir olar deyiblər.

Bu dəfə Fəridə Ləmanınm yadına kənd sovqatı düşdü, anasına deyə bilməsə də, dolayısıyla bacısı qızı Pərvanə Nizaməddinə bir namə yazdı. Namə hələ yoldaykən göyərçin

qanadlarıyla küləklər bu məzmunu bizlərə yetirdi. Ərz eyləyək, eşitməyənlər də eşitsinlər:

Anamın nəfəsindən,
Atamın ər səsindən,
Yaşamaq həvəsindən,
Gətirə bilsən gətir.

Çəməndəki buluddan,
Qılınckənddəki yurddan,
Məlhəm olan o otdan,
Gətirə bilsən gətir.

Şıx qayanan daşından,
Dumanların saçından,
Şorakətin daşından,
Gətirə bilsən gətir.

Güllərin tənəsindən,
Daşların xınasından,
Nənəmin duasından,
Gətirə bilsən gətir.

Sac üstəki çörəkdən,
Bala deyən ürəkdən,
Uşaqlaşmış kövrəkdən,
Gətirə bilsən gətir.

Dağların havasından,
Otların şəfasından,
Dərdimə dəvasından,
Gətirə bilsən gətir.

Daşbulağın suyundan,
Xanbulağın soyundan,
Əmirxanın toyundan,
Gətirə bilsən gətir.

Nəhrəmizin yağından,
Bar-bəhrəli bağından,
Şamamanın tağından,
Gətirə bilsən gətir.

Süzmənin qurudundan,
Anamın sucuğundan,
İpisti qucağından,
Gətirə bilsən gətir.

İncənin bal dilindən,
Gədiklərin gülündən,
Durnaların telindən,
Gətirə bilsən gətir.

Çiçəklərin halından,
Lalələrin xalından,
Qızılgülün alından,
Gətirə bilsən gətir.

Novruzun tüstüsündən,
Qorunun istisindən,
Bənövşə dəstəsindən,
Gətirə bilsən gətir.

Quzeylərin qarından,
Baxçaların narından,
Min nemətli barından,
Gətirə bilsən gətir.

Yazın gül yağışından,
Anamın alqışından,
Göylətin naxışından,
Gətirə bilsən gətir.

Avdının avazından,
Aşıq Cəlal sözündən,
Kəndimin gül yazından,
Gətirə bilsən gətir.

İncə çayda yosundan,
Mərzə, kəklik otundan,
Xıdırdakı qovuddan,
Gətirə bilsən gətir.

Bilməm daha nə qaldı,
Qələm də fikrə daldı,
Ev, eşikdə nə vardı,
Gətirə bilsən gətir.

Yel qanadında ünvanına yetişən məktubu Pərvanə Nizaməddin bir nəfəsə oxudu. Sevinə-sevinə, gülə-gülə bağdan meyvə yığan nənənin yanına qaçdı.

Pərvanənin əlindəki məktubu görən Lətifə nənə:

– A bala xeyirdimi, bu nə kağızdı.

Pərvanə gülə-gülə:

– Nənə, ay, nənə xalamdan gəlib, bu məktub. Ancaq xalam səndən nələr istəyib, Allah haqqı saymaqnan qurtarmaz.

Lətifə nənə:

– Oxu, ay bala, başına dönüm, görək şair qızım məndən nə istəyir.

Şeir dolu məktubu oxuyub, nənəsinin üzünə sual dolu baxışla baxan Pərvanəyə nənəsi:

– Ay bala, üzümə təəccüblə niyə baxırsan. Yazıb balam, məndən nə at, nə də araba istəməyib ki, Allaha şükür sadaladıqlarıyın hamısı bağımızda-baxçamızda dolu deyilmi? Allah qoysa ürəyi istədiyindən də artıq şeylərin hamısından da göndərəcəm. Kənd sovqatı başqa şeydi, ay bala, onun ətrinin, dadının heç nə yerini verməz, deyib dərin xəyala getdi.

Əslində Fəridə Ləman bu sadaladıqlarını istəsə də misraların dililə muncuğa düzmüşdü.

Qılıckəndi meşəsindən qalxan duman Kəmərli kəndinin başına dolananda, qara buludlar oynaşanda, mənfur qonşular gözlərini bu dağlara diksə də pəhləvan ocağının yadigarı Lətifə xanım dağ kimi dayanıb bu yurdda.

1988ci illərdə hay düşdü ki, ermənilər topla-tüfənglə İncə dərəsinə tərəf gəlirlər.

El-oba arasında hayküy, qaça-qaç düşsə də, Lətifə xanım dağ kimi dayandı, pəhləvanın yurdunda, ocağında. Yazda, yayda əkdi, becərdi, payızda məhsulu yığdı, qışa tədarük gördü. Şəhərdə yaşayan balalarına, qohum-əqrəbalarına da pay göndərdi.

Lətifə nənəsinin laylasından pərvazlanan Pərvanə Nizaməddin nənəsinin şəhərə yolladığı sovqatı duyğularının dili ilə ellərə yaydı. Xalası Fəridə Ləmana namə yazıb yolladı. Bu naməni yazan özü nə yazdı, nəyə yozdu, bir-iki adamın eşitməsi azdı.

Əzizlərim, dağlar qoynunda yaşayıb, yaradan bu qızcığazın yazıb, yozduğunu Sizlərə ərməğan edirik, buyurun dinləyin:

Sovqat tədarükü tutubdu anan,
İçində min dərdin dərmanı vardı.
Dəyirman unundan, süzmə quruddan,
Kəhrəba buğdanın xırmanı vardı.

Var göyəm qurusu, zoğal, əncirdən,
Əvəlik, kəkotu, mərzə də vardı.
Qovud unu, nanə, yarpız nə desən,
Hələ ki, nə çıxıb təzə də vardı.

İsladıb yuxanı, əziyyət olmasın,
Motal pendirilə şoru da vardı.
Neçə asma qoyub alma, heyvadan,
Qırmızı köynəkdə narı da vardı.

Üzərlik toplayıb sənə bir kisə,
Gicitkan toxumu, zirinci vardı.
Tutun həm qurusu, həm də bəhməzi,
Satmaqla qurtarmır, dürr inci vardı.

Qurudub güllərin gül ləçəyini,
Noxuddan, lobyadan torbası vardı.
Qurub kirkirəni buğda üyüdüb,
Əriştə qurusu, yarması vardı.

Yemşan, itburnundan süzüb şirəni,
Meşə əzgilindən turşusu vardı.
Dünən sandığından tapıb yadigar,
Sənə göndərilesi gümüşü vardı.

Deyir ki, Fəridə cucuğu sevir,
Hələ neçə torba ləpəsi vardı.
Fındığı bir yanda, qozu bir yanda,
Neçə düyünçəyə həvəsi vardı.

Sevinir sovqata hər nə yığırsa,
Hamsının üstündə duası vardı.
Nuş olsun, ay xala, ye halallıqla,
Bu gələn hər şeyin səyası vardı.

Nənəmin sovqatı bitmir,tükənmir,
Mənimsə sözümün bir sonu vardı,
Çıxıb qarşılaynan yüküm ağırdı,
Bunun bir xələti, bir donu vardı.

Lətifə nənəsinin sovqatını bir-bir sadalayan Pərvanə Nizaməddinin naməsi, Fəridə Ləmana yetişən andan bu dar mənzilə sanki dağların qoynunda bitən güllərin-çiçəklərin ətri hopdu. Naməni köksünə sıxan şairənin gözləri yol çəkdi, xəyallar qanadında doğma ata yurduna, uşaqlıq illərinə səyahət etdi. Gecədən xeyli keçsə də yuxusu gözündən qaçmışdı. Əlinə qələm alıb, naməyə cavab yazmaq istədi. Birdən qapı döyüldü. Səsindən, nəfəsindən doğmalıq yağan, uzun saçlı, qara gözlü Pərvanə Nizaməddin idi.

Lətifə nənə qış gecələrində hana qurub, allı-güllü xalçalar toxudu. Ermənilər tərəfindən atılan qrad səsindən də belə təlaşlanmayan Lətifə nənə söyləyir ki, heç nədən qorxmasam da, ancaq ehtiyatı əldən buraxmayır, darvazanın arxasına qoyduğu yava və lom onun soyuq silahı oldu. And içir ki, erməninin o mundar ayağı buralara dəysə, yavanı qarınlarına soxacam. Bəlkə də yurd sevgisi, pəhləvan Kamilin yarı Lətifə

nənəni daha güclü elədi. Uca boylu, pəhləvan biləkli Lətifə nənə dağlar qoynunda uyuyan pəhləvan Kamilin qəbrinə səcdə etdiyindən, evinə-eşiyinə baxa-baxa otaqlardan onun nəfəsini duyduğunu, divardan asılmış şəklilə danışa-danışa pəhləvandan yadigar telli sazı, divardan asılmış allı-güllü xalının üstündən elə yaraşıqlı asıb ki, sanki bu saz, bu evə qonaq gələnlərə əsrlərin yaşıdı pəhləvan Kamilin dastanını söyləyir.

Lətifə nənənin həyat tərzi, axarlı-baxarlı İncə dərəsi Kəmərli kəndində barlı-bərəkətli, isti ocaq hərarətli, qonaqlı-qaralı bir ömrün nağılına bənzəyir. Həyətdəki çiçəklərin ətri insana xoş əhval-ruhiyyə bağışlayır. Tanrının sevimli bəndəsi Lətifə nənə ömürgün yoldaşı pəhləvan Kamildən yadigar nə qalıbsa sevə-sevə, əzizləyə-əzizləyə qoruyub saxlayır. Sübh tezdən sal daşlar ürəyinə yayılan günəş şəfəqinin hərarətindən güc alan Lətifə nənə, günbatana yaxın könlü qubarlananda kövrəkliyi boynuna almayaraq, işnən-gücnən başını qatır. Nəvəsi Pərvanənin pöhrələnən arzularından yaranan şeirləri dinləyir. Eşidəndə ki, qızı Fəridə allah yolunda, haqq yolunda Hacı tituluna layiq görülüb, haqqın, halallığın sonu işıqla, nurla boyandığını dünyaya, qızı Yetərin də sınıq taleyinə Allahdan rəhmət diləyir. Əlini allahın ətəyindən çəkməyən dağ vüqarlı Lətifə nənə öz daxili aləmiylə pıçıldayanda:

«Allahım hamının işini avand eylə, içində də mənim və mənim balalarımın» kəlamları hər düşən axşam, hər açılan sabah dilinin əzbəridir. Xeyirxahlığı ilə hamının hörmətini qazanan Lətifə nənə hər dürlü savab sahibidir. Öz ocağını daima şöləndirən Lətifə nənənin sözü şirin, söhbəti yaddaqalan dəyanətli bir qadın, Kamil pəhləvanın vəfalı yarıdır.

Hə, əziz oxucularım! Yarla-yoldaşla, dostla-tanışla, qonum-qonşuyla mehriban olmaq sizlərə də nəsib olsun.

Hə əziz oxucularım! Gözümlə gördüyüm, qulağımla eşitdiklərimi sizlərə ərməğan etdim.

Allah amanında.

***

Müqəddəs Ramazan aylarında Lətifə nənə pəhləvan Kamilin məzarını ziyarət edəndə, bəlkə də heç kimə söyləmədiyi sözləri ürəyinin dərinliyindən pıçıltıyla ona söyləyir. Enişli-yoxuşlu həyat yolunda min bir əzab-əziyyətlərə qatlaşan Lətifə nənə pəhləvanın dünyadan köçməsilə barışa bilməsə də onun soyuq məzarından cücərən çiçəklərin ətrindən rəhmətliyin nəfəsini duyur. Bax bununla təsəlli tapmaq el arasında deyildiyi kimi "bu hər kişinin işi deyil ha, bax bu nər kişinin işidir". Nər kişinin yadigarı da olmaq hər qadının işi deyil ha.

Məzarı səngərə bənzəyən pəhləvanın yurdunu göz bəbəyi kimi qoruyan Lətifə nənə də bu yaşında bu yurdun bir müsəlləh əsgəridir. Bax elə yurd sevgisindən doğan məhəbbətin canlı şahidi Lətifə nənə yurdumuza örnək olacaq, nuranu bir anadır.

İncə dərəsi, Kəmərli kənd qəbirstanlığında əbədiyyətə qovuşan pəhləvan Kamilin həkk olunmuş əksindən boylanan baxışlarından əzəli yurd yerlərimizin əbədiyyət sakinləri də pəhləvan Kamil kimi nər kişilərdir. Haqq dünyasında yeri cənnətlik olan pəhləvanın başdaşı üzərinə həkk olunmuş şeirin müəllifi də onun ilk övladı şairə Fəridə Ləmandır. Ruhun şad olsun Kamil pəhləvan. Bu şeiri Ləman qızım ağlaya-ağlaya yazsa da, bu övladın ataya olan sonsuz məhəbbətidir:

Bulud göz yaşımız, duman ağrımız,
Olubdur ay ata sən köçən gündən,
Çiçəyimiz solub, gülümüz solub,
Dünyamız dəyişib sən köçən gündən.

Sən son yarpaq kimi payızdan deyil,
Bu acı küləklər hayandan əsdi,
Bu vaxtsız gedişlə niyə tələsdin,
Çarəsiz baxışın qəlbimi kəsdi.

Barını budaqda dərmədin niyə?
Çəkilən zəhmətin nübarı şirin.
Elə yandırdı ki, imansız fələk,
Səndən qəm qoyduğu qubarı şirin.

Mənim şah palıdım, dağım, dirəyim,
İldırım meşədə palıdı vurar,
Adın elə doğma, elə əziz ki,
Böyük də, kiçik də ayağa durar.

Dağlardan, yaylaqlardan əsən sərin meh kövrək ürək sahibi Fəridə Ləmanın atasının ruhuna ehtiramdan, anasına olan hörmətdən xəbər verir.

Qulaqlarınız xeyir xəbər eşitsin əziz oxucularım. Yeni nəslə yetişəcək bu dastanı yazdıqca sanki qolumda bir pəhləvan gücü, qəlbimdə vətən, yurd sevgisi duyduğum üçün pəhləvan Kamilin ruhuna ulu Tanrıdan rəhmət dilədim. Xoş xatirələrin işığından bəhrələnən doğmalarına, əzizlərinə ulu Tanrıdan səbr və dözüm diləyi ilə elimə, obama olan məhəbbətimlə yurdumuzun nər kişisi Kamil pəhləvanın dastanını tamamlamaq məqamı çatsa da hələ yazacağım yeniyeni yazılarım çoxdur. Çünki Kamil pəhləvanın yurdundan pöhrələnən cavan, yeniyetmə pəhləvanlar yetişir. Elə onların özləri də gələcəkdə yaranacaq yeni dastanların başlanğıcıdırlar. Ot kökü üstə bitər. O yurddan cücərən pöhrələrin mehriban, qohumcanlı, istiqanlı cavanlar pəhləvan Kamilin davamçılarıdır.

## ZƏMİNƏ XINALI

1964-cü il martın 21-də Qazax rayonunun Aslanbəyli kəndində doğulmuşdur. Kənddə orta məktəbi bitirdikdən sonra Sumqayıt Kimya Texnologiya Texnikumunun analitik kimya fakultəsində təhsil almışdır (1981-1984). Əmək fəaliyyətinə Sumqayıt Kimya İstehsalat Birliyində laborant kimi başlamışdır (1984-1986). Sonralar Bakıdakı 25 saylı texniki peşə məktəbində istehsalat təlim ustası (1986-1990), 240 saylı orta məktəbdə əmək və rəsm müəllimi (1990-1996) işləmişdir. Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində təhsilini davam etdirmiş, hərbi jurnalistika fakültəsini bitirmişdir (1996-1998). Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində uzun müddət Qadınlar Şurasının sədri, eyni zamanda "Azərbaycan ordusu" qəzetində ştatdankənar müxbir işləmişdir (1996-2001). Hazırda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbin hərbi qulluqçusudur. 2007-ci ildən Qazax Müəllimlər İnsitutunun filologiya fakültəsinin məzunudur.

Ədəbi fəaliyyətinə XX əsrin 80-ci illərindən başlamışdır. Azərbaycanda fəaliyyət göstərən Ali hərbi məktəbləri – H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin, Azərbaycan Ali Hərbi Təyyarəiçilik Məktəbinin, Dünya Azərbaycanlılarının Həmrəylik marşının və Azərbaycan Sülhməramlı Qüvvələrinin Sülh marşının sülh marşının sözlərinin müəllifidir. Hərbi vətənpərvərlik mövzusun-

da 30-dan çox mahnı mətninin sözlərini yazmışdır. "Təki Vətən yaşasın" adlı mənzum pyesi, "Ali Baş Komandanım" adlı sənədli pyesi əsasında radio-tamaşa hazırlanaraq radionun qızıl fonduna daxil edilmişdir. Zəminə Xınalının 15-dən çox kompakt disk və audio-kasseti kütləvi şəkildə çap olunmuşdur. "Azərbaycan Silahlı qüvvələrinin 90 illiyi" yubiley medalı, "Qüsursuz Xidmətə görə" medalı ilə təltif edilmişdir. 22 kitabı çap olunmuşdur. Zəminə Xınalının müəllifi olduğu kitablar aşağıdakılardır:

1. "Mənim Əsgər qardaşım" – 1997
2. "Yarı yolda qalan ömür" –1998
3. "Üç qardaş, üç pəhləvan" –1998
4. "Müqəddəs zirvə"–2000
5. "Ömrün bahar çağında"– 2001
6. "20 Yanvar – ümumxalq matəm günüdür"– 2001
7. "Tanrı sevgisiylə döyünən ürək"–2002
8. "İncə duyğularla yaşayacaqsan"–2002
9. "Hər şeydən əzəl Vətəndir"–2002
10. "Müqəddəs Vətən" –2002
11. "Sarıtel laylası"–2005
12. "Qarabağı unutma"–2005
13. "Hərbi Məktəblərin banisi–2006
14. "Tənha türk məzarı–2007
15. "Vətən sevgisi"–2007
16. "Təki Vətən yaşasın"–2008
17. "Qaçaq İsmayıl dastanı" – 2008

18. “Vətən bizim anamızdır”–2009
19. “Ağ atlı oğlan”–2009
20. “Əmirxan əsgər gedir”–2009
21. “Vətən torpağı” –2010
22. “Ali Baş Komandan”–2010
23. “Ömür yarpaqları” – 2011

## Zəminə Xınalının təltif olunduğu fəxri diplomlar

1. Məmməd Araz–2002
2. “Məshəti”–2004
3. “İnam Şərəf”–2004
4. “Vətən” –2007
5. “Mübariz qadın” –2007
6. “Vətən naminə” –2007
7. “Qızıl qələm” –2008
8. “Vicdanlı qələm” – 2008
9. “Müqəddəs qələm” –2009
10. “Əsrin ziyalısı” –2009
11. “Qaratel” –2010
12. “Onur Belgesi” – Türkiyə-Eski şəhər – 2010

## Z.Xınalının təltif olunduğu medallar

1. “Silahlı Qüvvələrin 90 illik yubileyi” medalı– 2008
2. “Qüsursuz xidmətə görə” medalı–2009

## Z.Xınalının diskləri və kassetləri

1. "Dağ boyda dərdim var" – 1999
2. "Qarabağı unutma" –2000
3. "H.Əliyev adına AAHM Məktəb marşı" –2000
4. AAHDM-nin Məktəb marşı–2000
5. "Sarıtel laylası" –2000
6. "Vətən müqəddəsdir" – 2001
7. "Tənha türk məzarı" –2001
8. "Layla çal, ay ana" –2002
9. "Əsgər libasında qadına alqış"–2002
10. Dünya Azərbaycanlılarının həmrəylik marşı –2003
11. AAHTM-nin məktəb marşı–2004
12. "Şəhriyar" – 2005
13. "Ötən illərimdən xatirə" –2007
14. "Ali Baş Komandanım" –2008
15. "Təki Vətən var olsun" mənzum pyes–2008
16. "Hərənin bir ömrü var" – 2012

# MÜNDƏRİCAT

Layla çal, ay ana ........ 4
Elə bil ........ 4
Bənövşə ........ 5
«Baş sarıtel» çalsın aşıq ........ 6
Uzaq yoldan gələn yarım ........ 6
Həsrət nəğməsi ........ 7
Sənin borcunu ........ 8
Gözlərim yenə də səni axtarır ........ 8
Nakam məhəbbət ........ 9
Könlümü alandan ........ 10
Yaralı ceyranın qadasın alım ........ 10
Günəş ........ 11
Qəm libası geyinmişəm ........ 12
Nə işim ........ 12
Mən nələr çəkirəm ........ 13
Baharda gəlmədin, qışda gəl barı ........ 14
Tənha qadının ........ 15
Yenə gəncliyimə qayıdacağam ........ 16
Qaytar o günləri ........ 17
Sənsizlik ........ 18
Gözəllikdir, gözəllik ........ 18
Bu ayrılıq ........ 19
Sevgidən ucaldım ........ 19
Taleyimdən küsmüşəm ........ 20
Ağlama sən vəfasızım ........ 21
Duya bilməzsən ........ 21
Qadın ........ 22

Dağ çiçəyi....23
Yadima sən düşürsən....23
Xınalıyam....24
Durnalar qayıtdi, sən qayıtmadın....25
Mən ağlaram, sən ağlama....25
Oldu....26
Məni sevgi yaşadır....27
Qüvvət ver....27
Məhəbbətin gücünə bax....28
Sənsizlikdən ölürəm mən....28
Getdin sən....29
Sənin məndən nə xəbərin....30
Nə gözəldir....30
Qarabağ....31
Qəmli bahar ötürmüşəm....32
Saf məhəbbətlə....32
Ana ürəyidir, ana ürəyi....34
Bakı....34
Elim-obam....35
Səni çağıracam....35
Bu dünya....36
Sən olmayanda....37
Dözəmmirəm....37
Ömür yarpağı....38
Çox şükür....39
Sevgi dolu nəğmələr....39
Sevgi xatirinə....40
Sənlə barışmaram ölüncə bəxtim....41
Sənsiz gecələr....41

Övladlarının....42
Ürəyimdə ox olmusan....43
Qoyma ki,həsrətdən saralım-solum....43
Amandı....44
Ucalardan ucadır....45
Qalıb....46
Qızılgülün....47
Məclis qurmuşam....47
Sığınaydım o dağların qoynuna....48
Dağların....49
Ana....50
Vəfasiz dünya....51
Həyat öyrətdi....52
Dağdan ucaymış....52
Baş sarıteli....53
Bir xınalı daşa yazdım sözümü....54
Bahar bayramı....54
Yalançı yuxular, aldatma məni....55
Sevgi dolu....56
«Sarıtel» laylası....56
Nə yatmısan, oyan yar....57
Mənim məhəbbətim....58
Ölürəm mən....59
Sizə dağlar....60
Vətən çağırır....60
Uçma göyərçin....61
Gözündə yar həsrəti....62
Dağlar....62
Hay verməyir....63

Təbiət gözəl ........ 63
Gözəl qizlar ........ 64
Yol gedəcəyəm ........ 65
Sənsiz ........ 66
Lilparlı çəməndə ........ 66
Var kimi ........ 67
Mənim ürəyimdə ........ 68
Bilmərəm ........ 68
Həsrət nəğməsi ........ 69
Oxu tar ........ 69
Alışdı ........ 70
Kəndim ........ 71
Sorağındadır ........ 72
Viranə qalıb ........ 72
Səni ........ 73
Demərəm ........ 73
Qismət ........ 74
Həyat gözəldir ........ 75
Dünyanın neçə yaşı var ........ 76
Bu dünyanın qonağıyıq ........ 76
Xəyallar könlümdə qonaq olanda ........ 77
Şair ömrü ........ 78
Ağ gün görmək istəyən ........ 78
Sənin nə işin? ........ 79
Həyatda hər nəyin varsa ........ 80
Novruz bayramı ........ 81
Xatırlayarsan məni ........ 81
Arxalanmışam ........ 82
Can demə ........ 82

Naxçıvan, ay Naxçıvan ........ 83
Od olmaz daha ........ 84
Qadan alım, çal ay aşıq, çal görək! ........ 85

## İthaf şeirləri

Qoşa sevgi ........ 91
Çiçəkləri çox sevirəm ........ 93
Azərbaycan radiosunun "Əsgər istəyi" verilişinə ........ 94
Azərbaycan radiosunun «Obalardan
gələn səslər» verilişinə ........ 95
«Qurbani məclisi» ........ 95
Sərvi̇ntac və Fəxrintac ........ 96
"Hərbi and" qəzetinin 5 illiyi münasibətilə ........ 97
Şair Nüsrət Kəsəmənlinin ölüm xəbərini eşidəndə ........ 98
Apardı ........ 99
Göy türbəmə qurbanam ........ 100
Mən nələr çəkirəm ........ 101
Ata yurduma ........ 101
Atama ithaf ........ 102
Aşiq Şərqiyyə Zəngilanliya ........ 102
Nizami ........ 103
Doymadım səndən vətən ........ 104
Bacım ........ 105
Nəsib baba ........ 106
Hörmətli Çingiz Eyyuboğluna ........ 107
Fəridə Ləmana ........ 107
Getmə sən ........ 108
Salam doğma kəndim, doğma məktəbim ........ 109

İlk eşqin ağrıları ........ 110
Nədən qocalırsan ........ 111
Vaxtsız köç eyləyən Oqtay ........ 112
Cijim şirin bir nağıldı ........ 113
Xınalı olub ........ 114
Oxuya bilmədi məktublarını ........ 115
Şınıx təranələri ........ 117
Ağ duvaqda köçən qız ........ 118
Ucal ucalara ........ 118
«Əsgər ocağı»na ........ 119
Əbədi heykəlləşib ........ 120
Şəms xanıma ........ 121
Atam köçdü dünyadan ........ 122
Azər balam ........ 123
Azər Aqşinoğluna (nəğmə) ........ 125
Çal ədalət ........ 126
«İncəgülü» çalanda ........ 127
Ağsaqqallar şurasına ithaf ........ 128
Şəhriyar ........ 129
Oğlum Arzuya ........ 130
Sənin ürəyinin nə günahı var ........ 131
Səməd Vurğuna ........ 133
Gözümün nuru ........ 136
Oğlum Ayaza ........ 137
Oğlum Arzuya ........ 138
Məğlub oldu düşmənin ........ 139
Aşiq Kərəmə ........ 140
Sumqayıt(mahnı) ........ 141
Məlahət Həmidqızına ........ 141

İncə dərəsində toy çalınırdı ........ 142
Yurdumun fəxri ........ 143
Yarımçıq arzular ........ 144
İncə dərəsi ........ 145
Ayaz balam ........ 145
Anam gözəllər gözəli ........ 146
Xalq şairi Mirvarid Dilbaziyə ........ 147
Şair Orxan Adiloğluna ........ 147
Odlar diyarının qeyrətli oğlu ........ 148
Oğlum Arzu və Ayaza ........ 150

## Deyişmələr

Zəminə Xınalı ilə Seyfəddin Şıxlının deyişməsi ........ 152
Pərvanə Zəngəzurlu ilə Zəminə Xınalının deyişməsi ........ 154
Zəminə Xınalının oğlu Arzu ilə deyişməsi ........ 156

## Poemalar

Ötən illərimdən xatirələr. ........ 159
Bənövşə və Qızılgül ........ 179
Hərənin bir ömrü var ........ 211
İbrahim ata ........ 228

## Dastanlar

Qaçaq İsmayıl dastanı ........ 239
Pəhləvan Kamilin dastanı ........ 297

**Dizayner:** Fariz Məhərrəmov

Çapa imzalanmışdır: 06.02.2014.
Formatı: 60x84 1/16. Həcmi: 22 ç.v.
Sifariş 9. Tiraj 500.
«Təknur» MMC-nin mətbəəsində
hazır elektron variantdan ofset üsulu ilə çap olunmuşdur.

Mətbəə kitabın məzmununa, yazı üslubuna, orfoqrafiya
və qrammatikasına görə heç bir cavabdehlik daşımır.

**Mətbəənin direktoru:** Ələkbər Məmmədov

Ünvan: Bakı ş., Qanlı Gölün Qərb sahili, 125
Telefon: 408-18-30.